Almaz Əliyeva Məcid qızı

# NATO-DA HƏRBİ-SİYASİ İSLAHATLAR VƏ AZƏRBAYCAN RESPUBLİKASI

BAKI – 2012

Elmi redaktor: **Fətəliyev Məmməd Böyükxan oğlu**
*Tarix elmləri doktoru, professor*

Rəyçilər: **Darabadi Pərvin Qulam oğlu**
*Tarix elmləri doktoru, professor*

**Əliyev Oktay Əlikram oğlu**
*Coğrafiya üzrə fəlsəfə doktoru, professor*

**Nəsirov Elman Xudat oğlu**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

**Əhmədova Firdovsiyyə Firdovsi qızı**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*

Monoqrafiyada "soyuq müharibə"nin başa çatmasından sonra NATO-nun saxlanılmasını şərtləndirən amillər müəyyən edilmiş və yeni şəraitdə alyansda baş verən hərbi-siyasi islahatlar hərərəfli tədqiq olunmuşdur. Tədqiqat prosesində hərbi-siyasi blokun inkişaf strategiyasının iki əsas istiqamətinə - qloballaşma və universallaşmaya xüsusi diqqət yetirmişdir. Eyni zamanda NATO-da qeyri-hərbi əməkdaşlıq məsələləri, xüsusilə onun "Aralıq Dənizi Proqramı" geniş təhlil olunmuş və elmi nəticələr əldə edilmişdir.

Kitabda NATO-nun Cənubi Qafqaz regionunda yeri və rolu, xüsusilə də onun Azərbaycan Respublikası ilə münasibətləri bir sıra parametrlər üzrə elmi təhlillər predmetinə çevrilmiş və müvafiq təklif, tövsiyə və proqnozlar irəli sürülmüşdür.

Monoqrafiyadan NATO ilə bağlı mövzular üzrə tədqiqat aparan bakalavrlar, magistrlər, müdavimlər, doktorantlar, dissertantlar və ümumən hərbi-təhlükəsizlik məsələlərinə maraq göstərən bütün oxucular faydalana bilərlər.

**ISBH 978-9952-8028-8-9**

Yeni Poliqrafist" MMC

# ÖN SÖZ

Məlum olduğu kimi "soyuq müharibə" dövründə yaranmış təşkilat olan NATO müasir dövrün reallıqlarına adaptasiya edərək, qlobal təhlükəsizlik sisteminin ən mühüm və aparıcı aktorlarından birinə çevrilmişdir. Eyni zamanda alyansda baş verən islahatların təsiri altında onun fəaliyyət istiqamətləri və prioritetlərində də bir sıra dəyişilkliklər baş vermişdir. Təsadüfi deyildir ki, o, artıq sırf hərbi təşkilat deyildir. Qurumun fəaliyyətində hərbi fəaliyyətlə yanaşı, siyasi davranış tərzi də geniş yer almışdır. Başqa sözlə, alyans beynəlxalq sferada fəliyyətində qeyri-hərbi fəliyyət istiqamətlərinə də xüsusi əhəmiyyət verməkdədir. Heç şübhəsiz, bu halda onun fəaliyyət mexanizmlərində «yumşaq güc» elementləri xüsusi aktuallıq kəsb edir. Bəs həmin siyasət hansı məqamlarla xarakterizə olunur? Bu siyasətin konkret vektorları hansılardır? Təhlükəsizlik sahəsində belə fəaliyyətin səmərəlilik əmsalı necədir? NATO-nun Cənubi Qafqaz siyasətində Azərbaycanın yeri və rolu nə kimi aktuallıq kəsb edir? Bu və digər suallara cavabın tapılması təkcə elmi deyil, həm də böyük siyasi aktuallıq kəsb edir. Bu baxımdan gənc tədqiqatçı Almaz Əliyevanın elmi araraşdırmalarının nəticəsi olaraq ərsəyə gəlmiş monoqrafiya uğurlu tədqiqat əsəri hesab oluna bilər. Müəllif tədqiqat predmetini araşdırarkən ilk növbədə müasir geosiyasi reallıqları dəyərləndirməyə çalışmışdır. Təsadüfü deyildir ki, bunu etmədən alyansın atdığı addımların forma və məzmun mündəricəsinə qiymət

vermək düzgün olmazdı. Tədqiqat əsərində müəllif, konkret arqumentlərə söykənməklə alyansın hərbi siyasi islahatlar çərçivəsində görmüş olduğu işləri, o cümlədən NATO və Azərbaycan münasibətlərini elmi-tədqiqat süzgəcindən keçirmişdir.

Monoqrafiyanın birinci fəsli "NATO müasir beynəlxalq münasibətlər sistemində" adlanır və iki yarımfəsildən ibarətdir. Fəsildə Almaz xanım NATO-nun yaranma səbəbləri, onun fəaliyyət istiqamətləri və hədəfləri, Varşava bloku ilə mübarizə metodları, «soyuq müharibə»nin bitməsi ilə alyansın missiyasında dəyişikliklərin baş verməsi reallığı və onun həyata keçirilməsi mexanizmləri, xüsusilə hərbi-siyasi sahədə tətbiq edilən islahatların forma-məzmun mündəricəsi ilə bağlı məsələləri elmi təhlillər müstəvisinə çıxarmışdır. Bu fəsildə həmçinin "soyuq müharibə"dən sonrakı yeni geosiyasi reallıqlar kontekstində alyansın mövcudluğunun saxlanması və ya saxlanılmaması ilə bağlı təşkilat çərçivəsində, habelə elmi-akademik dairələrdə aparılın geniş müzakirələrlə bağlı da təhlillər aparılmışdır. Müəllif konkret faktlar və arqumntlər əsasında alyansın fəaliyyətini davam etdirməsini şərtləndirən yeni təhdid və çağrışlarla bağlı problemləri elmi təhlillər süzgəcindən keçirmişdir.

Təhlillərinin nəticəsi olaraq Almaz Əliyeva haqlı olaraq göstərir ki, NATO müasir beynəlxalq koordinatlar sistemində müstəsna mövqeyə malik təşkilatlardan biridir və buna görə də bəşəriyyətin gələcəyinin və dünyanın



hərbi-təhlükəsizlik və hərbi-siyasi mənzərəsinin formalaşmasında onun üzərinə böyük məsuliyyət düşür. Məhz bu reallığın dərk olunması və praktiki tətbiqi baxımından NATO-nun 90-cı illərdə meydana çıxan iki sənədi - «Sülh Naminə Tərəfdaşlıq» və «Aralıq Dənizi Dialoqu» proqramları olduqca böyük əhəmiyyət kəsb edir. Fəsildə həmin proqramların mahiyyəti, məzmunu və həyata keçirilməsi istiqamətləri ilə bağlı geniş araşdırma aparılmışdır.

Təşkilatın keçmiş SSRI məkanındakı hadisələrə müdaxilə etməsinə gəlincə isə müəllif bunu onunla izah etməyə çalışır ki, postsovet məkanında yaranmış yeni dövlətlərdə baş verən milli, etnik, ərazi münaqişələri bütövlükdə beynəlxalq münasibətlər sistemi üçün təhlükə yaradır. Hərbi-siyasi təşkilat kimi NATO dünyada münaqişələrin həll edilməsində öz rolunu artırmağa, bu ölkələrdə siyasi və iqtisadi böhranın aradan qaldırılmasına, demokratik islahatlar keçirilməsinə zəruri kömək göstərməyə çalışır və hazırda alyans üçün əsas təhlükəni NATO üzvlərindən birinə hücum təhlükəsi deyil, qeyri-sabitliyin (iqtisadi, sosial və siyasi çətinliklər, etnik münaqişələr, ərazi mübahisələri, kütləvi qırğın silahı və ballistik raketlərin yayılması, həyati əhəmiyyətli ehtiyatların çatışmaması, terror və s.) meydana çıxması təşkil edir.

Müəllif burada göstərir ki, hal-hazırda ilk növbədə dünyanın qlobal siyasi proseslərinin idarə olunmasında ABŞ-la səlahiyyətlərin bölünməsində Avropa İttifaqı,

Rusiya və Çin iddialıdır və bu istiqamətdə mübarizə aparırlar. Avropa İttifaqı, Rusiya və Çin dünyanın siyasi proseslərinin vahid mərkəzdən- ABŞ-dan idarə olunması ilə razılaşmırlar və çoxvektorlu dünya düzəninin formalaşmasını israr edirlər. ABŞ isə Avropa Ittifaqı ilə qismən razılaşsa da, Rusiya və Çinlə bu səlahiyyətləri qətiyyən bölüşmək istəmir və öz nüfuzunun zəifləməsindən ehtiyat edir.

Fəsildə yer alan digər məsələlərdən biri də NATO-nun universallaşması kontekstində alyansda qeyri-hərbi əməkdaşlıq məsələlərinin təhlil olunmasıdır. Burada müəllif alyans daxilində həyata keçirilən hərbi-siyasi islahatlar kontekstində onun məhz "siyasi" istiqamətini önə çəkmiş və mövqeyini konkret elmi yanaşmalarla əsaslandırmışdır. Müəllifin qənaətinə görə, NATO çərçivəsində əməkdaşlıq məsələlərinin xüsusi aktuallıq kəsb etməsi alyans daxilində baş verən transformasiyaların mühüm göstəricisi kimi dəyərləndirilə bilər.

Monoqrafiyanın ikinci fəsli «NATO-nun genişlənmə strategiyasında Azərbaycan Respublikasının yeri və rolu» adlanır. Tədqiqatçı burada daha çox Qafqaz regionunda cərəyan edən hadisələrə, NATO-nun Cənubi Qafqaz siyasətinə və bu siyasətdə Azərbaycanın yeri və roluna aid məsələlərə diqqəti cəlb etmişdir.

Bu, bir həqiqətdir ki, NATO postsovet məkanında təhlükəsizlik sahəsində baş verən hadisələrə müvafiq reaksiya verməsi təsadüfi olmayıb, ilk növbədə alyansın missiyasından, eyni zamanda milli, etnik və ərazi



münaqişələrinin son nəticədə qlobal təhlükəsizlik sisteminə təhdid yaratması reallığından qaynaqlanır. Bu məntiqdən çıxış edərək, hərbi-siyasi təşkilat kimi NATO bütün dünyada, o cümlədən postsovet məkanında münaqişələrin ləğv edilməsində öz rolunu artırmağa səy göstərir.

Tədqiqat işində müəllif NATO-nun Cənubi Qafqaz siyasətini şərh edərkən, o burada yerələşən dövlətlərin hər biri ilə NATO arasında olan münasibətləri geniş bir şəkildə təhlilər müstəvisinə çıxarmış, apardığı analizlər əsasında yekun nəticələrə gəlməyə çalışmışdır.

Müəllif burada haqlı olaraq göstərir ki, NATO-nun Cənubi Qafqaz siyasəti regionu özünün xüsusi təsir zonası kimi hesab edən Rusiya tərəfindən böyük narahatlıqla qarşılanır. Bu isə öz növbəsində Gürcüstan istisna olmaqla, digər iki respublikanın alyansla bağlı yeritdiyi siyasətin tarazlaşdırılmış olmasını şərtləndirir. Lakin bu tarazlığın səviyyəsi baxımından Azərbaycan və Ermənistanın alyansla bağlı siyasəti kifayət qədər fərqlidir. Ermənistanın NATO ilə bağlı siyasəti Rusiyanın çəkdiyi trayektoriya üzrə həyata keçirilirsə, Azərbaycan beynəlxalq konyukturanı və regionda formalaşmış qüvvələr nisbətini nəzərə almaqla, müstəqil olaraq həmin siyasətin konturlarını müəyyən edir.

Gürcüstan-NATO münasibətlərinə gəldikdə isə, müəllif qeyd edir ki, rəsmi Tbilisi Rusiyanın bütün təzyiqlərinə baxmayaraq, alyansa üzv olmaq üçün israrlıdır və bu istiqamətdə davamlı olaraq addımlar atmaqdadır.

Bu fəsildə Azərbaycan-NATO münasibətlərinin yaranma dövrü, onun formalaşması prosesi və perspektivləri ilə bağlı məsələlər geniş təhlillər predmeti olaraq araşdırılmışdır. Almaz xanım düzgün olaraq qeyd edir ki, Azərbaycan Avroatlantik məkana inteqrasiya siyasətinə prioritet verir və bu kontekstdə NATO ilə əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Bu, heç də ölkəmizin NATO-nun üzvü olması istəyinin ifadəsi kimi dəyərləndirilməməlidir.

NATO-nun sülhməramlı əməliyyatları və strateji proqramlarında Azərbaycan Respublikasının yeri və roluna gəlincə isə müəllif burada göstərməyə çalışmışdır ki, Azərbaycan terrordan daha çox əziyyət çəkən bir dövlətdir. NATO-nun fəaliyyətinin əsas istiqamətlərindən birinin də məhz antiterror mübarizə kursu olduğu bəllidir. Azərbaycan da terrordan əziyyət çəkdiyi üçün NATO-nun bütün sülhməramlı əməliyyatlarında yaxından iştirak edir.

Xüsusilə qeyd etmək lazımdır ki, Almaz Əliyeva kitabda faktlara və arqumentlərə söykənməklə NATO ilə Azərbaycan arasında formalaşmış hərbi-siyasi əməkdaşlığın səciyyəvi xüsusiyyətlərini üzə çıxara bilmişdir. Bundan başqa, müəllif burada qeyd edilən prosesin mahiyyət və məzmunu ilə bağlı müxtəlif proqramlar çərçivəsində həyata keçirilən bir çox prosesləri də ətraflı şərh etmişdir. Tədqiqatçı təkcə ikitərəfli münasibətlərdə real vəziyyətə qiymət verməmiş, eyni zamanda qarşılıqlı əməkdaşlığın perspektivlərinə xidmət edən bir çox fikir və mülahizələr də irəli sürmüşdür.



Monoqrafiyanın nəticə hissəsinə gəldikdə isə, Almaz xanım burada elmi ümumiləşdirmələr aparmış, problemin həlli məqsədlərinə xidmət göstərən çoxsaylı təklif və tövsiyələr irəli sürmüşdür.

Monoqrafiyanın yerli və xarici ədəbiyyatın tənqidi analizi əsasında yazılmasını da onun müsbət cəhətlərindən biri kimi qeyd etmək olar.

Güman edirəm ki, gənc tədqiqatçı Almaz Əliyevanın elmi-analitik araşdırmalarının məhsulu olan bu kitab xarici siyasət və mili təhlükəsizlik problemləri ilə məşğul olan mütəxəssislər, tələbə və müdavimlər, eləcə də geniş oxucu kütləsi üçün faydalı olacaqdır.

**Elman Nəsirov**
**Azərbaycan Respublikasının Prezideiti yanında Geostrateji Araşdırmalar Mərkəzinin direktor müavini, tarix üzrə fəlsəfə doktoru, dosent**

## GİRİŞ

İkinci dünya müharibəsinin başa çatması və Birləşmiş Millətlər Təşkilatının yaranması ilə dünya tarixinin çox mühüm bir dövrü başlandı. Yeni beynəlxalq münasibətlər sisteminin təməli qoyuldu, sosializm sisteminin güclənməsi nəticəsində faşizmə qarşı mübarizədə bir müddət əvvəl müttəfiq olmuş qüvvələr iki əks qütbə bölünərək, öz aralarında hərbi-siyasi, iqtisadi və mədəni-ideoloji mübarizəyə başladılar. İldən-ilə güclənən bu mübarizə iki sistem arasındakı ziddiyyətləri daha da kəskinləşdirdi - dünya proletariatının birləşməsi və inqilabın yer kürəsinin hər yerinə ixracı yolu ilə ümumdünya sosializm sisteminin yaranması ideyasını reallaşdırmağa çalışan sosializm düşərgəsi ilə qərb mədəniyyətini, demokratiyanı, liberalizmi yaymağa və eyni zamanda öz imperialist maraqlarını qorumağa çalışan kapitalizm düşərgəsi barışmaz mövqe tutdular.

İctimai fikirdə "soyuq müharibə" kimi tanınmış bu mübarizə illər keçdikcə təşkilatlanmış xarakter almağa başladı. 1949-cu il aprelin 4-də Vaşinqton ştatında sonralar "soyuq müharibə" nin əsas fiqurlarından birinə çevriləcək hərbi-siyasi blokun - NATO-nun əsası qoyuldu və bir-birlərinin müdafiəsində maraqlı olan 12 müstəqil dövlətin qoşulduğu Şimali Atlantika müqaviləsi imzalandı. Daha dörd Avropa dövləti (Yunanıstan, Türkiyə, AFR, İspaniya) müqaviləyə 1952-1982-ci illər arasında qoşuldu. 1999-cu il martın 12-də isə Polşa, Macarıstan və Çex Respublikası NATO-ya daxil oldu. Sonralar keçmiş sosialist düşərgəsinin bir sıra dövlətləri hesabına Alyansın



üzvlərinin sayı 28-ə çatdı. Hazırda digər ölkələrin də bu təşkilata üzvlük barədə müraciətlərinə baxılır.

Baş qərargahı Belçikanın paytaxtı Brüssel şəhərində yerləşən NATO təkcə bu və ya digər dövlətin hakimiyyətini yox, həm də həmin hakimiyyətin xidmət etdiyi dəyərləri qoruyur. NATO dövlət suverenliyini yaxud kiminsə geopolitik maraqlarını yox, insan mədəniyyətinin və sivilizasiyanın müəyyən tipini müdafiə edir.

Hərbi-siyasi alyans iki qarşı-qarşıya duran blok arasında iri münaqişənin baş verməsini aradan qaldırmış, Atlantik okeanının hər iki sahili arasında qırılmaz əlaqəni və həmrəyliyi gücləndirmişdir.

NATO çərçivəsində «Sülh naminə tərəfdaşlıq» proqramı (SNT) və Avro-atlantik tərəfdaşlıq şurası (AATŞ) yaradılmışdır. Bu təşəbbüslər sayəsində NATO üzvü olan dövlətlər başqa ölkələrlə alyans çərçivəsində yeni əməkdaşlıq yolları tapmış, sabiq düşmənlər isə indi müttəfiq olmuşlar.

Şimali Atlantika alyansının əsas iş prinsipləri NATO ölkələrinin ümumi siyasi öhdəliklərini və onlar arasında praktik əməkdaşlığa meylliliyi özündə birləşdirir. Onların ümumi təhlükəsizliyi bölünməzdir. Buna görə də təhlükəsizliyə təhdidlərlə bağlı problemləri həll edərkən ayrı-ayrı üzv ölkələr indi öz məxsusi qüvvələrindən və iqtisadi resurslarından istifadə etmirlər. Lakin NATO-da elə bir ölkə yoxdur ki, o, öz xalqı qarşısında öhdəliklərini yerinə yetirməkdən imtina etsin və onlar hamısı əvvəlki kimi öz müdafiəsi üçün fərdi məsuliyyət daşıyırlar.

Şimali Atlantika alyansı NATO ölkələrinə milli təhlükəsizlik sahəsində həyati vacib problemlərin həllində

öz imkanlarını birgə səylə genişləndirməyə şərait yaradır. Nəticədə hərbi potensiallarının müxtəlifliyinə baxmayaraq, onlarda bərabər təhlükəsizlik hissi baş qaldırır ki, bu da həmin ölkələrin ümumi sabitliyinin möhkəmlənməsinə kömək edir.



# I HİSSƏ
# NATO müasir beynəlxalq münasibətlər sistemində

## I BÖLMƏ
## NATO-da modernləşmə təşəbbüsləri və onları şərtləndirən amillər

### 1-ci fəsil
### NATO və yeni geosiyasi reallıqlar

NATO müasir beynəlxalq koordinatlar sistemində müstəsna mövqeyə malik təşkilatlardan biridir. Buna görə də, bəşəriyyətin gələcəyinin və dünyada ictimai-siyasi proseslərin ümumi axarının müəyyən olunmasında onun üzərinə böyük məsuliyyət düşür.

İki sistemin və blokun qarşıdurmasından qələbə ilə çıxmış NATO üzləşdiyi yeni geosiyasi reallıqlara adekvat cavab verə bilmək üçün çevik və ardıcıl tədbirlər planı həyata keçirmək zərurəti qarşısında qalmışdır. Təşkilatın rolu kökündən dəyişməyə başlamışdır. Bunun səbəbi 80-ci illərin sonunda Şərqlə Qərb arasındakı «soyuq müharibə»nin faktiki olaraq başa çatması olmuşdur. Bu reallıq, xeyli dərəcədə, xarici siyasət stereotiplərinə yenidən baxmaq kursu götürmüş yeni sovet rəhbərliyinin hakimiyyətə gəlməsi ilə bağlı idi. Bu rəhbərlik «yeni siyasi təfəkkür» erasının başlandığını bəyan edir və real ümumbəşəri dəyərlərə qayıtmağa çağırırdı.

Bu dövr Avropada da bəzi mühüm siyasi hadisələrlə əlamətdar olmuşdur. Bunların arasında Almaniyanın birləşdirilməsi, Varşava Müqaviləsi Təşkilatının və

Qarşılıqlı İqtisadi Yardım Şurasının buraxılması, sovet sisteminin məhvi xüsusi qeyd olunmalıdır.

Bəzi tədqiqatçılar haqlı olaraq iddia edirdilər ki, Varşava Müqaviləsi Təşkilatının süqutundan sonra növbəti məntiqi addım Qərbin demokratik dəyərlərini «bolşevik irticası»ndan qorumaq üçün yaradılmış NATO-nun buraxılması olmalı idi. Lakin nə qədər paradoksal olsa da, məhz yeni beynəlxalq şərait bu addımı qeyri-mümkün edirdi. Tədqiqatçı A.Əzimli bunun səbəblərini aşağıdakı kimi qruplaşdırır:

- İdeoloji qarşıdurmadan qaynaqlanan gərginlik aradan qalxsa da, Sovet İttifaqı və Yuqoslaviyada hadisələrin nəzarətdən çıxması göstərdi ki, Avropada sabitlik üçün yeni təhlükələr meydana gəlmişdir. Buna görə də, geri çəkilmək bağışlanmaz bir səhv olardı;
- Sovet-Amerika qarşıdurmasının geosiyasi əsaslarına həsr olunmuş «Oyun planı» əsərində məşhur Amerika politoloqu Z.Bjezinski göstərirdi ki, bu rəqabətin əsas hədəfi Avrasiya materiki üzərində nəzarətin yaradılması olmuşdur. Dünya okeanı və kosmosa nəzarət bu materikin kimin təsir dairəsində olmasından asılıdır. Sovet İttifaqı dağıldıqdan sonra Qərb bloku materikə demək olar ki, tam nəzarət etmək imkanı qazandı. Belə olan təqdirdə, 40 il gözlənilən bu imkanı əldən qaçırmaq nə dərəcədə düzgün olardı?
- NATO-nun keçmiş baş katibi M.Vernerin söylədiyi kimi, Alyansın buraxılması Avropanın ABŞ-dan və Kanadadan uzaqlaşması təhlükəsini daşıyır. Məhz amerikalıların qitədəki siyasi və hərbi iştirakı, Sovet təhlükəsi qarşısında ehtiyatlılıq Avropa dövlətləri arasında hakimiyyət və təsir uğrunda tarixi mübarizənin qarşısını alan əsas amillər idi. Avropa Birliyinə qədər sıx və güclü bir qurum olsa da, ABŞ-ın iştirakı olmadan təhlükəsizliyi təmin etmək və böhranları həll etmək iqtidarında deyil;
- Post-kommunist məkanında yaranmış etnik və dövlətlərarası münaqişələrin həll edilməsi və yenilərinin meydana çıxmasının qarşısının vaxtında alınması üçün effektiv mexanizmə ehtiyac yaranmışdı. Bu qəbildən olan münaqişələrin Avropada sabitlik üçün əsas təhlükə mənbəyinə çevrildiyi üçün NATO öz hərbi strukturlarının effektivliyini nəzərə alaraq sülhyaratma funksiyasını da öz üzərinə götürmək məcburiyyəti qarşısında qalırdı. Bu aspektdən də baxanda görürük ki, NATO-nun hərbi mövcudluğu zərurətə çevrilmişdi.

NATO bu gün Avropa ilə Amerikanı təhlükəsizlik baxımından birləşdirən yeganə vasitədir. Əgər Alyans Avropa təhlükəsizliyi və ümumavropa inteqrasiyası üçün həlledici əhəmiyyət daşıyırsa, ABŞ-ın iştirakı da Alyans üçün bir o qədər həlledici əhəmiyyətə malikdir. Şimali Atlantika Müqaviləsinin rəhbərliyi hələ SSRİ-nin dağılmasına qədər, hadisələrin həm Avropa qitəsində, həm də qlobal səviyyədə qüvvələr balansının köklü şəkildə dəyişməsinə gətirib çıxaracağını dərk edirdi. Buna görə də, Alyansın vəzifə və strategiyasının tədricən korreksiyası başlandı və NATO özünün yeni funksiyasını müəyyənləşdirməyə, beynəlxalq həyatda yerini və rolunu təyin etməyə, əhatə dairəsini genişləndirməyə başladı. Digər tərəfdən, sosializm sistemi çökdükdən sonra, tarazlığı pozulmuş dünyada yaranmış yeni dövlətlərdə mövcud olan iqtisadi, siyasi böhran, milli, etnik və ərazi münaqişələri təkcə Avropada dövlətlərarası münasibətlər üçün deyil, eyni zamanda bütün beynəlxalq münasibətlər

üçün təhlükə törədirdi. Belə bir şəraitdə isə NATO baş verən proseslərə öz münasibətini dəqiqləşdirməyə, münaqişələrin aradan qaldırılmasında xüsusi rol oynamağa, həmin ölkələrin demokratiya yolu tutmasında, azad bazar iqtisadiyyatına keçməsində və islahatlar aparmasında yeni imkanlarını təklif etməyə çalışır.

Hazırda beynəlxalq münasibətlər sistemi bir ölkənin - Amerika Birləşmiş Ştatlarının üstünlüyü ilə xarakterizə olunur. O da NATO-dan real qüvvələr nisbətindən çıxış edərək özünün oynamalı olduğu rolu əldə etmək üçün alət kimi istifadə edir. Məhz buna görə də, ABŞ və digər qərb ölkələri NATO-nun genişlənməsi yolunu tutmuşlar ki, bu da beynəlxalq münasibətlər sisteminin ikiqütblü dünyanın mövcudluğu zamanı yaranmış müharibədən sonrakı strukturuna faktiki olaraq yenidən baxılması deməkdir.

Əgər qitədə təhlükəsizlik bərqərar olmasaydı və bu təhlükəsizlik üçün etibarlı zəmanət verilməsəydi nə Avropa Birliyi, nə də Qərbi Avropa İttifaqı (bu hərbi siyasi birlik 1948-ci il martın 17-də yaranmış və 2011-ci il iyunun 30-da fəaliyyətini dayandırmışdır).

Ümumavropa inteqrasiyasını təmin edə bilərdi.



## 2-ci fəsil
## NATO-nun transatlantizm fəlsəfəsi

Son onilliyin İraq, Bosniya və Yuqoslaviyaya BMT Təhlükəsizlik Şurasının formal sanksiyası olmadan endirilmiş hava zərbələri kimi beynəlxalq hadisələrinə nəzər salanda belə bir nəticə çıxarmaq olar ki, hazırda Brüssel və Vaşinqtonda müharibədən sonrakı strukturun qüvvələrin obyektiv nisbətinə cavab vermədiyi qənaətindədirlər və onu təftiş etməyə can atırlar. Həm də yeni təhlükəsizlik sisteminin mərkəzində, onların fikrincə, BMT yox, Rusiyanın veto hüququna malik olmadığı NATO qoyulmalıdır ki, rəsmi Moskva Şimali Atlantika Alyansının lazımi qərarlar qəbul etməsinə mane ola bilməsin.

Lakin transatlantizm fəlsəfəsi və NATO-nun qlobal strategiyası dünyada heç də hamı tərəfindən birmənalı qarşılanmır. Zaman-zaman hökm sürən antitransatlantizm tendensiyası bu gün də mövcuddur. Bunun səbəblərini mərhum alim R. Mustafayev aşağıdakı kimi ifadə edir: «...NATO-nun əsas prinsiplərinin bir hissəsi, transatlantizm fəlsəfəsi də daxil olmaqla, hazırda genişlənmə dinamikasını izah etmək qüdrətində deyildir. Bu prosesin sabitliyini təmin edəcək ideoloji mexanizm heç kəsdən gizli deyil ki, yerində sayır. Bəlkə də buna görədir ki, biz bu gün tez-tez transatlantizm fəlsəfəsinin böhranı, yeni strateji tezislərin işlənib hazırlanma zərurəti barədə səriştəli mülahizələr, fikirlər eşidirik».

Bu kimi mülahizələri nəzərə alaraq, Şimali Atlantika Müqaviləsi Təşkilatının rəhbərliyi Alyansın fəaliyyətinin səmərəliliyini yüksəltmək, onu modernləşdirmək

məqsədilə təşkilatın strukturunda və strategiyasında ciddi dəyişikliklərə başlamışdır. Bu modernləşmə aşağıdakılardan ibarətdir:

Əvvəla, NATO-nun strateji konsepsiyası dəyişdi. Özünün əsas rəqibinin sıradan çıxmasından sonra Alyans «soyuq müharibə» dövrünün bloklararası qarşıdurmasından uzaqlaşaraq, özünün ənənəvi məsuliyyət zonası çərçivəsindən çıxıb, humanitar müdaxilə aparmaqla daha çox məhəlli münaqişələrlə məşğul olmağa başladı.

İkincisi, bloka yeni üzvlərin qəbulu sürətlənir-NATO Varşava Müqaviləsi Təşkilatının dağılmasından sonra Avropada yaranmış vakuumu doldurur. Vışeqrad qrupu Alyansın tərkibinə qəbul edildikdən sonra Alyansın genişlənməsinin ikinci dalğası hazırlanır, «Sülh naminə tərəfdaşlıq» və «Aralıq dənizi dialoqu» proqramları çərçivəsində qarşılıqlı fəaliyyət güclənir.

Nəhayət, son onillikdə NATO-nun universallaşdırılması və sırf müdafiə problemlərindən siyasət, iqtisadiyyat, elm və informatika da daxil olmaqla daha geniş məsələlər dairəsinə baxılması ənənəsi özünü göstərir. Başqa sözlə, hazırda NATO qlobal universal təşkilat olmağa və BMT-nin Təhlükəsizlik Şurasını və ATƏT-i dekorativ müəssisələr şəklinə salmaqla onlardan yan keçən qərarların qəbulunu legitimləşdirməyə can atır.

Əfqanıstandakı hadisələr göstərdi ki, beynəlxalq terrorizm ocağını ləğv etmək üçün hər şeydən başqa hərbi vasitələrdən də istifadə olunmalıdır. NATO isə kifayət qədər səmərəli və çoxdan oturuşmuş hərbi struktura malikdir ki, onu qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün istifadə etmək olar. Beləliklə, beynəlxalq terrorizm, nə qədər paradoksal səslənsə də, Varşava Müqaviləsi



Təşkilatı buraxılandan sonra Şimali Atlantika Alyansına legitimlik böhranını aradan qaldırmaqda müəyyən dərəcədə kömək etmişdir. məsələn, bir nömrəli terrorçu Ben Ladenin şəxsində yeni təhlükə baş qaldıran zaman NATO-nun saxlanması artıq heç kimdə şübhə doğurmurdu. Ancaq terrorizmlə uğurla mübarizə aparmaq üçün hərbi üsullar kifayət deyildir. Xüsusi xidmətlərin işi, iqtisadi və siyasi sanksiyalar kimi digər mexanizmlərdən də səmərəli istifadə olunmalıdır. Bu problemə, məsələn, 2002-ci ilin martında Romadakı konfransda toxunulmuşdur. Orada belə bir təklif səsləndirilmişdir ki, kəşfiyyat xarakterli informasiya mübadiləsi yaxşılaşdırılmalı və kütləvi qırğın silahlarının yayılmasına və onlardan müdafiə probleminə böyük diqqət yetirilməlidir.

## 3-cü fəsil
## Varşava Paktının (1955-1990) ləğvindən sonra NATO-da keyfiyyət dəyişiklikləri

2009-cu ilin aprelində Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) yaranmasının 60 ili tamam oldu. Qərbə yönələn Sovet təhlükəsinə qarşı formalaşan təşkilat, XX əsrin 90-cı illərində Varşava Paktının (1955-1990) ləğvindən sonra öz fəaliyyətində keyfiyyətcə yeni mərhələyə qədəm qoydu. «Sülhün qorunması, müharibənin qarşısının alınması, təhlükəsizlik və stabilliyin möhkəmləndirilməsi kimi birinci dərəcəli vəzifələr istiqamətində siyasət həyata keçirən NATO digər təşkilatlarla əməkdaşlıq edərək münaqişələrin qarşısının alınmasına yardım edəcək, böhranın ortaya çıxdığı halda isə beynəlxalq hüquq çərçivəsində onun səmərəli nizama salınmasında iştirak edəcək...» Bu sözlər Şimali Atlantika İttifaqının 1999-cu il, 23-24 aprel Vaşinqton sessiyasında təqdir edilən Strateji Konsepsiyasının «XXI əsrdə Təhlükəsizliyə yanaşma» adlı III hissəsində ifadə edilmişdir. Müttəfiq dövlətlər bu bəyanatla əslində İttifaqın beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanmasında böyük məsuliyyətini və Avroatlantik regionda təhlükəsizlik və stabilliyin təmin edilməsində mühüm rol oynadığını bir daha təsdiq etmiş olurlar. Bu gün «təhlükəsizlik» anlayışı bəşəriyyətin ən aktual və vacib məsələlərdən olub, ayrı-ayrı dövlətlər arasında münasibətlərin qurulması və əməkdaşlıq edilməsində prioritet mövzu kimi qalmaqdadır. Hətta Amerika politoloqu A.Uolfersə görə, «milli mənafe»



formulunun praktik sinonimi «milli təhlükəsizlik» formuludur.

«Soyuq müharibə» qurtarandan sonra Şimali Atlantika Müqaviləsi təşkilatının fəaliyyətində SSRİ və ABŞ-ın blok qarşıdurması zamanı təsəvvür belə edilməyən ciddi dəyişikliklər baş verdi. NATO-nun sürətlə modernləşdirilməsi başlandı. Bunun elementlərindən biri də Alyansın Varşava Müqaviləsinin sabiq üzvləri və Bloklara qoşulmamaq hərəkatının keçmiş iştirakçıları ilə əməkdaşlığı oldu. Bu əməkdaşlıq NATO-nun 90-cı illərdə meydana çıxan iki - «Sülh naminə tərəfdaşlıq» və «Aralıq dənizi dialoqu» proqramlarında təcəssüm etmişdir.

Yaranma vaxtına görə ilk proqram ikinci təşəbbüsün prelüdiyası hesab oluna biləcək Tərəfdaşlıq olmuşdur. 1994-cü il yanvarın 10-11-də NATO üzvü olan ölkələrin dövlət və hökumət başçıları Şimali Atlantika Şurasının Brüsseldəki sessiyasında «Sülh Naminə Tərəfdaşlıq proqramı»nı təsis etmək təklifi ilə çıxış etdilər. 1994-cü ildə ABŞ prezidenti B.Klintonun təşəbbüsünü qəbul edən NATO tezliklə Avropanın bütün demokratik dövlətlərinə, habelə 1992-ci ildə təsis olunmuş Şimali Atlantika Əməkdaşlıq Şurasına daxil olan dövlətlərə, həmçinin ATƏM-in üzvü olan bir çox ölkələrə dəvətnamələr göndərir. 1994-cü ildə qəbul olunmuş yekun sənədində Vaşinqton müqaviləsinin 10-cu maddəsi xatırlanır: «Şimali Atlantika İttifaqı bu müqavilənin prinsiplərini müdafiə və inkişaf etdirməyə və Şimali Atlantika regionunun təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verməyə qabil olan başqa Avropa dövlətlərinin üzvlüyü üçün açıqdır». Başqa sözlə, bu proqrama namizəd ölkələrin NATO blokuna inteqrasiyası yolunda bir növ hazırlıq

mərhələsi kimi baxılırdı. Alyansın rəhbərliyi Vaşinqton müqaviləsindən başqa beynəlxalq hüququn prinsiplərinə, o cümlədən BMT-nin Nizamnaməsinə, Ümumi insan haqları bəyannaməsinə və ATƏM-in Yekun aktına sədaqətini təsdiq etmişdir.

Tərəfdaşlıq proqramının reallaşdırılması vəzifəsi Şimali Atlantika Şurasının üzərinə qoyulmuşdu. Təşkilatçıların fikrincə, tərəfdaş ölkələrə NATO-nun mənzil-qərargahında siyasi və hərbi orqanların işində iştirak etməyə icazə verilir.* Alyans tərəfdaşlığın istənilən ölkəsi ilə onun öz ərazi bütövlüyünə, siyasi müstəqilliyinə yaxud təhlükəsizliyinə təhlükə yarandığını hesab etdiyi hallarda məsləhətləşməyi öz üzərinə götürürdü. Qeyd etmək lazımdır ki, sənəddə bu şəkildə ifadə edilmiş fikir tərəfdaş ölkələr tərəfindən kifayət qədər sərbəst şəkildə başa düşülə və beynəlxalq münasibətlər üçün müəyyən şəraitdə ciddi nəticələrə gətirib çıxara bilər, amma bununla belə burada NATO tərəfindən heç bir aydın hərbi zəmanətlər nəzərdə tutulmamışdır.

Proqramın sənəddə sadalanan əsas məqsədləri arasında müdafiəyə vəsait ayrılması işində «şəffaflığı», müdafiə nazirliyi üzərində demokratik nəzarəti, əsas insan hüquq və azadlıqlarının müdafiəsini, demokratik cəmiyyətlərin saxlanmasını, birgə planlaşdırmanı, həmçinin 1994-cü ildən başlayaraq sülhün saxlanması və qorunması naminə hərbi manevrlərin və səhra təlimlərinin keçirilməsini göstərmək olar. Beləliklə, burada biz görürük ki, NATO-nun fəaliyyətində siyasi amillər hərbi amilləri üstələməyə başlayır. «Sülh Naminə Tərəfdaşlıq» çərçivəsində əməkdaşlığa gəlincə o, tərəfdaş ölkələrin siyasi məqsədlərinə çatmaları üçün nəzərdə tutduqları tədbirlər nəzərə alınmaqla onlarla razılaşdırılaraq həyata keçiriləcəkdir.

*Bu yanaşma əsasən 1967-ci ildə qəbul olunmuş Harmel doktrinasına əsaslanırdı. Belə ki, NATO-nun 5 hərbi yönümlü strateji konsepsiyasından fərqli olaraq bu konsepsiya əsas etibarı ilə siyasi mahiyyət daşıyırdı ki, bu da Şərq bloku dövlətləri ilə dialoqla yanaşı eyni zamanda Alyans dövlətlərinin müdafiəsinin təşkili baxımından olduqca böyük önəm kəsb edirdi.



1996-cı ilin əvvəlləri üçün tərəfdaşlıq proqramında 27 dövlət (Albaniya, Avstriya, Azərbaycan, Belorus, Bolqarıstan, Çexiya, Ermənistan, Estoniya, Finlandiya, Gürcüstan, İsveç, İsveçrə, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Macarıstan, Makedoniya, Moldova, Özbəkistan, Polşa, Rumıniya, Rusiya Federasiyası, Slovakiya, Sloveniya, Türkmənistan və Ukrayna) iştirak edirdi. Bunların arasında Rusiya və Belorusun da olması proqramın Avropada və bütövlükdə dünyada sülh və əmin-amanlığın qorunub saxlanması üçün nə qədər vacib olduğunu bir daha sübut edirdi. NATO çərçivəsində tərəfdaşlıq münasibətlərinin dinamikasını qiymətləndirmək üçün qeyd etmək lazımdır ki, hazırda proqramda 50-dən artıq ölkə iştirak edir.

Proqramın əlaqələndirmə qrupu Belçikanın Mons şəhərində yerləşir. O, «Sülh Naminə tərəfdaşlıq» proqramı üzrə təlimlərin hərbi planlaşdırılmasını aparır. «Sülh Naminə tərəfdaşlıq» proqramı çərçivəsində sülhyaratma əməliyyatlarının hazırlanması üzrə ilk təlimlər 1994-cü ilin payızında keçirilmişdir.

## 4-cü fəsil
## NATO-nun «Aralıq Dənizi Dialoqu» təşəbbüsü

Alyansın Mərkəzi və Şərqi Avropa ölkələri ilə əməkdaşlığının başlanması NATO-nun Aralıq dənizi təşəbbüsünün meydana çıxması üçün xeyli dərəcədə ilkin şərt olmuşdur ki, «Sülh Naminə Tərəfdaşlıq»la yanaşı bunun da məqsədi Şimali Atlantika İttifaqı ilə üçüncü dövlətlərin inteqrasiya proseslərini inkişaf etdirməkdir. Bu proqramın əsasında NATO-nun rəsmi şəxslərinin belə bir mövqeyi durur ki, Avropada təhlükəsizlik bütövlükdə Aralıq dənizi regionundakı təhlükəsizlik və sabitliklə sıx bağlıdır, regionun özü isə Avropa təhlükəsizlik arxitekturasının bir hissəsidir.

Aralıq dənizinə 22 dövlətin çıxışı vardır və onlardan hər birinin təhlükəsizlik məsələsinə öz baxışı formalaşmışdır. Bu region həm məxsusi xüsusiyyətlərinə, həm də oradakı qonşu ölkələrə də neqativ təsir edə biləcək problemlərə görə olduqca müxtəlif tərkibli bir yerdir. Buna görə də məsələ NATO-nun düşünülmüş Aralıq dənizi strategiyasının olub-olmamasında yox, Aralıq dənizi dialoqu çərçivəsində hansı konkret addımların həyata keçirilməsindədir.

Şimali Atlantika İttifaqının Şimali Afrika ölkələri ilə münasibətləri inkişaf etdirmək niyyətləri öz başlanğıcını hələ «soyuq müharibə» dövründən götürür, amma onda blokun siyasətində cənub yox, şərq istiqaməti üstünlük təşkil edirdi və Aralıq dənizi regionu yalnız ikiqütblülük kontekstində qəbul olunurdu. Buna müvafiq olaraq, Aralıq ənizi regionu «NATO-nun cənub cinahı» hesab olunurdu və ikinci dərəcəli əhəmiyyətə malik idi. Həmin dövrdə



bunu qanunauyğun hesab etmək olardı. Blok qarşıdurmasının başa çatmasından sonra qlobal nüvə münaqişəsinin yaranması ehtimalı keçmişdə qaldı, fəqət İraqın Küveytə hücumu, Balkanlarda böhran kimi məhəlli münaqişələr, həmçinin terrorçuluğun fəallaşması təhlükəsi artdı və Şimali Atlantika İttifaqı bu problemlərə biganə qala bilmədi. Müasir şəraitdə NATO-nun Aralıq dənizi təhlükəsizliyinə töhfəsi başlıca olaraq kollektiv müdafiə prinsipinin reallaşması, böhranların həll olunması, sülh yaradıcılığı və nüvə silahının yayılmaması rejiminin qorunub saxlanması ilə ifadə olunur.

Aralıq dənizi dialoqunun faktiki başlanğıcı 1994-cü ilin yanvarı hesab olunmalıdır. Onda NATO ölkələrinin dövlət və hökumət başçıları Brüsseldəki sammitdə Yaxın Şərq ölkələri arasında etimadın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə kömək etmək niyyətlərini açıqlamışdılar. 1994-cü ilin sonunda NATO regional sabitliyin möhkəmlənməsinə kömək etmək məqsədilə Şimali Atlantika İttifaqı ilə Aralıq dənizinin alyansa daxil olmayan ölkələri arasında birdəfəlik əsasda əlaqələr yaratmağa hazır olduğunu bəyan etdi. Bunun ardınca 1995-ci ilin fevralında Misir, İsrail, Mavritaniya, Mərakeş və Tunisə Aralıq dənizi dialoquna qoşulmaq barədə formal dəvətnamələr göndərildi. Sonra belə bir dəvətnaməni İordaniya aldı. Aralıq dənizi regionunun NATO ilə qarşılıqlı fəaliyyətə və dialoqa başlayan yeddinci ölkəsi Əlcəzair oldu - 2000-ci ilin fevralında Alyansın baş katibi Corc Robertsonun göndərdiyi rəsmi dəvətə Əlcəzair hökuməti dərhal razılığını bildirdi.

Maraqlıdır ki, Şimali Afrikanın ərəb ölkələri ilə yanaşı, NATO-nun bu proqramında İsrail də iştirak etmişdir. Belə

hesab olunur ki, İsrail Aralıq dənizi dialoqundan kənarda qala bilməz, çünki bu halda Yaxın Şərq sülh prosesi pozula bilər. NATO-nun ərəb ölkələri ilə birbaşa tərəfdaşlıq münasibətləri qurması İsrail tərəfindən Qərbin qərəzsiz vasitəçilikdən islam ölkələrinə açıq dəstək verməyə keçidi kimi qiymətləndirilə bilərdi. Amma məlumdur ki, bu ölkə ilə sıx hərbi-texniki və siyasi əlaqələrin uzunmüddətli ənənələrinə malik olan ABŞ hadisələrin belə inkişafına heç vaxt yol verməz. Əksinə, Yaxın Şərqdə sülh prosesinə dəstək Aralıq dənizi dialoqunun köklü məqsədlərindən biridir.

Bununla əlaqədar olaraq NATO-nun Yaxın Şərq tənzimlənməsindəki rolunun artmasını istisna etmək olmaz. Hazırda bu problem BMT-nin və Amerika administrasiyasının diqqət mərkəzindədir. Özü də birinci əsasən diskussiya klubu rolunu oynayır və qərarları tövsiyə xarakteri daşıyır, Yaxın Şərqdə real aktor isə ABŞ-dır. Hazırda - prosesin axsadığı və bir yerdə durduğu vaxt ABŞ üçün bu müvəqqəti uğursuzluğun məsuliyyətini NATO-nun çoxmillətli çiyinlərinə qoymaq daha sərfəlidir. Hadisələrin bu ssenari üzrə inkişaf edəcəyini proqnozlaşdırmaq olar, çünki praktikada NATO amerikan xarici siyasətinin aləti kimi çıxış edir.

Aralıq dənizi dialoqunun inkişafında 1997-ci ilin Madrid görüşü növbəti mərhələ oldu. Madriddə dialoq rəsmiləşdi: Aralıq dənizi əməkdaşlığı qrupu yarandı ki, o, diskussiya və fikir mübadilələri üçün ilk daimi forum oldu. Bura təşkilata üzv dövlətlərin siyasi müşavirləri daxil oldu və bununla yanaşı NATO-nun Aralıq dənizi ölkələrində nümayəndəliklərinin açılması barədə qərar qəbul olundu. Əvvəllər Dialoq üçün məsuliyyəti NATO-nun Siyasi komitəsi daşıyırdı. Burada Aralıq dənizi dialoqu ilə Vışeqrad qrupunun NATO-ya daxil olması arasındakı oxşarlıq diqqəti cəlb edir: Şərqi Avropada olduğu kimi partnyorluq münasibətlərinin qurulmasında ilk addım kimi ilkin olaraq əlaqə qrupları yaradılır. Polşa, Macarıstan və Çexiya məhz bu yolla Şimali Atlantika İttifaqına bütünlüklə inteqrasiya edilmişlər. Oxşar ssenari Şimali Afrikada da təkrar oluna bilər. Amma NATO-nun sabiq baş katibi H.Solana «NATO və Aralıq dənizi regionu» məqaləsində inteqrasiyanın Mərkəzi və Şərqi Avropa ölkələrində sınaqdan keçirilmiş mexanizmlərinin kor-koranə təkrarından çəkinməyə çağırır. Onun fikrincə, NATO-nun Avropa strukturları etimadın təmin olunmasının elə tədbirlərini işləyib hazırlamalıdırlar ki, onlar Aralıq dənizi regionunda da həyata keçə bilsin. Fəqət eyni zamanda o, Şimali Afrika və Yaxın Şərq ölkələri üçün prinsipcə «Sülh Naminə Tərəfdaşlıq»a analoji proqramın meydana çıxacağını istisna etməmişdir.

Dialoqun inkişafı haqqında həmçinin Alyansın 1999-cu il Vaşinqton konfransının da mühüm rolu olmuşdur. belə ki, əgər Madrid göürüşündə NATO Şurasının daimi sessiyasında «Aralıq dənizi dialoqu» çərçivəsində siyasi və praktik əməkdaşlığın dərinləşdirilməsi barədə qərar qəbul edilmişdirsə, Vaşinqtondakı görüşdə isə sessiyaya dialoqun həyata keçirilməsi tədbirlərinə başlamaq həvalə olunmuşdur. Eyni zamanda NATO üzvü olan ölkələrlə Aralıq dənizi dialoqu dövlətləri arasında 1997-ci ilin Roma konfransı və 1999-cu ildəki Valensiya konfransı kimi birgə tədbirlər təqdir edilmişdir. Bu görüşlərdə belə bir ideya səslənmişdir ki, NATO cənubda artan qeyri-sabitlik və Aralıq dənizi regionunun təhlükəsizliyi problemlərinin

Avropa təhlükəsizliyindən ayrılmaz olması səbəbindən regionda daha fəal rol oynamalıdır. Bundan başqa, NATO rəhbərliyi Aralıq dənizi ölkələri ilə «hərbi və dialoq ölkələrinin maraq göstərdikləri digər sahələrdə» əməkdaşlığı genişləndirmək qətiyyətini ortaya qoymuşdur. NATO-nun 1999-cu ildəki yeni strateji konsepsiyasına düzəlişlərin qəbul edilməsi ilə əlaqədar olaraq, Aralıq dənizi dialoqu problemi yeni nəfəs alır. Vaşinqtonda Alyans «ənənəvi» və bu blokun yaranması zamanı müəyyənləşdirilmiş «məsuliyyət zonası»ndan kənarda yerləşən regionların işinə fəal cəlb olunacağını bəyan etdiyindən, yaxın vaxtlarda NATO-nun Cənubi Aralıq dənizi ölkələri ilə qarşılıqlı fəaliyyəti genişləndirəcəyini və onları gələcəkdə Şimali Atlantika İttifaqına qəbul edəcəyini proqnozlaşdırmaq olar. Bundan başqa, NATO-nun strateji konsepsiyasında (maddə 38) deyilir ki, «Aralıq dənizi regionu Şimali Atlantika İttifaqı üçün xüsusi maraq kəsb edir». Belə maraqların baş qaldırmasının səbəbləri üzərində ətraflı dayanmaq lazımdır.

Öncə Alyansın 1991-ci ildə Romada qəbul edilmiş strateji konsepsiyasına müraciət etmək lazımdır. Burada «soyuq müharibə»nin qurtarmasından sonrakı dövrdə NATO-nun əsas vəzifələri sadalanmışdır. Hazırda, NATO strateqlərinin fikrincə, alyans üçün əsas təhlükəni NATO-nun üzvlərindən birinə hücumdan çox qeyri-sabitliklərin üzə çıxması (iqtisadi, sosial və siyasi çətinliklər, etnik münaqişələr, ərazi mübahisələri, kütləvi qırğın silahının və ballistik raketlərin yayılması, həyati vacib resursların çatışmazlığı, sabotaj və terror aktları) törədir. Bütün bu risk amilləri bu və ya digər dərəcədə həmin regionda mövcuddur, onun Qərbi Avropa üçün strateji vacibliyi isə şəksizdir. Qərbin problemin həllində maraqlı olmasının başlıca səbəbi onunla bağlıdır ki, Cənubi Aralıq dənizi regionu nəqliyyat baxımdan olduqca sərfəli vəziyyətə və xeyli neft və qaz ehtiyatlarına malikdir ki, bu da Avropanın yanacaq-enerji kompleksində vacib rol oynayır. Belə ki, Avropaya nəql olunan neft və təbii qazın ümumi həcminin təxminən 65 faizi Aralıq dənizi vasitəsilə daşınır və bunun üçün hər gün 3 min gəmidən istifadə olunur. İtaliyanın yanacaq-enerji kompleksində Liviya neftinin və Əlcəzair təbii qazının payı 30 faizdən artıqdır. Bundan başqa, Liviya Fransa, Almaniya, İspaniya, Türkiyə, Yunanıstan və hətta Böyük Britaniyaya neft verir, Əlcəzairin əsas müştəriləri isə Belçika, Fransa, Portuqaliya və İspaniyadır. Aralıq dənizinin dibi ilə boru kəmərlərinin salınması ideyasını da unutmamaq lazımdır. Beləliklə, Aralıq dənizindən iqtisadi qarşılıqlı asılılıq dərin kök salmışdır və bu, NATO ilə Şimali Afrika ölkələrinin maraqlarını yaxınlaşdırır. Bununla yanaşı, region terror fəaliyyəti (ilk növbədə bu Liviya dövlətinə aiddir), demoqrafik vəziyyət kimi parametrlərə görə potensial qeyri-stabil məkandır. Geopolitik olaraq Aralıq dənizi regionunu üç sub-regional hissəyə bölmək olar: Şimali Aralıq dənizi regionu (Avropa sahili), cənub subregionu (Şimali Afrika) və Şərqi Aralıq dənizi regionu (Yaxın Şərq). Sabitliyə əsas təhlükə də regionun öz inkişaflarına görə Avropa dövlətlərindən geri qalan ölkələrin cəmləşdiyi cənub və şərq hissələrindən gəlir.

Bəzi ekspertlərin fikrincə, Şimali Afrikada demoqrafik partlayış ola bilər ki, bu da NATO-nun üzvləri ilə Aralıq dənizinin inkişaf etməkdə olan ölkələri arasında demoqrafik balansın pozulmasına gətirib çıxara bilər.

Digər tərəfdən, 2001-ci ilin 11 sentyabr hadisələri göstərdi ki, terrorizmlə mübarizə üçün beynəlxalq əlaqələndirməni gücləndirmək lazımdır, çünki müasir dövrdə o, milli sərhədlərdən kənara çıxmışdır. Beynəlxalq terrorizmlə mübarizə üçün yalnız ayrıca dövlət səviyyəsində səylər kifayət deyildir, buna görə də bu prosesə keyfiyyətcə başqa mexanizmləri cəlb etmək məqsədəuyğundur ki, beynəlxalq birliyin sərəncamında olan vasitələrin tam arsenalından istifadə edilsin. Belə qurumlar beynəlxalq hökumətlərarası təşkilatlardır ki, NATO onların arasında, fikrimizcə, ən səmərəlisidir.



## 5-ci fəsil
## NATO-nun siyasətində Aralıq dənizi vektorunun yaranması səbəbləri

NATO-nun Aralıq dənizi regionuna böyük marağının səbəbləri baş katibin müavininin Romadakı konfransda çıxışında daha ətraflı ifadə olunmuşdur. O, Aralıq dənizi ölkələrindən gələn həyəcan nidalarını və problemləri beş qrupa bölmüşdür.

Əvvəla bu, Avropa ilə Şimali Afrika arasında iqtisadi və demoqrafik uyğunsuzluqlardır. Əhalinin sürətlə artması (ildə təxminən 2,5 faiz) ilə yanaşı Yaxın Şərqdə və Şimali Afrikada hər il əhalinin bir nəfərinə düşən ümumdaxili məhsulun aşağı düşməsi (1986-cı ildən başlayaraq təxminən ildə 2 faiz) müşahidə olunur.

Bu disproporsiya inkişaf etmiş Şimal ilə inkişaf etməkdə olan Cənub arasındakı problemin xüsusi halıdır. Acınacaqlı iqtisadi vəziyyətlə yanaşı demoqrafik partlayış işsizliyin artmasına və Avropaya gedən leqal və qeyri-leqal mühacirlərin çoxalmasına səbəb olur. Hazırda təkcə Məğrib ölkələrindən Avropaya gəlmiş mühacirlərin sayı 6 mln. nəfərdən çoxdur.

NATO-nun iştirakını tələb edən ikinci Aralıq dənizi problemi regionda dövlətlər arasında ərazi mübahisələrinin və qarşılıqlı iddiaların mövcudluğudur. Burada baş katibin müavini Qərbi Saxara, Kipr və Yaxın Şərq böhranlarını xüsusi qeyd etmişdir. Görünür ki, ən kəskin münaqişə Fələstinlə İsrail arasındadır və digər ərəb ölkələri buna cəlb olunarlarsa, o, regional səviyyədən qlobal miqyasa keçə bilər. Buna görə də, NATO-nun onun həllinə qoşulması ümumi işə ancaq kömək edə bilər.

Bütövlükdə, Qərb və o cümlədən NATO Fələstin rəhbərliyinin danışıqlar prosesindən imtina edib, təxribatçılıqla məşğul olmasında (beynəlxalq terrorizmin fəallaşması fonunda bu məsələ çox aktualdır) maraqlı deyildir.

Aralıq dənizi ilə bağlı üçüncü problem resursların məhdudluğu və onların qeyri-bərabər bölüşdürülməsidir.

Bu region üçün əsas problem şirin su çatışmazlığıdır ki, bu səbəbdən münaqişələr mümkündür. Belə ki, hazırda quru iqlimi olan ölkələrə içməli suyun verilməsinin leqal beynəlxalq normaları yoxdur. Bununla yanaşı torpaqların səhralara çevrilməsi problemi get-gedə daha böyük miqyas alır və gələcəkdə su resurslarına olan tələbat durmadan artacaqdır. Bu da dövlətlər arasında məhəlli ziddiyyətlərə gətirib çıxaracaqdır ki, bundan beynəlxalq münasibətlər sisteminə də təhlükə yarana bilər.

Dördüncü amil regionda nüvə silahının yayılması imkanlarıdır. Artıq indi Aralıq dənizi sahilindəki bəzi ölkələr ya atom bombasının hazırlanmasına yaxındırlar, ya da kütləvi qırğın silahına de-fakto malikdirlər. Belə situasiya zəncirvari reaksiya doğura bilər və regionun qeyri-nüvə dövlətləri öz nüvə sınaqlarına başlaya bilərlər ki, bu da kütləvi qırğın silahının nəzarətsiz yayılmasına gətirib çıxara bilər. Regional sabitliyin və nüvə silahının yayılmaması rejiminin qorunub saxlanması üçün NATO-nun bölgənin işlərində yaxından iştirakı faydalı ola bilər.

Regiondan daxil olan bu və ya digər həyəcanlı siqnallar Avropaya qeyri-leqal mühacirətin qarşısının alınması, neft və təbii qazla sabit təchizatın təmin olunması, həmçinin terrorizm probleminin həlli üçün NATO ölkələrinin birbaşa və vaxtında bu işlərə cəlb olunmasını tələb edir.



Göründüyü kimi, bu regionda klassik mənada hərbi təhlükəsizliklə bağlı risklər minimumdur və burada Şimali Atlantika İttifaqı yuxarıda sadalanan bütün problemlərin həlli üçün qeyri-hərbi üsullardan istifadə etməklə daha çevik siyasət yeritməlidir. Aydındır ki, NATO Şimali Afrika ölkələrinə balanslaşmış demoqrafik siyasət yeritməkdə köməklik göstərməli və zəruri hallarda məşğulluq, mənzil, ərzaq problemlərinin həllində və infrastrukturun yaxşılaşdırılmasında iqtisadi yardım etməlidir.

Nəhayət, əhəmiyyətinə görə heç də sonuncu olmayan problem Aralıq dənizi regionunda haqqında yuxarıda danışdığımız beynəlxalq terrorizmdir. Elə buradaca qeyd etmək lazımdır ki, Aralıq dənizi sahillərinin bəzi ölkələrindəki qapalılıq, siyasi və iqtisadi islahatların aparılmaması, əsas insan hüquq və azadlıqlarının yoxluğu beynəlxalq terrorizm üçün əlverişli şərait yaradır. Bu problemin həlli üçün bütün beynəlxalq birliyin, o cümlədən Şimali Atlantika İttifaqının səylərinin əlaqələndirilməsi tələb olunur. NATO-nun region ölkələrinə böyük marağının baş katibin müavininin çıxışlarında ifadə olunan əsas səbəbləri bunlardır.

Aralıq dənizi dialoquna həvəs və maraq oyadan amillərdən biri də Şimali Afrika ilə Aralıq dənizinin şimal sahilindəki NATO üzvü olan dövlətlər arasındakı coğrafi yaxınlıqdır. Əgər NATO bu problemlərdən uzaqda dayanarsa, o, baş verən hadisələrə özünə sərf edən şəkildə müdaxilə edə bilməz və bununla da regional böhranın yaranmasına şərait yaradar ki, inkişaf etmiş ölkələr də bundan zərər çəkə bilərlər. Bu, əsasən, Aralıq dənizinə çıxışı olan İtaliya, İspaniya və Fransa kimi dövlətlərə

aiddir. Lakin 2001-ci ilin 11 sentyabr hadisələri göstərdi ki, beynəlxalq terrorizmin qloballaşması şəraitində Aralıq dənizi ilə birbaşa əlaqəsi olmayan dövlətlər də təhlükə altına düşə bilərlər. Şimali Atlantika İttifaqı ilə region ölkələrinin əməkdaşlığının dərinləşməsinin obyektiv səbəbləri bunlardır. Bununla əlaqədar olaraq bir sıra rus tədqiqatçıları belə bir fikir irəli sürür və həyəcan təbili çalırlar ki, Alyansın rəhbərliyi tezliklə və bilərəkdən «Aralıq dənizini NATO-nun daxili dənizinə çevirəcəkdir».

NATO-nun siyasətində Aralıq dənizi vektorunun yaranmasının daha bir səbəbi ictimai rəylə bağlıdır. İkiqütblü sistemin dağılmasından sonra Qərb dünyası, o cümlədən onun hərbi tərkib hissəsi olan NATO müəyyən dərəcədə çaşqın vəziyyətə düşdü. NATO rəhbərliyinin düşmən hesab etdiyi dövlət dağılandan sonra Alyans əvvəlki şəkildə fəaliyyət göstərə bilməzdi. Yalnız Şərqdən gələn təhlükəyə istiqamətlənmiş NATO «soyuq müharibə»nin olmadığı şəraitdə Qərbi Avropa və amerikan vergi ödəyicilərinin gözündə öz mənasını itirirdi. Onlar Alyansı saxlamaqdan və hərbi xərclərini ödəməkdən imtina edə bilərdilər.

Bu şəraitdə NATO rəhbərliyindən elə yeni qərarlar tələb olunurdu ki, onlar pessimistləri və skeptikləri Alyansın yaşama hüququnun olmasına inandırsın. Əks halda Şimali Atlantika İttifaqında da vəziyyət hələ «soyuq müharibə» illərində letargiya yuxusuna getmiş ANZUS (Avstraliya, Yeni Zelandiya, ABŞ) blokundakı kimi olardı. Əslində 90-cı illərin əvvəllərində həm Rusiyada, həm də Qərb ölkələrində NATO-nun da ləğvi ilə bağlı fikirlər səslənirdi. Amma Alyansın çinovnikləri klassik bürokratik strukturun təmsilçiləri kimi hadisələrin bu istiqamətdə



inkişafında maraqlı deyildilər. Etiraf etmək lazımdır ki, NATO-nun rəsmi şəxsləri dəyişən dünyada necə hərəkət etməyin lazım gəldiyini tez başa düşdülər və təşkilatın mövcud reallıqlara uyğun transformasiyası yolunu tutdular. Bu dəyişikliklərdə həm NATO-nun bir hərbi qurum kimi qorunub saxlanmasında, həm də universal bir təşkilata çevrilməsində başqa proqramlarla yanaşı ilk növbədə məhz Aralıq dənizi dialoqu əhəmiyyətli rol oynadı.

## 6-cı fəsil
## Aralıq dənizi dialoqunun əsas fəaliyyət mərhələləri

Aralıq dənizi dialoqunun əsas fəaliyyət mərhələlərinə nəzər salaq.

İldə bir dəfə NATO ölkələri işçi proqram qəbul edirlər. Burada təhlükəsizlik sahəsində və onunla əlaqədar olan elm, informasiya mübadiləsi kimi sahələrdə praktik əməkdaşlığın təşkili üzrə əsas tədbirlər öz əksini tapır.

Dialoqun proqramında deyilir ki, ilkin mərhələdə Yaxın Şərq, Şimali Afrika və NATO ölkələri «xoşməramlı, möhkəm və dostcasına münasibət qurub, tam qarşılıqlı anlaşmanın əldə olunmasına hər cür dəstək verəcəklər». Sonra əməkdaşlıq genişlənərək, birgə təhlükəsizliyin təmin olunması sferasını da əhatə edəcəkdir ki, bu da təlim və manevrlərin keçirilməsini, Dialoq ölkələrinin ərazilərindən NATO-nun əməliyyatlarının aparılması üçün istifadə olunmasını, həmçinin qarşılıqlı məsləhətləşmələri nəzərdə tutur.

1992-ci il aprelin 30-da NATO-nun Birləşmiş Hərbi-Dəniz Qüvvələri Daimi Birləşməsinin (HDQDB) yaranması Alyansla bloka daxil olmayan dövlətlərin əməkdaşlığının birinci mərhələsi oldu. Bu Birləşmə Şimali Atlantika İttifaqının siyasətində vacib rol oynayır, belə ki, blokun cənub cinahı Yaxın Şərq və Balkanlar kimi böhranlı regionlarının bilavasitə sərhəddindən keçir. Amma NATO-nun Aralıq dənizi donanmasından Alyansın məsuliyyət dairəsinə daxil olan digər regionlarda da istifadə edilməsi istisna olunmur. Yuxarıdakı qruplaşmanın məqsədlərindən biri «Sülh Naminə Tərəfdaşlıq» və «Aralıq Dənizi Dialoqu» proqramlarını imzalamış dövlətlərin hərbi-dəniz qüvvələri ilə əməkdaşlığı genişləndirməkdir. Həm də NATO komandanlığı Birləşmənin tərkibinə blokun üzvü olmayan ölkələrin gəmilərinin daxil edilməsi imkanlarını da istisna etmir.

HDQDB Aralıq dənizi dialoqu ölkələrinin limanlarına səfərlər edə bilər. Məsələn, 1998-ci il ərzində hərbi sahədə 34 tədbir keçirilmiş, 1999-cu ilin yayında isə NATO ölkələrinin hərbi-dəniz qüvvələrinin Aralıq dənizi qruplaşmasının səkkiz gəmisi Misir, Mərakeş, Tunis, Mavritaniya və İsrailə dostluq səfərləri etmişdir. Daha əhəmiyyətli aksiyalardan Misir, İordaniya və Mərakeşin Bosniyadakı sülhyaratma əməliyyatında, həmçinin İordaniya və Mərakeşin Kosovo böhranının tənzimlənməsində iştirakını göstərmək olar. Qarşılıqlı şübhələrin aradan qaldırılması və Aralıq dənizi ölkələri arasında etimadın möhkəmləndirilməsi üçün NATO hərbi planlaşmanın şəffaf aparılmasını və silahlı qüvvələr üzərində vətəndaş nəzarətini təklif edir. Bu ideyalar təkcə Aralıq dənizi dialoqunda yox, həm də «Sülh Naminə Tərəfdaşlıq» proqramında əks olunmuşdur və Şimali Atlantika İttifaqının siyasətinin ayrılmaz hissəsini təşkil edir.

Hərbi komponentlə müqayisədə NATO-nun siyasi yönümünün güclənməsini nəzərə alsaq, Aralıq dənizi dialoqu proqramı çərçivəsində aparılan diskussiya və məsləhətləşmələrin xarakterinə xüsusi diqqət yetirilməlidir. Hər şeydən əvvəl bu müzakirələrin məqsədi NATO-nun transformasiya prosesi, sülhyaratmanın inkişafı və böhranların tənzimlənməsi kimi məsələlərdə baxışların uyğunlaşdırılmasıdır. NATO təhlükəsizlik problemlərinə hərtərəfli yanaşdığından Aralıq dənizi qarşılıqlı

əlaqələrinin həyata keçirildiyi başqa sahələrin də üzərində ayrıca dayanmaq lazımdır. «Aralıq Dənizi Dialoqu»nun qeyri-hərbi cəhətləri proqramın üzvü olan ölkələrin nümayəndələri üçün NATO-nun Almaniyadakı məktəbində və İtaliyadakı kollecində sülhyaratma, ekologiya, silahlar üzərində nəzarət, Avropada təhlükəsizlik və fövqəladə halların aradan qaldırılmasının planlaşdırılması məsələləri üzrə tədrisin təşkilini özündə birləşdirir. Bu kurslar Məğrib ölkələrinin həm Aralıq dənizində, həm də dünyanın başqa guşələrində Şimali Atlantika İttifaqının praktik fəaliyyətinə daha fəal cəlb olunmalarına kömək etməlidirlər ki, həmin ölkələr Alyansla hərbi sahədə sıx əməkdaşlığa hazır olsunlar. Tədrisdən başqa oxşar problematika üzrə konfrans və seminarlar təşkil olunur. Məsələn, Afinada ilk dəfə «Aralıq dənizi hövzəsində təbii fəlakətlərin qarşısının alınması» mövzusunda seminar keçirilmişdir. NATO ölkələri həm də Aralıq dənizi dövlətlərinin tədqiqatçıları üçün təqaüd və qrantlar ayırırlar. Məsələn, 2000-ci ildə Aralıq dənizi ölkələrindən 108 tədqiqatçı NATO-nun elmi tədqiqatlarında iştirak etmişdir. Misir, İsrail, İordaniya, Mavritaniya və Mərakeşdən olan alimlərin aldıqları beş təqaüdü də göstərmək yerinə düşər. Onların tədqiqatlarının mövzusu Şərqi Aralıq dənizi regionunun təhlükəsizliyi, Aralıq dənizi regionunda təhlükəsizlik sahəsində əməkdaşlığın iqtisadi cəhətləri və ərəb dünyasında təhlükəsizlik və əməkdaşlıq məsələlərinə daxildən baxış olmuşdur. Bundan başqa Misir, Mavritaniya və Tunisin elmi-tədqiqat institutlarının nümayəndələri NATO-nun Aralıq dənizi təşəbbüsü məsələləri üzrə brifinqlərində iştirak etmişlər.



NATO-nun elmi proqramları çərçivəsində təbiət elmləri sahəsində əməkdaşlıq da intensiv inkişaf edir. «Aralıq Dənizi Dialoqu» ölkələrinin alimləri elmi-tədqiqat seminar və institutlarının işində iştirak edir, həmçinin birgə tədqiqat üçün qrant və təqaüdlər alırlar. Nümunə kimi «İnformasiyanın saxlanması, işlənilməsi və kommunikasiyalar üçün qeyri-standart optik elementlərdən istifadə edilməsi» adlı birgə yunan-israil seminarını göstərmək olar. Onun işində həmçinin İordaniya və Mərakeşdən olan alimlər də iştirak edirdilər.

Yuxarıda adları çəkilən tədbirlərdən başqa NATO-nun gündəliyi və Aralıq dənizi təhlükəsizliyi müzakirə olunan beynəlxalq konfrans və seminarların gedişində hər iki tərəfi maraqlandıran informasiya mübadiləsi də aparılır. Qarşılıqlı informasiya əlaqəsi həmçinin alimlərin, jurnalistlərin, parlament nümayəndə heyətlərinin və digər rəsmi şəxslərin səfərlərini əhatə edir. Məğrib ölkələrinin məlumatlılığını yüksəltmək üçün NATO materialları ərəbcə dərc olunur.

## 7-ci fəsil
## «Aralıq Dənizi Dialoqu»-nun əsas prinsipləri və fərqləndirici cəhətləri

NATO-nun çoxtərəfli və regional işlərinin başçısı Y.Nordamın «NATO xəbərləri»ndə dərc olunmuş «Aralıq Dənizi Dialoqu»: yanlış təsəvvürlərin aradan qaldırılması və etimadın möhkəmləndirilməsi» adlı məqaləsində «Aralıq Dənizi Dialoqu»nun əsas prinsipləri müəyyənləşdirilir. Müəllifin fikrincə, proqramın əsas üstünlüyü ondadır ki, dialoq öz strukturuna görə ikitərəflidir və ayrıca götürülmüş ölkədə arzuolunmaz siyasi hadisələrin inkişafı səbəbindən pozula bilməz, baxmayaraq ki, bəzi hallarda daha vacib problemlərin həlli üçün çoxtərəfli məsləhətləşmələr nəzərdə tutulmuşdur. Adətən belə məsləhətləşmələr informasiya sessiyaları və brifinqlər şəklini alır. Başqa sözlə, «Aralıq Dənizi Dialoqu» formulunu belə ifadə etmək olar: NATO ölkələri plyus dialoqun iştirakçısı olan dövlət. Aralıq dənizi əməkdaşlığı qrupu çərçivələrindəki görüşlər adətən ildə bir dəfə keçirilir.

Beləliklə, görürük ki, NATO-nun bu təşəbbüsü Alyansın üzvü olan ölkələrlə Aralıq dənizi dövlətlərinin regional təhlükəsizlik məsələləri üzrə informasiya mübadiləsi etmək və öz mövqelərini əlaqələndirmək imkanları olan geniş beynəlxalq forumdur. Aralıq dənizi dialoqunun başlıca funksiyası da məhz budur.

Aralıq dənizi dialoqunun digər fərqləndirici cəhəti isə odur ki, bu, çevik çərçivə sazişidir. Burada iştirakçıların hamısına NATO ilə əməkdaşlıq üçün bərabər imkan yaradılır, lakin bu və ya digər tədbirdə iştiraklarının



səviyyəsini onlar özləri müəyyənləşdirirlər. Belə ki, bəzi informasiya tədbirləri istisna olmaqla bütün fəaliyyət özünümaliyyələşdirmə əsasında həyata keçirilir. Lakin 1997-ci il Roma konfransında qərara alınmışdır ki, «Aralıq Dənizi Dialoqu»na NATO-nun büdcəsindən xeyli maliyyələşmə tələb edən tədbirlər də daxil edilsin.

Y.Nordam öz məqaləsində Aralıq dənizi dialoqunun strukturunda iki istiqaməti fərqləndirir: siyasi dialoq və xüsusi fəaliyyət növləri üzrə əməkdaşlıq. Birinci qrupa hər şeydən əvvəl Aralıq dənizi regionunun sabitliyi və təhlükəsizliyinin başlıca məsələləri üzrə siyasi məsləhətləşmələr və fikir mübadilələri aiddir. İkinci istiqamət isə əsasən hərbi-siyasi bloka aid olmayan sahələri əhatə edir.

«Aralıq Dənizi Dialoqu» proqramının strukturu «Aralıq dənizi əməkdaşlığının dərinləşdirilməsi: NATO-nun töhfəsi» məqaləsində daha dəqiq müəyyənləşdirilmişdir.

Burada NATO ilə Aralıq dənizinin cənubundakı ölkələrin münasibətlərinin inkişaf perspektivlərinin təhlilinə xüsusi diqqət yetirmək lazımdır. «Sülh Naminə Tərəfdaşlıq» proqramının uğur qazanmasından sonra belə bir fikir yaranmışdı ki, yaxın vaxtlarda Aralıq dənizi regionu üçün də analoji proqramın həyata keçirilməsinə başlanacaqdır. Lakin fikrimizcə, birmənalı təsdiq etmək olmaz ki, hadisələr məhz bu cür inkişaf edəcəkdir.

Məlumdur ki, iqtisadi səviyyəsinə görə Şimali Afrika Ekvatorial Afrikanı xeyli qabaqlayır və "ərəb baharı" hadisələrinə qədər sonuncuya nisbətən daha sabit daxili siyasi vəziyyətə malik idi. NATO-nun yalnız Şimali Afrika ölkələrinə marağı və Saxaradan cənubdakı regional münaqişələrə müdaxilə etmək istəməməsi məhz bununla

izah olunur. Lakin Şimali Atlantika alyansına dərhal daxil olmaq üçün bunlar açıq-aşkar kifayət deyildir. Hətta bütün amilləri nəzərə almaqla da demək olmaz ki, Misir, Tunis, Mavritaniya, Mərakeş və Əlcəzair qərb tipli demokratiyanın bütün formal əlamətlərinə cavab verir. Belə ki, bu tip dövlətlər bu bölgədə baş verən son hadisələrə qədər demək olar ki, demokratik institutların rüşeymlərinə malik olan əsasən avtoritar rejimlər idilər. Burada seçkilər ya ümumiyyətlə keçirilmir, ya da dekorativ xarakter daşıyır və hakimiyyət orqanlarının formalaşdırılmasına faktiki olaraq təsir göstərilmirdi. Məhz bu nöqteyi-nəzərdən söyləmək olar ki, NATO rəhbərliyi üçün xalqın Yaxın Şərqdə baş verən əzilməsindən sonra bu kimi dövlətlərlə yaxın gələcəkdə ümumbəşəri dəyərlərə və insan hüquqlarına üstünlük verən ölkələrin sivil cəmiyyətinə qoşulmasını əsaslandırmaq müəyyən qədər çətinliklər yaratmış olacaqdır.

Aralıq dənizi ölkələrinin təkamülünün demokratik məcrada keçməsi üçün onlar NATO və digər Avropa strukturları ilə informasiya əməkdaşlığını genişləndirməlidirlər ki, demokratik dəyərlər və insan hüquqları bura daha çox nüfuz etsin və regionu demokratiya sahəsində qərb standartlarına yaxınlaşdırsın. «Siyasi mədəniyyətin generatoru» kimi kütləvi informasiya vasitələrinə xüsusi diqqət yetirilməli və onların yerli hakimiyyətdən asılı olmaması NATO təşəbbüsləri çərçivəsində informasiya əməkdaşlığının əsas elementi olmalıdır.

Bundan başqa, Alyansa daxil olmaq üçün Aralıq dənizi ölkələri qarşılıqlı ərazi iddialarından (məsələn, Mərakeş Aralıq dənizi sahilindəki əsasən ispanların məskunlaşdığı



Seutu və Melilü şəhərlərini öz ərazisi hesab edir) imtina etməli, daxili siyasi vəziyyəti stabilləşdirməli (bu daha çox Əlcəzairə aiddir) və silah standartlarının unifikasiyası ilə əlaqədar hərbi xərcləri öz üzərilərinə götürməyə razı olmalıdırlar. Buna görə də belə bir nəticəyə gəlmək olar ki, Şimali Afrikanın qərb hərbi strukturuna inteqrasiyası Şərqi Avropadakı kimi sürətli olmayacaqdır. Çünki həmin regionun ölkələri həm siyasi sistemin inkişafına, həm də sırf hərbi göstəricilərə görə əksər Şərqi Avropa dövlətlərindən geri qalırlar.

Məhz bu səbəbdən NATO, yəqin ki, Aralıq dənizi çərçivəsində Alyansa inteqrasiya proseslərini sürətləndirməyəcək və Şərqi Avropadan fərqli olaraq təkamül yolunu seçəcəkdir. Bu ehtimalımızı NATO-nun sabiq baş katibi Robertsonun sözləri də təsdiq edir. O, mətbuat konfranslarından birində bəyan etmişdi ki, Alyans Dialoqun Şimali Afrika ölkələrinə daxili dəyişikliklərin aparılması prosesində köməklik edəcəkdir. Digər sabiq baş katib Havyer Solana isə öz bəyanatında Aralıq dənizi təşəbbüsünün təkamül yolu ilə inkişafını göstərmiş və vurğulamışdır ki, «regionda siyasi təkamül pozitiv istiqamətə yönəlməlidir». Bununla yanaşı o belə bir fikir söyləmişdir ki, gələcəkdə dialoqa Aralıq dənizi regionunun digər ölkələrini də cəlb etmək və müzakirə olunan problemlərin spektrini genişləndirmək mümkündür. Gördüyümüz kimi, NATO-ya qəbulun perspektivləri haqqında rəsmi səviyyədə hələ heç nə danışılmır və yaxın gələcəkdə Şimali Afrika üçün «Sülh naminə tərəfdaşlıq» proqramının yaranacağına H.Solana skeptikcəsinə yanaşır; o güman edir ki, şərq istiqaməti NATO-nun siyasətində əvvəlki kimi yenə də əsas yer tutacaqdır.

## 8-ci fəsil
## NATO və Avropa İttifaqı: maraqlar toqquşur

«Aralıq Dənizi Dialoqu»nun inkişafında təkcə NATO yox, həm də Aralıq dənizi ölkələrinin özləri maraqlıdırlar. Axı bu regionun dövlətləri hələ 1975-ci ildə Bloklara qoşulmamaq hərəkatının əsas prinsiplərinə uyğun hərəkət edərək ATƏM-in işində iştirak vasitəsilə Avropanın təhlükəsizlik strukturlarına qoşulmağa ümid edirdilər. Hazırda ATƏT-in səlahiyyətləri və iş qabiliyyəti şübhə altına alınan zaman Şimali Afrika ölkələrinin NATO-ya inteqrasiyası tamamilə qanunauyğun görünür. Bir çox təhlilçilərin fikrincə, adını dəyişməsinə baxmayaraq o (ATƏT), mahiyyətcə yenə Müşavirə olaraq qalmışdır. Burada qəbul olunan bütün qərarlar iştirakçıların mövqeyinin ümumi məxrəcə gətirilməsini tələb edir. NATO ATƏT-dən fərqli olaraq güclü hərbi struktura malikdir və tərəfdaş dövlətlərə real köməklik göstərməyə qabildir. Bundan başqa Varşava müqaviləsinin dağılmasına səbəb olmuş və Miloşeviç rejiminə qarşı uğurlu hərbi aksiya keçirmiş səmərəli təşkilat kimi Şimali Atlantika İttifaqının nüfuzu əvvəlki kimi sarsılmazdır.

NATO-nun bu məsələdə rəsmi mövqeyinə gəlincə, Alyansın rəhbərliyi «Aralıq Dənizi Dialoqu»na bu regiondakı digər beynəlxalq təşkilatların (Aİ və ATƏT) funksiyalarını təkrarlamadan onların siyasətini stimullaşdıran bir mexanizm kimi baxır. Bundan əlavə, hazırda Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali komissarı olan H.Solana hətta ümidvar olduğunu bildirmişdir ki, NATO regiondakı başqa çoxtərəfli strukturların işindən müsbət təcrübə əldə



edəcəkdir. Həm də NATO rəhbərlərinin belə bəyanatlarını tez-tez eşitmək olur ki, iki əsas Aralıq dənizi təşəbbüsü (NATO və Aİ) çərçivəsində səyləri əlaqələndirmək zəruridir. Bunun üçün, şübhəsiz, iki təşkilatın rəhbər nümayəndələri arasında müntəzəm görüşlər kimi müvafiq institut mexanizmləri lazımdır.

Avropa İttifaqı bu regionun iqtisadi inkişafına əhəmiyyətli töhfə verə bilər, lakin onun pozitiv təsiri bununla məhdudlaşır ki, Aralıq dənizinin əsas fiqurları olan Türkiyə və ABŞ AB-nə daxil deyildir. Buna görə də Aralıq dənizi təşəbbüsünün inkişafı NATO çərçivəsində məqsədəuyğun görünür. Amma bəzi tədqiqatçılar belə düşünməyə meyllidirlər ki, NATO ilə Aİ-nin qarşılıqlı münasibətlərində əməkdaşlıqdan çox rəqabət üstünlük təşkil edir və Alyans özünün Aralıq dənizi proqramını AB-nin Barselona prosesinə qarşı başlamışdır. Bununla yanaşı Avropa İttifaqının səylərinə adətən NATO ilə qarşıdurma və avropalıların öz həyati maraqları zonasında məxsusi siyasətlərini yeritmək kontekstində baxılır. Fikrimizcə, hər iki proqramın səmərəli fəaliyyət göstərməsi üçün NATO və Aİ-nin öz təşkilatlarının profilinə uyğun gələn vəzifələri yerinə yetirməsi zəruridir. Belə ki, Avropa İttifaqı üçün sosial-iqtisadi xarakterli problemlər, NATO üçün isə təhlükəsizlik və müdafiə məsələləri üstünlük təşkil etməlidir, çünki bu sahələrdə təşkilatlardan hər birinin digəri ilə müqayisədə xeyli üstünlüyü vardır.

Hələlik NATO rəhbərləri Avropa İttifaqı ilə Alyansın təşəbbüslərinin bir-birlərini necə tamamlayacaqları barədə məsələyə mükəmməl bir cavab verməmişlər. Axı hazırda hər iki təşkilat Aralıq dənizində «yumşaq» təhlükəsizliyə üstünlük verməklə eyni problemlərin həlli ilə məşğuldur.

Deyilənlərə yekun vuraraq onu qeyd etmək lazımdır ki, «Aralıq Dənizi Dialoqu» proqramı hazırda öz inkişafının erkən mərhələsindədir. Amma gələcəkdə, çox güman ki, təkcə regional əhəmiyyətə malik olmayıb, uzunmüddətli perspektivdə Cənubi Aralıq dənizi çərçivəsindən kənara çıxacaqdır. Əlcəzairin Dialoqa qoşulması ilə əlaqədar NATO Şurasının kommünikesində deyilir ki, «Aralıq Dənizi Dialoqu»nun bütün istiqamətlərdə inkişafı Alyansın «soyuq müharibə»dən sonrakı dövrdəki ümumi xarici siyasətinin ayrılmaz tərkib hissəsidir». Bunu da vurğulamaq yerinə düşər ki, Dialoqun iştirakçılarından biri – Mavritaniya – formal olaraq Aralıq dənizi dövləti deyildir, çünki bu dövlətin dənizə çıxışı yoxdur.

Buradan belə bir nəticəyə gəlmək olar ki, bu və ya digər dövlətin hansı regionda yerləşməsindən asılı olmayaraq Dialoq bütün Afrikada inkişaf edəcəkdir. Burada əsas amil siyasi məqsədəuyğunluq olacaqdır və uzunmüddətli perspektivdə Şimali Afrika üçün «Sülh Naminə Tərəfdaşlıq»dan danışmaq olar. NATO hökumət başçılarının İtaliyanı Şimali Atlantika İttifaqına qəbul edib-etməmək məsələsi üzərində düşündükləri vaxtlar artıq həmişəlik keçmişdə qalmışdır. NATO-nun sabiq baş katibi Havyer Solana da öz məqalələrindən birində dar coğrafi arqumentləri əhəmiyyətsiz və hətta xırdaçılıq adlandırmışdır. Elə oradaca H.Solana belə bir fikir söyləmişdir ki, NATO-nun Şimali Afrika və Yaxın Şərq ölkələri üçün potensialı hələ əsla tükənməmişdir və Alyans təkcə Afrikanın şimal sahillərinin deyil, bütün regionun siyasi təkamülünə yardım edə bilər.

Görünür ki, NATO-nun «Aralıq Dənizi Dialoqu» da Şimali Atlantika blokunun özü kimi sırf regional



əhəmiyyət daşımayacaqdır. Məlumdur ki, adına görə regional təşkilat olan Alyans öz məsuliyyət zonasını Şimali Atlantika regionundan xeyli uzaqlara yayır. Şimali Atlantika İttifaqının rəhbərliyi Şimali və Cənubi Aralıq dənizi arasında ayırıcı xətt çəkmək niyyətində deyildir və daha sıx inteqrasiya baş verərsə, onda III Albert C. Vezerherd Universitetinin professoru və Harvarddakı Con M.Olin adına Strateji Araşdırmalar İnstitutunun direktoru Samuel Hantinqtonun Qərbi Avropa və Afrika sivilizasiyaları arasındakı sərhəddin Aralıq dənizindən keçməsinə dair proqnozu özünü doğrultmayacaqdır.

Hazırda Dialoq NATO-nun baş katibinin 1999-cu ildə Valensiyadakı konfransda çıxışında göstərdiyi iki prinsipial istiqamətdə tədricən inkişaf edir. Bunlardan birincisi NATO-nun hər biri ayrılıqda götürülmüş, Aralıq dənizi ölkəsinə münasibətdə fərqli siyasətinin güclənməsidir. Digər tərəfdən isə hərbi sahədə daha əsaslı əməkdaşlıq həyata keçirilir, çünki burada Alyans oxşar təşəbbüslər irəli sürmüş beynəlxalq təşkilatlarla müqayisədə üstünlüklərə malikdir.

## 9-cu fəsil
## NATO-nun XX əsr dünya düzənində yeri və rolu

H.Solana belə bir qəti fikir söyləmişdir ki, NATO ilə Aİ arasında əlaqələndirmənin güclənməsi təkcə Aralıq dənizi regionunun təhlükəsizliyinə təsir etməyəcək, həm də Rusiya da daxil olmaqla Şərqi Avropa ölkələrində demokratiya və sabitliyin möhkəmlənməsinə öz pozitiv töhfəsini verəcəkdir.

Bu və digər bu kimi fikir və mülahizələri misal göstərən Qərb NATO-nun modernləşməsinin dinc xarakter daşıdığına dünya ictimaiyyətini inandırmaq üçün Aralıq dənizi təşəbbüsündən təbliğat məqsədilə də istifadə edir. Göstərilir ki, XX əsr dünya düzənində yeni iqtisadi, siyasi, ideoloji, mədəni vəziyyətin yaranması baxımından köklü dəyişikliklərlə zəngin olmuşdur. Bu, bir tərəfdən bir-biri ilə mübarizə aparan iki ideoloji, iqtisadi, siyasi mərkəzlərdən birinin sıradan çıxması və bununla da birqütblü düzənin bərqərar olması, digər tərəfdən, ideoloji mübarizənin tədricən öz yerini dövlətlərarası münasibətlərdə iqtisadi rəqabət xarakterli əlaqələrə verməsi ilə nəticələnmişdir. Maraqlıdır ki, «köhnə» düzənin aparıcı subyektlərindən biri olan Şimali Atlantika Təşkilatı - NATO yeni dövrün və şəraitin tələblərinə cavab verməklə müasir mərhələdə beynəlxalq siyasətin başlıca subyekti kimi fəaliyyətini davam etdirməkdədir. Beynəlxalq təşkilat olaraq, NATO müasir dünyada siyasi vəziyyətə getdikcə daha ciddi təsir göstərir. Təşkilatın keçmiş SSRİ məkanındakı hadisələrə müdaxilə etməsi əsasən onunla bağlıdır ki, postsovet məkanında yaranmış yeni dövlətlərdə baş verən milli, etnik, ərazi münaqişələri bütövlükdə beynəlxalq münasibətlər sistemi üçün təhlükə



yaradır. Hərbi-siyasi təşkilat kimi NATO dünyada münaqişələrin həll edilməsində öz rolunu artırmağa, bu ölkələrdə siyasi və iqtisadi böhranın aradan qaldırılmasına, demokratik islahatlar keçirilməsinə zəruri kömək göstərməyə çalışır. Hazırda alyans üçün əsas təhlükəni NATO üzvlərindən birinə hücum təhlükəsi deyil, qeyri-sabitliyin (iqtisadi, sosial və siyasi çətinliklər, etnik münaqişələr, ərazi mübahisələri, kütləvi qırğın silahı və ballistik raketlərin yayılması, həyati əhəmiyyətli ehtiyatların çatışmaması, terror və s.) meydana çıxması təşkil edir.

Siyasi-hərbi ittifaq kimi NATO-nun fəaliyyətini davam etdirməsinə əsasən iki yanaşma mövcuddur:

1) Bu təşkilat mövcudluğunu davam etdirməklə hazırkı dövrdə də dünyadakı iqtisadi, siyasi, hərbi durumda vacib rol oynamağa can atan Rusiyaya qarşı (bu da artıq NATO-nun əvvəlki rəqibi-güclü SSRİ və «Varşava Müqaviləsi»nin mövcud olmaması ilə bağlıdır və belə şəraitdə NATO-nun əks-müqavimət xarakterli deyil, sadəcə «Rusiyaya qarşı çevrildiyi» fikrini söyləmək olar) çevrilib və müvafiq olaraq onun öz əhatə etdiyi coğrafiyanı genişləndirmək siyasəti bu məqsədə xidmət edir (neqativ yanaşma);

2) Təşkilat dəyişən dünyada yeni və heç kimə qarşı yönəlməmiş hədəfləri qarşısına qoymuşdur və onun üzv sıralarının genişləndirilməsi də bu mütərəqqi niyyətlərə daha səmərəli nail olunmasına hesablanmışdır.

NATO-nun sıralarında son ən geniş artım 2004-cü ildə Rusiyanın keçmiş «silahdaş»ları, postsovet ölkələri-Latviya, Litva, Estoniya, Rumıniya, Sloveniya, Slovakiya və Bolqarıstan kimi dövlətlərin də təşkilatın hərbi, siyasi «çətiri altına» keçməsi ilə baş vermişdir (2009-cu ildə

keçirilən Buxarest sammitində Xorvatiya və Albaniya quruma üzv qəbul edilmiş, Fransa isə NATO-nun hərbi təşkilatındakı fəaliyyətini yenidən bərpa etmişdir). Azərbaycanın da 1994-cü ildən üzvü olduğu «Sülh Naminə Tərəfdaşlıq» proqramı çərçivəsində hazırki duruma görə daha çox Gürcüstan bu quruma tamhüquqlu üzv kimi qəbul edilmək üçün bir növ hazırlıq mərhələsi keçir. Belə vəziyyətdə Rusiyanın özünü regionda və hətta dünyada «geosiyasi ədalətsizliyə» qarşı müqavimət göstərən, öz ideyaları ilə baş-başa qalan yeganə dövlət hiss etməsi təəccüblü görünmür. Qeyd edək ki, hələ 1997-ci ilin aprelindən Çin və Rusiya dünyada «hegemonizm» cəhdlərini pisləmiş və NATO-nun genişlənməsini «qəbuledilməz» fakt adlandırmışdılar. NATO-nun genişlənməsi məsələsi Avropa dövlətləri arasında da birmənalı qarşılanmır, belə ki, burada da ilkin olaraq əsas vəzifənin «NATO-nun Şərq sərhədləri Avropa İttifaqının Şərq sərhədləri ilə üst-üstə düşməlidirmi?» sualına cavab tapılmasının olduğunu təsdiq edirlər. Görkəmli politoloq Z.Bjezinski Rusiya-NATO münasibətlərini maraqlı şəkildə ifadə edir: «...Rusiya özünü ABŞ və onun əsas təkanverici üzv olduğu NATO ilə üz-üzə dayanacaq qüvvə olduğunu düşünməklə özünü vacib hesab edir və bununla da sanki təskinlik tapır...» Qeyd edək ki, NATO-Rusiya arasında praktiki əməkdaşlıq 2002-ci ilin mayında NATO-Rusiya Şurasının yaradılması ilə başlanmışdır.

Ümumiyyətlə, bu münasibətlərdə hər iki tərəfin bu əməkdaşlığa dair müxtəlif mövqeləri vardır. Belə ki, bir tərəfdən Avroatlantik Əməkdaşlığın rəsmilərinin bəyanatlarında Rusiya ilə hərtərəfli əməkdaşlığın səmimiliyinə, həmçinin bu əlaqələrin perspektivlərinə dərin inam ifadə olunur. Digər tərəfdən isə, təşkilatda



Rusiyanın bu təşkilat və orada birləşən əsas güc mərkəzləri ilə barışmaz ziddiyyətlərinin olduğunu da yaxşı bilirlər. Maraqlıdır ki, NATO-Rusiya mövqeləri və əməkdaşlığı dünyadakı geosiyasi maraqların bölüşdürülməsi məsələsində tam olaraq vəhdət təşkil etməsə də, xüsusi iddiaların mövcud olmadığı digər sahələrdə - fövqəladə vəziyyətin idarə olunması, mülki müdafiə, terrorizm, xüsusilə təhlükəsizlik və s. sferalardakı əməkdaşlıq kifayət qədər uğurlu və ümidvericidir. Bu baxımdan tərəflərin rəsmiləri öz bəyanatlarında «hər iki tərəfin eyni dəyərləri bölüşdüyünə» inanır.

Rusiyanın xüsusi olaraq NATO-ya akkreditə olunmuş (2003-cü ilin mayında) ilk səfiri general Konstantin Totskiy təşkilatın genişlənməsinə dair Rusiyanın mövqeyini xarakterizə edərkən bu dövlətin Avroatlantik regionu üçün daha unikal təhlükəsizlik mexanizmləri kimi Birləşmiş Millətlər və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatlarını dəstəklədiyini bildirmişdi. Səfir Rusiyanın NATO üzvü olması perspektivini isə o vaxt belə şərh etmişdi: «Prezident Putin ölkənin bu təşkilata daxil olması barəsində heç bir cəhd və marağının olmamasını dəfələrlə qeyd edib. Bunun heç bir fərqi yoxdur, əsas məsələ tərəflər arasında əməkdaşlığın hansı məqsəd daşıması və digərlərinə bu əməkdaşlığın hansı faydanı gətirməsidir».

Beləliklə, əsası hələ 1997-ci ildə NATO-Rusiya Qarşılıqlı Əlaqələr, Əməkdaşlıq və Təhlükəsizlik üzrə Fəaliyyət sənədinin imzalanması ilə qoyulmuş NATO-Rusiya əməkdaşlığına bir sıra konkret misallar göstərmək mümkündür, lakin hər iki tərəfdə tarixi hegemonluq iddiaları mövcud olduqca ümumi məqsədlər isti-

qamətində tam səmərəli tərəfdaşlıqdan danışmaq hələ çox tezdir. Digər tərəfdən belə bir sual hələ də siyasi təhlilçilər tərəfindən mübahisə doğurmaqda davam edir: Hansı dünya daha təhlükəlidir- soyuq müharibə dövründə cəbhələrin dəqiq bilindiyi qarşıdurma vəziyyəti, yoxsa başqa formada davam edən «rəqabətli əməkdaşlıq» vəziyyəti? Bu sual hələ ki, öz cavabını gözləyir...

Son dövrün hadisələri bir daha sübut etdi ki, XXI əsrdə dünyanın siyasi səhnəsi çox vektorlu, çoxqütblü dünya düzəninin yaranması ilə xarakterizə olunmalıdır. Qlobal siyasi proseslərin tərkibi də öz müxtəlifliyinə görə genişlənməlidir. Nəzərə alsaq ki, bu gün beynəlxalq hüquq öz səmərəsini itirir, beynəlxalq təşkilatlar funksiyalarını yerinə yetirə bilmirlər, dünyadakı qlobal və regional siyasi proseslərin tənzimlənməsində həlledici gücə malik olan bir neçə böyük dövlətdən ibarət yeni «idarəetmə forması»nın yaranması zəruri görünür. İdarəetmə forması dedikdə, burada böyük gücə sahib olan dövlətlərin qlobal siyasi proseslərin idarə olunmasında iştirakını nəzərdə tutan mexanizmin formalaşması başa düşülməlidir. Elə son ayların olayları da göstərdi ki, təkbaşına hegemonluq dünyaya həm iqtisadi, həm də siyasi baxımdan zərbə vurur, iqtisadi və siyasi böhranlar əmələ gətirir, bir çox cəmiyyətlərdə ictimai-siyasi sabitlik pozulur. Bu baxımdan hazırda dünyada baş verən ictimai və siyasi proseslərin gedişatı, reallıq onu tələb edir ki, çoxqütblü dünya düzəni formalaşsın. Dünyanın qlobal siyasi proseslərinin tarazlı formada tənzimlənməsi və ya idarə olunması bir yox, bir neçə mərkəzdən həyata keçirilsin. Bu idarəetməni əsasən ayrı-ayrı coğrafi məkanlar üzrə böyük əraziyə, çoxlu əhaliyə malik, iqtisadi və hərbi potensiala sahib olan dövlətlər həyata keçirə bilərlər. Belə dövlətlər içərisində



Asiyada Çin, Rusiya, Hindistan, İran, Türkiyə, İndoneziya kimi dövlətlər, Avropada Avropa İttifaqı, Rusiya, Amerika qitəsində ABŞ, Braziliya və s. dünyanın müxtəlif regionlarında baş verən siyasi proseslərin tənzimlənməsində yaxından iştirak edə bilərlər. Hal-hazırda ilk növbədə dünyanın qlobal siyasi proseslərinin idarə olunmasında ABŞ-la səlahiyyətlərin bölünməsində Avropa İttifaqı, Rusiya və Çin iddialıdır və bu istiqamətdə mübarizə aparırlar. Avropa İttifaqı, Rusiya və Çin dünyanın siyasi proseslərinin vahid mərkəzdən - ABŞ-dan idarə olunması ilə razılaşmırlar və çoxvektorlu dünya düzəninin formalaşmasını israr edirlər. ABŞ isə Avropa İttifaqı ilə qismən razılaşsa da, Rusiya və Çinlə bu səlahiyyətləri qətiyyən bölüşmək istəmir və öz nüfuzunun zəifləməsindən ehtiyat edir.

Çoxqütblü dünya düzəninin yaranması zərurəti və əhəmiyyətini əsasən aşağıdakı amillərlə xarakterizə etmək olar:

1. Dünyada ciddi problemləri olan bir sıra dövlətlər var ki, müxtəlif regionlarda yerləşdiyindən, qlobal siyasi prosesləri vahid mərkəzdən tarazlı və ədalətli şəkildə idarə etmək cəhdi səmərə vermir. Bu baxımdan müxtəlif idarəetmə mərkəzlərinin yaranması məqsədəuyğundur;

2. Qlobal siyasi proseslərin vahid istiqaməti və xüsusiyyətinin tətbiqi cəhdləri cəmiyyətlərdə kəskin ziddiyyətlər ortaya çıxarır. Buna görə də siyasi proseslərin rəngarəngliyinin təmin edilməsi və tətbiqi məqsədilə vahid «idarəetmə mərkəzi»nin bir neçə mərkəzə bölünməsi mühüm əhəmiyyət kəsb edir;

3. Dünyada «güc mərkəzi» olan bir neçə dövlət vardır və tarixən bu dövlətlərin qlobal və regional maraqları formalaşmışdır. Bu nöqteyi-nəzərdən də siyasi proseslərin

vahid mərkəzdən idarə olunması bu dövlətlərin maraqları ilə ziddiyyət təşkil edir. Bu amil də çoxqütblü dünya düzəninin formalaşmasını zəruri edir;

4. Hansısa super gücə arxalanıb yerləşdiyi regionu daim təhdid altında tutan dövlətə yerini göstərmək üçün alternativ qlobal gücə ehtiyac var. Bu baxımdan da çoxvektorlu dünya düzəninin formalaşması xüsusi əhəmiyyət kəsb edir.

Çoxqütblü dünya düzəninin formalaşmasında coğrafi amil, tarixi, dini, milli bağlılıq əsas götürülməlidir. Bu dünya düzəninin formalaşması və yeni idarəetmə mərkəzlərinin yaranması dünyada böyük dövlətlərin kiçik dövlətlərə dair çirkin maraqlarının icrasına gətirib çıxarmamalıdır. Böyük dövlətlər arasında, eləcə də böyük dövlətlərlə kiçik dövlətlər arasında tarazlı və ədalətli münasibətlər hökm sürməlidir.

Çoxqütblü dünya düzəninin formalaşması həm də beynəlxalq aləmdə güclərin paylaşmasına gətirib çıxara bilər. Çoxqütblü dünya düzəninin formalaşmasında və qlobal siyasi proseslərin idarə olunmasında iştirak hal-hazırda buna iddiası olan dövlətdən asılıdır. Həmin dövlətə isə ilk növbədə güclü və qlobal təsirlərə malik iqtisadiyyat lazımdır ki, öz iddiasını təmin edə bilsin.



## 10-cu fəsil
## NATO və qlobal təhlükəsizlik

ABŞ-ın milli təhlükəsizlik üzrə müşaviri olmuş (1977-1981) Zbiqnev Bjezinskinin «The New York Times» qəzetində dərc edilmiş «NATO və qlobal təhlükəsizlik» məqaləsi marağa səbəb oldu. Ən azı ona görə ki, burada NATO-nun postsovet məkanı ölkələri ilə əməkdaşlıq perspektivləri barədə mülahizələr yürüdülür.

Mülahizələrdə əsas xətt NATO-nun qarşıya qoyduğu missiyanı uğurla yerinə yetirməsi və alyans üçün yeni hədəflər və məqsədlərin ortaya çıxmasıdır. Politoloq qeyd edir ki, alyans öz mövcudluğunun 60 illiyində beynəlxalq məsələlərdə 3 istiqamətdə tarixi əhəmiyyət kəsb edən hadisələrin gerçəkləşməsinə nail olub:

1. NATO Qərb ölkələri arasında Transatlantik və Avropa hakimliyi uğrunda əsrlik vətəndaş müharibəsinə son qoydu;

2. Birləşmiş Ştatlar İkinci Dünya müharibəsindən sonra öz üzərinə Avropanı sovet təsirindən müdafiə etmək öhdəliyi götürdü;

3. Alyans «soyuq müharibə»nin dinc başa çatmasına nail oldu və bu, demokratik Avropa Birliyinin genişlənməsi üçün zəmin yaratdı.

Bundan sonra politoloq sual edir: «Bunlar əldə edilmiş nailiyyətlərdir, ortaya isə tam əsaslı bir sual çıxır: «Sonra nə olacaq?»

Məhz bu sualın cavabının tapılması bu gün doğrudan da NATO-nun siyasi və hərbi dairələrinin qarşısında duran əsas hədəflərdən biridir. NATO dairələri 61 yaşlı alyansın perspektivləri üzərində çox ciddi düşünürlər: Alyansın gələcəyi necə olacaq? Qarşıda hansı məqsədlər və

vəzifələr durur? Bütün bu məsələlər son illərdə alyansa üzv ölkələrdə və alyansın 2010-cu il sammitində geniş müzakirə mövzusuna çevrilmişlər.

NATO hansı təhdidlərlə üzləşib? Alyansın imicinin yaxşılaşdırılması istiqamətində hansı işlər görülməlidir?

Amerikalı politoloq bildirir ki, NATO dünya təhlükəsizliyinin hədsiz təhdidləri ilə qarşılaşır. «Zəmanəmizin paradoksu ondan ibarətdir ki, getdikcə daha qarşılıqlı əlaqəli, qarşılıqlı asılılıqlı dünya daim güclənən xalq iğtişaşları və qiyamları ilə üz-üzə qalır. Son vaxtlar insanların siyasi baxış məcburiyyətindən yaranan xaos təhlükəsi ilə mübarizə üçün qlobal təhlükəsizliyin təmini üzrə səmərəli mexanizm mövcud deyil. Bununla yanaşı, Çin və Hindistanın sürətli dirçəlişi, Yaponiyanın son 50 ildə çevikliklə bərpa olunması vəziyyəti mürəkkəbləşdirir. Çünki bu, qlobal şəkildə siyasi və iqtisadi ağırlığın Şimali Atlanikadan Asiya və Sakit Okean regionu istiqamətində dəyişməsindən xəbər verir».

Bjezinski bildirir ki, öz əhəmiyyətini saxlamaq üçün və zamanın tələblərinə müvafiq olaraq, NATO, sadəcə, genişlənməli deyil və bir çoxlarının təkid etdiyi kimi qlobal alyansa, demokratiyanın beynəlxalq ittifaqına çevrilməməlidir. Onun fikrincə, NATO-nun qloballaşması Amerika-Avropa əlaqələrinin prioritetliyini zəiflədəcək. Politoloq qeyd edir ki, güclənməkdə olan heç bir güclü dövlət qlobal miqyasda genişlənmiş NATO-ya üzv olmağa razı olmaz.

NATO qlobal mərkəz ola biləcəkmi? Bjezinski bildirir ki, NATO təhlükəsizlik sahəsində ölkələr arasında əməkdaşlıq məsələləri üzrə qlobal mərkəz olması üçün kifayət qədər təcrübə, mexanizm və vasitələrə malikdir. Bu istiqamətdə strateji missiyasını yerinə yetirərək NATO



təkcə siyasətdə transatlantik vahidliyini saxlamayacaq, həmçinin XXI əsrdə təhlükəsizlik sahəsində daha açıq çağırışlara cavab verəcək.

Politoloqun əvvəlki fikirlərini nəzərə alsaq, ziddiyyət yaranır: bir tərəfdən Bjezinski alyansın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) və Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) kimi təşkilatlarla əməkdaşlıq etməsini, KTMT ilə razılaşma imzalamağı təklif edir, digər tərəfdən alyansın mərkəz kimi qalması perspektivinə inanır. Ziddiyyət də bundadır.

Əgər NATO ilə Rusiyanın konkret olaraq Aralıq dənizi dialoqu kontekstində münasibətlərindən danışsaq, bu proqramın meydana çıxması NATO-nun şərqə doğru genişlənməsi problemini obyektiv olaraq bir qədər yumşaldır. «Aralıq Dənizi Dialoqu» göstərir ki, Alyans Rusiyanın milli maraqlarına təhlükə yaratmaqla təkcə Şərqi Avropa ölkələrini öz sıralarına qəbul etmir, həm də Şimali Afrika ölkələri ilə əməkdaşlıq edir ki, buna da heç bir halda rus maraqlarına toxunan hal kimi baxıla bilməz. Məhz bu səbəbdən də Rusiyanın xarici-siyasi elitası «Aralıq Dənizi Dialoqu»nun inkişafında maraqlıdır. Bu, Rusiya rəhbərliyinə NATO-nun şərqə doğru genişlənməsi prosesinin dönməzliyi şəraitində öz «simasını qorumaq» imkanı verəcəkdir.

Qeyd edək ki, hazırda NATO-nun 1999-cu il konsepsiyasını 2010-cu ildə Lissabonda qəbul edilmiş yeni strateji konsepsiyası əvəzlənmişdir.

## 11-cu fəsil
## NATO-nun yeni strateji konsepsiyası

NATO-nun Lissabon sammiti 2010-cu il noyabrın 19-20-də Lissabonda keçirilmişdir. Bu sammitdə NATO ölkələri başçıları alyansın yeni strateji konsepsiyasını qəbul etmişlər. Bundan başqa bu toplantıda Əfqanıstan prezidentinin də iştirakı maraq doğurmuşdur. Sammitdə Əfqanıstanda təhlükəsizliyin təmin edilməsi və bu prosesin 2014-cü ilə kimi tədricən Əfqanıstan milli qüvvələrinə ötürülməsi də müzakirə edilmiş və müvafiq qərar qəbul olunmuşdur. Əsas müzakirə mövzusu isə NATO-nun raketlərdən müdafiə qurğularının Şərqi Avropa və Türkiyədə yerləşdirilməsi məsələsi idi. Eyni zamanda təşkilat daxilində müəyyən struktur dəyişiklikləri və hərbi xarakterli ixtisarlar aparılmışdır.

NATO prezident İlham Əliyevin də iştirak etdiyi Lissabon zirvə toplantısının yekun bəyanatının 35-ci maddəsində Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini tanıdığını bir daha təsdiqləyibdir. NATO Cənubi Qafqaz və Moldovadakı münaqişələrin uzun müddət davam etməsindən narahatlığını bildirərək, münaqişə tərəflərinə çağırışlar ünvanlayıbdır: "Cənubi Qafqaz və Moldovada münaqişələrin hələ də davam etməsi NATO üçün yenə də ciddi təhlükə predmeti sayılır. Biz tərəfləri regionda sabitlik və təhlükəsizliyi poza biləcək addımlardan çəkinməyə çağırırıq. Bütün tərəfləri bu məsələlərdə konstruktivlik və siyasi iradə nümayiş etdirməyə, bu münaqişələrin sülh yolu ilə həllinə, danışıqlara hörmətlə yanaşmağa çağırırıq". Bundan başqa alyans sənəddə hər



bir münaqişənin xarakterini nəzərə almaqla, bu regional münaqişələrin sülh yolu ilə həlli istiqamətində səyləri dəstəkləyəcəyini bildirib.

Xatırladaq ki, Ermənistan prezidenti Serj Sarkisyan Lissabon Zirvə toplantısında iştirakdan imtina edərək, sammitə qatılmayıb. Prezidentin mətbuat xidməti işğalçı dövlətin liderinin toplantıda iştirakdan imtinasını qurumun Cənubi Qafqazdakı münaqişələrin həlli barədə qəbul etməyə hazırlaşdığı qətnamə layihəsindəki ümumiləşdirilmiş formullarla razılaşmaması ilə əlaqələndirib. Görünür, rəsmi İrəvan Lissabon bəyanatının Azərbaycanın ərazi bütövlüyünün tanınması və Dağlıq Qarabağ münaqişəsinin də Azərbaycanın ərazi bütövlüyü prinsipi əsasında həll olunması tövsiyəsilə barışmadığından və sənədin qəbuluna mane ola bilməyəcəyini anladığından Lissabon sammitinə qatılmamağa qərar verib. Serj Sarkisyan təşkilatın baş katibi Anders Foq Rasmussenlə birgə keçirdiyi mətbuat konfransında açıq şəkildə NATO-nun Azərbaycanın ərazi bütövlüyünə dəstək verməməsini istəmişdi. Bundan əlavə o, Azərbaycanın mümkün hərbi əməliyyatlara başlayacağı təqdirdə NATO-nu ölkəmizə hərbi müdaxiləyə çağırmışdı. Amma Ermənistanın bu istiqamətdə uzun müddət davam edən səylərinə baxmayaraq, NATO ölkələri Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiklərini bir daha bildirmişlər. Alyans ölkələri bu dəstəyi hələ 1994-cü ildə ifadə etmiş və həmin il qəbul olunan Sülh Naminə Tərəfdaşlıq çərçivə sənədinin prinsiplərinə uyğun olaraq, fəal tərəfdaşlardan hesab olunan Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və siyasi müstəqilliyinə dəstək vermişdilər. İrəvanda belə düşünürlər ki, Lissabon Sammitinin yekun qətnamə layihəsində Cənubi

Qafqazdakı münaqişələrin həlli barədəki formullarda ATƏT-in elan olunmuş prinsiplərindən yalnız birinə istinad münaqişənin sülh yolu ilə həll olunması üçün aparılan danışıqlarda əlavə çətinliklərə səbəb olar.

Lissabon sammitin nəticələrini təhlil edərkən deməliyik ki, Ankara Türkiyə ərazisində hərbi alyansın raketdən müdafiə qurğularının yerləşdirilməsinə rəsmən icazə verdi. Təbii ki, bu addım Türkiyənin dövlət və milli təhlükəsizlik maraqlarını müdafiə etməklə atıldı - Ankara rəsmən bildirdi ki, həmin qurğulardan üçüncü dövlətin ərazisinə zərbə endirmək olmaz.

Azərbaycan prezidenti İlham Əliyevin bu sammitdə iştirakı onu deməyə əsas verir ki, Lissabon toplantısını iki mərhələyə bölmək olar. Birincisi, NATO-nun öz tərkibinə daxil olan dövlətlər arasında əməkdaşlığın mahiyyət etibarı ilə yeni müstəviyə gətirilməsi, ikincisi, NATO-ya daxil omayan, amma bu qurumla əməkdaşlığa meyli olan dövlətlərarası münasibətlər.

Bu sammitdə bir daha qeyd olundu ki, BMT Dağlıq Qarabağ kimi münaqişələrin həlli üçün mandatı ATƏT-in müvafiq qrumuna verdiyindən NATO bu tipli münaqişələrə birbaşa müdaxilə etmək fikrində deyil. Amma bununla belə Azərbaycanın milli təhlükəsizilik maraqları baxımından NATO həmişə rəsmi Bakının mövqeyini dəstəkləyib. Dağlıq Qarabağ münaqişəsində NATO-nun tutduğu mövqe Azərbaycanın xarici siyasətində tutduğu düzgün mövqe ilə bağlıdır. Təbii ki, rəsmi İrəvan bundan bərk narahatdır . Xatırladaq ki, NATO-nun 1994, 2006, 2008 və 2009-cu illərdəki zirvə toplantılarında da Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə olunmuşdu.



Lissabon sammiti Rusiya-NATO münasibətlərindəki gərginliyin aradan qalxmasına öz töhfəsini vermədi. Bu ölkənin NATO-dakı rəsmi nümayəndəsi Dmitri Raqozin dedi ki, Rusiya bütün hallarda NATO-nun Şərqə doğru irəliləməsinin əleyhinədir. Düzdür, bu sammitdə Çexiya və Polşa ərazisində NATO-nun planlaşdırdığı hərbi qurğuların yerləşdirilməsilə bağlı məsələ öz həllini tapmadı. Amma perspektivdə bu məsələ istisna olunmur.

NATO-nun yeni strateji konsepsiyasının qəbulu göstərdi ki, alyansın genişlənmək üçün potensialı vardır və bu hərbi-siyasi bloka daxil olmaq üçün namizədlər təkcə Şərqi Avropada deyildir. Hər şeydən görünür ki, gələcəkdə NATO-nun genişlənməsi iki ardıcıl mərhələdən ibarət olacaqdır. Birinci mərhələdə şərq vektoru üstünlük təşkil edəcək və eyni zamanda Şimali Atlantika İttifaqının Yaxın Şərq və Şimali Afrika ölkələri ilə tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsi baş verəcəkdir. Münasibətlərin rəsmi şəkil alması və Aralıq dənizi ölkələri üçün «Sülh Naminə Tərəfdaşlıq» proqramının da meydana çıxması mümkündür. Şərqi Avropadan olan bütün münasib namizədlər Alyansa qəbul edildikdən sonra Şimali Afrika və Yaxın Şərq ölkələrinin növbəsi çatacaqdır. Həm də hər bir ölkənin ayrılıqda NATO meyarlarına uyğunluq imkanları nəzərə alınacaqdır. Bu proses tədricən gedəcək və onun sürəti, Şərqi Avropadakı hadisələrdən göründüyü kimi, Rusiyanın bu məsələyə dair mövqeyindən asılı olmayacaqdır.

# II BÖLMƏ
# NATO-nun universallaşması kontekstində Alyansda qeyri-hərbi əməkdaşlıq

## 1-ci fəsil
## NATO-nun təhlükəsizlik siyasəti

Amerika Birləşmiş Ştatları və Avropanı birləşdirən, üzvü olan dövlətlərin inteqrasiyasını həyata keçirən və onlara qarşı yönəlmiş bütün təhdidləri dəf edən Şimali Atlantika Alyansı səmərəli bir institut olduğunu artıq sübut etmişdir. NATO bəşəriyyət tarixində həm səmərəli müdafiə, perspektivdə isə həm də sülhyaratma strukturudur. NATO fenomeni ittifaqlar tarixində xüsusi yer tutur, çünki həm hərbi, həm də qeyri-hərbi təhlükəsizliyi təmin etməklə bərabər dövlətin müəyyən modelinin, bəşər mədəniyyəti və cəmiyyətinin inkişafına zəmanət verir. XXI əsrin çağırışlarına cavab vermək üçün Alyans NATO və tərəfdaş ölkələrin güc və imkanlarının genişlənməsinə yönəlmiş bir sıra islahatlar keçirmişdir.

Şimali Atlantika Alyansı təhlükəsizlik sahəsində öz siyasətini aşağıdakı vasitələrin köməyi ilə həyata keçirir: müharibənin dəf edilməsi və səmərəli müdafiənin təmin olunması üçün kifayət qədər hərbi potensialın saxlanılması; üzvlərinin təhlükəsizliyinə toxunan və Şimali Atlantika müqaviləsinin 5-ci maddəsinin hüdudları xaricinə çıxan böhranların aradan qaldırılması üçün ümumi potensialın mövcudluğu; başqa ölkələrlə dialoqa və silahlar üzərində nəzarət və tərksilah sahəsində daha çox tərəqqiyə nail olunması tədbirləri də daxil olmaqla



əməkdaşlıq əsasında Avropa təhlükəsizliyi problemlərinin həllinə fəal dəstək verilməsi.

Özünün əsas məqsədlərinə çatmaq üçün Şimali Atlantika Alyansı təhlükəsizlik sahəsində aşağıdakı əsas vəzifələri yerinə yetirir:

- Demokratik institutların inkişafına və mübahisələrin dinc yolla həllinə istinad etməklə Avropada sabit təhlükəsizlik şəraitinin bərqərar olması üçün zəruri bazanı təmin edir, elə şəraitin yaradılmasına çalışır ki, heç bir ölkə istənilən digər ölkəni qorxuda və ya nəyəsə məcbur edə, yaxud güc tətbiqi və ya onun tətbiqi ilə təhdid etməklə öz təsiri altına sala bilməsin.
- Şimali Atlantika müqaviləsinin 4-cü maddəsinə uyğun olaraq müttəfiqlərin onların təhlükəsizliyini təhlükə altına ala biləcək hadisələr də daxil olmaqla istənilən məsələlər üzrə məsləhətləşmələr aparmaları üçün transatlantik forum rolunu oynayır. Müttəfiqlərin ümumi maraqları sferasında onların səylərinin əlaqələndirilməsinə yardım edir.
- NATO-nun üzvü olan istənilən dövlətin ərazisinə qarşı hər hansı formada təcavüzün qarşısının alınmasını yaxud ondan müdafiəni təmin edir.
- Bütün transatlantik məkanda strateji tarazlığı saxlayır.

## 2-ci fəsil
## NATO-nun fəaliyyətində alyansın hərbi və mülki strukturlarının rolu

NATO çərçivəsində yaradılmış strukturlar Alyansa üzv ölkələrə yuxarıdakı bir-birlərini qarşılıqlı tamamlayan məsələlərin həlli məqsədilə öz siyasətlərini əlaqələndirmək imkanı verir. Bu strukturlar siyasi, iqtisadi və digər qeyri-hərbi sahələrdə daimi məsləhətləşmələri və əməkdaşlığı, həmçinin ümumi müdafiənin birləşmiş planlarının tərtibini, silahlı qüvvələrin fəaliyyətinin təmin edilməsi üçün infrastrukturun yaradılmasını və şəxsi heyətin, hərbi təlimlərin və sülhyaratma əməliyyatlarının hazırlanmasının birləşmiş proqramlarının işlənilib hazırlanmasını və təşkilini nəzərdə tutur.

Bu fəaliyyət mürəkkəb hərbi və mülki struktur vasitəsilə həyata keçirilir. Bura inzibati, büdcə və plan məsələləri ilə məşğul olan aparat və Şimali Atlantika Alyansının üzvləri olan ölkələr tərəfindən ixtisaslaşmış sahələrdə, məsələn, siyasi məsləhətləşmələrin keçirilməsinə, həmçinin qoşunların və onların maddi-texniki təminatı xidmətinin idarə olunmasına kömək edən rabitə sistemlərinin tənzimlənməsində işlərin əlaqələndirilməsi üçün yaradılmış qurumlar daxildir. Bütün bunlar NATO-nun aşağıdakı geopolitik maraqlarını həyata keçirməyə xidmət edirlər:

- Bütün mümkün vasitələrlə başqa dövlətləri və ictimai institutları özündən asılı vəziyyətə salmaqla özünün cari və gələcək iqtisadi və siyasi maraqlarının və təhlükəsizliyinin təmin olunması;



- Öz mənafeyi üçün yad ölkələrin təbii və digər ehtiyatlarının maksimum mənimsənilməsi (açıq-aşkar yaxud digər vasitə ilə);
- İqtisadi və siyasi təzyiq, sıxışdırma, müxtəlif maxinasiyalar, şantaj, gizli təxribat hərəkətləri və birbaşa təcavüz yolu ilə bütün istiqamətlər, xüsusilə də yüksək texnologiyalar sahəsində başqa ölkələr üzərində tam üstünlüyə nail olunması;
- Tam nəzarət həyata keçirərək situasiyanı özünə tabe etdirməklə bütün sadalanan sahələrdə keyfiyyətli və dönməz uğurların qazanılması.

İqtisadi cəhətdən inkişaf etmiş böyük güclərin geopolitik maraqları qısaca olaraq belədir. Onlar yalnız digər bir böyük gücün əks-təsiri və bəzi başqa mexanizmlərlə məhdudlaşırlar.

## 3-cü fəsil
## «Qlobal NATO»

Yeni strategiyanın əsas ideyası - «qlobal NATO»-nun, elə bir hərbi ittifaqın yaradılmasıdır ki, o öz məsuliyyət sferasını genişləndirərək, bütün dünyanı əhatə edə bilsin. Vaşinqton və Brüsseldə bu planları «avroatlantik təhlükəsizlik strukturlarının qloballaşdırılması» adlandırır, Alyansın yeni strategiyasının qəbuluna çoxsaylı yerli münaqişələrin, yeni raket və nüvə dövlətlərinin, həmçinin kimyəvi və bakterioloji silahların işlənilib hazırlanması və tətbiqi nöqteyi-nəzərindən potensial təhlükəli ölkələrin meydana çıxması ilə haqq qazandırırlar.

NATO-nun qlobal strategiyasının əsas məqsədlərindən biri ABŞ-ın və blokun aparıcı dövlətlərinin maraqlarının qlobal miqyasda qorunmasıdır. Hərbi mənada söhbət Atlantikadan Orta Şərqə qədər təsir dairəsinə yenidən baxılmasından, quru və dəniz hərbi əməliyyatları üçün yeni meydanlardan istifadə edilməsindən gedir. Burada BMT TŞ-nın yaxud ATƏT-in qabaqcadan sanksiyalarını almadan müstəqil güc tətbiqi də nəzərdə tutulur. Mahiyyətcə, blokun məsuliyyət zonasından kənarda güc tətbiq etməklə aksiyalar keçirmək iddiası açıq-aşkar görünür.

Rusiya ekspertlərinin fikrincə isə, həm Vaşinqtonda, həm də Brüsseldə yüksək rütbəli hərbçilər bu ölkənin geniş ərazilərində böyük miqdarda zəif qorunan nüvə silahlarının olmasından narahatdırlar. Onların fikrincə, qeyri-sabit Rusiyada bu qorxunc silah nəzarət altına alınana qədər NATO bloku öz hərbi potensialını təkmilləşdirəcək və onu Şərqə doğru irəlilədəcəkdir.



Alyansın mütəxəssislərinin proqnozlarına görə belə yanaşma bu gün olmasa da gələcəkdə özünü doğruldacaqdır.

NATO-nun genişlənməsi düsturu rəsmi səviyyədə reklam çağırışı kimi təkrar olunur: «Alyansın qapıları hamı üçün açıq olaraq qalır». Blokun əsas «qapısı önündə» isə artıq «könüllü»lər sıraya düzülmüşlər.

## 4-cü fəsil
## NATO-nun «yumşaq» təhlükəsizlik siyasəti

NATO-nun fəaliyyətinin digər az öyrənilmiş cəhəti bu fəaliyyətin hərbi-siyasi aspekti ilə bilavasitə bağlı olmayan sferalarda əməkdaşlığın inkişafıdır. «Aralıq Dənizi Dialoqu» nümunəsində biz gördük ki, hərbi əməkdaşlıqla yanaşı NATO «yumşaq» təhlükəsizlik problemlərinə getdikcə daha çox diqqət yetirir. NATO-nun mövcud olduğu 60 il ərzində Şimali Atlantika İttifaqı daxilində bütöv strukturlar şəbəkəsi yaranmışdır. Onlar siyasi, iqtisadi, ekoloji, sosial, hüquq müdafiəsi və mədəni sahələrdə əməkdaşlığa, məsləhətləşmələrə və beynəlxalq problemlərin həllinə köməklik etməlidirlər. Qeyd edək ki, qeyri-hərbi sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələsi hələ ötən əsrin 50-60-cı illərində, yəni Alyansın ilk formalaşma və təşkilatlanma illərində müzakirə mövzusuna çevrilmişdir. Çünki SSRİ-nin ABŞ-a birbaşa zərbə endirmək potensialına yiyələnməsi hərbi-siyasi ritorikada bəzi dəyişikliklər etməyi tələb edirdi. Ənənəvi hərbi-siyasi gedişlər acınacaqlı nəticələrə gətirib çıxara bilərdi. Bu, müttəfiqlərin mövqeyinə ciddi təsir etməyə başladı. Artıq sərt hərbi-siyasi bəyanatlar öz populyarlığını itirdi. Çeviklik, operativlik, preventivlik kimi prinsiplər aktuallıq kəsb etməyə başladılar. Hətta rəqib qüvvələrlə, kommunistlərlə açıq və fasiləsiz dialoq qurmaq kimi çağırışlar da səslənirdi*. Bu yolla müttəfiqlər aradakı gərginliyi yumşaltmağa, vəziyyəti nəzarət altında saxlamağa çalışırdılar. Bu, o dövr üçün uzaqgörən yanaşma ilk dəfə, yüksək rəsmi səviyyədə 1967-ci ildə Belçikanın o zamankı xarici işlər naziri Pyer Harmel tərəfindən irəli sürülmüşdür. O, eyni zamanda ekspertlər tərəfindən NATO tarixinin dönüş nöqtəsi kimi də qiymətləndirilir.

Qeyd etmək lazımdır ki, «soyuq müharibə» illərində qarşılıqlı fəaliyyətin bu, qeyri-hərbi sahələri NATO-nun hərbi strukturunun ayrılmaz tərkib hissəsi hesab olunurdu və sovet təbliğatı onlara müstəqil qurumlar kimi baxmırdı. Ədalət naminə deməliyik ki, o zaman həmin qurumlar həqiqətən blokun hərbi strukturuna münasibətdə tabe vəziyyətdə idilər. Lakin Alyansın qeyri-hərbi orqanlarının cizgiləri 60-cı illərin sonuna doğru formalaşmağa başlamışdı və prezident R.Nikson NATO-nun 1969-cu ildəki yubiley sessiyasında blokun hərbi, siyasi və sosial yönümünün mövcudluğunu heç də təsadüfən bəyan etməmişdi. Bununla belə, 90-cı illərin başlanğıcında Şimali Atlantika Alyansının kollektiv müdafiə və təhlükəsizlikdən başqa əlavə işlərlə də məşğul olması çoxları üçün gözlənilməz oldu. Amma yenə də NATO-ya ənənəyə görə sırf hərbi təşkilat kimi baxılır və əməkdaşlığın başqa sahələri nəinki Azərbaycanda, hətta rus elmi publisistikasında da praktik olaraq işıqlandırılmır. Bu, həmin sahə ilə məşğul olan tədqiqatçıların əsas səhvlərindən biridir və biz bu işimizlə yaranmış boşluğu müəyyən qədər doldurmağa çalışacağıq. Çünki, skeptiklərin fikrinə rəğmən əməkdaşlığın «əyalət» sferaları dinamik inkişaf edir və yaxın gələcəkdə də bu

---

*Belə ki, münasibətlərin bu qəbildən olan inkişafının əsasları hələ XX əsrin 60-70-ci illərində labüd edilmişdir. Maraqlıdır ki, 1967-ci ildə NATO Strateji Konsepsiyalarına əlavə olaraq qəbul edilmiş Harmel doktrinasında, bir tərəfdən Alyansın hərbi potensialının artırılması nəzərdə tutulurdusa, digər tərəfdən Sovet İttifaqı və Varşava Bloku ölkələri ilə dialoqun aparılmasının zəruriliyi vurğulanırdı;

tendensiya davam edəcəkdir. Ancaq bu heç də belə fikirlərə haqq qazandırmır ki, NATO özünün hərbi tərkib hissəsindən tamamilə imtina etmək fikrindədir. Əksinə, hazırkı vəziyyətə Şimali Atlantika Alyansının universallaşması kontekstində daha geniş baxmaq lazımdır. Belə ki, siyasi, iqtisadi, ekoloji, elmi və hüquq müdafiə problemləri ilə yanaşı hərbi məsələlər də NATO-nun yeni strategiyasında balanslaşmış rol oynayacaqdır. Hələlik isə Alyansın rəhbərləri blokun hərbi-siyasi tərkib hissəsinə daha çox diqqət yetirirlər, baxmayaraq ki, qeyri-hərbi sferaların təşkilatın fəaliyyətində aparıcı yer tutmaq üçün potensial şansları vardır.



## 5-ci fəsil
## NATO-nun universallaşması: müsbət və mənfi cəhətlər

NATO-nun universallaşmasının ayrı-ayrı dövlətlərin, məsələn, uzun illər Alyansla rəqabət aparmış keçmiş SSRİ-nin varisi olan Rusiyanın maraqları nöqteyi-nəzərindən həm müsbət, həm də mənfi cəhətləri vardır. Aydındır ki, universallaşma hər şeydən əvvəl NATO-nun hərbi tərkib hissəsinin transformasiyasına və bunun da nəticəsi olaraq blokun Rusiya üçün törətdiyi hərbi təhlükənin azalmasına gətirib çıxaracaqdır. Şübhəsiz, bu Rusiyanın xarici siyasət elitasının nümayəndələrini sevindirməyə bilməz. Amma universallaşmanın təhlükəli məqamları da az deyildir.

Belə ki, beynəlxalq münasibətlər sistemində bir qlobal universal qurum artıq vardır. Bu, Birləşmiş Millətlər Təşkilatıdır. Onun Amerika administrasiyası tərəfindən vaxtaşırı məruz qaldığı tənqidi nəzərə alsaq, NATO-nun analoji, lakin Amerika siyasətçilərinin fikrincə daha səmərəli təşkilat yaradılması məqsədilə BMT modeli üzrə transformasiyası istisna deyildir. Məhz bu şəraitdə Rusiya NATO-nun qərarlarının qarşısını ala bilməyəcək. Çünki həmin təşkilatın üzvü deyildir və BMT-nin Təhlükəsizlik Şurasındakı statusundan fərqli olaraq burada veto hüququ yoxdur. Bu situasiyaya qərarların qəbulunu BMT-dən yan keçməklə legitimləşdirmək cəhdi kimi də baxıla bilər. Maraqlıdır ki, praktikada belə taktika hələ 1999-cu ildə Yuqoslaviyada sınaqdan çıxarılmışdır.

28 müstəqil suveren dövlətin alyansının siyasətinin işlənilib hazırlanması və həyata keçirilməsi tələb edir ki,

bura daxil olan bütün ölkələrin hökumətlərinin ümumi siyasət və bir-birlərinə münasibətdə niyyətləri, həmçinin öz siyasi kurslarının seçilməsi və planlarının hazırlanması zamanı əldə rəhbər tutduqları mülahizələr barədə ətraflı məlumatları olsun. Buna görə də müntəzəm məsləhətləşmələrin aparılması zərurəti meydana çıxır.

Məsləhətləşmələrə tələbat siyasi mövzularla məhdudlaşmır. Şimali Atlantika Alyansı çərçivəsindəki məsləhətləşmələr forma müxtəlifliyi ilə fərqlənir. Onlardan ən sadəsi adi fikir və informasiya mübadiləsidir. Növbəti səviyyədə məsləhətləşmələr müttəfiqlərin maraqlarına toxunan tədbirlər yaxud qərarlar haqqında məlumatlar şəklini alır.

Məsləhətləşmələr hökumətlərin gələcək tədbirləri və ya qərarları haqqında bildirişlər, həmçinin konsensusa nail olunması məqsədilə müzakirələr formasında ola bilər. Məsləhətləşmələrin ali forması NATO ölkələrinə bütövlükdə Şimali Atlantika Alyansının kollektiv qərarları və hərəkətləri üzrə qarşılıqlı məqbul razılaşmalara nail olma imkanının verilməsidir.



## 6-cı fəsil
## NATO-nun qeyri-hərbi tərkib hissələri, onların quruluşu və fəaliyyət istiqamətləri

İndi isə Şimali Atlantika Alyansının birbaşa qeyri-hərbi tərkib hissələrinə keçək. NATO-nun qeyri-hərbi strukturu əməkdaşlığın müxtəlif sferaları ilə məşğul olan ayrı-ayrı profilli komitələrin işi ilə təmsil olunmuşdur. 1956-cı ildən fəaliyyəti qeyri-hərbi problemlərin geniş spektrini əhatə edən «Üç müdriklər komitəsi» işə başladı. Onun meydana çıxması xeyli dərəcədə SSRİ-də Xruşşov hakimiyyətə gələndən sonra həm ölkədə, həm də beynəlxalq münasibətlərdə yumşalmanın başlanması ilə bağlı idi. Bununla əlaqədar olaraq NATO rəhbərliyi Sovet İttifaqı ilə hərtərəfli, o cümlədən hərbi qarşıdurma ilə bağlı olmayan sahələrdə əməkdaşlığa başlamaq haqqında qərar qəbul etdi.

Hər şeydən əvvəl bu komitə SSRİ və Varşava Müqaviləsi Təşkilatı (VMT) ilə siyasi və digər qeyri-hərbi məsələlər üzrə hərtərəfli məsləhətləşmələri, həmçinin VMT ilə bu problematika üzrə danışıqlarda NATO-nun ümumi xəttini təmin etmək vəzifəsini öz üzərinə götürdü. Qeyri-rəsmi «Üçlər komitəsi» adını almış bu komitəyə A.Harriman başçılıq edirdi və onun tərkibinə başlanğıc mərhələdə NATO üzvü olan üç ölkənin xarici işlər naziri daxil olmuşdu. İtaliyanı «Üçlər komitəsi»ndə Martino, Norveçi Lange və Kanadanı Pirson təmsil edirdi.

Komitənin əsas funksiyası NATO Şurasına Alyans daxilində qeyri-hərbi sahələrdə əməkdaşlığın genişləndirilməsi yolları və üsullarına və Atlantik cəmiyyətində böyük birliyin bərqərar olmasına dair

məsləhətlər vermək idi. NATO-nun ilk qeyri-hərbi orqanı olan Üçlər komitəsinin tövsiyəsi ilə 50-ci illərdə Alyansın digər qeyri-hərbi orqanlarının yaradılmasına başlanıldı.

Blokun qeyri-hərbi strukturunda aparıcı rolu Siyasi Komitə və NATO-nun Beynəlxalq katibliyinin siyasi məsələlər şöbəsi oynayır ki, onun da bir hissəsi siyasi məsələlər üzrə direktorluqdur. Siyasi məsələlər şöbəsinə və Siyasi Komitəyə bir nəfər-NATO-nun Baş katibinin siyasi məsələlər üzrə köməkçisi başçılıq edir. Beynəlxalq katiblik hər gün işləyir, Siyasi Komitənin iclasları da müntəzəm keçirilir ki, bu da NATO-nun siyasi tərkib hissəsinin fəaliyyətində fasiləsizliyi təmin edir. Alyansın Siyasi Komitəsi mövcud beynəlxalq vəziyyəti təhlil edir, NATO Şurası üçün məruzə və tövsiyələr hazırlayır, həmçinin Qərbin həyati vacib maraqları zonasına daxil olan ölkələrə səfərlər etmək yolu ilə xarici siyasi hadisələrin NATO üçün əlverişli şəkildə inkişaf etməsinə təsir göstərir. Məsələn, ötən minilliyin son üç ilində Siyasi Komitənin nümayəndə heyəti üç dəfə Ukraynaya səfər etmişdir. Komitənin nümayəndə heyətinin 2000-ci il oktyabrın 4-də baş tutan son səfəri Ukrayna hökumətində Alyans üçün əlverişli olmayan yerdəyişmələrlə bağlı idi ki, bu da təcili məsləhətləşmələr tələb edirdi.

Bundan başqa Komitə NATO üçün olduqca vacib bir işi - iştirakçı ölkələrin mövqelərinin yaxınlaşdırılması və blok daxilində konsensusa nail olunması kimi mühüm bir vəzifəni yerinə yetirir. Bunsuz NATO daxilində heç bir qərarın qəbul edilməsi təsəvvür olunmur, çünki istənilən aksiya üzv ölkələr tərəfindən yekdilliklə bəyənilməlidir. Təəssüf ki, NATO ilə əməkdaşlıq edən, lakin Şimali Atlantika Alyansına daxil olmayan ölkələr NATO-da daxili razılaşdırmalara və qərarların qəbul edilməsi



prosesinə ciddi təsir etmək imkanına malik deyillər, çünki Siyasi Komitəyə yalnız 28 üzv dövlətin nümayəndələri daxildir.

NATO ilə xüsusi Əsas akt imzalamış və «veto hüququ olmadan səs hüququ» almış Rusiya Şimali Atlantika Müqaviləsi Təşkilatı Şurasının qərarlarının qarşısını ala bilmir. Bundan əlavə o, Siyasi Komitədə işləmək və hətta müzakirə prosesində iştirak etmək imkanından məhrum edilmişdir. Bir qayda olaraq işlər aşağıdakı sxem üzrə gedir: qərarlar Siyasi Komitənin iclaslarında müzakirə və qəbul olunur, NATO Şurasında bəyənilir və yalnız bundan sonra Rusiya-NATO Birgə Daimi Şurasının iclaslarına çıxarılır ki, burada da təşkilatın 28 üzvü vahid və uzlaşdırılmış mövqe ilə Rusiya Federasiyasına qarşı çıxış edirlər. Təbii ki, Rusiya öz fikrini bildirmək imkanına malikdir, lakin onun NATO-nun mövqeyinə hətta müzakirə mərhələsində də təsir etmək üçün real rıçaqları yoxdur və nə qədər ki bu ölkə Siyasi Komitədən təcrid olunmuşdur, dünyadakı siyasi vəziyyətə Şimali Atlantika Alyansı nəzarət və müdaxilə edəcəkdir.

Qeyri-hərbi əməkdaşlığın digər əsas sahəsi iqtisadi əlaqələrdir. Şimali Atlantika Alyansı daxilində iqtisadi əməkdaşlığın əsasları Şimali Atlantika müqaviləsinin 2-ci maddəsi ilə tənzimlənir. Əməkdaşlığın iqtisadi məsələləri ilə NATO-nun İqtisadi Komitəsi məşğul olur. İqtisadi inkişafın təhlükəsizliyi ilə bağlı olan aşağıdakı məsələlər təhlil edilir və birgə qiymətləndirilir: hərbi xərclərin müqayisəsi, hərbi sənayenin inkişaf təmayülləri, müdafiə sahəsində planların həyata keçirilməsi üçün resursların mövcudluğu, NATO daxilində hərbi texnika ticarəti, həmçinin üzv ölkələrin iqtisadi əməkdaşlığı və qarşılıqlı yardımı.

Şimali Atlantika Alyansı daxilində iqtisadi əməkdaşlığı inkişaf etdirən üzv dövlətlər buna əsaslanırlar ki, siyasi əməkdaşlıqla iqtisadi sahədə münaqişələr qətiyyən bir araya sığmır. Bu ona gətirib çıxarmışdır ki, NATO ölkələrinin hökumətləri Alyansın iqtisadi cəhətdən daha zəif ölkələrinə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) da daxil olmaqla başqa təşkilatlar tərəfindən yerinə yetirilən irimiqyaslı yardım proqramları vasitəsilə köməklik etməyə başlamışlar. Bu ölkələrin özünəməxsus iqtisadi problemləri və inkişaf perspektivləri əvvəlki kimi yenə də Şimali Atlantika Alyansının diqqət mərkəzində durur.

NATO-nun İqtisadi Komitəsi 1957-ci ildə «Üçlər komitəsi»nin tövsiyəsi əsasında yaradılmışdır. Onunla birlikdə NATO-nun Beynəlxalq katibliyi daxilində İqtisadi məsələlər üzrə Direktorluq daimi fəaliyyət göstərir. Siyasi Komitədə olduğu kimi bu iki orqana bir vəzifəli şəxs rəhbərlik edir.

Bu strukturun yaranmasının zəruriliyinin izlərini hətta NATO-nun təsis edilməsi haqqında Vaşinqton müqaviləsində də tapmaq mümkündür. 2-ci maddədə deyilir ki, «tərəflər özlərinin beynəlxalq siyasətlərindəki ziddiyyətlərin aradan qaldırılması üçün hər cür səy göstərirlər və həm iki-, həm də çoxtərəfli əsasda iqtisadi əməkdaşlığın inkişafına dəstək verəcəklər». Bu maddə Komitənin işi üçün özünəməxsus əsasdır. İlkin mərhələdə İqtisadi komitə İkinci Dünya müharibəsindən sonra Avropa ölkələrinə özlərinin iqtisadi və hərbi potensialının bərpası işində ABŞ-ın Marşal planı ilə yanaşı əlavə yardımının həyata keçirilməsinə dəstək verməli idi. Lakin sonralar Avropa ayağa qalxdı və amerikan köməyinin resipiyentindən dünya iqtisadi mərkəzlərindən birinə



çevrilərək, Birləşmiş Ştatlarla rəqabətə başladı. NATO çərçivəsində bu problemlər hər şeydən əvvəl silah alınmasında və NATO-nun avropalı üzvlərinin hərbi xərcləri artırması məsələlərində mövqelərin üst-üstə düşməməsində özünü göstərir. Yeni şəraitdə NATO-nun iqtisadi komitəsindən Qərbi Avropa ilə ABŞ arasındakı ziddiyyətlərin yumşaldılması üçün istifadə etməyə başladılar, çünki Sovet təhlükəsi mövcud olan bir vaxtda hərbi-siyasi əməkdaşlıq etməklə yanaşı açıq iqtisadi rəqabət aparmaq yolverilməz idi və uzaqgörənliyə dəlalət etmirdi. «Soyuq müharibə»nin qurtarmasına baxmayaraq Komitənin bu vacib funksiyası indi də qalmaqdadır.

Hazırda İqtisadi Komitənin sədri bu vəzifəyə 2000-ci ilin oktyabrında təyin edilmiş Fransa vətəndaşı Patrik Arduandır. O, müsahibələrinin birində İqtisadi Komitənin vəzifələrini qısaca belə müəyyənləşdirmişdir:

1. NATO üzvləri və tərəfdaşları olan ölkələr arasında iqtisadi əməkdaşlıq.

Hərbi bazaların yeni avadanlıqlarla təchizi və ya ləğv edilməsi, hərbi xidmətdən tərxis olunmuş zabitlərin yenidən hazırlanması;

Ordularda islahat. Məsələn, silahlı qüvvələrə demokratik nəzarətin və onların mülki şəxs tərəfindən idarə olunmasının tətbiqi;

Hərbi sənaye kompleksinin islahatı və konversiyası.

2. NATO üzvü olan ölkələrin həm iqtisadi, həm də hərbi təhlükəsizliyinə aid olan qərarların təhlili və hazırlanması.

2002-ci ilin əvvəllərində bu Komitənin sədri Moskvada Moskva Dövlət iqtisadiyyat, statistika və informatika universitetinin bazasında ehtiyata buraxılmış hərbçilərin sosial adaptasiyası üzrə İnformasiya mərkəzinin açılması

barədə kontrakt imzalamışdır. Bu tədbir hazırda da NATO ilə Rusiya arasındakı sosial-iqtisadi əməkdaşlığın azsaylı nümunələrindən biridir. Mərkəzin açılması ideyası Rusiyadan, özü də hələ 1997-ci ildə gəlmişdi, lakin praktikada yalnız beş il sonra realizə olundu. Mərkəzin işi İqtisadi komitənin vəzifələrinin birinci bəndi ilə tənzimlənir. Orada deyilir ki, NATO tərəfdaş dövlətlərdə ehtiyata buraxılmış zabitlərin yenidən hazırlanmasına yardım göstərir. NATO ilə münasibətlərini 2000-ci ildə bərpa etmiş Rusiya «Sülh Naminə Tərəfdaşlıq» proqramında iştirak edir, buna görə də belə layihələrə ümid edə bilər.

Bundan başqa komitə sədri başqa sahələrdə, o cümlədən Şimali Atlantika İttifaqı üzvü olan ölkələr tərəfindən rus silahının alınması sferasında da Rusiya-NATO əməkdaşlığının genişlənməsi imkanlarını istisna etməmişdir. Lakin, onun fikrincə, hərbi müəssisələrin sifarişlə yüz faizlik təminatından söhbət gedə bilməz. Yuxarıda adı çəkilən problematika ilə yanaşı NATO-nun bu komitəsi namizəd ölkələrin Alyansa daxil olmaları üçün iqtisadi hazırlığını da təhlil edir və qiymətləndirir. Kriterilərdən biri müdafiə xərclərinin ÜDM-in 2 faizi səviyyəsində olmasıdır. NATO-ya üzv olmaq istəyən ölkələr buna uzlaşdırılmış və təsdiq olunmuş planlar üzrə hazırlaşırlar, özü də iqtisadi aspektlər İqtisadi Komitə ilə razılaşdırılmalıdır.

NATO-nun qeyri-hərbi strukturunda informasiya və elm sahəsində əməkdaşlıq da mühüm yer tutur.

Alyans üzvlərinin informasiya sferasında əməkdaşlığı da institut şəklində rəsmiləşmiş və müvafiq strukturlar yaradılmışdır. Blokun fəaliyyətinin informasiya təminatı və ictimai rəylə iş NATO-nun Baş qərargahı nəzdindəki



İnformasiya xidməti tərəfindən əlaqələndirilir. Bu struktur bölmə əsasən NATO-nun siyasətini əhaliyə izah etmək məqsədilə mətbuatla daimi təmasların saxlanması ilə məşğul olur. Bura brifinq və mətbuat konfranslarının təşkili, jurnalistlərin NATO-nun mənzil-qərargahı nəzdində akkreditasiyası və redaksiyalarla əlaqələrin tənzimlənməsi üzrə tədbirlər daxildir.

Hazırda İnformasiya xidmətləri istisnasız olaraq bütün beynəlxalq, o cümlədən hərbi təşkilatların strukturunda vacib rol oynayır. Hər il NATO ölkələri silahlanmaya külli miqdarda vəsait sərf edirlər. Bu şəraitdə pullarının necə sərf olunması barədə vergi ödəyicilərinin məlumatlandırılması mühüm əhəmiyyət kəsb edir. Məsələn, NATO-nun Kosovo və Bosniyada keçirdiyi sülhyaratma əməliyyatlarına İnformasiya xidməti xüsusi diqqət yetirirdi. Burada həmin orqanın funksiyası ikili idi: əvvəla, müttəfiqlərin komandanlığı ilə yerli əhalinin qarşılıqlı anlaşmasına kömək etmək, digər tərəfdən isə dünya ictimaiyyətini aparılan əməliyyatlar barədə məlumatlandırmaq. Yuqoslaviyaya hava zərbələri zamanı Miloşeviçə qarşı informasiya müharibəsində və psixoloji döyüşdə İnformasiya xidməti başlıca rol oynamışdı.

Təşkilati cəhətdən İnformasiya xidməti dörd şöbədən və daha aşağı səviyyəli üç bölmədən ibarətdir. Burada NATO-nun 13 ölkəsinin nümayəndələri çalışırlar. Birinci şöbə NATO qərargahının rəhbər zabitlərinə kütləvi informasiya vasitələrinin işinə dair zəruri informasiyanı verməklə məşğul olur. Həmçinin Kütləvi informasiya vasitələri şöbəsi Alyansın fəaliyyəti ilə bağlı məsələlərin KİV-də adekvat işıqlandırılmasını təmin edir. Bu qurum jurnalistlərə NATO-nun mütəxəssisləri ilə müsahibələrin təşkilində və keçirilməsində kömək edərək dünya

ölkələrinin əhalisinə Şimali Atlantika Alyansının mövqeyi barədə məlumat verir.

İkinci şöbə NATO-nun keçirdiyi cari əməliyyatlara və təlimlərə informasiya dəstəyi verir və eyni zamanda strateji informasiya planlaşması ilə məşğul olur. Üçüncü qurum- Yeniliklərin təhlili şöbəsi müxtəlif ölkələrdə NATO-nun fəaliyyətinin necə işıqlandırılmasına dair ən müxtəlif mənbələrdən informasiya toplayır və onu dərindən təhlil edir. Tez-tez bu təhlilin nəticəsində NATO-nun informasiya siyasətinə ciddi düzəlişlər edilir.

Və nəhayət, İctimaiyyətlə əlaqələr şöbəsi NATO üzvü olan ölkələrin və Şimali Atlantika Alyansına daxil olmayan dövlətlərin ən geniş auditoriyası üçün brifinq və konfranslar keçirir ki, bu da, məsələn, vaxtilə NATO və Varşava paktının sabiq üzvləri arasında qarşılıqlı anlaşma mühitinin yaranmasında mühüm rol oynamışdı. Bu brifinqlərdə jurnalistlərlə yanaşı geniş ictimaiyyətin digər nümayəndələri də iştirak edirlər.

1958-ci ildə NATO-nun tərkibində elm komitəsi yarandı. Bundan bir il əvvəl isə başlıca vəzifəsi «elmi və texniki resursların inkişafı milli proqramlarına, beynəlxalq mübadilə və əməkdaşlığa yardım etmək» olan elmi və texniki əməkdaşlıq üzrə İşçi qrupu meydana gəlmişdi. Hadisələrin sonrakı inkişafı nəticəsində NATO Şurasının iclasında İşçi qrupu elmi problematika ilə məşğul olan ayrıca komitəyə çevirmək tələb olundu. Elə həmin il Baş katibin elmi məsələlər üzrə Müşaviri postu təsis olundu. SSRİ-də sürətlə gedən texnoloji proseslər, məsələn, Yerin süni peykinin orbitə çıxarılması bu qərarın qəbulunda heç də sonuncu rolu oynamadı. Qərb ölkələri həmin elmi nailiyyətə adekvat cavab verməli idilər ki, bu da öz



növbəsində NATO üzvü olan bütün dövlətlərin səylərinin əlaqələndirilməsini tələb edirdi.

İlk vaxtlar Komitə yalnız NATO ölkələri arasında elmi əməkdaşlıqla məşğul olurdu. Lakin 1999-cu ildən sonra proqramın istiqaməti dəyişdi və hazırda Elmi komitənin fəaliyyəti tərəfdaş dövlətlərin (ilk növbədə Avroatlantik tərəfdaşlıq Şurasının üzvü olan ölkələrin) və NATO ölkələrinin alimləri arasında əməkdaşlığa yönəlmişdir. Yalnız NATO ölkələrinin alimlərinin dəstək almaq barədə ərizələrinə artıq baxılmır, bununla belə Elmi proqramın bir hissəsi NATO çərçivəsində ənənəvi əməkdaşlığın davam etməsi üçün saxlanılmışdır. Digər profilli komitələr kimi bu qurum da Qeyri-hərbi əməkdaşlıq üzrə Komitənin tövsiyəsi əsasında yaradılmışdır. Həmin Komitənin 1958-ci ildəki məruzəsində deyilirdi ki, «elmi - texniki tərəqqi dövlətlərin təhlükəsizlik dərəcəsinin müəyyənləşdirilməsində həlledici amil ola bilər» və «elm və texnika Atlantik cəmiyyəti üçün xüsusi əhəmiyyət kəsb edən sahələrdir».

Qeyd edək ki, Elmi Komitə ildə üç dəfə çağırılır və üzv dövlətlərin milli təmsilçilərindən ibarətdir. İclaslardan biri Avroatlantik Tərəfdaşlığı Şurası (AATŞ) formatında keçirilir ki, burada NATO ölkələrinin təmsilçilərinə tərəfdaş dövlətlərin nümayəndələri qoşulur. Komitə daxilində yaradılan işçi qruplar böyük əhəmiyyət kəsb edir. Hər il Elmi proqramda 13 minə yaxın alim təqaüdçü, konfransların iştirakçısı yaxud resenzent-ekspert və müxtəlif komissiyaların üzvü kimi iştirak edir. Yalnız bir ildə təkcə Rusiyadan mindən çox tədqiqatçı NATO ölkələrindən olan alimlərlə birgə iş üçün qrant almışdır.

NATO-nun elmi proqramları təhlükəsizlik üstünlüklərinə aidiyyatı olan çoxşaxəli tədqiqatlar

sahəsində əməkdaşlığın həvəsləndirilməsi və maliyyələşdirilməsi yolu ilə sabitliyə yardımı, həmrəyliyi təlqin edirlər.

Tədqiqatların cari prioritet sahələri aşağıdakılardır:

- Asimmetrik təhdidlərdən müdafiə xatirinə elmi əməkdaşlıq;
- Təhlükəsizliyə aid olan digər təhdidlərə əks-təsir göstərmək üçün tədqiqat işləri;
- Texnologiya mübadiləsinin həvəsləndirilməsi və tərəfdaş ölkələrin prioritetlərinin nəzərə alınmasına yönəldilmiş layihələr.

NATO təqaüdləri çərçivəsində elmi mübadiləni faizlə aşağıdakı kimi göstərmək olar:

| NATO və ölkələr | Faiz |
|---|---|
| Alimlərin NATO-nun Avropa ölkələrindən ABŞ-a səfərləri | 40,6 |
| Alimlərin tərəfdaş ölkələrdən NATO-nun Avropa ölkələrinə səfərləri | 29,7 |
| NATO-nun Avropa ölkələri arasında elmi mübadilə | 20,1 |
| Alimlərin ABŞ-dan NATO-nun Avropa ölkələrinə səfərləri | 5,7 |
| Alimlərin tərəfdaş ölkələrdən Şimali Amerikaya səfərləri | 2,8 |
| Alimlərin NATO-nun Avropa ölkələrindən tərəfdaş ölkələrə səfərləri | 0,5 |
| Alimlərin ABŞ-dan tərəfdaş ölkələrə səfərləri | 0,2 |



Hazırda Elm üzrə Komitə aşağıdakı proqramlara nəzarət edir:

- «Elmi-Texniki Əməkdaşlıq Proqramı»;
- «Elmi Təqaüdlər Proqramı»;
- «Tədqiqat İnfrastrukturuna Dəstək Proqramı»;
- «Sülh Naminə Elm Proqramı».

Yuxarıda adları qeyd edilən proqramlardan hər birini ətraflı təhlil edəcəyik. Hələlik isə NATO-nun elmi strukturu üzərində dayanmaq istərdik.

Yuxarıda qeyd etdiyimiz kimi, bu struktur Elmi proqrama ümumi siyasi rəhbərliyi təmin edən Elm üzrə Komitə tərəfindən təqdim olunmuşdur. Bundan başqa Komitə Beynəlxalq Alimlər Cəmiyyətinin nümayəndələrindən ibarət olan müxtəlif ekspert komissiyaları seçir. NATO-nun vacibliyinə görə ikinci elmi orqanı konkret altproqramların realizasiyası ilə məşğul olan Elmi işlər üzrə Şöbədir.

Həmin altproqramlardan birincisi öz növbəsində dörd istiqamətə ayrılır və bunlardan hər birini müvafiq fənlər üzrə beynəlxalq Konsultativ ekspert komissiyası idarə edir. Bu istiqamətlər aşağıdakılardır: fizika-texnika elmi və texnika (riyaziyyat, fizika, kimya, informatika, mexanika və materialşünaslıq), həyat haqqında elm və texnika (biologiya, kənd təsərrüfatı və qida elmləri, tibb və əxlaq elmləri), ətraf mühitin elm və texnikası (ekoloji fənlər) və təhlükəsizliklə bağlı mülki elm və texnika. Sonuncu istiqamət daha çox dərəcədə təhlükəsizliyin müxtəlif aspektlərinin (ekoloji təhlükəsizlik, tərksilah və konversiya problemləri) nəzəri öyrənilməsinə yox, onlarla bağlı konkret problemlərin həllinə yönəlmişdir. Elm üzrə Komitənin bu istiqamətlərə dəstəyi xüsusi institut və

seminarların, həmçinin ekspertlərin təcrübə mübadiləsi üçün səfərlərinin təşkilində və müxtəlif təqaüdlərin verilməsində özünü göstərir.

Elmi təqaüdlər altproqramı ilk növbədə gənc alimlərə kömək üçün nəzərdə tutulmuşdur ki, onlar elmi tədqiqatlarını NATO ölkələrində və tərəfdaş dövlətlərdə davam etdirmək imkanı əldə etsinlər. Bu proqrama NATO üzvü olan dövlətlərin müvafiq milli qurumları cavabdehdirlər. Onların cari fəaliyyəti həyata keçirən Elm üzrə Komitənin nəzdində öz administratorları vardır.

Təqdim olunan təqaüdlər dörd qrupa bölünür: baza təqaüdləri (növbəti diplom yaxud elmi dərəcə almaları məqsədilə texniki ali məktəblərin məzunları üçün), tədqiqat təqaüdləri (alimlik dərəcəsi olan və müstəqil tədqiqat aparmağı bacaran alimlər üçün), ali təqaüdlər (mühazirələr oxumaq və tədqiqatlar aparmaq məqsədilə yüksək elmi kvalifikasiyalı alimlər üçün) və ali adlı təqaüdlər. NATO-nun ayrı-ayrı ölkələrində namizədlərin seçilməsi və təqaüdlərin məbləği üçün müxtəlif kriterilər müəyyənləşdirilmişdir, lakin bütün ərizələr müstəqil komissiyalar tərəfindən elmi dəyərinə görə qiymətləndirilir.

Tədqiqat infrastrukturuna dəstək proqramı tərəfdaşlarına özlərinin tədqiqat fəaliyyətinin təşkilində NATO üzvlərinin köməyini nəzərdə tutur. Bu, başlıca olaraq, coğrafi cəhətdən uzaqda yerləşən və ən az inkişaf etmiş tərəfdaşlara aiddir və iki ayrıca istiqamətin - kompüter şəbəkələrinin yaradılmasının və elmi-texniki siyasətin və təşkilati işlərin inkişafında ifadə olunur. Proqramın birinci hissəsinin məqsədi tərəfdaş ölkələrin alimləri ilə beynəlxalq cəmiyyət arasında elektron



əlaqənin inkişafıdır. Bu məqsədlə Elm üzrə Komitə konsultantlar göndərir, tərəfdaş ölkələr üçün dotasiya siyasəti həyata keçirir və eyni zamanda kompüter şəbəkəsinin inkişafına həsr olunmuş xüsusi seminarlar keçirir. İkinci istiqamətə gəlincə isə o, tərəfdaş ölkələrdə əsasən milli və beynəlxalq proqram və layihələrə administratorluq etmək üçün kadr hazırlığını nəzərdə tutur. Elmi-texniki siyasətin aparılmasında köməklik deyəndə dövlət qulluqçuları və aspirantlar üçün təcrübələrin keçirilməsi və ixtisasartırma kurslarının təşkili başa düşülür. Bundan əlavə, elmi siyasət məsələləri üzrə müntəzəm olaraq forumlar keçirilir.

NATO-nun Elmi proqramının sonuncu tərkib hissəsi bir qədər başqa adla hələ 90-cı illərin əvvəllərində- Şimali Atlantika Alyansı ilə Mərkəzi və Şərqi Avropa ölkələrinin əməkdaşlığı rəsmiləşməyə başlayanda meydana çıxmışdı. Müasir şəkildə NATO-nun bu alt proqramı bazar iqtisadiyyatı yenicə yaranmağa başlayan tərəfdaş ölkələrdə dövlətin sənayesinin üzləşdiyi çətinliklərin, həmçinin vacib ekoloji problemlərin həlli ilə bağlı olan layihələrin dotasiyalı maliyyələşdirilməsi ilə məşğul olur. Bu proqram çərçivəsində layihənin maliyyələşdirilməsi üçün onun dəqiq müəyyənləşdirilmiş məqsədləri, aydın işçi planları və hərtərəfli hesablanmış büdcəsi olmalıdır. Bir neçə tərəfdaş ölkədə eyni zamanda həyata keçirilən layihələrə üstünlük verilir. Elm üzrə Komitə daxilində «Sülh Naminə Elmlər» Rəhbər qrupu işləyir və daxil olan bütün ərizələrin qiymətləndirilməsi ilə məşğul olur. Rəhbər qrupun qərarı müsbət olarsa, xarici ekspertlərin cəlb olunması ilə layihənin planı xırdalıqlarına qədər işlənilib hazırlanır və baxılmaq üçün yenidən həmin

quruma göndərilir. Rəhbər qrupun planı təkrar təqdir etməsindən sonra tammiqyaslı maliyyələşmə açılır.

NATO siyasətinin mühüm istiqamətlərindən biri də ətraf mühitin mühafizəsi və ekologiya ilə bağlıdır. 1959-cu ildə Alyansın qeyri-hərbi komitələrindən o dövr üçün sonuncusu-okeanoqrafiya üzrə komitə fəaliyyətə başladı. Beləliklə, NATO-nun fəaliyyətində yeni səhifə - ətraf mühitin çirklənməsi problematikası meydana gəldi. On il sonra yuxarıda adı çəkilən məsələlərin həlli üçün NATO-nun strukturunda Müasir cəmiyyət problemləri üzrə Komitə adlandırılan ayrıca komitə yaradıldı. Bu orqan R.Niksonun Alyansın üçüncü- «sosial» istiqaməti konsepsiyasına və Vaşinqton müqaviləsinin 2-ci bəndinə əsasən formalaşmışdı. Müqavilənin həmin bəndində deyilirdi ki, «iştirakçı ölkələr sabitlik və çiçəklənmə şəraitinin yaranmasına hər cür dəstək verməklə öz səylərini dinc və dostcasına beynəlxalq münasibətlərin inkişafına yönəldirlər».

Müasir cəmiyyət problemləri üzrə Komitənin yaranması müəyyən dərəcədə Roma klubunun «İnkişafın hüdudları» məruzəsinə cavab oldu. Həmin məruzə Medouzun rəhbərliyi altında bir qrup müəllif tərəfindən hazırlanmışdı və ekoloji problemləri nəzərə almadan sivilizasiyanın inkişafının dalana dirənəcəyi barədə elmi cəhətdən əsaslandırılmış ilk proqnozlardan biri idi. NATO beynəlxalq cəmiyyətin diqqət mərkəzinə çıxarılmış problemlərdən özünü kənara çəkə bilməzdi və bu amil adı çəkilən komitənin yaranması üçün impuls rolunu oynadı.

Həmin andan NATO-nun ekoloji fəaliyyəti iki - Elmi və Müasir cəmiyyət problemləri üzrə Komitə daxilində həyata keçirilməyə başladı. Çünki, tərksilah üçün və



yüksək texnologiyaların, kompüter şəbəkələrinin, həmçinin elm və texnologiya sahəsində siyasətin işlənilib hazırlanması ilə yanaşı ekoloji təhlükəsizlik də Elmi komitənin əməkdaşlığının üstün sferalarından biridir.

Təbiəti mühafizə problematikası ilə məşğul olan bu iki komitənin işi qarşılıqlı tamamlama xarakteri daşıyır. Fərq yalnız burasındadır ki, Elmi komitə çərçivəsində təşəbbüslər «aşağıdan» gəlir, daha doğrusu, alimlər yaxud alimlər qrupu tərəfindən irəli sürülür. Müasir cəmiyyət problemləri üzrə Komitəyə gəldikdə isə burada layihələr bir qrup ölkələr tərəfindən irəli sürülür və yalnız bundan sonra alimlər tərəfindən araşdırılır.

Romada sülh və əməkdaşlıq haqqında Deklarasiyanın imzalandığı 1991-ci il Müasir cəmiyyət problemləri üzrə Komitənin tarixində dönüş anı oldu. Sənəddə deyilirdi ki, NATO-nun yeni təşəbbüsləri «ittifaqımızın elmi və ekoloji proqramları üzrə Üçüncü fəaliyyət sferasında tərəfdaşlarımızın iştirakını» genişləndirəcəkdir. Şərqi Avropa ölkələrində «məxməri inqilablar» baş verəndən və kommunist hökumətləri devrildikdən sonra region ölkələrinin NATO-nun Elmi proqramında olduğu kimi bu komitənin işinə fəal cəlb olunması onun fəaliyyətinə bir canlanma gətirdi.

Müasir cəmiyyət problemləri üzrə Komitə (MCPK) öz işini aşağıdakı prinsiplər əsasında həyata keçirir:

Əvvəlcə, konkret tədbirlər bütün ölkələr tərəfindən eyni zamanda deyil, yalnız daha çox maraqlı dövlətlər tərəfindən maliyyələşdirilir və həyata keçirilir. Müasir cəmiyyət problemləri üzrə Komitə heç bir elmi-tədqiqat işi aparmır, amma sonradan tədqiqatların nəticələri NATO-nun bütün üzvləri üçün açıq olur. Sxem belədir ki,

Komitə özü təşəbbüs irəli sürmür, yalnız milli səviyyədə tədqiq olunan praktik problemlərə baxır. Bu, başqa ölkələrə gələcəkdə bu və ya digər problematika üzrə elmi tədqiqatların nəticələrindən istifadə etmək imkanı verməklə Komitənin işinə müəyyən çeviklik gətirir. Eksperimental tədqiqatların aparılması barədə rəsmi qərar MCPK-nın plenar iclasında qəbul olunur.

İkincisi, Komitə o layihələri dəstəkləyir ki, onlar NATO dövlətlərinin sosial sferasında daxili və xarici siyasi təşəbbüslərin meydana çıxmasına kömək edir, bu və ya digər ölkədə konkret tədbirlərin həyata keçirilməsinə kömək edir.

Üçüncü prinsip belədir ki, Komitə açıq təşkilat kimi düşünülmüşdür, onun tədqiqatlarının nəticələrindən bütün maraqlı şəxslər istifadə edə bilərlər ki, bu da Komitənin başqa beynəlxalq qurumlarla, xüsusilə ekologiya, meteorologiya və okeanoqrafiya sahəsində əməkdaşlığını asanlaşdırır. Məsələn, bu, Komitənin Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatı və bir sıra milli elmi-tədqiqat müəssisələri ilə əməkdaşlığında özünü göstərir.

Nəhayət, dördüncü prinsipə görə Komitə tədqiqat aparan dövlətlər tərəfindən özünün mərkəzi orqanlarına müəyyən hesabat verilməsini və həmin tədqiqatların NATO-nun daxili və xarici əməkdaşlığının inkişafına sanballı töhfə verəcəyi barədə sübutların təqdim edilməsini nəzərdə tutur.

Yarandığı andan Komitəyə NATO üzvlərinin sosial siyasətinin əlaqələndirilməsi sahəsində ən geniş səlahiyyətlər verilmişdir. Məsələn, onun fəaliyyəti şəhər tikintisi, havanın və suyun təmizlənməsi, yerli və beynəlxalq nəqliyyat, qərb ölkələrinin inkişafı



konsepsiyalarının öyrənilməsi üzrə proqramlar, «çoxmillətli sülh korpusu»nun layihələri, Qərb elmi təfəkkürünün ən yeni nailiyyətləri haqqında məlumatların yığılması və sistemləşdirilməsi kimi sahələri əhatə edir. Hər şeydən əlavə Komitə geniş nəşriyyat fəaliyyəti ilə də məşğul olur ki, bu da ekologiya problemləri üzrə 200-dən çox kitabın çapdan çıxmasında özünü göstərir.

Komitənin işinin əsas istiqamətləri aşağıdakılardır:

- Eksperimental tədqiqatlar;
- Cari tədqiqatlar;
- Seminarlar və ekoloji «dəyirmi masa»lar.

Yuxarıda adları çəkilən proqramlardan biri üzrə qarşılıqlı fəaliyyətə başlamaq istəyən maraqlı dövlətlər müəyyən istiqamətdə səylərini daha yaxşı əlaqələndirmək üçün kooperativləşə bilərlər. Maliyyələşməyə gəlincə isə, müəyyən layihəyə rəhbərlik edən ölkə resursların paylanması və elmi-texniki təminat məsələlərini özü həll edir, tədqiqatlar nəticəsində alınmış məlumatlar isə NATO-nun bütün ölkələrinin sərəncamına verilir. Bir qayda olaraq, müəyyən tədqiqatların nəticələrinə həsr olunmuş simpoziumlar, seminarlar yaxud beynəlxalq konfranslar keçirilir. Tədqiqat adətən 3-4 il davam edir.

Elm üzrə Komitə təqaüdləri, qrantları, həmçinin ekologiya problemləri ilə məşğul olan minlərlə alimin çalışdığı tədqiqat institutlarının və seminarların işini maliyyələşdirir. Yuxarıda adı çəkilən tədbirlərdən başqa, Elmi komitə okeanoqrafiya, suyun və qurunun qarşılıqlı təsiri, qlobal ekoloji dəyişikliklər və digər oxşar proqramlar üzrə bir sıra xüsusi ekoloji layihələri bəyənmişdir. Məsələn, qlobal ekoloji dəyişikliklər proqramı çərçivəsində 53 tədqiqat seminarı keçirilmiş, 11

tədqiqat institutu təşkil edilmiş və 30-dan çox nəşr işıq üzü görmüşdür. Hər bir tədqiqatın ömrü altı ildən on iki ilə kimi davam edir.

Müasir cəmiyyət problemləri üzrə Komitə çərçivəsində mövcud olan təqaüdlər proqramı üç qrup tədqiqatçılara – tələbələrə, alimlərə və gənc tədqiqatçılara dəstək üçün nəzərdə tutulmuşdur. Birincilərə elmi təqaüdlər təhsili başa vurmaq, ikincilərə - tədqiqatlar aparmaq, üçüncülərə isə kvalifikasiyasını artırmaq üçün verilir.

Komitənin tərəfdaş dövlətlərlə əməkdaşlığına gəlincə, Müasir cəmiyyət problemləri üzrə Komitə ilə Şimali Atlantika Əməkdaşlıq Şurasının ilk birgə iclası 1993-cü ilin fevralında Brüsseldə olmuşdur. Burada tərəfdaşlar öz ölkələrindəki çoxsaylı ekoloji problemləri sadalayaraq, göstərilən problemlərin həllində Müasir cəmiyyət problemləri üzrə Komitə tərəfindən yardım almaqda maraqlı olduqlarını bildirmişlər. Şimali Atlantika Əməkdaşlıq Şurasının Şimali Atlantika Tərəfdaşlıq Şurasına (ŞATŞ) çevrilməsindən sonra Komitə tərəfdaşlarla əməkdaşlığı artıq yeni struktur daxilində davam etdirir. Komitə öz iclaslarını ildə iki dəfə keçirir və hər il MCPK/ŞATŞ formatında görüşlər olur.

Şərqlə Qərb arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığın fəallaşması ilə əlaqədar olaraq 1996-cı ilin martında Komitənin yeni, daha çevik iş qaydası təsdiq olundu. «Pilot» eksperimental tədqiqatlardan başqa MCPK iki yeni təşəbbüsü - qısamüddətli ixtisaslaşmış layihələri və tematik simpoziumları həyata keçirməyə başladı. Sonuncuların məqsədi sosial problemlər üzrə informasiyanın yayılmasıdır. Qısamüddətli ixtisaslaşmış layihələrə



gəlincə isə onların 4 ilə qədər davam edə bilən eksperimental tədqiqatlardan fərqi 6 aydan 18 aya qədər reallaşmasıdır. Fəaliyyəti ərzində MCPK yüzdən çox tədqiqat və bir neçə qısamüddətli layihə həyata keçirmişdir. Onlarla tədqiqat isə reallaşma mərhələsindədir.

Alyans üçün əlavə problem yaradan məsələlərdən biri də NATO ölkələrində baş verən texnogen fəlakətlərdir.

Texnogen fəlakət deyəndə insanın bilərəkdən yaxud bilmədən etdiyi hərəkətlərin nəticəsi başa düşülür. NATO ölkələrində baş verən ən güclü texnogen fəlakətlər aviaqəzalar, partlayışlar, dəmir yolunda, suda olan fəlakətlər, yanğınlar və ekoloji fəlakətlərdir.

1949-cu il noyabrın 29-da Yohanngeorgenndştadtdakı uran mədənində 370 nəfər həlak olmuşdu 1969-cu il iyunun 2-də Reyndə balıqlar məhv olmağa başladı. Bundan əvvəlki iki il ərzində çaya insektisidlə dolu iki 25 kiloqramlıq kanistr düşmüşdü. Bu fəlakət milyonlarla balığın qırılmasına səbəb oldu. 2000-ci il yanvarın 24-də Norveçdə ölkə tarixində ən dəhşətli dəmir yolu qəzası baş verdi və 30 nəfər həlak oldu.

Beynəlxalq terrorizmə ən parlaq misal 2001-ci il sentyabrın 11-də ABŞ-a qarşı edilmiş terror aktıdır. Həmin gün saat 08:46-da (yerli vaxtla) Nyu-Yorkda yerləşən Dünya Ticarət Mərkəzinin əkiz qüllələrindən birinə-Şimal qülləsinə «American Airlines» şirkətinə məxsus sərnişin təyyarəsi çırpıldı. 09.03 radələrində isə Cənub qülləsi buna bənzər hücuma məruz qaldı. Sonuncu hücumdan 40 dəqiqə sonra ABŞ-ın Müdafiə Nazirliyinin binası- Pentaqon da təyyarə ilə vuruldu. Bu hücumdan 25 dəqiqə keçdikdən sonra eyni məqsədlə qaçırılan bir

səmişin təyyarəsinin vurularaq zərərsizləşdirildiyi açıqlandı. Həmin təyyarənin hədəfinin Ağ Ev olduğu bildirildi. Terror nəticəsində üç minə yaxın insan həyatla vidalaşdı. ABŞ və digər NATO ölkələri beynəlxalq terrorizmə qarşı mövqelərini dərhal sərtləşdirdilər və bu bəla ilə mübarizədə səylərini birləşdirmək üçün həm öz aralarında, həm də Rusiya ilə əməkdaşlıq yolunu tutdular.

İtaliya və Fransada iri daşqınlar başlayanda (2003-2004-cü illər) və İspaniyada dəmir yolu qəzası baş verəndə NATO ölkələrinin mülki müdafiə bölmələri hərəkətə gələrək bu fəlakətlərin nəticələrinin aradan qaldırılmasında yaxından iştirak etmişlər.

Göründüyü kimi, XXI əsr sosial inkişaf və təhlükəsizlik sferasında qlobal problemləri ön plana çıxarmışdır. Elmi-texniki tərəqqinin nailiyyətləri əsasında NATO ölkələri tərəfindən uğurla həll olunan sosial problemlər yeni texnologiyaların təntənəsinin neqativ nəticələri ilə - texnogen problemlərlə dramatik şəkildə qarışmışdır. Bunların aradan qaldırılması milli gəlirin xeyli hissəsinin cəlb olunmasını, resursların təmərküzləşməsinin başqa sistemini, həmçinin dövlətlərin əlaqələndirici rolunu, böyük regionlar, hətta dünya birliyi hüdudlarında birgə hərəkətlərini tələb edir. NATO ölkələrinin bu strateji istiqamətlərdəki praktik işi səmərəli sayılır, ictimai dəstək alır və kütləvi informasiya vasitələrində geniş işıqlandırılır.

Toplanmış təcrübə əsasında bu mürəkkəb prosesləri anlamağa və araşdırmağa cəhd edək. Milli maraqları dəqiq təsəvvür etmədən və başa düşmədən NATO ölkələrinin təhlükəsizlik konsepsiyasını işləyib hazırlamaq mümkün deyildir. Bunu bütün dünyada baş verən obyektiv



dəyişikliklər diktə edir. Bu dəyişikliklər xeyli dərəcədə ətraf mühitin böhranlı vəziyyəti və planetdəki praktik olaraq nəzarət edilməyən dinamik demoqrafik proseslərlə, təbii resursların tükənməsinin görünən hüdudları və əksər ölkələrdə resursqoruyucu texnologiyalara lazımi diqqət yetirilməməsi, nüvə, kimyəvi, bakterioloji və digər dağıdıcı silahların dünyada mövcud olan çox böyük ehtiyatları ilə müəyyənləşir. Milli təhlükəsizlik ölkələrin həyati vacib maraqlarının həm daxili, həm də xarici siyasi, iqtisadi, hərbi, informasiya, ekoloji və digər təhlükələrdən şərtsiz müdafiəsini nəzərdə tutur. Texnogen ekoloji təhlükəsizliyə zəmanət ilk növbədə təhlükəsiz texnologiyaların inkişafı, istehsalın keyfiyyətli parametrləri və onun fəaliyyəti zamanı dramatik nəticələrin baş vermə ehtimalını aşağı salmaq üçün istifadə edilən resursların mövcudluğu, təbii fəlakətlərin proqnozlaşdırılması və onların nəticələrinin aradan qaldırılmasına yönələn vəsaitlərin təmərküzləşməsi ilə müəyyənləşir.

Bu proseslərə təsirin iki - daxili və xarici növünü ayırmaq olar. Daxili təsir müxtəlif sənaye strukturlarının məxaricləri ilə bağlıdır; onlar fəaliyyətləri prosesində müdafiə olunma amilləri yaradırlar, həm də rəqabət belə xərclərin payının azalmasını stimullaşdırır. Xarici təsir isə o zaman olur ki, hər hansı bir struktur fəlakət hallarının qarşısının alınmasına təsir edən instituta çevrilir. Bunlar əsasən istehsal müəssisələrinə müəyyən tələblər işləyib hazırlayan və bununla da istehsal prosesində fövqəladə halların aradan qaldırılması xərclərinin həcmini və məzmununu optimallaşdıran qurumlardır. Qeyd etmək lazımdır ki, NATO ölkələrinin iqtisadi böhranı şəraitində

belə məsələlərin həlli mürəkkəbləşir. Bu vəziyyət həmin proseslərə dövlət qurumları tərəfindən birbaşa müdaxilənin zəruriliyini gücləndirir. Qeyd olunanlara əsasən demək olar ki, texnogen sivilizasiyanın inkişafının özü də artıq onun sərhədlərini göstərən böhranlı həddə gəlib çatmışdır. Bu, XX əsrin ikinci yarısında qlobal böhranların və geopolitik maneələrin baş verməsi ilə üzə çıxmışdır. Texnogen sivilizasiyanın yaratdığı və bəşəriyyətin mövcudluğunun özünü təhlükə altına alan çoxsaylı problemlərdən üç başlıcası, bizim fikrimizcə, aşağıdakılardır.

Birinci–kütləvi qırğın silahının fasiləsiz təkmilləşdirilməsi şəraitində sağ qalma problemi. İkinci belə kəskin problem bəşəri varlığın iki aspektinin- insanın təbiətin bir hissəsi və fəaliyyəti ilə onu dəyişdirən varlıq kimi münaqişə halına gəlməsi nəticəsində ekoloji böhranların qlobal miqyasda artmasıdır. Üçüncü problem isə insanın öz dünyasını təkmilləşdirməsi zamanı praktik olaraq az nəzarət etdiyi və onun təbiətinə yad olan qüvvələrin meydana gəlməsi ilə hərtərəfli artan yadlaşma prosesləri şəraitində insan şəxsiyyətinin biososial struktur kimi qorunub saxlanmasıdır.

Bu cür məsələlərin realizə olunması üçün həm hər bir dövlətdə, həm də bütövlükdə dünya birliyində fəaliyyətdə olan təsirli strukturlar formalaşmışdır. Bu o deməkdir ki, praktika təhlükəsizlik sənayesinin yaranması ilə bağlı dəqiq mövqenin işlənilib hazırlanmasının zəruriliyini müəyyənləşdirmişdir. XXI əsrin əvvəllərində cəmiyyətin həyat fəaliyyətinin əsas amilləri onun təhlükəsizliyi, resurs, iqtisadi, istehsal, elmi-texniki və müdafiə potensiallarının miqdar və keyfiyyət xarakteristikalarını



özündə birləşdirən kriterilər sistemi, onlardan səmərəli istifadə olunması, iqtisadi fəzanın bütövlüyünün təmin olunması və ictimai-iqtisadi sistemin dinamik inkişaf edən şəraitə adaptasiyası imkanlarıdır. NATO-nun fəaliyyət istiqaməti ilə bağlı olan təhlükəsizlik toplananları ilk növbədə aşağıdakılardır: texnogen, texnoloji, ekoloji təhlükəsizlik və terrorizmlə mübarizə. Bu mürəkkəb problemlərin həllində aşağıdakı hallar müəyyənedici rol oynayır:

- Həm bu məsələlərdən hər birinin, həm də onların prioritetlər müəyyənləşdirilməklə məcmu halında həllində bu və ya digər amilin rolunun qiymətləndirilməsi;
- Bu məsələləri həll etməyə qabil olan konkret strukturların və mütəxəssislərin olması;
- Mövcud resursların, onların artırılması yollarının, həmçinin motivasiya və stimullaşmanın realizə olunan metodlarının nəzərə alınması ilə həmişə məhdud olan vəsaitlərdən istifadənin səmərəliliyinin iqtisadi qiymətləndirmə üsullarının müəyyənləşdirilməsi.

NATO-nun müxtəlif ölkələrinin fəaliyyəti hüdudlarında bu problemlərin həlli prosesində aşağıdakı elmi, texniki, iqtisadi, təşkilati məsələlərin realizə olunma metodları təkmilləşir: ətraf mühitin monitorinqi; fövqəladə halların proqnozlaşdırılması, istehsal proseslərinin texnoloji təhlükəsizliyinin və istismar etibarlılığının yüksəldilməsi; fövqəladə hallar şəraitində əhalinin müdafiəsi və onun ilkin həyat təminatı; NATO ölkələri ərazisində istehsal qüvvələrinin və yaşayış məntəqələrinin rasional yerləşməsinə təsir etmə, ərazilərin və yaşayış məntəqələrinin texniki müdafiəsi; dağıdıcı amillərin və fövqəladə halların mənbələrinin təsir zonalarının

lokallaşdırılması; idarəetmə sistemlərinin daim hazır vəziyyətdə saxlanılması, qəzaların və təbii fəlakətlərin qarşısının alınması və onların nəticələrinin aradan qaldırılması, əhalinin mümkün fövqəladə hallar barədə məlumatlandırılması və onun bu şəraitdə davranmağa hazırlanması. Sadalanan problemlərin məcmusu elə bir tendensiyanı müəyyənləşdirir ki, onu NATO ölkələrinin təhlükəsizlik sənayesinin formalaşması kimi xarakterizə etmək olar.

Son onilliklər həm dünyanı, həm də dünyəvi maraqların prioritetlərini sürətlə və mahiyyətcə dəyişdirmişdir. İndi münaqişə hallarının təkcə sayı və miqyası yox, həm də nəticələri tamamilə dramatik xarakter alır. Bununla əlaqədar olaraq qeyd edək ki, həm münaqişələrin ümumi nəzəriyyəsinin öyrənilməsi, həm də əsas münaqişə növlərinin özünəməxsusluğunun təhlili münaqişələri idarəetmə problemlərinə baxmaq imkanı verir. Münaqişələri idarəetmə məsələsinin qoyuluşunun özü münaqişələrin ictimai proseslərin prinsipcə ayrılmaz hissəsi kimi başa düşülməsindən irəli gəlir.

Dövlət təşkilatları tərəfindən keçirilən iqtisadi audit yaxud mal və xidmətlər istehsalı prosesinin ətraf mühitə təsir dərəcəsinin sistematik qiymətləndirilməsi vacib proseduraya çevrilir. Hadisələrin inkişafı məsuliyyət sahəsinin genişlənməsinə və transformasiyasına gətirib çıxarmışdır. NATO ölkələrində baş vermiş dəyişikliklərin müxtəlif aspektləri hüquqi məsuliyyət, alimlərin sosial şüuru, mühəndis və digər işçilərin peşə etikası kimi sferalarda öz əksini tapmışdır. Bu, o deməkdir ki, vəziyyət qəti şəkildə dəyişmişdir, çünki müasir texnika insandan öz miqyasına, məqsəd və nəticələrinə görə elə qeyri-adi



hərəkətlər tələb etmişdir ki, onlar artıq köhnə etika və hüquq normaları ilə tənzimlənə bilmirlər. Heç bir etik doktrina bəşər varlığının qlobal miqyasını, uzaq gələcək perspektivlərini yaxud insan nəslinin sağ qalıb yaşama problemlərini nəzərə almalı olmamışdır. Bu prosesin psixoloji və etik mürəkkəbliyini Nobel mükafatı laureatı, kvant mexanikasının yaradıcılarından biri, məşhur alman fiziki-nəzəriyyəçisi Maks Born aydın ifadə etmişdir: «Həyatdan tamamilə ayrılmış heç bir elm yoxdur. Hətta ən ehtirassız alimə belə, bəşəri heç nə yad deyildir: o haqlı olmaq istəyir, intuisiyasının onu aldatmadığına əmin olmağı arzulayır, məşhurluq və uğur qazanmağa ümid edir - bu məcmu, daha doğrusu bilik və məsuliyyətin sintezi həm sosial, həm də texniki sistemlərin səmərəli idarə olunmasına gətirib çıxaracaqdır».

Həyat fəaliyyətinin təhlükəsizliyinin NATO ölkələrinin praktik hərəkətləri ilə bağlı əsas təminatlarının kiçik bir hissəsinə baxılması bu problemlərə təkcə müxtəlif dövlət, istehsal, maliyyə-iqtisadi, hüquqi strukturların, kütləvi informasiya vasitələrinin rəhbərlərinin deyil, həm də elmi ictimaiyyətin geniş dairələrinin diqqətini cəlb edir, çünki bu problemlərin həlli üçün təkcə çox böyük resursların təmərküzləşməsi, yüksək təşkilatçılıq yox, həm də kütləvi ictimai şüurun dəyişməsi tələb olunur.

NATO-nun qeyri-hərbi əməkdaşlığının mühüm, bəlkə də ən vacib tərkib hissələrindən biri böhranların aradan qaldırılmasıdır. Alyansın bütün ölkələri siyasi əməkdaşlığın tamhüquqlu üzvləridir və onların Şimali Atlantika Müqaviləsinə görə bərabər öhdəlikləri vardır. Bunların arasında adı çəkilən müqavilənin 5-ci Maddəsinə uyğun öhdəlik heç də sonuncu rolu oynamır. Bu öhdəlik

onların təhlükəsizliyinin bölünməzliyini simvolizə edir - üzv dövlətlərdən birinə yaxud bir neçəsinə hücum onların hamısına hücum kimi qəbul olunur.

İndiki gərginlik və böhranlar dövründə NATO ölkələri arasındakı məsləhətləşmələr xüsusi əhəmiyyət kəsb edir. Zəruri hallarda qərarların tez qəbul edilməsi Alyans üzvü olan dövlətlərin hökumətləri arasında daimi məsləhətləşmələrin dərhal başlamasından asılıdır. Zəruri intensiv məsləhətləşmələr aparmaq üçün NATO-nun əsas forumları Şimali Atlantika Şurası və Hərbi Planlaşdırma Komitəsidir. Müvafiq praktika və prosedurlar Şimali Atlantika Alyansının böhranların aradan qaldırılması üzrə tədbirləridir. Müntəzəm olaraq ölkələr və NATO-nun baş komandanları ilə birgə böhranların aradan qaldırılması üsullarının yoxlanması və işlənilib hazırlanması üzrə birgə təlimlər, seminarlar, brifinqlər, həmçinin tədris kursları keçirilir.

Rus təhlilçilərinin ən geniş yayılmış səhvlərindən biri budur ki, onlar NATO-ya öz üzvlərinin «sərt» təhlükəsizliyini təmin etməyə qabil olan bir təşkilat kimi baxaraq, onun qeyri-hərbi sahədə «yumşaq diplomatiya» və əməkdaşlıq üçün yararlı olmadığını düşünürlər. Amma yuxarıdakı təhlil və izahlarımıza əsasən deyə bilərik ki, NATO «soyuq müharibə»dən sonra əməkdaşlığın əvvəllər «əyalət» sahələri hesab olunan sferalarını qızğın inkişaf etdirir ki, buna da ən yaxşı misallardan biri Aralıq dənizi dialoqudur. Hazırda NATO ilə Aralıq dənizi ölkələri arasında hərbi deyil, məhz iqtisadi və sosial təhlükəsizlik problemləri üstünlük təşkil edir və belə görünür ki, bu tendensiya yaxın gələcəkdə də davam edəcəkdir.



Belə yanaşma prinsipcə düzgün hesab olunmalıdır, çünki region ölkələri NATO-ya tammiqyaslı inteqrasiya üçün hələ hazır deyildilər. Bunun səbəblərindən bəziləri bu kitabın I hissəsinin I bölməsinin 7-ci fəslində göstərilmişdir. Burada isə onu qeyd etmək istərdik ki, Bloklara qoşulmamaq hərəkatının sabiq üzvləri olan Məğrib ölkələrinin ictimai rəyinin böyük bir hissəsi NATO-ya xüsusi rəğbət bəsləmir və onu «soyuq müharibə» dövrünün SSRİ-nin dağılmasından sonra Aralıq dənizi regionunda özünə yeni rəqiblər axtaran ömrünü artıq sürmüş bir təşkilatı hesab edir. Buna görə də Şimali Afrika dövlətləri ilə intensiv qarşılıqlı fəaliyyət yalnız Mərkəzi və Şərqi Avropa ölkələrinin təhlükəsizlik problemləri tam həll olunandan və onların Qərb strukturlarına dönməz inteqrasiyası başa çatandan sonra başlayacaqdır. Bundan sonra Şimali Afrika ölkələri haqqında NATO-ya üzv qəbul olunmaq üçün namizədlər kimi ciddi danışmaq mümkün olacaq və bəzi tədqiqatçılar artıq indi Şimali Atlantika İttifaqının üzvləri ilə Aralıq dənizi ölkələrinin yaxın gələcəkdə daha rəsmi qarşılıqlı fəaliyyətə keçəcəklərini istisna etmirlər.

Bu deyilənlərdən aydın olur ki, NATO-nun qeyri-hərbi əməkdaşlığı inkişaf mərhələsini yaşayır və bu, ilk növbədə təşkilatın üzvləri ilə tərəfdaş ölkələrə aiddir. Bütün bunlar ondan xəbər verir ki, NATO ilə tərəfdaşları arasında iqtisadiyyat, ekologiya, elm, informasiya və sosial sfera kimi sahələrdə qarşılıqlı asılılıq rejimi bərqərar olur. Belə vəziyyət Alyans üçün olduqca əlverişlidir, çünki o, Qərbin əlinə Şərqi Avropaya və bir sıra digər regionlara təsir etmək üçün real rıçaqlar verir. Tərəfdaşlar üçün də qarşılıqlı asılılıq rejimi sərfəlidir, çünki o, tərəfdaşlara

müəyyən proqramlarının realizəsi üçün inkişaf etmiş ölkələrin büdcəsindən xeyli vəsaitin ayrılmasını nəzərdə tutur. Amma, bizim fikrimizcə, bu situasiyaya yalnız müsbət tərəfdən yanaşmaq olmaz. Qərblə Şərqi Avropa arasında qarşılıqlı asılılıq rejiminin güclənməsi NATO-nun keçmiş rəqibi SSRİ-nin varisi olan Rusiya ilə həmin bu Şərqi Avropa ölkələri arasındakı vaxtilə mövcud olmuş qarşılıqlı asılılığın sonu deməkdir. Artıq indi demək olar ki, Rusiya Federasiyası Varşava müqaviləsi Təşkilatının sabiq üzvü olan dövlətlərə keçmiş SSRİ dövründəki təsir imkanlarını praktik olaraq tamamilə itirməkdədir. Bu, Qərb üçün nə qədər arzuedilən olsa da ümumən dünyada ədalətli sülhün və təhlükəsizliyin bərqərar olması üçün müəyyən təhlükələr yaradır, çünki formalaşmaqda olan birqütblü dünya düzəni yalnız NATO-nun maraqlarına uyğundur və BMT kimi bir təşkilatın nüfuzdan düşməsinə gətirib çıxara bilər. NATO artıq BMT TŞ-nın qərarı olmadan hərbi müdaxilə presedenti (keçmiş Yuqoslaviyada) yaratmışdır və gələcəkdə də belə halları istisna etmək olmaz.

NATO-nun 2009-cu il aprelin 2-də Strasburqda keçirilmiş sammitindən əvvəl Alyansın yenidən formalaşdırılmasına dair inqilabi təkliflərin irəli sürülməsi də bu dediklərimizi sübut edir. O zaman Rusiyanın nüfuzlu «Kommersant» qəzeti yazırdı: «Sammit zamanı ABŞ blokun yenidən formalaşdırılması konsepsiyasını təqdim etməyə hazırlaşır. Konsepsiyaya görə NATO məhdud sayda ölkələrin üzv olduğu hərbi-siyasi blokdan Avstraliya, Yaponiya, Cənubi Koreya kimi ölkələrin də daxil olduğu dünya təşkilatına çevriləcək. Perspektivdə isə alyansın BMT-ni əvəz etməsi planlaşdırılır...»



ABŞ-ın NATO-dakı yeni səfiri postuna Alyans üzrə nüfuzlu Amerika ekspertlərindən biri kimi tanınan İvo Daalderin təyin olunması heç də təsadüfi deyildi. Daalder Demokratiya Liqası yaradılması ideyasının çoxdankı tərəfdarıdır. Bu ideya ilə prezidentliyə respublikaçı keçmiş namizəd Con Makkeyn çıxış edirdi. Makkeyn bildirirdi ki, BMT dünyada demokratiya ideyalarını müdafiə edə bilmədiyindən bu təşkilatı əvəz edən, zərurət yaranarsa, demokratiyanın müdafiəsi üçün hərbi güc tətbiqini də mümkün sayan beynəlxalq təşkilatın yaranmasına ehtiyac var.

Makkeyn və Daalder hesab edirlər ki, BMT-nin qeyri-mükəmməlliyi bu təşkilata üzv olan ölkələrin əksəriyyətində diktatura rejimlərinin hökm sürməsi ilə bağlıdır. Ona görə də təşkilat üzərinə götürdüyü missiyanı yerinə yetirə və dünyada müharibələrin, münaqişələrin yaranmasının qarşısını ala bilmir. Daalder də məsələni 2009-cu ildə NATO-nun sammiti zamanı müzakirə etməyi təklif etmişdi. Ancaq ekspert bunu da əlavə etməyi lazım bilib ki, ideyanın reallaşması üçün yeni dünya liderlərinin seçimi zəruridir.

Daalderin mövqeyinə görə, ABŞ zaman-zaman xaricdə güc tətbiq etmək məcburiyyəti qarşısında qalır, o cümlədən belə hərbi müdaxilələr ölkədə hansı partiyanın hakimiyyətdə olmasından asılı olmur. Lakin İraq və Əfqanıstandakı müharibələr göstərdi ki, xaricdə hərbi əməliyyatlar dünyanın razılığı olmadan həyata keçirilməməlidir, beynəlxalq təşkilatlar belə əməliyyatları legitimləşdirməlidir. BMT Təhlükəsizlik Şurası bunu etməyə qadir deyil. Bu təşkilat son onilliklər ərzində dünyada heç bir hərbi münaqişənin qarşısını ala bilməyib. Səbəb isə Təhlükəsizlik Şurasında yer alan Rusiya və Çin

kimi qeyri-demokratik ölkələrdir. Ona görə də BMT-nin əvəzində bu cür hərbi əməliyyatlar üçün qərarı demokratik dövlətlərin birliyi qəbul etməlidir. Bu zaman NATO bütün məsuliyyəti üzərinə götürə bilər. Daalder Alyansın sıralarına Hindistan, Braziliya, Cənubi Afrika və İsveç kimi ölkələrin də daxil edilə biləcəyini düşünür.

NATO-nun 2009-cu il aprelin 2-də Strasburqda keçirilmiş sammitində Daalder və yeni Amerika administrasiyası Alyansın yenidən formalaşdırılması konsepsiyanı təqdim etmişlər. Bu sammitə alyansa üzv olmayan bir çox ölkələrin dəvət edilməsi göstərirdi ki, ABŞ öz niyyətində israrlıdır. Ekspertlərə görə, yeni konsepsiya dəstək qazansa, o zaman Gürcüstan və Ukrayna kimi keçmiş Sovet respublikalarının NATO-ya üzvlüyü məsələsi öz aktuallığını itirə bilər. Çünki onların yerinə Alyansa daha güclü demokratik ölkələr üzv olacaq.

Hazırda inkişaf etmiş dünyadan qismən təcrid olunmuş Rusiya (o, NATO-ya əks-təsir göstərməyə az-çox qabil olan yeganə dövlətdir) vəziyyəti düzəltmək üçün mümkün olan hər şeyi etməlidir ki, ölkənin iqtisadi cəhətdən cəlbediciliyi artsın və o, bərabərhüquqlu tərəfdaş kimi qarşılıqlı faydalı şərtlərlə Qərblə qeyri-hərbi əməkdaşlıq edə bilsin.

Yuxarıda deyilənlərdən aydın olur ki, NATO-nun bütün proqramları öz fəaliyyətində ya Alyans ölkələrindən olan alimlərin tərəfdaş dövlətlərin alimləri ilə əməkdaşlığına üstünlük verir, ya da «Sülh Naminə Tərəfdaşlıq» proqramının iştirakçılarına NATO tərəfindən birbaşa elmi-texniki köməyi nəzərdə tutur. Məsələn, 1999-cu ildə Elmi proqramın strukturunda genişmiqyaslı dəyişikliklər baş vermişdir və indi yalnız elmi təqaüdlər alt proqramı



qismən NATO üzvləri arasındakı elmi əməkdaşlıqla məşğul olur.

Müqayisə üçün NATO-nun Elmi proqramının 1999-cu ilə qədər mövcud olmuş strukturuna baxaq:

- Elmi tədqiqatların maliyyələşdirilməsi proqramları;
- Elmi təqaüdlər proqramları;
- Yay məktəbləri proqramları;
- Xüsusi proqramlar;
- NATO ölkələrində innovasiyalar;
- «Sabitlik naminə elm» proqramı;
- «İkiqat sıçrayış» proqramı;
- Mərkəzi və Şərqi Avropa ölkələri üçün elmi proqramlar.

Gördüyümüz kimi, Şərqi Avropa ölkələri ilə əməkdaşlıq əvvəllər ayrıca bir blokda cəmlənmişdi, digər altproqramlar isə ilk növbədə NATO üzvləri arasında əməkdaşlığa yönəlmişdi. Hazırda vəziyyət kökündən dəyişmişdir.

Əlbəttə, NATO-nun tərəfdaşlarına marağının artması təsadüfi deyildir. Bu, ilk növbədə ondan xəbər verir ki, indiki anda Alyans üçün daxili əməkdaşlıq yox, üçüncü dövlətlərlə qarşılıqlı fəaliyyət daha böyük aktuallıq kəsb edir. Başqa sözlə, NATO-nun siyasətində genişmiqyaslı dəyişikliklər baş vermişdir və hazırda Alyans öz orbitinə maksimum sayda müttəfiq və tərəfdaş dövlətləri cəlb etməklə hərbi-siyasi blokun fəaliyyətini universallaşdırmağa və qloballaşdırmağa can atır.

Əslində bu proses hələ 1999-cu ildə - NATO-nun yeni strategiya konsepsiyası qəbul ediləndən sonra başlamışdır. Keçmiş SSRİ-nin əsas müttəfiqlərini öz sıralarına daxil

etmiş Alyans bununla kifayətlənməyərək, Şərqə doğru daha da irəliləməkdə israrlıdır. Əgər əməkdaşlığın qeyri-hərbi sferaları səmərəli inkişaf edərsə, bu, NATO ilə tərəfdaşları arasında qarşılıqlı asılılığın güclənməsinə gətirib çıxaracaqdır. Belə vəziyyət NATO-nun genişlənməsinin perspektivləri nöqteyi-nəzərindən olduqca sərfəlidir. Əgər region dövlətləri arasında kompleks (siyasi, iqtisadi, elmi, ekoloji və s.) qarşılıqlı asılılıq yaranarsa, onda Şimali Atlantika Alyansının genişlənməsi prosesi dönməz xarakter alacaq və siyasi konyunkturadan asılı olmayacaqdır. Bununla əlaqədar olaraq NATO-nun qeyri-hərbi əməkdaşlığının inkişafında başlıca tendensiya aydın görünür. Alyans Şərqi Avropanı təkcə öz hərbi strukturuna inteqrasiya etməklə kifayətlənməyib, siyasi, iqtisadi, ekoloji, elmi və digər qeyri-hərbi rıçaqlardan istifadə etməklə buradakı dövlətləri özünə «bağlamaq» istəyir. Beləliklə, hazırda Şimali Avropa NATO-nun tam və qeyd-şərtsiz siyasi müttəfiqidir, amma bir neçə onillikdən sonra vəziyyət Qərb üçün əlverişsiz istiqamətdə dəyişə bilər. Avropanın siyasi konfiqurasiyasının dəyişməsinin prinsipcə mümkün olmaması üçün regionda kompleks qarşılıqlı asılılığı inkişaf etdirmək zəruridir. Bu zaman Şərqi Avropa Qərbi Avropadan və ABŞ-dan o dərəcədə asılı olacaqdır ki, heç bir halda hər hansı bir sferada müstəqil siyasət yeridə bilməyəcəkdir. Alyans daxili çətinliklərindən məharətlə yararlanmaqla Rusiyaya münasibətdə də oxşar taktikadan istifadə edə bilər. NATO çərçivəsində qeyri-hərbi əməkdaşlığın uzunmüddətli perspektivləri belədir.



# II HİSSƏ
# NATO-nun genişlənmə strategiyasında Azərbaycan Respublikasının yeri və rolu

## I BÖLMƏ
## NATO-nun Cənubi Qafqaz siyasəti və Azərbaycan Respublikası

### 1-ci fəsil
### Cənubi Qafqaz regionu və Azərbaycan

Qədim və dinamik keçmişə malik Azərbaycan xalqının dövlətçilik tarixi minilliklərlə ölçülür. Yerləşdiyi coğrafi məkanın strateji geosiyasi əhəmiyyəti və zəngin təbii sərvətləri böyük siyasət oyunçularının ölkəmizə münasibətdə həmişə xüsusi marağına səbəb olmuşdur. Lakin təəssüf ki, ölkənin yerləşdiyi coğrafi şərait ona mühüm üstünlüklər verməklə yanaşı, eyni zamanda, onu bir sıra təhlükəsizlik problemləri ilə də üzləşdirir.

Tarix elmləri doktoru, professor Əli Həsənov da «Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru» adlı kitabında bu məqama xüsusi diqqət yetirmişdir: «Qafqaz və Mərkəzi Asiya regionu tarix boyu bu bölgədə marağı olan ayrı-ayrı dövlətlərin mübarizə meydanı olmuşdur».

Son illərdə region ətrafında baş verən hadisələr də bu fikri təsdiq edir. Qərbin, xüsusilə də Avropanın iqtisadi maraqlarını təcəssüm etdirən Avropa İttifaqı Cənubi Qafqazı özünün Yaxın Qonşuluq və Şərq Tərəfdaşlığı proqram-layihələrinə cəlb etməklə onu Rusiyanın təsir dairəsindən çıxarmaqda maraqlı görünür. Əslində bu yolla

Avropa İttfaqı özü ilə Rusiya arasında ikinci təhlükəsizlik zolağını formalaşdırmağa çalışır. Bu gün Avropa İttifaqı ilk dəfədir ki təhlükəsiz yaşam coğrafiyası yaradıb və təbii olaraq onun gerçək təhlükəsizliyində narahatdır. Artıq Avropanın nüvəsində nə etnik-milli konfliktlər, nə fundamental ideoloji toqquşmalar, nə də müharibələr mövcuddur. Avropa üçün yeganə təhlükə ünvanı Rusiyadır. Nə uzaq Çin, nə islam fundamentalizmi, nə də ABŞ Avropa üçün təhlükə hesab olunur. Təhlükə mənbəyi kimi Avropanın quru sərhədlərlə qonşusu olan Rusiyadan ehtiyatlanırlar. Tarixi faktlar da təsdiqləyir ki, Avropanı daxildən sarsıdan ideoloji savaşlar, müharibələr əksər hallarda məhz Rusiyadan qaynaqlanıb. Bir sözlə, yeni siyasi dönəmdə Avropa Rusiyaya jandarm olmaq imkanını tanımaq niyyətində deyil.

Türkiyə də Avropanın bu layihəsi içərisində xüsusi rol almaqda maraqlıdır. Ölkənin Ermənistanla yaxınlaşma və digər qonşuları ilə problemsiz yaşama siyasəti də məhz bu niyyətin təzahürüdür.

Öz növbəsində Amerika da əzəli rəqibi Rusiyaya hansısa müstəvidə, xüsusilə Cənubi Qafqazda, hətta lokal müharibə fürsətini də tanımaq niyyətində deyil. Hər zaman olduğu kimi, tarixin yaşadığımız dönəmində də hərb Rusiyanı dirçəldən, onu ayaqda saxlayan, təsir imkanlarını genişləndirən bir amildir. 2008-ci ilin avqustunda yaşanan Rusiya-Gürcüstan müharibəsi əslində bir nəbz yoxlaması idi. Bu hərbi toqquşma Rusiyanın xeyrinə işlədi. Tərəflər bir daha əmin oldular ki, Rusiya ilə müharibə dilində danışmaq hərbi nəticənin necəliyindən asılı olmayaraq məğlubiyyətə bərabərdir.



Cənubi Qafqaz qlobal oyunçular üçün strateji cəhətdən vacib olan tranzit zonasıdır. Bu, şərqdən-qərbə- Mərkəzi Asiyadan enerji daşıyıcılarının dünya bazarlarına çıxarılması və əksinə qərbdən-şərqə- NATO-nun Mərkəzi Asiyaya siyasi, hərbi və iqtisadi müdaxiləsi üçün çox əlverişli bir məkandır. Cənubi Qafqaz uğrunda NATO, Rusiya və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı arasında qızğın mübarizə gedir.

## 2-ci fəsil
## NATO-nun Cənubi Qafqaz strategiyası

Beynəlxalq təşkilat olaraq NATO müasir dünyada siyasi vəziyyətə getdikcə daha ciddi təsir göstərir. Təşkilatın keçmiş SSRİ məkanındakı hadisələrə müdaxilə etməsi əsasən onunla bağlıdır ki, postsovet məkanında yaranmış yeni dövlətlərdə baş verən milli, etnik, ərazi münaqişələri bütövlükdə beynəlxalq münasibətlər sistemi üçün təhlükə yaradır. Hərbi-siyasi təşkilat kimi isə NATO bütün dünyada, o cümlədən postsovet məkanında münaqişələrin ləğv edilməsində öz rolunu artırmağa, bu ölkələrlə siyasi və iqtisadi böhranın aradan qaldırılmasına, demokratik islahatlar keçirilməsinə zəruri kömək göstərməyə çalışır. NATO şəraitə uyğun olaraq öz vəzifələrini daim yenidən müəyyənləşdirir, dünya siyasətində öz təsirini və xüsusi çəkisini artırmağa səy göstərir.

1994-cü il yanvarın 10-11-də NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Brüsseldə görüşü keçirildi. Görüşün yekunlarına dair bəyanat qəbul olundu. Sənəddə beynəlxalq və regional siyasi şəraitin aktual problemləri barəsində NATO-nun mövqeyi əks olunmuşdur. Bəyanatın 21-ci bəndində NATO-nun üzvü olan ölkələr Cənubi Qafqazda vəziyyət haqqında öz mövqelərini bildirirlər. Bəyanat yenə də mülayimliyi baxımından əvvəlkilərdən fərqlənmir. Güc işlədilməsi ilə ərazilər ələ keçirilməsini pisləyən NATO ölkələri Ermənistan, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmət edilməsini həmin bölgədə sülhün, sabitliyin, əməkdaşlığın bərqərar olması üçün zəruri şərt hesab edirlər. NATO-nun Cənubi Qafqaz strategiyasında



başlıca məsələ üç respublika ilə eyni dərəcədə əməkdaşlığın planlaşdırılmasıdır. NATO Cənubi Qafqaz respublikaları ilə ayrı-ayrılıqda yaratdığı münasibətlərin bir-birinə xələl gətirəcək istiqamətdə inkişafına imkan verməməyə çalışır. Təşkilatın Azərbaycan, Gürcüstan və Ermənistan arasında regional formatda əməkdaşlıq təklifləri də bu məntiqdən qaynaqlanır.

## 3-cü fəsil
## İranın regional təhlükəsizlik sisteminə dair təklifləri və Cənubi Qafqaz respublikaları

İran rəhbərliyi isə regional təhlükəsizlik sisteminə dair yeni formula (3+3), yəni Cənubi Qafqaz respublikaları + Rusiya, İran və Türkiyə formulunu irəli sürmüşdür. ABŞ-ın regiona gəlişini əngəlləmək üçün İran hətta Vaşinqtonun müttəfiqi və Tehranın əsrlər boyu bölgədə rəqibi olan Türkiyə ilə əməkdaşlığa hazır olduğunu nümayiş etdirir. Rəsmi Tehran bu sistem daxilində 6 dövlətin təhlükəsizlik şuralarının katibləri, parlament sədrləri, həmçinin iqtisadiyyat və maliyyə nazirləri səviyyəsində görüşlərinin keçirilməsini və ümumi baxışların formalaşdırılmasını təklif edir. Lakin bu təşəbbüs region dövlətlərinin dəstəyini qazanmadı. Bu, bir daha göstərir ki, İranın regional təhlükəsizlik məsələlərinə baxışı digər region ölkələrinin mövqeyi ilə üst-üstə düşmür.

İranın regional təhlükəsizlik sisteminə dair daha bir təklifi 2003-cü ilin aprelində gündəmə gətirildi. Ölkənin xarici işlər naziri Kamal Xərrazinin regionun birgə təhlükəsizlik qüvvələrinin yaradılması təşəbbüsü yenə də bölgə dövlətlərinin dəstəyini qazanmadı.

İranın bölgədəki geostrateji məqsədləri aşağıdakı kimi xarakterizə etmək olar ki, bunlar da aşağıdakılardan ibarətdir:

- Kənar qüvvələrin (ABŞ, NATO və Avropa İttifaqı) Cənubi Qafqazda iştirakını mümkün qədər məhdudlaşdırmaq, onların İran sərhədlərinə yaxınlaşmasına imkan verməmək;



- Regional problemləri yalnız məntəqədəki dövlətlərin birgə səylərilə həll etmək;
- Xəzər hövzəsi və Güney Qafqaz ölkələrinin birtərəfli addımlarını maksimum neytrallaşdırmaq və proseslərdə birgə iştiraka nail olmaq üçün mexanizm tapmaq;
- Qərbyönümlü siyasət yeridən region dövlətləri ilə münasibətləri yüksək səviyyədə quraraq, onlara təsir mexanizmlərini müəyyənləşdirmək;
- Geostrateji maraqları İranla üst-üstə düşən region ölkələrilə əməkdaşlığı daha da möhkəmləndirmək.

Lakin hadisələrin gedişi göstərir ki, Qərb İranın regiondakı geosiyasi duruma təsir göstərmək imkanını getdikcə azaltmağa çalışır. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələrinin reallaşması, bölgədə bütün layihələrin Qərbin dəstəyi ilə həyata keçirilməsi İranın regiondakı proseslərdən təcrid olunması ilə nəticələnir. Tehranın ciddi müqavimətinə baxmayaraq, ABŞ artıq ölkənin sərhədlərinə yaxınlaşıb. İranla sərhədyanı ölkələrin əksəriyyətində- Türkiyə, Pakistan, Əfqanıstan, İraq, həmçinin İran körfəzi ölkələrində ABŞ-ın hərbi qüvvələri yerləşdirilib. ABŞ və NATO-nun hərbi qüvvəsi olmadığı İranla həmsərhəd dövlətlər Azərbaycan, Ermənistan və Türkmənistandır. Bu amil bu ölkələrin İran üçün əhəmiyyətini artırır. Təsadüfi deyildir ki, İraq müharibəsi başlanandan sonra Tehranın Bakı ilə münasibətlərinə daha çox diqqət yetirməsi müşahidə olunur.

Son illərdə Gürcüstanın Qərblə, xüsusilə də ABŞ və NATO ilə əməkdaşlığı daha da genişlənib. NATO-nun assosiativ üzvü olan Gürcüstan, yalnız 1999-cu ildə NATO

ilə əməkdaşlıq çərçivəsində onlarla tədbir, o cümlədən Rusiyanın narazılıqla qarşıladığı genişmiqyaslı hərbi-dəniz təlimləri keçirib. 2011-ci il noyabrın 9-da isə Şimali Atlantika Şurası NATO ilə Gürcüstanın tərəfdaşlıq münasibətlərinə qiymət vermək və gələcək iş prioritetlərini müəyyənləşdirmək üçün Tbilisidə baş nazir Nikolay Gilauri və onun kabinetinin digər üzvləri ilə NATO-Gürcüstan Komissiyası çərçivəsində görüşlər keçirmişdir.

Vizitin ikinci günü, noyabrın 10-da Şura üzvləri Batumi limanında prezident Mixail Saakaşvili ilə görüşmüş və Gürcüstanın Şimali Atlantika Alyansının əməliyyatlarına əvəzsiz töhfəsi və bu Cənubi Qafqaz ölkəsinin Şimali Atlantika təhlükəsizliyinin möhkəmləndirilməsi işinə sədaqətinə görə ona təşəkkürlərini bildirmişlər.

NATO-nun Baş katibi Andres Foq Rasmussen bir daha bəyan etmişdir ki, Gürcüstanın gələcəkdə Alyansa üzvlüyünə dair 2008-ci il Buxarest sammitinin qərarı bu gün də qüvvədədir.

Bu reallıqlar kontekstində İran İslam Respublikasının (İİR) Qafqaz siyasətində mühüm həlqələrdən biri Tehran-Tbilisi münasibətləridir. İran-Gürcüstan əlaqələri 1991-ci ildə SSRİ dağıldıqdan sonra Gürcüstanın müstəqillik əldə etməsi ilə başlayıb. Bu münasibətlər 1992-ci ildə iki ölkə arasında diplomatik münasibətlər qurulduqdan sonra mühüm əhəmiyyət kəsb etmişdir. İki ölkə arasında münasibətlər 1996-ci ilədək sürətlə inkişaf etmiş, sonralar müxtəlif səbəblərə görə bir qədər soyumuşdu. Tehran Gürcüstan ilə münasibətlərə siyasi mülahizələrlə yanaşı, geostrateji və iqtisadi maraqlarının təmin olunması üçün



ciddi önəm verir. Bu məqsədlə orada gedən prosesləri ciddi izləyir.

Əlaqələrin inkişafı dövründə iki ölkə rəsmiləri yüksək səviyyədə görüşlər keçirmişlər. 1992-1996-cı illərdə Gürcüstan prezidenti Eduard Şevardnadze iki dəfə İİR-na və eyni zamanda İİR-nin sabiq prezidenti Haşimi Rəfsəncani və onun birinci müavini Həsən Həbibi Gürcüstana səfər etmişlər. Habelə iki ölkənin xarici işlər nazirlikləri dəfələrlə görüş keçirmişlər ki, bunların da nəticəsində iki dövlət arasında müxtəlif sahələrdə 40-dan çox saziş imzalanmışdır.

Obyektiv və subyektiv amillər, o cümlədən Qərbin üstünlüyü E.Şevardnadzeni Rusiya və İrandan uzaqlaşdırıb Qərbin müttəfiqinə çevirdi və bunun təsiri altında İranla bağlı qeyd etdiyimiz sazişlərə əməl olunmadı. Gürcüstanın hərbi aerodomlarının bərpası və hərbi qüvvələrinin hazırlanması işlərini Türkiyə dövləti öz öhdəsinə götürdü.

İran-Gürcüstan iqtisadi əlaqələri də aşağı səviyyədədir. İranın Mərkəzi Gömrük Təşkilatının statistik məlumatına əsasən, hətta münasibətlərin nisbətən yaxşı olduğu 1999-cu ildə İrandan ixracat 7.65 milyon dollar və Gürcüstandan ixracat isə 15.3 milyon dollar dəyərində olmuşdur. Yəni İran, Gürcüstana ixrac edən ölkələr sırasında 51-ci yeri və Gürcüstandan idxal edənlər sırasında 54-cü yeri tutur.

Gürcüstan regionda özünəməxsus siyasət yeritməyə çalışır. 2003-cü ildə baş vermiş narıncı inqilab nəticəsində qərbyönlü E.Şevardnadzenin yerinə hakimiyyətə eyni kurs yeridən gənc siyasətçi Mixail Saakaşvili gəlmişdir. Ölkənin Qərbə bu qədər meyl etməsi, NATO-ya üzvlüyə can atması İranın xarici siyasətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Belə ki, Gürcüstan NATO-nun Şərqdə qapısı

hesab olunur. İİR-nin strateji tərəfdaşları hesab olunan Rusiya və Ermənistan Şimal və Cənub istiqamətindən NATO-nun inkişafına maneə hesab olunurlar. Bu halda Gürcüstanın əhəmiyyəti artır, yəni Gürcüstanın Qərblə əməkdaşlığı birbaşa İranın təhlükəsizliyi üçün məqbul deyil.

Gürcüstanın iqtisadi və təhlükəsizlik baxımından əhəmiyyəti, Şimal-Cənub dəhlizindəki rolu danılmazdır. Gürcüstanın burada iştirakı İİR üçün mühüm məsələdir və bu dəhlizin önəmli həlqəsi hesab olunur. Gürcüstanın Qara dənizlə qonşuluğunun İran-Avropa ticarət əlaqələrində böyük əhəmiyyəti vardır. Habelə ölkənin neft və enerji problemləri İranla əməkdaşlığa zəmin yaradır.

NATO-nun və digər Qərb institutlarının regiondakı fəaliyyətinə əsas maneə Rusiya-İran münasibətləridir. İki ölkənin maraqları və regionda baş verən proseslər, onları NATO-ya və ABŞ-a qarşı strateji tərəfdaşa çevirib. İranın bir sıra məsələlərdə (Xəzər dənizinin statusu, nüvə proqramları və s.) antiqərb mövqeyi, daxili iqtisadi, sosial və etnik problemləri, eləcə də, Qafqaz regionunda nüfuzunu yaymaq səyləri bu və ya digər şəkildə Rusiyaya bağlıdır.

Gürcüstanın özündə bir sıra strateji məsələlər, o cümlədən NATO-nun regionda möhkəmlənməsi, enerji, tranzit məsələləri etnik və dini münasibətlərin perspektivləri Rusiyadan və onun Qərblə münasibətlərindən asılıdır. Ümumiyyətlə, bölgədə gedən bəzi mühüm proseslər İİR-Gürcüstan münasibətlərində irəliləməsinə mane olur.

Regionda formalaşan Rusiya, İran və Ermənistan yaxınlaşması Gürcüstanı Qərb bloku ilə, eləcə də ABŞ,



Türkiyə, Azərbaycan və İsrail ilə yaxınlaşdırır. Gürcüstanın bu mövqeyi istər-istəməz İranın və onun müttəfiqlərinin əleyhinədir. İran rəsmiləri müxtəlif formalarda BTC neft kəmərinin əleyhinə olduqlarını və bu kəmərin region üçün qeyri-səmərəliliyini əsaslandırmağa çalışmışlar. Gürcüstanın Abxaziya, Acarıstan və Cənubi Osetiya münaqişələrində İranın susması əslində Rusiyanın maraqları ilə üst-üstə düşür.

İran-Gürcüstan iqtisadi münasibətlərinə gəldikdə, bu münasibətlər "Şimal-Cənub Nəqliyyat Dəhlizi əsasında formalaşır. Gürcüstanın Qara dənizə çıxışı və onun İran-Avropa iqtisadi əlaqələrində oynaya biləcəyi rol İran tərəfindən nəzərə alınır və müsbət qarşılanır. Bundan başqa, İran qazının Avropa ölkələrinə nəql edilməsi işində də Gürcüstan ərazisi İran-Avropa qaz xətti üçün həm strateji, həm də iqtisadi cəhətdən önəmlidir.

İran-Gürcüstan münasibətlərində Tehran siyasi və iqtisadi maraqlarla yanaşı, həm də ideoloji prizmadan çıxış edirdi. Gürcüstanda daxili siyasi şəraitin inkişafına Tehranın baxışları özünəməxsus əhəmiyyətə malik idi. Bu iki ölkənin əlaqələri praktik olaraq onların qurulduğu ilk andan mənfi məzmuna malik idi. İran rəhbərliyi regionda ABŞ-ın hərbi iştirakının genişlənməsindən son dərəcə narahatçılığını büruzə verirdi. Pankisi dərəsində antiterror əməliyyatlarının keçirilməsinə ABŞ hərbi mütəxəssisləri-nin cəlb edilməsinə dair gürcü rəhbərliyinin qərarı Tehranda son dərəcə mənfi reaksiya doğurmuşdu. İİR-nin hərbi-siyasi rəhbərliyi bu addımlara mərhələlər üzrə İİR-nin hərbi mühasirəsini sübut edən addımlar kimi, dövlətin islami quruluşuna açıq zorakı təzyiq vasitəsi kimi baxırdılar.

İran tərəfinin dəyərləndirməsinə görə ABŞ hərbi qulluqçularının Gürcüstanda iştirakı faktından çox İİR-nin milli təhlükəsizliyinə əsas təhdid budur ki, Tiflis özü Qafqazda ABŞ hərbi siyasətinin bələdçisinə çevrilir və regionda baş verən proseslərə öz təsirini artırmaqla İranın bütün səylərini heçə endirir. Bununla da Vaşinqtonun İİR-nin tamamilə təcrid edilməsinə yönəldilmiş siyasətinin təsiri altında Gürcüstan tədricən İrandan uzaq düşür. Hazırda Gürcüstanda elə bir siyasi partiya, o cümlədən də müxalifətin elə bir qüvvəsi mövcud deyildir ki, İranın maraqlarına lobbiçilik etsin və İranpərəst siyasət yeritsin.

Son illər Tehran ilə Tiflis arasında siyasi və iqtisadi münasibətlərin inkişafı yalnız bəyannamə xarakteri daşımışdır. Əməkdaşlığı dərinləşdirmək istəyi və guya artıq ticarət, elm, mədəniyyət sahələrində imzalanmağa hazırlanmış sənədlər imzalanmamış, hər iki tərəfin dəfələrlə verdiyi bəyanatlar gerçəkliyə çevrilməmişdir. Hətta 2003-cü ildə Gürcüstan prezidentinin İrana səfəri də münasibətlərdə elə bir köklü dəyişikliyə gətirib çıxarmadı.

Ermənistan isə Cənubi Qafqazda formal təhlükəsizlik siyasəti yeridir. Onun bütün məsələlərə yanaşması digər bölgə ölkələrindən geridə qalmamaq üçün təbliğat xarakteri daşıyır. Ermənistanın regionda özü ilə ikitərəfli münasibətlərin inkişafına xüsusi əhəmiyyət verdiyi ölkələr Rusiya və İrandır. Hərbi və iqtisadi sahədə daha çox Rusiyaya sığınan Ermənistan üçün coğrafi baxımdan İranla əlaqələr də mühüm əhəmiyyət kəsb edir. Çünki Türkiyə və Azərbaycanla sərhədi bağlı olan və hərbi-siyasi müttəfiqi Rusiya ilə sərhədə malik olmayan Ermənistan İranı "həyat dəhlizi adlandırır. Orta Asiya, Çin və Yaxın Şərqə məhz İran vasitəsilə yol tapan Ermənistan üçün



İranla əlaqələrinin zəifliyi dünyadan tamamilə təcrid olunmaq deməkdir.

İİR-nin xarici siyasətində keçmiş sovet məkanındakı Cənubi Qafqaz ölkələri ilə münasibətlərə xüsusi diqqət yetirilir. Tehran Cənubi Qafqazda nüfuz dairəsi uğrunda NATO-nun üzvü olan Qərb dövlətləri, o cümlədən Türkiyə ilə ciddi rəqabət aparır. ABŞ və Rusiyanın Qafqaz regionu uğrunda rəqabətində İran da imkan düşdükcə iştirak edir və bu zaman respublikaların müəyyən problemindən istifadə edərək onları öz tərəfinə çəkməyə çalışır. Məsələn, İİR Ermənistanla sıx siyasi və iqtisadi əlaqələr qurmasına baxmayaraq, Qarabağ müharibəsi dövründə dəfələrlə Ermənistanı işğalçı hesab edib və indiyə qədər də Ermənistan və Azərbaycana qarşı həyata keçirdiyi mürəkkəb siyasətlə iki ölkənin yaratdığı vəziyyətdən ancaq öz maraqlarına uyğun istifadə etməyə cəhd göstərir.

Ermənistan NATO-nun Şərqə doğru genişlənməsində iştirak etmək niyyətindədir. Əgər bu məsələdə yaxınlaşma baş versə, bu zaman o, İran üçün təhlükəli ola bilər. Rusiya-Ermənistan-İran yaxınlaşması və birgə hərəkət etmək meyli məhz bu səbəbdən yaranmışdı. NATO-nun regiona ayaq açması və burada öz hərbi bazalarını yaratmaq niyyəti İranı Rusiyanın himayəsindən məhrum edər və eyni zamanda Ermənistanı Rusiya və İran orbitindən çıxara bilər.

İİR-nin Qafqaz siyasətində Ermənistanın hərbi əlaqələri nəzərə alınmaya bilməz. Bu dövlət özünün hərbi təcavüzünün nəticələrini təmin etmək üçün bir neçə ölkə və təşkilatlarla hərbi, hərbi-strateji əməkdaşlıq edir. Ermənistan ilk növbədə Rusiya Federasiyası (RF) ilə

hərbi-strateji tərəfdaşdır. O, MDB Kollektiv Təhlükəsizlik Müqaviləsinə qoşulmuş, «Sülh Naminə Tərəfdaşlıq» proqramı çərçivəsində isə NATO ilə əməkdaşlıq edir. ABŞ 2005-ci ildə terrorizmə qarşı mübarizə proqramı çərçivəsində Ermənistan Respublikasına 5 milyon dollar yardım etmişdir. Bu maliyyə vəsaiti Ermənistanın Silahlı Qüvvələrinin (SQ), xüsusilə Hərbi hava qüvvələrinin maddi-texniki bazasının genişlənməsi üçün xərclənməli idi.

Bundan əlavə ABŞ 2005-ci ildə Ermənistan Respublikası SQ-nin hərbi kommunikasiya sisteminin modernləşdirilməsi üçün daha 7 milyon dollar yardım etmişdir. NATO ilə əməkdaşlıq etməsinə baxmayaraq, bu ölkə NATO sisteminə keçmək niyyətində deyil. Bundan əlavə, Ermənistan Avropa İttifaqı ilə də hərbi əməkdaşlıq edir.

Ermənistanın NATO ilə əməkdaşlığı İranı sözsüz ki, bərk qıcıqlandırır. Bu əməkdaşlıq Rusiya Federasiyası ilə əməkdaşlıq səviyyəsində olmasa da, mövcuddur. Ermənistan NATO-nun «Sülh Naminə Tərəfdaşlıq proqramı»nın iştirakçısıdır və əsgəri qüvvəsi İraqda sülhməramlı fəaliyyət göstərir. Bu dövlətin ABŞ-ilə birbaşa hərbi əməkdaşlığı Tehranın mənfi reaksiyasına səbəb olur. Digər tərəfdən, Ermənistanın NATO-nun üzvü olan Yunanıstanla, eləcə də, Avropa İttifaqı (Aİ) ilə əməkdaşlığı gələcəkdə İran-Aİ əlaqələrinin inkişafına müəyyən təsir göstərə bilər. Qeyd olunanlardan əlavə, Ermənistan ərazisinə İran-Türkiyə-Avropa xəttinə alternativ kimi baxılır. İranın enerji, yanacaq və ticarət sahəsindəki inkişaf dinamikası Ermənistanın indiki vəziyyətində onun üçün çox önəmlidir.



İran ilə Ermənistanın mədəni sahələrdə, o cümlədən din, dil, ənənə, tarix və s. sahələrdə heç bir ortaq nöqtələri olmadığı halda ermənilər özlərini ari köklü farsların qardaşı, bu kökdən əmələ gələn qol hesab edirlər. Fars şovinizmi üçün əlverişli olan bu iddia Ermənistanın İrandan daha artıq faydalanmasına və İrandakı ermənilərə daha çox imtiyaz qoparmasına şərait yaradır.

Rusiya və Ermənistanın strateji müttəfiqliyini və Moskva-Tehran əlaqələrini nəzərə alsaq, Rusiya-İran-Ermənistan xəttinin formalaşması aydın görünür. Bu gün artıq "üçlər bloku de-fakto mövcuddur. Bununla yanaşı, 1997-ci ildə Afinada İran, Yunanıstan və Ermənistan arasında «Qarşılıqlı anlaşma və əməkdaşlıq» haqda müqavilənin imzalanması da regionda mövcud durumun gərginləşməsinə təsir göstərir.

Beləliklə, İran Qafqazda yeritdiyi siyasətində Ermənistana xüsusi yer verir. Bu həm strateji-siyasi, həm iqtisadi-ticarət, həm də mədəni-mənəvi amillərdən irəli gəlir. İİR-nin Ermənistanda geosiyasi, iqtisadi-ticari maraqları vardır. Bu, həm İranın özünün təcrid vəziyyətindən qurtarması, həm də onun bu region vasitəsilə Qərb dünyasına çıxış əldə etmək istəkləri, Güney Qazqazda baş verən hadisələrdə fəal rol oynamaq və vasitəçilik missiyasını yerinə yetirmək niyyətləri ilə izah oluna bilər. İran ilk növbədə Cənubi Qafqazı öz nüfuz dairəsinə daxil etmək məqsədi güdür və NATO ilə rəqabət aparmağa cəhdlər edir.

## 4-cü fəsil
## Azərbaycanın NATO ilə əməkdaşlıq mərhələləri

Belə bir mürəkkəb şəraitdə beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq Azərbaycan Respublikasının (AR) xarici siyasətinin, diplomatiyasının əsas vəzifələrindən və xarici siyasət fəaliyyətinin əsas istiqamətlərindən biridir. Bu baxımdan dünyadakı önəmli təşkilatlardan biri olan NATO ilə əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir.

İkitərəfli əməkdaşlıq, Avro-Atlantika Tərəfdaşlıq Şurası (1997-ci ilədək Şimali Atlantika Tərəfdaşlıq Şurası) və «Sülh Naminə Tərəfdaşlıq (SNT) Proqramı» çərçivəsində Azərbaycan-NATO əməkdaşlığını şərti olaraq 3 dövrə bölmək olar:

Birinci dövr 1992-ci il fevralın 20-dən 1994-cü ilin mayına qədər olan müddəti əhatə edir. Azərbaycan Respublikası ilə NATO arasında ilk siyasi münasibətlərin yarandığı mərhələ 1992-ci ilin fevralında baş nazir Həsən Həsənovun NATO-nun mənzil-qərargahına səfərindən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü ilin mayında Alyansın Brüsseldəki qərargahında SNT proqramının çərçivə sənədini imzalamasınadək olan dövrü əhatə edir.

İkinci dövr 1994-cü il mayın 4-dən 1996-cı il aprelin 23-dək davam etmişdir. SNT proqramının Təqdimat sənədinin imzalanmasına qədər olan bu dövrdə əsas diqqət Azərbaycanın bu proqram çərçivəsində fəaliyyət strategiyasının müəyyən edilməsi və ikitərəfli münasibətlərin inkişaf yollarının dəqiqləşdirilməsinə yönəldilmişdi.

Üçüncü mərhələ 1996-cı il aprelin 23-dən 2001-ci il yanvarın 16-na və onun davamı kimi bu günə qədərki



dövrü əhatə edir. NATO-nun baş katibi C.Robertsonun 2001-ci ilin yanvarında ölkəmizə səfəri əlaqələrin inkişafında müsbət rol oynamışdır. Bu dövrdə üç dəfə (1997-ci ilin fevralı, 1998-ci ilin sentyabrı və 2001-ci ilin yanvarında) NATO-nun baş katibləri və Alyansın digər yüksək səviyyəli rəsmiləri Azərbaycan Respublikasına səfər etmiş, Alyansın Brüsseldəki mənzil-qərargahında diplomatik missiyamız fəaliyyətə başlamış, Azərbaycanın sülhyaratma taqımı Kosovoda NATO rəhbərliyi altında sülhün keşiyində dayanmış, Azərbaycan ərazisində SNT çərçivəsində bir sıra tədbirlər həyata keçirilmişdir.

Lakin bütün bunlara baxmayaraq, münasibətlərin mövcud durumu Azərbaycan qarşısında duran hərbi təhlükəsizlik problemlərinin həllinə təsir edəcək səviyyədə deyildir. Məhz bu hədəfi Azərbaycan NATO ilə münasibətlərində özü üçün çıxış nöqtəsi qəbul etmişdir.

Geosiyasi məqsədlərinə nail olmaq və NATO amilindən istifadə etmək üçün Azərbaycan Avro-Atlantika müstəvisində yaxın və orta perspektivli bir sıra addımlar atır, NATO ilə əməkdaşlığın inkişafında maraqlı olduğunu konkret praktiki tədbirlərlə təsdiq edir. Məsələn, Kosovo və Əfqanıstanda beynəlxalq sülhməramlı qüvvələr tərkibində öz missiyasını uğurla yerinə yetirən Azərbaycan 2003-cü ilin mayında koalisiya qüvvələrinin tərkibində İraqda keçirilən sülhməramlı əməliyyatlarda iştirak haqqında qərar qəbul etmişdir. Bununla da, erməni terrorizmindən ziyan çəkmiş Azərbaycan Respublikası beynəlxalq terrorizmə qarşı mübarizədə sivil ölkələrlə həmrəy olduğunu nümayiş etdirir. Amma ölkəmizin bu səyləri Rusiya və cənub qonşumuz İran İslam Respublikası tərəfindən xüsusi qısqanclıqla qarşılanır. Bununla əlaqədar olaraq, yaxın tarixə qısa ekskursiya etmək yerinə düşərdi.

## 5-ci fəsil
## İranın Cənubi Qafqazdakı maraqları və Azərbaycan Respublikası

SSRİ dağıldıqdan sonra Cənubi Qafqazda yaranmış boşluğu doldurmaq üçün İran regionda cərəyan edən hadisələrə çox həssas yanaşır. Təsadüfi deyildir ki, Tehran Cənubi Qafqazda mövcud münaqişələrin həllində vasitəçilik missiyası ilə çıxış etmək üçün dəfələrlə təşəbbüs göstərmişdir. Lakin böyük dövlətlərin rəqabət mübarizəsi şəraitində bu təşəbbüslər uğursuzluqla nəticələnmişlər. Bununla belə, İran həm Azərbaycanda, həm də Ermənistanda baş verən hadisələri diqqətlə izləyir və Cənubi Qafqaza özünün milli maraqlarına daxil olan zona kimi baxır. Tehran Qərb ilə Şərqi birləşdirən nəqliyyat dəhlizinə çox maraqla yanaşır.

Cənubi Qafqazda böyük maraqlara malik olan Tehran bölgədə öz xarici siyasətinin perspektivlərini müəyyənləşdirərkən Qafqazın aparıcı dövləti olan Azərbaycan Respublikası ilə münasibətlərinə xüsusi önəm verir. Tehran yaxşı başa düşür ki, Bakı ilə qarşılıqlı faydalı əməkdaşlıq və səmərəli münasibətlər qurmadan Cənubi Qafqazda uğurlu siyasət yeritmək mümkün olmaz. Nəzərə alsaq ki, Cənubi Qafqazda sülh və inteqrasiya prosesləri, xalqlar, dövlətlər arasındakı sosial-siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığın sabitləşməsi, tarixən mövcud olmuş, lakin müxtəlif etnik münaqişələr, separatçılıq meylləri, ərazi iddiaları və digər səbəblərdən pozulmuş əlaqələrin bərpasına nail olunması, möhkəm, uzunmüddətli, sabit yaxınlaşma məsələləri bu gün Qərb dövlətlərinin, xüsusən, dünyada fövqəldövlət missiyasını yerinə yetirməyə çalışan ABŞ-ın xarici siyasətində



prioritet istiqamətlərdən biri sayılır, belə bir nəticəyə gələ bilərik ki, İİR və Azərbaycan Respublikası arasında əlaqələrin inkişafını zəruri edən əsas amillər aşağıdakılardır:

- Qafqaz xalqları arasında azərbaycanlıların üstünlük təşkil etməsi, əhalinin başlıca amil kimi qarşılıqlı münasibətlərdə mühüm rol oynaması;
- Azərbaycanın əlverişli geosiyasi mövqeyə malik olması, Transqafqaz yolunun Azərbaycandan keçməsi, onun iqtisadi və siyasi təsir gücünün artması;
- Azərbaycanın zəngin resurslara malik olması, iqtisadi resursların xalqları və ölkələri bir-birinə yaxınlaşdıran amil olması.

Öz mövqeyindən səmərəli və beynəlxalq hüquq normalarına uyğun şəkildə istifadə edən Azərbaycan Respublikası regionda sülh uğrunda mübarizədə sadəcə deklarativ xarakter daşıyan bəyanatlarla kifayətlənmir, eyni zamanda lazımi siyasi gedişlər edir, qonşu dövlətlərlə, eləcə də İİR ilə münasibətdə balanslaşdırılmış siyasət yeridir, bu istiqamətdə konkret əməli addımlar atır. Bununla belə, İİR-nin keçmiş prezidenti M.Hatəminin 2004-cü ilin avqustunda Bakıya rəsmi səfəri, həmçinin, Azərbaycan Respublikasının Xarici işlər nazirinin İrana səfəri və İİR-nin ədliyyə, təhlükəsizlik, səhiyyə, müdafiə nazirlərinin, habelə İran XİN-nin Konsulluq şöbəsi rəisinin 2004-cü ildə Azərbaycana rəsmi səfərlərində əldə olunmuş razılıqlar iki ölkənin siyasi, iqtisadi, mədəni-elmi əlaqələrinin genişləndirilməsinə müəyyən təkan versə də, İran özünün Cənubi Qafqaz siyasətində Rusiyanın maraqlarını nəzərə almaya bilməz. Moskva ilə Tehranın birbaşa hərbi-texniki əməkdaşlığı və Rusiya-İran-

Ermənistan alyansının yaranması Qərbin bu regionda meydan oxumasına cavab kimi nəzərdə tutulub.

Rusiya Federasiyasına dəstək verən İranın Azərbaycan Respublikası ilə münasibətləri də birmənalı deyil. İran ardıcıl olaraq ABŞ-ın Cənubi Qafqaz regionuna nüfuz etməsinə qarşı çıxır. Xəzərin statusu məsələsinin həllinin ləngidilməsi də Moskva ilə Tehranın ABŞ-ın bölgədən sıxışdırılıb çıxartmaq cəhdləri ilə bağlıdır və bu mövqe İranın Azərbaycan Respublikasının Qərblə imzaladığı neft müqavilələrini tanımamaq barədəki cəhdləri və vaxtaşırı bəyanatları ilə möhkəmləndirilir. Məsələn, 2001-ci ilin yayında Azərbaycan Respublikası geoloji kəşfiyyat gəmilərinin və Böyük Britaniya neft firmaları nümayəndələrinin İranın tələbi ilə Xəzərin Azərbaycan sektorunda işi dayandırmaları buna misal ola bilər.

Neftin qiymətinin ciddi şəkildə artıb-azalması fonunda mövcud və yenicə layihələndirilən boru kəmərləri ətrafında baş verən çəkişmə də öz apogeyinə çatıb. ABŞ-ın cəhdləri ilə Azərbaycan neftinin çıxarılmasında iştirakdan məhrum edilmiş İran Türkmənistan və Qazaxıstanla əməkdaşlıq etməyə, onların neft və qaz axınını öz ərazisindən Qərbi Avropaya və Uzaq Şərqə yönəltməyə çalışır. Deməli, İran Cənubi Qafqazda həm də özünün iqtisadi və enerji maraqlarının təmin edilməsi istiqamətində ciddi səylər göstərir.

İranın Azərbaycana qarşı mövqeyinin sərtliyinə daha bir amil- İranda xeyli sayda (qeyri-rəsmi məlumata görə 35 milyondan çox) Azərbaycan türkünün yaşaması da öz təsirini göstərir.

Qeyd edək ki, Tehran üçün Cənubi Qafqaz həm keçmiş sovet məkanındakı müstəqil dövlətlərə, həm də Avropa ölkələrinə pəncərə rolunu oynayır. Bu cəhətdən İran



rəhbərliyi region ölkələrinin maraqlarını da nəzərə almaya bilməz. Bununla belə, İranın bölgədəki təhlükəsizlik problemlərinə öz tarixi yanaşma tərzi var və bu dövlətin mövqeyində yeni şəraitdə hər hansı bir dəyişiklik müşahidə olunmur.

İran bölgədə qeyri-sabitliyin yaranmasına burada regiondan kənar qüvvələrin (ABŞ, NATO və Avropa İttifaqı) mövqelərinin möhkəmlənməsinin əsas şərti kimi baxır. Çünki istənilən halda münaqişə regiona kənar qüvvələrin müdaxiləsinə yol açır. Məhz buna görə də, İran dəfələrlə istər Xəzər hövzəsindəki ölkələrə, istərsə də, Cənubi Qafqaz respublikalarına bölgədə təhlükəsizliyin qorunması üçün birgə kompleks tədbirlər təklif edib və regiondan kənar qüvvələrin proseslərə müdaxiləsini yolverilməz sayıb.

İranın bununla bağlı ilk təşəbbüsü Cənubi Qafqazda vahid təhlükəsizlik sisteminin yaradılması ilə bağlı olub. Bunun üçün rəsmi Tehran region ölkələrinə 3+2, yəni Güney Qafqaz respublikaları+Rusiya və İran modelini təklif edibdir. Bu sistem təhlükəsizlik və xarici siyasət sahəsində adı çəkilən ölkələrin səylərinin birləşdirilməsini və onların birgə əməkdaşlığını nəzərdə tutur. Lakin Tehranın bu təklifi region ölkələri tərəfindən birmənalı qarşılanmadı. Məsələn, rəsmi Bakı öz təhlükəsizlik problemlərini ikitərəfli və çoxtərəfli əlaqələr və beynəlxalq təşkilatlarla əməkdaşlıq formasında həll etməyə üstünlük verdiyini bildirdi.

## 6-cı fəsil
## Cənubi Qafqaz və Rusiya

İranın xarici siyasətində mühüm rol oynayan və onun strateji tərəfdaşı olan Rusiya Ermənistanı özünün Cənubi Qafqazdakı yeganə etibarlı strateji müttəfiqi hesab edir. Ermənistanın geostrateji mövqeyi, işğalçılıq siyasəti və iqtisadi potensialı bu ölkənin regiondakı proseslərdə müstəqil iştirakına imkan vermir və onu Rusiya ilə eyni mövqedən çıxış etməyə vadar edir. Bu gün Ermənistan Rusiyanı öz müstəqilliyinin və təhlükəsizliyinin yeganə təminatçısı sayır. Bu ölkə bütün sahələrdə, xüsusilə də hərbi sahədə Rusiyanın inhisarındadır.

MDB Kollektiv Təhlükəsizlik Müqaviləsinin Cənubi Qafqazda əsas və yeganə tərəfdaşı funksiyasını icra edən Ermənistanın hava məkanını, İran və Türkiyə sərhədlərini rus hərbçiləri qoruyur.

İki ölkə arasında hərbi müttəfiqliyin bünövrəsini 1992-ci il avqustun 21-də prezidentlər Boris Yeltsinlə Levon Ter-Petrosyanın imzaladığı Ermənistan ərazisindəki Rusiya Hərbi Hava Qüvvələrinin hüquqi statusuna dair 25 illik müqavilə qoymuşdur. Sənəd Rusiyanın Ermənistandakı 102-ci hərbi bazasının 2020-ci ilədək ölkə ərazisində qalmasını nəzərdə tutur. Bütün bunlar regionda geosiyasi vəziyyəti gərginləşdirən, qüvvələr nisbətinin dəyişməsinə səbəb olan və Dağlıq Qarabağ probleminin həllinə mane olan amillərdir.

Bu bir faktdır ki, 1994-cü ilin mayından etibarən Ermənistan və Azərbaycan arasında kövrək sülh şəraiti hökm sürür. Lakin keçən dövr ərzində tərəflər münaqişəni həll etməyin münasib variantını tapa bilməyiblər. Bölgədə böyük dövlətlərin maraqlarının toqquşması münaqişənin uzanmasına gətirib çıxarmışdır. Belə ki, bir neçə böyük ölkə, eləcə də ABŞ bu regionda «mühüm strateji həyati maraqları»nı təmin etməyə çalışır. Digər tərəfdən, Rusiya SSRİ-nin bu regionda bir vaxtlar malik olduğu nüfuzunu qaytarmağa çalışır. NATO-nun bölgəyə gəlmək ehtimalından narahat olan İran isə Qərb investisiyalarının buraya axmasına, Qərbi Avropa ilə Uzaq Şərqi kommunikasiyalarla və neft kəmərləri ilə birləşdirməyi nəzərdə tutan dünyanın yeni iqtisadi inkişaf mərkəzinin təşəkkülünə qarşı hər vasitə ilə müqavimət göstərir. Aralarında tam real ziddiyyətlər olmasına baxmayaraq, Rusiya Federasiyası və İran Qərbin Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarını öz siyasi və iqtisadi nüfuz dairəsinə daxil etmək iddialarına qarşı durmaq üçün hazırda taktiki müttəfiqlər olmağa məcburdular. Qarşı duran ölkələr Cənubi Qafqazın üç respublikasına müxtəlif rollar ayırsalar da, aydındır ki, tərəflərdən hər hansının ambisiyalarının tam miqyasda gerçəkləşməsi yalnız bu respublikaların vahid geosiyasi məkana daxil olacağı təqdirdə mümkündür.

Qafqazda kollektiv təhlükəsizlik sisteminin yaradılması barədə sənədin hazırlanması zərurəti də məhz bölgədə qarşılıqlı etimada əsaslanan təhlükəsizlik sisteminin yaradılmasına olan ehtiyacdan doğur. Vaxtilə Ermənistanın təşəbbüsü ilə «3+3+2» (Cənubi Qafqaz respublikaları + regional liderlər – RF, İran, Türkiyə + ABŞ və AŞ) formulu müzakirə predmeti olmuşdu. ABŞ, AŞ və Türkiyə prinsipcə bu yanaşmaya etiraz etmədilər və hətta müvafiq müzakirələrin Cənubi Qafqaz ölkələrinin paytaxtlarında təsdiqlənməsi yolunda bir sıra addımlar atdılar. Rusiya

Federasiyası və İran isə qəti etiraz edərək ABŞ-nı, AŞ-nı və Türkiyəni kənarlaşdırıb, «3+2» düsturuna tərəfdar çıxdılar.

Tehran ölkəsinin Cənubi Qafqaz siyasəti ilə bağlı mövqeyini formalaşdırarkən həm özünün siyasi, iqtisadi, geostrateji maraqlarını, həm də region ölkələrinin maraqlarını nəzərə almağa çalışmış, lakin böyük dövlətlərin Cənubi Qafqazdakı maraqlarına münasibətdə balans siyasətini qoruyub saxlaya bilməmiş və bu da təbii olaraq adı çəkilən regionda sülh və təhlükəsizliyin hələ də kövrək olaraq qalmasını şərtləndirmişdir.



## 7-ci fəsil
## Cənubi Qafqaz və Türkiyə

Sovet İttifaqının süqutundan sonra regionda baş verən hadisələr fonunda Türkiyənin sərgiləmiş olduğu siyasətə gəlincə isə bildirmək olar ki, bu siyasətin əsl mahiyyətində əslində Qafqazda sülhün və əminamanlığın qorunması durur. Doğrudur Türkiyə bir NATO dövləti kimi NATO-nun Qafqazla bağlı sərgiləmiş olduğu siyasətin əsas ana qayəsində durmaqla yanaşı, o həm də bu qurumdan kənar Qafqazda baş verən hadisələri yaxından izləyərək ona öz prizmasından cavab verməkdədir. Təccüblü deyildir ki, bu həm də onunla bağlıdır ki, Türkiyə özü də Cənubi Qafqazla qonşu dövlətdir və burada ona yaxın və qardaş dövlət olan Azərbaycan mövcuddur. Türkiyənin Qafqaz siyasətində Azərbaycan amili olduqca mühüm və strateji önəm kəsb etməkdədir.

Burada istər NATO, istərsə də Rusiya faktoru ilə daim üz-üzə gələn Türkiyə bir çox hallarda hər iki tərəfin də anlaşma funksiyasını daşıyırmış kimi hərəkət etməkdədir. Belə ki, bu günə kimi hələ də Qafqazla bağlı məsələlərdə ortaq məxrəcə gələ bilməyən tərəflər əksər hallarda Türkiyənin vasitəçilik siyasətinə müraciət etmək məcburiyyətində qalmış olurlar. Bu isə bir daha onu göstərir ki, regionda Türkiyəsiz hərəkət etmək, onunla hesablaşmamaq sözün həqiqi mənasında qeyri-mümkündür.

## 8-ci fəsil
## Cənubi Qafqaz və NATO

NATO isə Cənubi Qafqazdakı tərəfdaş ölkələr - Ermənistan, Azərbaycan və Gürcüstanla əməkdaşlığı dərinləşdirmək niyyətindədir. Müttəfiq ölkələrin dövlət başçıları tərəfindən, 2004-cü ilin iyununda İstanbul Zirvə Görüşündə qəbul olunmuş Alyansın Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri üzrə prioritetlərinin müəyyənləşdirildiyi Yeni sabitlik planında Qafqaz, habelə Mərkəzi Asiya regionu ilə tərəfdaşlığı Alyans üçün prioritet məsələyə çevirmək qərarı öz əksini tapmışdır. Burada aşağıdakı bənd yer almışdır: «Balkanlardan tutmuş Qafqazadək, Mərkəzi Asiyadan Aralıq dənizi ölkələrinədək və daha geniş region üzrə daim artan tərəfdaşlarla münasibətləri möhkəmləndirmək».

Cənubi Qafqaz ölkələri üçün NATO-nun Tərəfdaşlıq proqramları bu ölkələrin təhlükəsizlik hədələrini cavablandıra biləcəkləri çoxsahəli çərçivəni təmin edir. Tərəfdaşlıq həmçinin onlara bu hədələrin cavablandırılması üçün müdafiə təsisatları və imkanlarının uyğunlaşdırılmasında müttəfiqlərin təcrübəsindən istifadə etmək və daha geniş islahatlara nail olmaq yolunda müttəfiqlərin dəstəyindən faydalanmaq imkanı yaradır. Son bir neçə il ərzində bu üç ölkənin hər biri, əməkdaşlığının səviyyəsini artıraraq və diqqətini ölkəsindəki islahatların prioritetlərinə yönəldərək NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı işləyib hazırlamışdır. 2006-cı ilin sentyabr ayında NATO Gürcüstanın üzvlük istəkləri ilə əlaqədar bu ölkə ilə siyasi, hərbi, maliyyə və təhlükəsizlik məsələlərini tam miqyasda əhatə edən İntensivləşdirilmiş Dialoqa başlayıb. Bu Dialoq ölkənin Alyansa daxil olması üçün dəvət alacağına zəmanət verməsə də NATO ilə əməkdaşlığın miqyasının genişlənməsi və dərinləşməsi əlamətindən xəbər verir.

Bu irəliləyişlər 90-cı illərdən başlayaraq, NATO ilə üç Cənubi Qafqaz dövləti arasında mütəmadi dərinləşən əməkdaşlıq tarixi zəminində formalaşır. Azərbaycan, Gürcüstan və Ermənistan 1991-ci ildə Şimali Atlantika Əməkdaşlıq Şurasının- sabiq Varşava Müqaviləsi ölkələrinə yardım göstərmək məqsədilə ilk addım olaraq Alyans tərəfindən yaradılan və 1997-ci ildə Avro-Atlantik Tərəfdaşlıq Şurası ilə əvəz olunan dialoq forumunun ilk iştirakçı ölkələri olmuşlar. Bu üç dövlət 1994-cü ildə irəli sürülmüş əsas praktiki ikitərəfli əməkdaşlıq proqramına- «Sülh Naminə Tərəfdaşlıq» proqramına qoşulmaqla təklif olunan imkanlardan dərhal istifadə etməyə müvəffəq olmuşlar.

2004-cü ilin iyununda İstanbul zirvə toplantısında müttəfiqlər Qafqaza və Mərkəzi Asiyaya xüsusi nümayəndə təyin etməyi qərara aldılar. Bu vəzifəyə Robert Simmons təyin eildi. (Hal-hazırda bu vəzifəni Ceyms Appaturay icra edir)

Xüsusi nümayəndənin rolu regional təhlükəsizliyi inkişaf etdirmək üçün bölgə liderləri ilə yüksək səviyyəli iş əlaqələri saxlamaq və tərəfdaşlıq vasitələrindən maksimum yararlana bilməkdə tərəfdaşlara yardım göstərmək idi. O, region rəsmiləri və habelə Avropa İttifaqı və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı kimi əlaqədar təşkilatlardakı həmkarları ilə yaxından iş aparırdı. Bu, daimi əlaqənin saxlanılmasına və

işlərin digər iştirakçıların da əlavə qüvvələri sayəsində icrasına təminat verilməsinə köməklik edirdi.

Onun Qafqazda və Mərkəzi Asiyadakı fəaliyyəti, hər regionda bir əlaqələndirici olmaqla, iki əlaqələndirici zabit tərəfindən dəstəklənir. Hər bir əlaqələndirici zabitin işi NATO ilə fərdi tərəfdaşlıq proqramlarının şərtlərindən irəli gələn islahat məqsədlərinə nail olmaq üçün müvafiq dövlət orqanları ilə birbaşa məsləhətləşmələr aparmaqdan ibarətdir.

Cənubi Qafqazda qarşılıqlı dialoqu təbliğ etməyin və təhlükəsizliyi inkişaf etdirməyin Alyans üçün mühüm səbəblərindən biri, hazırda dünyada mövcud olan ciddi təhlükəsizlik hədələrinin- terrorizm, kütləvi qırğın silahlarının yayılması, tənəzzül etmiş dövlətlər və regional münaqişələr- sərhədləri aşması və onların yalnız birgə beynəlxalq əməkdaşlıq vasitəsilə həllinin mümkün olmasıdır. NATO-nun Cənubi Qafqazdakı tərəfdaşları müttəfiqlər kimi eyni hədələrlə üzləşir və bu hədələrin cavablandırılmasında onların da mühüm rolu olur, çünki onlar NATO üçün narahatlıq doğuran ərazilərin coğrafi yaxınlığında yerləşirlər.

Həm Cənubi Qafqaz respublikalarını, həm də müttəfiqləri narahat edən digər bir məsələ enerji təhlükəsizliyidir. Bu bölgə əsas neft və qaz tranzit marşrutlarının üzərində yerləşir, Azərbaycan və Xəzər dənizi hövzəsi isə, mühüm neft və qaz yataqlarına malikdir. Bu regionda təhlükəsizliyin gücləndirilməsi həm enerji ehtiyatlarını və təchizat marşrutlarını sayını artırmaq niyyətində olan enerji idxal edən ölkələrin, həm də öz sənayesi və boru kəməri infrastrukturunun təhlükəsizliyinə təminat verilməsinə ehtiyacı olan enerji ixrac edən və tranzit ölkələrin maraq dairəsindədir.

Demokratiyaya keçidlə əlaqədar Qafqaz ölkələrində hazırda sürətli və mühüm dəyişikliklər baş verir. Belə keçid dövrü hər zaman mürəkkəb olur və qeyri-sabitlik mənbəyinə çevrilə bilir. Bununla belə, bu prosesi tərəfdaşlıq çərçivəsində dəstəkləməklə NATO, sabitliyin bərqərar olmasına köməklik göstərir və bu yolla Qafqaz dövlətlərinin gələcək iqtisadi və sosial inkişaf potensialını təkmilləşdirir.

Digər mühüm təhlükəsizlik problemi Cənubu Qafqazın hər üç ölkəsinin uzun sürən regional münaqişələrə cəlb olunmasıdır: rəsmən Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağ Ermənistan ilə Azərbaycan arasında gərgin mübahisə mövzusudur; Gürcüstanın Abxaziya və Cənubi Osetiya vilayətləri bu ölkədə gərginlik mənbəyi olmaqda davam edir. NATO bu münaqişələrin həllində birbaşa rol oynamır, lakin o, vasitəçilik funksiyasını yerinə yetirmək üçün xüsusi mandata malik olan Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və Birləşmiş Millətlər Təşkilatı kimi beynəlxalq təşkilatların səylərini dəstəkləyir. Münaqişələrin sülh yolu ilə həlli NATO-nun başlıca dəyərlərindən biridir və Alyansın yardımı münaqişələrin sülh yolu ilə həllində bu ölkələrin davamlı səylərindən asılıdır. Faktiki olaraq bu, NATO-nun Cənubi Qafqazdakı tərəfdaşlarının «Sülh Naminə Tərəfdaşlıq» proqramına qoşulan zaman üzərilərinə götürdükləri öhdəliklərin əsasını təşkil edir.

2002-ci il Praqa Sammitindən sonra Müttəfiqlər tərəfindən yaradılmış Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (FTƏP) NATO ilə əlaqələrini dərinləşdirmək üçün

siyasi iradəyə və bacarığa malik olan Tərəfdaş ölkələrə yönəlmiş yeni Tərəfdaşlıq mexanizmidir. Qeyd edək ki, bir neçə il ərzində hər üç Cənubi Qafqaz dövləti NATO ilə FTƏP işləyib hazırlamışdır.

İki il üçün nəzərdə tutulmuş FTƏP-lər müxtəlif əməkdaşlıq mexanizmlərini bir araya gətirmək üçün hazırlanır və hər bir ölkə bunun vasitəsilə ölkəsinin islahat hədəflərinin dəstəklənməsinə yönəlmiş fəaliyyət planı üzrə müttəfiqlərlə qarşılıqlı işləyir. Bu struktur çərçivəsində fərdi tərəfdaş hökumətlər öz islahat planlarını qurur, prioritetləri və müvafiq icra dövrünü müəyyənləşdirirlər. NATO ölkə üzrə spesifik məsləhətlərin təmin olunmasına öz razılığını bildirir, fərdi müttəfiqlər isə ölkədaxili islahat siyasətinin daha səmərəli şəkildə dəstəklənməsi məqsədilə ikitərəfli yardımın əlaqələndirilməsi üçün imkanlarını səfərbər edirlər. Təsisat islahatlarının həyata keçirilməsinə yardım göstərməklə FTƏP-lər Cənubi Qafqaz dövlətlərində demokratik keçid prosesinə zəruri töhfə vermiş olurlar.

Yuxarıda qeyd etdiyimiz kimi, 2006-cı ilin sentyabrında Alyans Gürcüstanın NATO-ya daxil olma istəyi ilə əlaqədar bu ölkə ilə siyasi, hərbi, maliyyə və təhlükəsizlik məsələlərini tam miqyasda əhatə edən İntensivləşdirilmiş Dialoq təklif etdi. Düzdür, bu dialoq həmin ölkənin Alyansa daxil olması üçün dəvət alınmasına zəmanət vermir. Hər hansı belə bir dəvət performans əsaslı və ölkənin əsas islahatlarının və bir sıra tələblərin yerinə yetirilməsindən asılı olacaqdır. Bura bazar iqtisadiyyatına əsaslanmış işlək, demokratik siyasi sistem, milli azlıqlara bərabər hüquqların verilməsi, mübahisələrin sülh yolu ilə həlli prinsipinə sadiq qalmaq, hərbi kontingentin Alyansın



tərkibinə daxil edilməsi üçün imkan və hazırlığı, digər üzv ölkələrin hərbi qüvvələri ilə operativ uyarlığa nail olmaq və təsisat strukturlarında demokratik prinsiplərə və mülki-hərbi münasibətlərə sadiq qalmaq məsələləri daxildir.

İntensivləşdirilmiş Dialoq strukturlaşdırılmış ekspert müzakirələri vasitəsilə Gürcüstana NATO-ya daxil olmaq üçün hüquq və öhdəliklər barədə konkret məlumat təqdim edir. O, həmçinin NATO rəsmilərinə Gürcüstanın islahat siyasəti və imkanlarını daha müfəssəl şəkildə nəzərdən keçirmək imkanı verir. Belə yanaşma Gürcüstana islahat siyasəti istiqamətinin əsas sahələrinin müəyyənləşdirilməsində və gələcək tərəqqi yolunda NATO ilə əməkdaşlığın daha məqsədli şəkildə həyata keçirilməsinə yardım göstərir. İntensivləşdirilmiş Dialoq islahat üzrə əməkdaşlıq üçün əsas proqram kimi qalan Gürcüstanın Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı əsasında həyata keçirilir.

Tərəfdaşlıq yalnız praktiki əməkdaşlıqdan ibarət deyil, o həmçinin dəyərlər məsələsidir. Tərəfdaş ölkələr «Sülh Naminə Tərəfdaşlıq» (SNT) proqramına qoşulan zaman SNT Çərçivə sənədini imzalayırlar. Bununla tərəfdaşlar beynəlxalq hüquq, BMT Nizamnaməsi, İnsan Haqlarının Ümumi Bəyanatı, Helsinki Yekun Aktı, habelə tərksilah və silahlara nəzarət üzrə beynəlxalq sazişlərə hörmət etməyi; başqa dövlətləri hədələməkdən və ya onlara qarşı zor tətbiq etməkdən çəkinməyi; mövcud sərhədlərə hörmət bəsləməyi; mübahisələri sülh yolu ilə həll etməyi öz öhdələrinə götürürlər. Çərçivə sənədi eyni zamanda, müttəfiqlərin öz ərazi bütövlüyünə, siyasi müstəqilliyinə və ya təhlükəsizliyinə bilavasitə təhdidin mövcudluğunu hiss edən hər bir tərəfdaş dövlətlə məşvərətlər aparmaq öhdəliyini təsbit edir. Bu öhdəliklərin və SNT proqramının bütövlükdə məqsədi etimad və şəffaflığın qurulması, sülhə

qarşı təhlükənin azaldılması, müttəfiqlər və digər tərəfdaş ölkələrlə daha möhkəm təhlükəsizlik münasibətlərinin qurulmasından ibarətdir.

SNT Proqramının mahiyyəti hər bir tərəfdaş dövlətlə NATO arasında formalaşmış tərəfdaşlıqdan ibarətdir. Əməkdaşlıq hər bir ölkənin ehtiyaclarına, imkanlarına və ambisiyalarına uyğunlaşdırılır və hökumətlə müştərək şəkildə həyata keçirilir. Fərdi Tərəfdaşlıq Proqramları adlanan ikiillik əməkdaşlıq proqramlarını işləyib hazırlamaq üçün tərəfdaşlar geniş fəaliyyətlər menyusundan bütün zəruri istiqamətləri seçmək imkanına malikdirlər. Təklif edilən tədbirlər planı NATO-nun praktiki olaraq hər bir fəaliyyət sahəsini, o cümlədən müdafiə ilə bağlı işləri, müdafiə islahatını, müdafiə siyasəti və planlaşdırmanı, mülki-hərbi əlaqələri, təhsil və təlim, hərbi sahədə əməkdaşlıq və təlimləri, mülki fövqəladə planlaşdırma və fəlakətlərə qarşı cavab tədbirləri, elmi və ekoloji məsələlər üzrə əməkdaşlığı əhatə edir.

Son illər ərzində Ermənistan, Azərbaycan və Gürcüstan SNT proqramında nəzərdə tutulmuş tammiqyaslı tədbirlərdə çox fəal iştirak edirlər. Bu dövlətlər 2002-ci ildə - Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı ilk dəfə irəli sürülən zaman ona maraq göstərən ilk tərəfdaş ölkələrin sırasında olmuşlar. İkitərəfli əməkdaşlığa əlavə olaraq tərəfdaşlıq çərçivəsi əməkdaşlıq üçün vacib çoxtərəfli ölçüyə malikdir. 28 müttəfiq (ABŞ, Albaniya, Almaniya, Belşika, Bolqarıstan, Böyük Britaniya, Çex Respublikası, Danimarka, Estoniya, Fransa, Xorvatiya, İslandiya, İspaniya, İtaliya, Kanada, Latviya, Litva, Lüksemburq, Macarıstan, Niderland, Norveç, Polşa, Portuqaliya,



Rumıniya, Slovakiya, Sloveniya, Türkiyə, Yunanıstan) ilə 23 tərəfdaş dövləti (Avstriya Respublikası, Azərbaycan Respublikası, Belorus Respublikası, Bosniya və Hersoqovina, Çernoqoriya, Ermənistan Respublikası, Finlandiya Respublikası, Gürcüstan Respublikası, Xorvatiya Respublikası, İrlandiya, İsveç Krallığı, İsveçrə Konfederasiyası, Qazaxstan Respublikası, Qırğızıstan Respublikası, Makedoniya Respublikası, Moldova Respublikası, Özbəkistan Respublikası, Rusiya Federasiyası, Serbiya Respublikası, Tacikistan Respublikası, Türkmənistan Respublikası, Ukrayna Respublikası) dialoq və məşvərət məqsədilə vahid forum çərçivəsində bir araya gətirən Avro-Atlantika Tərəfdaşlıq Şurası (AATŞ) bunu özündə təcəssüm etdirir. AATŞ-nin iclasları səfirlər səviyyəsində ayda bir dəfə, xarici işlər və müdafiə nazirləri və hərbi qərargah rəisləri səviyyəsində ildə bir dəfə, eləcə də vaxtaşırı olaraq zirvə toplantısı səviyyəsində keçirilir.

AATŞ üzvləri mütəmadi olaraq geniş miqyaslı təhlükəsizlik məsələləri, o cümlədən müttəfiqlər və tərəfdaş dövlətlərin sülhməramlılarının birgə şəkildə qulluq etdiyi İraq və Əfqanıstanda artmaqda olan təhlükəsizlik məsələləri haqqında fikir mübadiləsi aparırlar. AATŞ həmçinin terrorizmlə mübarizə, sərhəd təhlükəsizliyi, kütləvi qırğın silahları və kiçik çaplı atıcı və yüngül silahların yayılmasına dair digər məsələlər sahəsində praktik əməkdaşlıq və ekspert mübadiləsinə yardım və əlaqələndirmə dəstəyi göstərmək üçün təşəbbüsü öz üzərinə götürmüşdür. Bütün bu illər ərzində AATŞ Cənubi Qafqazda regional əməkdaşlığın möhkəmləndirilməsi ilə əlaqədar praktiki yanaşma

üsullarının təkmilləşdirilməsinə həsr olunmuş müxtəlif seminarların və məşğələlərin keçirilməsinə də köməklik göstərmişdir.

Məşvərət və əməkdaşlığı asanlaşdırmaq məqsədilə Ermənistan, Azərbaycan və Gürcüstan Belçikanın Brüssel şəhərində yerləşən NATO Baş Qərargahında daimi diplomatik nümayəndəliklərini təsis etmişlər. Onlar həmçinin NATO-nun Belçikanın Mons şəhərində yerləşən müttəfiq əməliyyat komandanlığındakı Tərəfdaşlığın Koordinasiya Qrupunda - Müttəfiq Qüvvələrin Avropadakı Ali Baş Qərargahı (MQAABQ) - təmsil olunur və burada onların təlim və məşqlərdə iştirakına köməklik göstərilir. NATO-nun sülhməramlı əməliyyatlarına töhfə verən ölkələr kimi onlar eyni zamanda, MQAABQ-nin nəzdində fəaliyyət göstərən Beynəlxalq Əlaqələndirmə Mərkəzində keçirilən brifinq və planlaşdırma tədbirlərində iştirak etmək imkanlarına da malikdirlər.

İlk vaxtlarda NATO ilə Cənubi Qafqazdakı tərəfdaşları arasında tərəfdaşlıq və əməkdaşlığın məqsədi şəffaflığın önə çəkilməsinə və etimadın yaradılmasına yönəlmişdi. İllər ötdükcə əməkdaşlıq genişlənmiş və dərinləşmişdir. Bu gün əsas prioritetlər sülhməramlı əməliyyatlarda iştirak edən müttəfiqlər və digər tərəfdaş dövlətlərin qüvvələri ilə birgə qulluq etmək məqsədilə bu ölkələrin qüvvələrinin imkanlarının təkmilləşdirilməsi, müdafiə və təhlükəsizlik sektorunda aparılan islahatlar üçün uyğun məsləhət və dəstəyin verilməsi və təhlükəsizlik məsələləri ilə əlaqədar müştərək problemlərin həlli yolunda praktiki əməkdaşlıqdan ibarətdir. Əməkdaşlığın digər vacib sahələrinə fəlakətlərə hazırlıq, elmi, ekoloji əməkdaşlıq və ictimaiyyətin məlumatlandırılması daxildir.



NATO ilə Ermənistan, Azərbaycan və Gürcüstan arasındakı əməkdaşlıq çərçivəsində əsas diqqət NATO-nun rəhbərliyi altında keçirilən sülhməramlı və böhranın idarə olunması əməliyyatlarına yardım göstərə bilmələri üçün bu ölkələrin imkanlarının təkmilləşdirilməsinə verilir. İkitərəfli proqramlar və çoxmillətli təlim məşqləri bu dövlətlərin qüvvələrinin NATO qüvvələri ilə yanaşı fəaliyyət göstərə bilməsi üçün imkanlarının artırılmasına imkan verir. Bu sahədə ümumi dildə danışmaq vərdişlərinə yiyələnmək və standart prosedurlara müvafiq operativ uyğunluğu inkişaf etdirmək zəruridir.

SNT çərçivəsində aparılmış belə hazırlığın sayəsində hər üç tərəfdaş dövlətin hərbi kontingenti NATO-nun rəhbərliyi altında keçirilən sülhməramlı əməliyyatlarda iştirak etmişdir. Ermənistan 2004-cü ildən başlayaraq öz hərbi kontingentini Yunanıstan taqımı tərkibində Kosovo Qüvvələrinin (KQ) tərkibinə daxil etmiş və hazırda Əfqanıstanda NATO-nun rəhbərliyi altında Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrində (BTYQ) iştirak etməyi planlaşdırır. Azərbaycanın taqım ölçülü hərbi birləşmələri isə 1999-cu ildən başlayaraq KQ-dəki, 2002-ci ildən isə BTYQ-dəki Türkiyə kontingenti tərkibində xidmət göstərirlər. Azərbaycanın Əfqanıstandakı kontingentinin sayı 2007-ci ildə iki dəfə artırılmışdır.

Gürcüstan 1999-cu ildən başlayaraq KQ-yə yardım göstərmiş və taqım ölçülü hərbi birləşməsi Türkiyə hərbi kontingenti daxilində xidmət göstərməyə davam etdiyi vaxtda nisbətən kiçik ölçülü əsgəri hərbi birləşməsi Almaniya briqadasının tərkibində xidmət göstərir. Bu dövlət habelə NATO ilə 2005-ci ildə imzalanmış müqaviləyə əsasən təchizat vasitələrinin öz ərazisindən keçməsinə icazə verməklə BTYQ-yə mühüm köməklik

göstərmişdir. O, həmçinin, 2004-cü ildə Əfqanıstanda keçirilən prezident seçkiləri zamanı təhlükəsizliyin təmin edilməsi məqsədilə Britaniya taboru ilə yanaşı BTYQ-nin tərkibində xidmət etmək üçün taqım ölçülü hərbi birləşmələr göndərmişdir. BTYQ-ə əlavə töhfənin verilməsi, o cümlədən tibbi və xüsusi təyinatlı hərbi birləşmələrin göndərilməsi haqqında qərar hazırda qəbul edilmək mərhələsindədir.

Cənubi Qafqaz Tərəfdaşları Amerika Birləşmiş Ştatlarına 2001-ci il 11 sentyabr terror hücumundan dərhal sonra irəli sürülmüş Terrorçuluğa qarşı Tərəfdaşlıq Əməliyyat Planında iştirak etməklə terrorçuluqla mübarizəyə yardım göstərirlər. Bu sahədə aparılan əməkdaşlığa kəşfiyyat məlumatlarının mübadiləsi, terrorçuluqla mübarizə və sərhəd təhlükəsizliyi imkanlarının artırılması üçün təlim və məşğələlər, habelə mümkün terror hücumunun nəticələrinin aradan qaldırılması üçün hazırlıq səviyyəsinin artırılması daxildir.

Müdafiə və təhlükəsizlik sektorunda islahat Cənubi Qafqaz dövlətləri ilə əməkdaşlığın olduqca vacib bir sahəsidir və bu, NATO ilə əldə edilmiş FTƏP-ların mərkəzi xəttini təşkil edir. Bu sahədə NATO və fərdi müttəfiqlər tərəfdaş dövlətlər tərəfindən istifadə edilə biləcək əhəmiyyətli təcrübəyə malikdirlər. Əsas prioritetlər onların Avro-Atlantik regionunda böhranın idarə olunması və sülhməramlı əməliyyatlara töhfə vermək imkanlarının artırılması, dövlət müdafiə təsisatlarının əlverişli və səmərəli idarəçiliyinin inkişafına köməklik göstərilməsi və silahlı qüvvələrin üzərində mülki və demokratik nəzarətin gücləndirilməsindən ibarətdir.



FTƏP-lar NATO ilə demokratik təsisat və müdafiə islahatları sahəsində aparılan siyasi dialoqu dərinləşdirir və əməkdaşlığın məqsədini gücləndirir. Təsisat islahatlarının həyata keçirilməsi, xüsusilə müdafiə və təhlükəsizlik sektorunda islahatların aparılmasına şərait yaradır, habelə demokratiyaya keçid prosesini dəstəkləyir.

Müdafiə sahəsində daha müfəssəl və texniki islahatlar SNT-nın Planlaşdırılma və Analiz Prosesi (PAP) kontekstində paralel şəkildə müzakirə olunur. Bu, NATO tərəfindən həyata keçirilən çoxmillətli təlimə, təlim məşqlərində və hərbi əməliyyatlarda faydalı ola biləcək qüvvə və imkanların müəyyənləşdirilməsi, inkişafı və qiymətləndirilməsinə yardım göstərir. Bu, həm də səmərəli, əlverişli və dayanıqlı hərbi qüvvələrin inkişafı, habelə daha geniş müdafiə islahatı siyasətlərinin təkmilləşdirilməsində tərəfdaşlar üçün çərçivəni təmin edir. Hər üç Cənubi Qafqaz dövləti tərəfdaş dövlətlərə könüllü əsasda təqdim edilən PAP prosesində iştirak etmək qərarını qəbul etmişdir. PAP çərçivəsində planlaşdırma hədəfləri hər bir dövlətlə razılaşdırılır və əldə edilmiş nailiyyətlər hər il dərindən təhlil edilərək qiymətləndirilir.

Digər bir mühüm alət Müdafiə Təsisatlarının Qurulması üzrə Tərəfdaşlıq Əməliyyat Planıdır (MTQTƏP). 2004-cü ildə irəli sürülmüş MTQTƏP səmərəli və demokratik məsuliyyətli müdafiə təsisatları quruculuğunda tərəfdaşları stimullaşdırır və dəstəkləyir. Bu planın ümumi məqsədi silahlı qüvvələr, müdafiə və təhlükəsizlik sektoru təsisatlarının səmərəli, demokratik və mülki nəzarət altında qurulmasından, məsuliyyətinin artırılması və şəffaflığının təmin edilməsindən və onların yeni təhlükəsizlik mühitinin tələblərinə uyğun olaraq qurulduğuna və

maliyyələşdirildiyinə təminat verməkdən ibarətdir. Alyans üçün digər prioritet məsələ artıq qalmış və köhnəlmiş silah ehtiyatı və döyüş sursatının yaratdığı problemlərin aradan qaldırılması məqsədini güdən NATO/SNT Etimad Fondu mexanizmi vasitəsilə hərbsizləşdirmə layihələri ilə Tərəfdaş dövlətlərin dəstəklənməsindən ibarətdir. Belə layihələrdən ikisi Azərbaycan və Gürcüstanda həyata keçirilmişdir.

NATO/SNT Etimad Fondu layihələri artıq qalmış və köhnəlmiş partlayıcı minalar, döyüş sursatı, kiçik çaplı atıcı və yüngül silah ehtiyatlarının təhlükəsiz şəkildə məhv edilməsi məqsədilə tərəfdaş dövlətlərə yardım göstərir. Fərdi müttəfiqlər və tərəfdaş dövlətlərin könüllü yardımı nəticəsində maliyyələşdirilmiş bu layihələr adətən, digər müvafiq təşkilatlarla yaxın əlaqələrin qurulması nəticəsində həyata keçirilir.

Azərbaycanda Saloğlu ərazisində yerləşən köhnə hərbi bazada, Ağstafa şəhərində və Poylu qəsəbəsində partlamamış hərbi sursatın məhv edilməsi üçün davam etməkdə olan layihəyə 1,6 milyon avro maliyyə vəsaiti qoyulmuşdur. Bu döyüş sursatları yerli əhali arasında çoxsaylı ölüm halları və bədən xəsarətləri törətmişdir.

Gürcüstanın Ponixala və Xaladid bazalarında təxminən 500-dək yer-hava və digər növlü raketlərin məhv edilməsi üçün layihəyə 1,1 milyon avro maliyyə vəsaiti qoyulmuşdur. 2006-cı ilin fevral ayında yekunlaşan bu layihə çərçivəsində nəinki təhlükəsizlik təmin edilmiş, həm də gələcəkdə ətraf mühitin mümkün çirklənməsinin qarşısı alınmışdır. Gürcüstanda ikinci layihəyə 2007-ci ilin oktyabr ayında start verilmişdir. 478 min avro dəyərində büdcəyə malik bu layihə çərçivəsində təxminən 9000 raket ehtiyatının məhv edilməsinə şərait yaradılacaqdır.



Təbii fəlakətlərin və texnogen qəzaların nəticələri hətta ən yaxşı hazırlığa malik dövlətlər üçün də dəfedilməz ola bilər. Belə fövqəladə halların nəticələri konkret bir dövlətin sərhədlərini aşaraq bütöv regionların təhlükəsizliyini və sabitliyini təhlükə qarşısında qoya bilər. Buna görə də fəlakətlərə qarşı səmərəli hazırlıq və cavab tədbiri (NATO dairələrində «mülki fövqəladə planlaşdırma» adlanır) üzrə əməkdaşlıq olduqca zəruridir və tərəfdaşlıq fəaliyyətinin ayrılmaz bir hissəsini təşkil edir.

Ermənistan, Azərbaycan və Gürcüstan təbii fəlakətlərə hazırlıq və cavab tədbirləri üzrə milli imkanlarını təkmilləşdirmək üçün NATO ilə əməkdaşlıq çərçivəsində iş aparırlar. Bu sahədə fəaliyyətin böyük bir hissəsi Fəlakətlərə Cavabvermə üzrə Avro-Atlantika Əlaqələndirmə Mərkəzi (FCAAƏM) çərçivəsində həyata keçirilir.

FCAAƏM fəlakətlərin nəticələrinin aradan qaldırılması üçün AATŞ ölkələri arasında səyləri əlaqələndirmək məqsədilə 1998-ci ildə yaradılıb. Bu mərkəzin işinə 2003-cü ildə Azərbaycanda və 2005-ci ildə Gürcüstanda baş vermiş güclü su daşqınları və həmçinin 2006-cı ildə Gürcüstanda baş vermiş meşə yanğınlarından sonra göstərilən yardımın əlaqələndirilməsi misal göstərilə bilər.

Təlim məşqləri imkanların təcrübədə sınaqdan keçirilməsi və gələcək əməkdaşlığın daha geniş sahələrinin müəyyənləşdirilməsi üçün imkan yaradır. Cənubi Qafqaz tərəfdaşları 2000-ci ildən başlayaraq belə təlim məşqlərində iştirak edirlər. Son illər ərzində FCAAƏM fəaliyyətlərinin əksəriyyəti, o cümlədən bir neçə təlim məşqləri tərəfdaş dövlətlər tərəfindən irəli sürülmüş, təşkil olunmuş və icra edilmişdir. Bu fakt

tərəfdaşların SNT 7 fəaliyyətləri çərçivəsində ən böyük qeyri-hərbi tərkib hissəni təmsil edən mülki fövqəladə planlaşdırma üzrə əməkdaşlığa yüksək qiymət verdiyini əks etdirir.

Cənubi Qafqaz ölkələrindən olan alimlər və tədqiqatçılar NATO və Tərəfdaş dövlətlərin alimləri arasında əməkdaşlığın həyata keçirilməsi, şəbəkənin genişləndirilməsi və potensialın artırılmasına yönəldilmiş NATO-nun Sülh və Təhlükəsizlik naminə Elm (STE) Proqramı çərçivəsində verilən imkanlardan da faydalanırlar. Bu proqram çərçivəsində tətbiq edilən fəaliyyətlərin siyahısına elmi tədqiqat, seminarlar, seminar məşğələləri və təhlükəsizliklə əlaqədar elmi məsələlər və ətraf mühit problemləri üzərində müştərək tədqiqatların aparılması daxildir.

Əvvəllər Varşava Müqaviləsi ölkələri tərəfindən istifadə edilmiş yüksək zəhərli və aşındırıcı raket yanacağı melanj hazırda Azərbaycanda sağlamlıq və ətraf mühit üçün ciddi təhlükə mənbəyidir. Azərbaycan hökumətinin müraciətinə əsasən NATO-nun Sülh və Təhlükəsizlik naminə Elm (STE) Proqramı çərçivəsində NATO-nun Maddi-Texniki Təminat və Təchizat Agentliyinin (NAMSA) rəhbərliyi altında melanj maddəsini zərərsiz maddəyə çevirmək üçün səyyar emal zavodu qurulmuş və 2007-ci ilin sonunadək 1200 ton melanjm emalı prosesi başa çatmışdır.

Alimlər arasında əməkdaşlıq bir ənənədir və bu, elmi tərəqqinin tələbidir. Qurulmuş şəbəkələr müxtəlif mədəniyyət və adət-ənənələrə malik icmalar arasında qarşılıqlı anlaşma və etimad quruculuğu siyasi məqsədinin yerinə yetirilməsinə xidmət edir. Digər məqsəd isə



tərəfdaş dövlətlərin konkret prioritet məsələlərinin həllinə yardım göstərmək üçün texnologiya mübadiləsi və ötürülməsi məsələlərinin təkmilləşdirilməsindən ibarətdir.

Xüsusi sahələrdə aparılan tədqiqatlara yönəldilmiş layihələrlə yanaşı, STE proqramında Cənubi Qafqaz dövlətlərinin elm və akademiya dairələri arasındakı əlaqəni möhkəmləndirmək də nəzərdə tutulub. Virtual İpək Yolu layihəsinin məqsədi peyk-rabitə şəbəkəsi vasitəsilə Qafqaz və Mərkəzi Asiya ölkələrində elmi-tədqiqat institutlarının internetə çıxış keyfiyyətinin yüksəldilməsindən ibarətdir. Şəbəkə infrastrukturu qrantları telekommunikasiya ləvazimatlarının təhlükəsizlik səviyyəsini və keyfiyyətini artırmağa qadir avadanlıqla təchiz etməklə tərəfdaş dövlətlərin elmi-tədqiqat institutlarına köməklik göstərir.

NATO və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) NATO-nun Sülh və Təhlükəsizlik naminə Elm (STE) Proqramı çərçivəsində maliyyələşdirilmiş axar çayların monitorinqi layihəsinə yardım göstərmək üçün Cənubi Qafqazda qüvvələrini səfərbər etmişdir. 2004-cü ildə irəli sürülmüş və 2008-ci ilin sonunadək davam etmiş bu təşəbbüs ümumi su ehtiyatları ilə əlaqədar mübahisələrin potensial səbəblərinin azaldılması məqsədini güdür.

Ermənistan, Azərbaycan və Gürcüstan, Kür və Araz çaylarından və onların qollarından birgə istifadə edir. Sərhədləri aşan çaylarda tez-tez baş verdiyi kimi, kənd təsərrüfatı və sənaye fəaliyyəti nəticəsində bu dövlətlər su ehtiyatı və çayların çirklənməsi ilə bağlı ümumi problemlərlə qarşılaşırlar. Bu layihənin məqsədi hər üç ölkədə suyun monitorinqi üçün müasir avadanlıqla, yüksək səviyyədə təlim keçmiş işçi heyəti və standart əməliyyat

prosedurları ilə təmin olunmuş laboratoriyaların yaradılmasından ibarətdir.

Bu layihə çərçivəsində təsadüfi və ya terror aktı nəticəsində qəsdən suya axıdılmış hər hansı radioaktiv izotopun aşkar edilməsi üçün suyun tərkibində radioaktivliyin monitorinqi də həyata keçirilir.

NATO-nun Ermənistan, Azərbaycan və Gürcüstan ilə əməkdaşlığının digər əsas sahəsi bu barədə ictimaiyyətin məlumatlandırılmasıdır. NATO ilə əməkdaşlığın faydaları haqqında, habelə vətəndaş cəmiyyətini daha geniş Avro-Atlantik təhlükəsizliyi məsələlərinə dair dialoqlarda iştiraka cəlb etmək məqsədilə ictimaiyyətin məlumatlandırılma səviyyəsini artırmaq üçün universitetlər, qeyri-hökumət təşkilatları, mətbuat və media ilə şəbəkə qurmaq üzrə iş aparılır. Seminarlar, konfranslar, seminar məşğələlər və nəşr layihələri kimi çoxsaylı fəaliyyətlər NATO-nun dəstəyi ilə və dövlət orqanları ilə əməkdaşlıq sayəsində yerli qeyri-hökumət təşkilatları tərəfindən təşkil olunur.

Bu üç ölkənin nüfuzlu ictimai liderlərindən ibarət qruplar Alyans haqqında brifinqlərdə iştirak etmək məqsədilə mütəmadi olaraq NATO-nun Baş Qərargahına və MQAABQ-yə dəvət olunur. NATO rəsmiləri ictimai tədbirlərdə çıxış etmək üçün tez-tez regiona səfər edirlər. NATO-nun İctimai Diplomatiya Şöbəsi bu dövlətlərin hər birində müvafiq nəşrlər və sənədlərin yayılması üçün əlaqələndirici məntəqələr qismində fəaliyyət göstərən NATO-ya dair məlumat mərkəzlərinin yaradılmasına da köməklik göstərmişdir.



## 9-cu fəsil
## NATO-nun 60 illiyi: nailiyyətlər və perspektivlər

«Böyük İyirmilər»ə daxil olan dövlətlərin London görüşünün ardınca dünyanın diqqətini cəlb edən daha bir önəmli hadisə NATO-nun 60 illiyinə həsr olunmuş sammit oldu. Sammit Almaniyanın Köln və Fransanın Strasburq şəhərlərində keçirilib. Sammit zamanı NATO-nun üzləşdiyi ümumi və strateji məsələlər müzakirə edilib, yeni strateji konsepsiya hazırlamaq məqsədilə Avratlantik təhlükəsizliyi kontekstində NATO-nun yerini müəyyənləşdirmək üçün gələcək perspektivlər araşdırılıb. Bununla yanaşı, sammitdə NATO-nun Əfqanıstana dair strategiyasında irəliləyişlər, Kosovoda vəziyyət, Rusiya ilə münasibətlər, Fransanın quruma yenidən tamhüquqlu üzv qəbul olunmaq istəyi, bunun NATO-Avropa İttifaqı münasibətlərinə təsiri də müzakirə olunub.

Təşkilatın 28 üzvünün dövlət və hökumət başçıları bir araya gələrək qurum qarşısında duran məsələlər ətrafında fikir mübadiləsi, qarşılıqlı müzakirələr aparıblar. NATO qarşısında duran əsas məsələlərdən biri təşkilatın yeni baş katibinin seçilməsilə bağlı olub. Bu vəzifəyə əsas namizəd Danimarkanın Baş naziri Anders Foq Rasmussen olsa da, alyansa üzv olan 28 ölkənin başçıları onun namizədliyinə dair məsələdə yekdil fikrə gələ bilməyiblər. Rasmussenin namizədliyinə əsasən Türkiyə etiraz edib. Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan hələ sammitdən əvvəl NATO baş katibliyinə başqa bir şəxsin namizədliyinin irəli sürülməsini tələb edib. Bir namizəd məsələsinin əleyhinə

çıxan Ərdoğan bir neçə namizədin irəli sürülməsinin daha ədalətli olduğunu vurğulayıb. Lakin sonda Türkiyə digər NATO üzvlərilə danışıqlar apararaq mövqeyindən geri çəkilməyə razılıq verib və Danimarkanın Baş naziri Anders Foq Rasmussen NATO-nun yeni baş katibi seçilib. Rasmussenin Baş katib seçilməsinə Ankara Barak Obamanın işə qarışmasından sonra razılıq verib. Rasmussen səlahiyyətlərinin icrasına avqustun 1-dən başlayıb.

Dünyanın ən güclü hərbi strukturu sayılan NATO ilə Azərbaycan arasında əlaqələr intensiv inkişaf edir. Bunun başlıca səbəblərindən biri də NATO-nun Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsidir. Təşkilatın sabiq baş katibi Yaap de Hoop Sxeffer bununla bağlı demişdi: «Ərazi bütövlüyü məsələsi çox ciddi məsələdir. NATO hər zaman ölkələrin ərazi bütövlüyünü dəstəkləyir». Azərbaycanın ərazi bütövlüyü məsələsi NATO-nun zirvə sammitinin yekun bəyanatının 58-ci maddəsində də öz əksini tapıb. Bəyanatda qeyd olunub ki, alyans Ermənistan, Azərbaycan, Gürcüstan və Moldovanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləməkdə davam edir və eyni zamanda regional münaqişələrin sülh yolu ilə həllini dəstəkləməkdə də davam edəcək: «Biz Cənubi Qafqaz və Moldovada uzunmüddətli regional münaqişələrin hələ də davam etməsindən narahatıq. Bu münaqişələrdə bütün tərəflər onun sülh yolu ilə həll olunmasına konstruktiv yanaşmalıdırlar. Biz münaqişə tərəflərini regional təhlükəsizlik və sabitliyi pozan bütün addımlardan çəkinməyə çağırırıq. Eyni zamanda, ATƏT-in regiondakı fəaliyyəti və səyləri də bizi sevindirir Bu da öz növbəsində Qafqazda sabitlik və əməkdaşlıq platforması ilə müvəffəqiyyətlə tamamlana bilər».

Bu fikir NATO-nun zirvə sammitinin yekun bəyanatında əks olunsa da, Azərbaycan Respublikası onunla qətiyyən razılaşa bilməz. Çünki, fikrimizcə, ATƏT-in fəaliyyətindən çox fəaliyyətsizliyindən danışmaq daha düzgün olardı.

Təşkilat belə hesab edir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏT-in Minsk qrupu fəaliyyətini daha da gücləndirməlidir. NATO özünün bu münaqişənin çözümündə hələlik aparıcı rol oynamadığını bildirir. Bu məqama da toxunan Yaap de Hoop Sxeffer qeyd edirdi: «Hesabedirəm ki, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində NATO həlledici rol oynamamalıdır. Bu məsələ ilə bizim təşkilat məşğul olmur. Dağlıq Qarabağ münaqişəsi ATƏT-in Minsk qrupu çərçivəsində həll olunur. Mən özüm də xarici işlər naziri olanda ATƏT-ə sədrlik etdiyim dövrdə münaqişənin həlli ilə maraqlanmışam».

Azərbaycan 1994-cü ildən həyata keçirilən «Sülh Naminə Tərəfdaşlıq» proqramı çərçivəsində də NATO ilə ən fəal əlaqə yaradan ölkələrdən biridir. Həmin proqramın əsası ABŞ-ın sabiq prezidenti Bill Klinton tərəfindən 1994-cü ilin yanvarında NATO-nun Brüsseldə keçirilən tarixi zirvə toplantısında qoyulub. Onun əsas funksiyası Şərq ölkələri ilə NATO arasında əməkdaşlığı möhkəmlətmək və Alyansa yeni demokratik dövlətlər cəlb etməkdir. Proqramda iştirak edən ölkələr NATO və digər Avratlantik strukturlara sürətlə inteqrasiya edir. Elə bunun nəticəsidir ki, 1994-2004-cü illərdə Şərqi Avropanın keçmiş sosialist dövlətlərinin, demək olar ki, hamısı və

Baltikyanı respublikalar NATO-nun bərabərhüquqlu üzvünə çevrilmişlər. 1994-cü il mayın 4-dən «Sülh Naminə Tərəfdaşlıq» proqramı çərçivəsində Azərbaycan da NATO ilə sıx əməkdaşlıq edir və bu proqrama əsasən Silahlı Qüvvələrimiz NATO standartlarına uyğunlaşdırılır. Artıq NATO rəsmiləri özləri də dəfələrlə etiraf ediblər ki, Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması çox yüksək səviyyədə gedir. Bununla yanaşı, Azərbaycan hərbçiləri və digər müvafiq qurumların təmsilçiləri «Sülh Naminə Tərəfdaşlıq» proqramına uyğun olaraq NATO-nun müxtəlif ölkələrdə keçirilən layihələr və tədbirlərində fəal iştirak edirlər. Azərbaycan təmsilçiləri son 15 il ərzində NATO-nun zirvə toplantılarının işində də yüksək səviyyədə təmsil olunurlar. Bütün bunlara görə NATO-nun Cənubi Qafqaz üzrə əlaqələndiricisi Zbiqnev Rıbatski də Azərbaycanın bu təşkilata inteqrasiyasının uğurla davam etdiyini bildirir. Həmçinin NATO təmsilçiləri özləri də təşkilatın Azərbaycanla qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsində maraqlı tərəf kimi çıxış etdiyini bəyan ediblər.



## 10-cu fəsil
## NATO-nun Strasburq sammiti: Rusiya və Cənubi Qafqaz

NATO-nun 2009-cu ilin aprelində Strasburqda keçirilən yubiley sammitində Alyansın Rusiya ilə münasibətləri bərpa etməsi haqda qərar verilib. Bir müddət əvvəl NATO 2008-ci ilin avqustunda şimal qonşumuzun Gürcüstana hərbi müdaxiləsinə cavab olaraq Moskva ilə kəsilmiş münasibətləri «qeyri-rəsmi» bərpa etmişdi. Yubiley sammitində isə Alyans Gürcüstana görə Rusiya ilə qarşıdurmaya getməyə hazır olmadığını və buna maraq göstərmədiyini bir daha sərgiləyib. Yekun Bəyannamədə yazılır ki, NATO-Rusiya tərəfdaşlığı Avroatlantik regionda təhlükəsizliyin gücləndirilməsini nəzərdə tutan strateji elementdir və buna sadiq qalınacaq. Əməkdaşlığın ümumi təhlükəsizlik təhdidlərinə qarşı birlikdə və təsirli şəkildə cavab verməsi üçün Rusiya və NATO arasında dialoq əhəmiyyətlidir.

Sənəddə Moskva təkidlə Gürcüstanla əlaqədar 12 avqust və 8 sentyabr 2008-ci il tarixlərində götürdüyü öhdəlikləri yerinə yetirməyə çağırılır və onlardan biri kimi ərazilərdən çəkilməsi mühüm sayılır. Bəyannamədə şimal qonşumuzun Gürcüstandakı separatçı rejimlərin müstəqilliyini tanması pislənib, bu qərarın ləğvi tələb olunub. Beləliklə, bundan sonra NATO-Rusiya Şurasının fəaliyyəti qarşısında heç bir əngəl qalmır.

NATO-nun 2008-ci ilin avqust hadisələrindən sonra Rusiya ilə münasibətləri kəsməsindən bir müddət sonra geri addım atması Moskvanı cəsarətləndirib. Rusiyanın Alyansdakı nümayəndəsi Dmitri Roqozin deyib ki, NATO

eyni vaxtda iki stulda oturmaq niyyətindən əl çəkməlidir. Onun sözlərinə görə, Alyans Rusiyanın ona lazım olduğunu bəyan edir, eyni zamanda Moskvanın Cənubi Osetiya və Abxaziyadakı hərəkətlərini pisləyir: «Əgər onlara Rusiya lazımdırsa, bizim Cənubi Osetiya və Abxaziyadakı hərəkətlərimizi tənqid etməli deyillər».

Yekun bəyannamədə keçmiş postsovet ölkələrinin ərazilərindəki münaqişələrin ərazi bütövlüyü çərçivəsində həllinin zəruriliyi də vurğulanıb: «Biz Azərbaycan, Ermənistan, Gürcüstan və Moldovanın ərazi bütövlüyünü, müstəqillik və suverenliyini dəstəkləyirik».

Bəs, ümumilikdə bu sammitin yekunlarını necə dəyərləndirmək olar? NATO-nun bundan öncəki sammitində Ukrayna və Gürcüstanın quruma üzvlüyü aktual olub. Ancaq indi isə bu məsələ qismən aktuallığını itirib və ya bu məsələ zamnın yetişməsini gözləyir. Bu da ondan irəli gəlir ki, ABŞ-ın yeni prezidenti Barak Obama Moskva ilə normal münasibətlər qurmaq istəyir. Fikrimizcə bu həm də gərgin durumun bir qədər aradan qaldırılaraq, ABŞ-ın sarsılmış nüfuzunun yenidən bərpasına yönəldilmişdir. Təsadüfi deyildir ki, ABŞ tərəfindən atılmış bu jest, sanki Rusiyanı bir qədər rahatlanmış kimi görsətməkdədir. Sözsüz ki, NATO-Rusiya Şurasının fəaliyyətinin və dialoqun bərpası da diqqət çəkən bir məqamdır.

Sammitin NATO-nun Rusiya qarşısında geri çəkilməsi yönündə təəssürat yaratması ilə də razılaşmaq lazımdır. Çünki Alyansın aparıcı ölkələri bir neçə il israrla vurğulayıblar ki, Ukrayna və Gürcüstanı sıralarına qatmağa hazırdırlar. İndi isə geri çəkilirlər. Amma məsələ ondadır ki, qurumda əsas sözü keçən dövlət ABŞ-dır. ABŞ-ın



keçmiş prezidenti Corc Buşun Rusiya ilə münasibətlərdə müəyyən problemi vardı. Corc Buş Ukrayna və Gürcüstanın NATO-ya üzvlüyünü qətiyyətlə dəstəkləyirdi. Amma Barak Obama yeni bir siyasət elan edib və Rusiya ilə münasibətləri gərginlikdən mülayimləşməyə doğru aparmasına vəd verib. Bu yumşalma siyasəti ABŞ-a diktə edir ki, Ukrayna və Gürcüstanm NATO-ya üzvlüyü istəyindən geri çəkilsin. Barak Obama vədinə əməl edibdir. «Bunu həqiqətən NATO-nun geri addım atması kimi qəbul etmək mümkündür. Amma Rusiyanın bir tələbi də vardı ki, ABŞ Polşa və Çexiyada raketdən müdafiə sisteminin elementlərini qurmaq niyyətindən əl çəksin. Bu məsələdə Vaşinqton geri çəkilmir. Düzdür, Barak Obama indi bu məsələdə bir qədər fasilə götürüb. Lakin Polşa və Çexiyada həmin elementlərin yerləşdirilməsiylə bağlı müəyyən planlarının olduğunu da vurğulayıb. Amma ümumilikdə qeyd etmək lazımdır ki, Ukrayna və Gürcüstan məsələsində həqiqətən NATO geri çəkilib».

Sammitdə NATO Cənubi Qafqazda sabitlik istəyini də ortaya qoydu. Məsələ ondadır ki, Ukrayna və Gürcüstanın NATO-ya üzvlük məsələsində Alyansın geri addım atması Azərbaycanın da manevr imkanlarını azaldır, onun istər-istəməz Rusiya ilə münasibətlərə diqqətini artırmasını gərəkli edir. Belə çıxır ki, bizimlə eyni mövqedə olan insanlar bir qədər geri çəkilmiş kimi görünürlər. Əgər NATO Ukrayna və Gürcüstanın namizədliyində bir qədər geriyə addım atdısa, Azərbaycanla bağlı da mövqeyindən geri addım atacaq. Bəlkə də bu, taktiki bir geriləmədir. Çünki konseptual olaraq Rusiya postsovet məkanında yenə də mütləq hakim olmağa və təsir rıçaqlarını əlində saxlamağa cəhd edir. Bu isə, belə deməyə əsas verir ki,

Rusiyanın regiondakı maraqları nə vaxtsa Qərb ölkələrinin, NATO-nun maraqları ilə toqquşacaq. Buna görə də, NATO-nun taktiki baxımdan geriləməsi Azərbaycanın təhlükəsizlik maraqlarına bir qədər mənfi təsir etsə də, strateji anlamda hələ heç nə dəyişməyib.

Rusiyanın son vaxtlar bölgədə fəallığını artırmasını da vurğulamaq lazımdır. Bu reallıq ABŞ-ın maraqlarına ziddir. Buna görə də, ABŞ vəziyyəti qiymətləndirərkən adekvat addımlar atmağa çalışır. Belə ki, Rusiya Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv olan ölkələrlə əlaqələrini genişləndirdiyi bir vaxtda GUAM-da təmsil olunan Gürcüstan isə artıq açıq-aşkar bir şəkildə NATO-ya meyl etdiyini bəyan edir. Düzdür, V.Yanukoviç Ukraynanın prezidenti seçildikdən sonra bu prosesdə fərqli yanaşmaların meydana gəlməsi də diqqətdən yayınmır. Belə şəraitdə təbii bir sual meydana çıxır - əgər Azərbaycan da NATO-ya üzvlüklə bağlı müraciət edərsə, ona qarşı reaksiya necə olar?

Mütəxəssislərin fikrincə, Azərbaycanın NATO-ya üzvlüklə bağlı atacağı hər hansı ciddi addım Rusiyanın Cənubi Qafqazda müəyyən problemlər yaratmasına gətirib çıxara bilər.

Azərbaycanın Avropanın maraq dairəsində olan Cənubi Qafqaz regionunda baş verən siyasi proseslərdən nisbətən kənarda qalması özü də maraqlı məqamdır. Ümumiyyətlə, son vaxtlar regionda həddindən artıq gərgin bir situasiya yaranıb. Əgər region dövlətlərinin fəaliyyətini nəzərdən keçirsək görərik ki, burada əsasən Rusiyanın Cənubi Qafqazı təsir dairəsində saxlamağa cəhd etməsi özünü göstərir. Rusiya konkret olaraq Gürcüstan məsələsində təkcə siyasi və iqtisadi faktorları deyil, hərbi faktorları da



işə salmağa başlayıb. Gürcüstan ardıcıl olaraq Avroatlantik məkana inteqrasiya siyasətini həyata keçirir və ilk növbədə NATO-ya üzv olmağı qarşısına məqsəd qoyub. Ermənistan isə birmənalı olaraq Rusiyaya bağlıdır və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü kimi çıxış edir. Cənubi Qafqaz maraqların toqquşduğu region olduğundan Azərbaycanın hərbi və iqtisadi təhlükəsizliyini təmin etməsi üçün hər hansı bir beynəlxalq təhlükəsizlik sisteminin tərkib hissəsi olması vacibdir.

## 11-ci fəsil
## Azərbaycan-NATO: üzvlük yoxsa tərəfdaşlıq?

Belə ki, artıq NATO-ya üzv olmaq üçün əməli fəaliyyətə keçməyin vaxtı çatıb. NATO dövlətlərinin də regionda ciddi maraqları var. Bu alyansın aparıcı dövləti olan ABŞ da Azərbaycanın həm geopolitik, həm də iqtisadi mövqeyinə görə Avroatlantik məkana inteqrasiyasının tərəfdarıdır. NATO-nun müxtəlif rəsmi nümayəndələri isə dəfələrlə səsləndiriblər ki, Azərbaycan açıq qapı siyasətindən istifadə edə və Alyansa üzvlüklə bağlı rəsmi müraciət ünvanlaya bilər. Azərbaycan isə indiyə kimi bu çağırışlara cavab verməyib. Bunun səbəblərindən biri Rusiya ilə münasibətlərin kəskinləşməsi və Qarabağ probleminin həlli ilə bağlı ölkəmiz üçün ciddi problemin yaranması ehtimalıdır. Ermənistanda isə başa düşmək istəmirlər ki, bu ölkənin bütövlükdə taleyi Qarabağın işğalçı dövlətə birləşdirilməsindən asılı deyil. Dövlətlərin milli maraqları daha geniş sahəni əhatə edir.

Bu gün Cənubi Osetiya və Abxaziyanın Gürcüstandan ayrılması təhlükəsi yaranıb. Buna baxmayaraq, Gürcüstan hökuməti birmənalı olaraq NATO-ya inteqrasiya siyasəti həyata keçirir. Azərbaycanın bu inteqrasiyadan imtina etməsi, yaxud Rusiya ilə münasibətlərin indiki qədər istiləşməsi heç nəyi dəyişmir. Rusiyanın Qarabağla bağlı siyasəti bundan ibarətdir ki, mümkün qədər münaqişənin həlli ləngidilsin. Ona görə də artıq Azərbaycanın seçim etmək vaxtı çatıb.

Azərbaycanın NATO-ya üzvlüklə bağlı rəsmi müraciətinin olacağı halda regionun siyasi durumunda



ciddi dəyişikliklərin baş verməsi labüddür. Hər şeydən əvvəl unutmamalıyıq ki, Rusiya Dağlıq Qarabağ və digər məsələlərdə indiyə kimi nə edibsə, gələcəkdə də onu həyata keçirəcək. Yəni bu ölkənin verdiyi vədlərə inanmaq və bu vədlərin arxasınca getmək illüziyadır. Ona görə də Azərbaycanın ardıcıl qərbyönümlü siyasi xətt tutması və NATO-ya daha dərin inteqrasiya istiqamətində səylər göstərməsi daha məqsədəuyğundur. Bu bölgədə Rusiyanın təsirinin zəiflədilməsi üçün atılan addımlara qoşulmaq Azərbaycanın strateji maraqlarına tamamilə uyğundur. Artıq Qərb, Avropa Birliyi Rusiyanın bölgəyə zərərli təsirlərini zəiflətmək üçün konkret addımlar atmağa başlamışdır. Azərbaycanın da bu reallıqlar kontekstində özünün siyasi xəttinə bu və ya digər düzəlişlər etməsi istisna deyildir.

Alyansda belə hesab edirlər ki, Azərbaycan enerji təhlükəsizliyi baxımından vacib bir ölkədir və NATO-nun çox dəyərli tərəfdaşıdır. NATO-nun Cənubi Qafqaza dair siyasəti yeni Baş katib Anders Foq Rasmussenin gəlişi ilə əsaslı şəkildə dəyişilməyəcək. Bunu NATO-nun rəsmi nümayəndəsi Ceyms Appaturay bildirib: "Cənab Rasmussen hər hansı ciddi bir dəyişiklik haqqında bəyanat verməyib. Düşünürəm ki, hər hansı mühüm dəyişikliklər gözlənilmir.

Onun sözlərinə görə, yeni Baş katib Cənubi Qafqaz ölkələri də daxil olmaqla öz tərəfdaşlarına dair NATO-nun başlıca prinsiplərinə sədaqətli olduğunu bildirib. Appaturay qeyd edib ki, Rasmussen Cənubi Qafqazda əməkdaşlığa, istiqlaliyyət və suveren dövlətlərin müstəqilliyinə sədaqətini nümayiş etdirib. NATO-nun Cənubi Qafqaz dövlətləri - Azərbaycan, Gürcüstan və

Ermənistanla əməkdaşlığı əsasən «Sülh Naminə Tərəfdaşlıq», «Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı», həmçinin «Planlaşdırma və Analiz Prosesi Proqramı» çərçivəsində həyata keçirilir. Bu sənədlərdə tərəfdaş ölkələrin Şimali Atlantika Alyansı ilə müdafiə, təhlükəsizlik və hərbi siyasət sahələrində islahatlara dair məsləhətləşmələrin keçirilməsi üzrə məqsədləri və niyyətləri müəyyən edilib. Cənubi Qafqaz ölkələrinin NATO ilə əməkdaşlığı Avropaya inteqrasiya, həmçinin, regionda təhlükəsizlik və stabilliyin təmin olunması yolunda addım kimi qiymətləndirilir.

Beləliklə, bu açıqlama NATO-nun yeni dönəmdə hansı addımlar atacağına dair sualın Cənubi Qafqazla bağlı hissəsinə cavab kimi də dəyərləndirilə bilər. Deməli, bir sıra sahələrdə yeniliklərə imza atmaq niyyətində olan NATO Cənubi Qafqaz siyasətini dəyişməyəcək. Əksər ekspertlərin də qeyd etdikləri kimi, əslində bu açıqlama Azərbaycanın xarici siyasətinin düzgün və düşünülmüş əsaslar üzərində qurulduğunu bir daha təsdiqlədi. Daha doğrusu, bəlli oldu ki, bu gün «NATO-ya üzv olmaq istəyirik» şəklində bəyanat verməklə Alyansa üzv olmaq mümkün deyildir. Nümunə olaraq qonşu Gürcüstanın timsalında bunu açıq şəkildə görmək mümkündür. Təsadüfi deyil ki, Gürcüstan tərəfinin birmənalı olaraq NATO-ya üzvlüklə bağlı bəyanatı bu ölkəni Rusiyanın təzyiqləri ilə başbaşa qoydu. Sonda isə məlum oldu ki, NATO hələlik bu ölkəni öz sıralarına qəbul etməyə tələsmir.

İşğalçı Ermənistana gəlincə, bu ölkənin, sadəcə, Rusiyanın forpostu olduğunu hər kəs yaxşı bilir. Məhz buna görə də hazırda Sərkisyan rejiminin nəzarəti altında



olan Ermənistanın NATO ilə əlaqələri o qədər də ürəkaçan səviyyədə deyil. Çünki işğalçı ölkə bütün sahələrdə olduğu kimi hərbi sahədə də tam şəkildə Rusiyaya meyillənib.

Maraqlıdır ki, bütün bunlara baxmayaraq Azərbaycan dövlətinin Dağlıq Qarabağ münaqişəsinin ədalətli və ən optinal variantda– dövlətlərin ərazi bütövlüyünün toxunulmamazlığı prinsipinə uyğun həlli istiqamətində göstərdiyi səylər beynəlxalq ictimayyət tərəfindən də təqdir olunur. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş praqmatik xarici siyasət kusu bu münaqişənin daha geniş beynəlxalq müstəvidə müzakirəsinə stimul verir və bununla bağlı müxtəlif beynəlxalq təşkilatlr səviyyəsində rəsmi Bakının maraqlarına uyğun qərarlar qəbul olunur və bu sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması konfliktin həllində əsas tələb kimi öz əksini tapır. Son olaraq, NATO-nun 2010-cu il noyabrın 19-20-də Lissabonda keçirilən Zirvə toplantısının Bəyannaməsində bu məqam növbəti dəfə öz hüquqi təsdiqini tapmışdır.

Daha dəqiq desək, sammitin yekun Bəyannaməsinin 35-ci bəndində qeyd olunmuşdur ki, Cənubi Qafqazda və Moldava Respublikasında uzadılmış regional münaqişələrin indiyədək davam etməsi alyans üçün narahatlıq doğuran məsələ olaraq qalır: «...Biz Azərbaycan, Gürcüstan, Ermənistan və Moldavanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə dəstəyimizə sadiq qalırıq, həmşinin bu regional münaqişələrin həmin prinsiplər nəzərə alınmaqla sülh yolu ilə həll edilməsi naminə səyləri dəstəkləməyə davam edəcəyik».

Əslində bu, NATO-nun problemin həllinə beynəlxalq hüquq və normalar prinsipindən yanaşması ilə yanaşı, həm də alyansın ölkəmizin ədalətli mövqeyini dəstəkləməsi kimi dəyərləndirilməlidir.

Azərbaycanın NATO ilə əlaqələri balanslı olduğu qədər də səmərəlidir. Daha doğrusu, qarşılıqlı-faydalı əməkdaşlıq müstəvisində inkişaf edən Azərbaycan-NATO münasibətləri bərabərtərəfli prinsiplərə əsaslanmaqla yanaşı, müasir dünyanın tələblərinə tamamilə cavab verir. Çünki Azərbaycan balanslı xarici siyasətin fonunda digər regional və qlobal təşkilatlarla müxtəlif istiqamətlərdə qarşılıqlı-faydalı əməkdaşlıq etməklə yanaşı, NATO-nun da müxtəlif səpkili proqramlarında fəal şəkildə təmsil olunur.

Onu da vurğulamaq lazımdır ki, NATO-Azərbaycan əlaqələrinin qurulmasından 20 il (Azərbaycan Respublikası 1992-ci ilin martında əməkdaşlıq və məsləhətləşmələr üçün forum rolunu oynayan Şimali Atlantika Əməkdaşlıq Şurasına (ŞAƏŞ) qoşulmuşdur) ötür. Hazırda Azərbaycan «Sülh Naminə Tərəfdaşlıq» proqramına müvafiq olaraq üzərinə götürdüyü təxminən 50-yə yaxın vəzifəni yerinə yetirir. Bu, birgə fəaliyyətin effektivliyini artırır. Azərbaycan NATO ilə Alyansın İraq və Kosovoda sülhməramlı missiyası çərçivəsində əməkdaşlıq edib, hazırda belə əməkdaşlıq Əfqanıstanda davam etdirilir.

Yuxarıda qeyd etdiyimiz kimi, 2009-cu il mayın 5-də Azərbaycan-NATO əlaqələrinin 17 ili tamam oldu. Bu əlaqələrin qurulmasına qədər ölkəmiz bir sıra önəmli addımlar atıb. Çünki ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa etmiş Azərbaycanın xarici siyasət prioritetlərindən birini məhz Avroatlantika strukturlarına



inteqrasiya təşkil edir. Bu baxımdan, Avroatlantika məkanının mühüm təşkilati strukturlarından biri olan NATO ilə münasibətlərin inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyır. Məhz buna görə də, ölkəmiz 1992-ci ilin mart ayında Mərkəzi və Şərqi Avropa ölkələri ilə əməkdaşlığın inkişaf etdirilməsi məqsədi ilə NATO tərəfindən yaradılmış Şimali Atlantika Əməkdaşlıq Şurasına daxil olub. 1994-cü il may ayının 4-də «Sülh Naminə Tərəfdaşlıq» proqramının çərçivə sənədinin imzalanması ilə NATO-Azərbaycan əməkdaşlığı keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

1996-cı ildə Azərbaycanın Fərdi Tərəfdaşlıq Proqramına qoşulması ilə ikitərəfli münasibətlər hərbi və hərbi-siyasi sahələrlə yanaşı, ölkə həyatının digər sahələrini, o cümlədən, təhlükəsizlik sektorunu da əhatə etməyə başlayıb.

Hazırda ölkəmiz bir sıra fəaliyyət planları əsasında NATO ilə əməkdaşlıq edir. Bu planlara «Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı», «Terrorçuluqla mübarizə üzrə Fəaliyyət Planı» (PAP-T), «Planlaşdırma və Analiz Prosesi Proqramı» (PARP) və «Fərdi Tərəfdaşlıq Proqramı» (FTP) daxildir. NATO tərəfindən irəli sürülən həmin sənədlərin əsas məqsədi ölkəmizin təhlükəsizlik və müdafiə strukturlarının Avroatlantik standartlara inteqrasiyasıdır. Həmin proqramlar yerinə yetirildikdən sonra tərəfdaş dövlətə NATO-ya bərabərhüquqlu üzv olmaqda sonuncu mərhələ olan Üzvlük üzrə Fəaliyyət Planı təklif edilir.

Yuxarıda göstərilən planların icrasında əsas hüquqi çərçivəni Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 3 avqust 2005-ci il tarixli Sərəncamı ilə təsdiqlənmiş «Azərbaycan Respublikasının NATO ilə

Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı» təşkil edir. Planın qəbul olunması ilə NATO-Azərbaycan əməkdaşlığı həm keyfiyyət, həm də həyata keçirilən tədbirlərin həcmi baxımından daha səmərəli və tamamilə yeni mərhələyə qədəm qoyub.

Bir daha qeyd etmək yerinə düşər ki, Azərbaycan-NATO əlaqələri hər iki tərəfin marağını təmin etməklə müasir dövrün tələblərinə tamamilə cavab verir. Bu da təbiidir. Çünki NATO ilə əməkdaşlıq ölkəmiz üçün nə qədər əhəmiyyətlidirsə, Azərbaycanla sıx əlaqələr Şimali Atlantika Alyansı üçün bir o qədər vacib və lazımlıdır. Bunu təsdiqləyən bir sıra mühüm amillər mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyevin Belçika Krallığında işgüzar səfəri çərçivəsində NATO-nun o zamankı Baş katibi ilə Alyansın mənzil-qərargahında baş tutan görüşdə Yaap de Hoop Sxeffer deyib ki, Azərbaycan ilə əməkdaşlıq uğurla inkişaf edir və NATO bu əməkdaşlığa böyük əhəmiyyət verir. Azərbaycanın regionda xüsusi rolunu vurğulayan cənab Sxeffer bildirib ki, NATO Azərbaycana bölgədə mühüm rol oynayan tərəfdaş ölkə kimi yanaşır və Prezident İlham Əliyevin bu səfəri NATO-Azərbaycan münasibətlərinin genişlənməsinə xidmət edəcək. Azərbaycanın antiterror əməliyyatlarında iştirakını yüksək qiymətləndirən baş katib deyib ki, ölkəmiz «Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı»nda da fəal iştirak edir: «Enerji təhlükəsizliyinin dünyada böyük əhəmiyyət kəsb etdiyi bir dövrdə Azərbaycanın rolu daha da artıb. Azərbaycan NATO-nun dəyərli tərəfdaşıdır. Artıq on beş ildir ki, «Sülh Naminə Tərəfdaşlıq» proqramı, 2005-ci ildən etibarən isə «Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı» çərçivəsində çalışırıq. Təbii ki, Azərbaycan nəinki



regionda, o cümlədən, onun hüdudlarından kənarda mühüm iştirakçıdır. Azərbaycan enerji təhlükəsizliyi baxımından çox vacib bir ölkədir və NATO-nun çox dəyərli tərəfdaşıdır. Biz həmin tərəfdaşlığı genişləndiririk». Öz növbəsində Prezident İlham Əliyev də bildirib ki, NATO-Azərbaycan əlaqələri inkişaf edir, Azərbaycan NATO-nun müxtəlif proqramlarında və tədbirlərində fəal iştirak edir. «Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı»nda ölkəmizin fəal iştirak etdiyini vurğulayan Prezident İlham Əliyev deyib ki, Azərbaycan-NATO əlaqələri ölkəmizin Avroatlantik strukturlara inteqrasiyasının tərkib hissələrindən biridir. Azərbaycanın dövlət başçısı ümidvar olduğunu bildirib ki, əlaqələrimiz bundan sonra da inkişaf edəcək. Prezident İlham Əliyev deyib ki, ötən il ölkəmiz Alyansın 200 tədbirinə qatılıb. Azərbaycan-NATO tərəfdaşlığını yüksək qiymətləndirən və antiterror əməliyyatlarında ölkəmizin fəal iştirak etdiyini vurğulayan dövlətimizin başçısı bildirib ki, Azərbaycan Əfqanıstanda hərbçilərinin sayını artırıb.

Ölkəmiz üçün başlıca problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə NATO-nun yanaşması da tamamilə qəbuledilləndir. NATO Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində birbaşa rol oynamasa da, təşkilat rəhbərliyi hesab edir ki, münaqişənin həllində ərazi bütövlüyü prinsipi əsas götürülməlidir. Elə NATO-nun 2008-ci il aprelin 2-4-də Buxarestdə keçirilən sammitinin yekun bəyannaməsində də Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipi əsasında həllinin vacibliyi ifadə olunmuşdur.

Digər tərəfdən, bu yanaşma 2008-ci ildə, yuxarıda haqqında söhbət gedən görüşdə, Yaap de Hoop Sxeffer tərəfindən növbəti dəfə dilə gətirilib. Dağlıq Qarabağ münaqişəsindən danışan Baş katib bildirib ki, münaqişə yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini tapmalıdır. Şübhəsiz ki, qurumun bu mövqeyi rəsmi Bakının maraqları ilə üst-üstə düşdüyündən ölkəmizdə razılıqla qarşılanır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, biz NATO-ya minnətdarıq ki, Şimali Atlantika Alyansı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində qətiyyətli mövqe tutur və bu mövqe ərazi bütövlüyü prinsipinə əsaslanır.

Gələcəkdə NATO-nun təhlükəsizlik arxitekturasında Cənubi Qafqaz ölkələrinin, o cümlədən Ukraynanın təhlükəsizlik təminatı yer almalıdır. Bu fikri Bakıda keçirilən «NATO-nun Yeni Strateji Konsepsiyası: tərəfdaşlar tərəfindən müzakirələrə tövhə» adlı konfransda London Strateji Araşdırmalar İnstitutunun baş mütəxəssisi Oksana Antenenko ifadə edib. O, hesab edir ki, bu, həmçinin İranın nüvə proqramı ilə bağlı məsələ baxımından əhəmiyyət kəsb edir.

NATO-Rusiya münasibətlərinin hələ də gərgin olduğunun önə çəkən ekspert bu amilin postsovet respublikaları üçün təhlükəliyini vurğulayıb. «Cənubi Qafqaz NATO üçün ekstremal əhəmiyyət daşıyır. Ancaq NATO-nun Cənubi Qafqaz ölkələri ilə bağlı real baxışı yoxdur. Cənubi Qafqaz və Ukraynaya şifahi zəmanətlər deyil, sənədlərdə əksini tapacaq aydın təhlükəsizlik zəmanətləri lazımdır», - deyə o vurğulayıb.

NATO-nun hazırkı baş katibi Anders Foq Rasmussenin əməkdaşlıq prinsiplərinə sadiqliyi özündə böyük ölkələrin



kiçik ölkələrə öz istəklərini zorla qəbul etdirməsi kimi ideyaların qəbul edilməməsini ehtiva edir.

NATO-nun ümumiyyətlə müsəlman dünyası ilə əməkdaşlığı haqqında danışarkən Alyansın rəsmi nümayəndəsi Ceyms Appaturay NATO-nun müsəlman ölkələri ilə iki istiqamətdə inkişaf edən yaxşı tarixi münasibətlərini qeyd edib.

İlk növbədə bu, yardım etmək yoludur. Appaturay bura NATO-nun Kosovoya, xüsusilə də müsəlman əhalisinə yardımını, Əfqanıstandakı ekstremistlərə qarşı mübarizəsini və əksəriyyəti müsəlman olan əfqan xalqına köməyini aid edib.

Tərəfdaşlıq münasibətlərinə gəldikdə isə, o bildirib ki, NATO-nun bir çox müsəlman ölkələri ilə «Aralıq Dənizi Dialoqu» çərçivəsində, əsasən müsəlman əhalisi ilə İstanbul əməkdaşlıq təşəbbüsü daxilində yaxşı tərəfdaşlıq münasibətləri mövcuddur.

«Cənab Rasmussen buna əsaslanaraq münasibətlər qurmaq istəyir. Müsəlman ölkələri ilə əməkdaşlığın dərinləşməsinə sadiqlik və hörmət onun prioritetləridir», - Appaturay bildirib.

Azərbaycan müsəlman ölkəsi olduğundan bu deyilənlər bütövlükdə ona da aiddir.

Beləliklə, Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı geniş spektr üzrə inkişaf etməkdədir. Bu əməkdaşlıq hər iki tərəfin maraq və mənafeyinə xidmət göstərir. Eyni zamanda müasir geosiyasi reallıqlar kontekstində bu əməkdaşlıq heç də Azərbaycanın alyansa üzvlüyü məsələsini özündə ehtiva etmir. Azərbaycan NATO-ya üzvlük deyil, avroatlantik məkana inteqrasiya siyasətini həyata keçirir və bu siyasi kursun tələblərinə

uyğun olaraq müvafiq addımlarını atır və onlar Azərbaycan Respublikasının milli maraqlarının müdafiəsinə xidmət edir. Amma qeyd etmək yerinə düşər ki, Şimali Atlantika Alyansına üzvlüklə Avroatlantik məkana inteqrasiya tamamilə başqa-başqa şeylərdir. NATO-nun üzvü bu təşkilatın Nizamnaməsini və digər tələblərini sözsüz qəbul edir, özünün bütün hərbi strukturlarını NATO standartlarına uyğunlaşdırır və Alyansın maliyyələşməsindən tutmuş müxtəlif regionlarda həyata keçirdiyi hərbi əməliyyatlara qədər bütün tədbirlərində fəal iştirak edir. Eyni zamanda NATO üzvü xarici hərbi müdaxilə zamanı Alyansın digər üzvləri tərəfindən bilavasitə hərbi üsullarla müdafiə olunur.

Azərbaycan isə hələlik qarşısına NATO-nun üzvü olmaq kimi konkret bir məqsəd qoymamış və bunu heç yerdə bəyan etməmişdir. Respublikamız NATO-nun müxtəlif pqoqramlarında, seminar və təlimlərində iştirak etməklə bu təşkilat vasitəsilə beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiya olunmaq istəyir. Çünki indiki dünya düzəni elə qurulmuşdur ki, qlobal təhlükələrə qarşı təklikdə mübarizə aparmaq nəinki kiçik dövlətlər, hətta ABŞ kimi supergüclər üçün də qeyri-mümkündür. NATO isə yeganə hərbi qurumdur ki, ABŞ-ın qlobal siyasətinin həyata keçirilməsində və Avropadan kənarda da onun maraqlarının təmin olunmasında xüsusi rola və çəkiyə malikdir. Buna görə də Azərbaycan Respublikası 2007-ci ilin mayında qəbul edilmiş Milli Təhlükəsizlik Konsepsiyasına və 2010-cu ilin iyununda qəbul edilmiş Hərbi Doktrinaya uyğun olaraq, Avratlantik strukturları ilə tərəfdaşlığı bütövlükdə Avratlantik məkanında ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək



verəcək vasitə kimi görür. Ölkəmiz Avropa və Avratlantik məkanında qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında NATO ilə birgə işləyir və təhlükəsizliyin bölünməzliyi prinsipinə zidd coğrafi və siyasi ayrıseçkilik olmadan Avropada və yerləşdiyi regionda vahid təhlükəsizlik sisteminin qurulması yükünü bölüşmək əzmindədir. Azərbaycan Respublikası Avratlantik Tərəfdaşlıq Şurası və NATO-nun "Sülh naminə tərəfdaşlıq Proqramı çərçivəsində NATO ilə mümkün olan tərəfdaşlıq vasitələrindən tam gücü ilə istifadə edir. Bu baxımdan Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı NATO ilə əməkdaşlığın yaxın və orta perspektivdə daha da gücləndirilməsi yolunda mühüm bir vasitədir. Fikrimizcə, Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planından Respublikamızın təhlükəsizlik sektorunun islahatlar yolu ilə NATO standartlarına yaxınlaşdırılması və siyasi dialoqun inkişaf etdirilməsi üçün bir mexanizm kimi bundan sonra da istifadə olunması zəruridir.

# II BÖLMƏ
# NATO-nun sülhməramlı əməliyyatları və strateji proqramlarında Azərbaycan Respublikasının yeri və rolu

## 1-ci fəsil
## Azərbaycan transatlantik təhlükəsizlik və əməkdaşlıq strukturlarına inteqrasiya prosesində

Azərbaycan Respublikası ümumi və bölünməz təhlükəsizlik, qanunun aliliyi, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsiplərinə əsaslanan ümumavropa təhlükəsizlik və əməkdaşlıq prosesində fəal iştirak edir, öz milli mənafelərini, təhlükəsizliyinin təmin edilməsi yollarını və vasitələrini müstəqil seçmək kimi suveren hüququnu əsas tutaraq beynəlxalq əməkdaşlığın inkişafına fəal surətdə layiqli töhfəsini verir, Avropa və transatlantika təhlükəsizlik və əməkdaşlıq strukturlarına inteqrasiya istiqamətində mühüm addımlar atır.

Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası ümumavropa təhlükəsizlik və əməkdaşlıq prosesinin inkişafında, Avropa qitəsində sülhün, təhlükəsizliyin və sabitliyin qorunmasında NATO-nun rolunu yüksək qiymətləndirir. Azərbaycan Şimali Atlantika Alyansı ölkələrinin belə inamına tamamilə şərikdir ki, regionda təhlükəsizlik və sabitlik yalnız əməkdaşlıq və birgə tədbirlər yolu ilə, ümumi dəyərlər və prinsiplər əsasında təmin edilə bilər. Buna görə də Azərbaycan Respublikası ilk addım kimi Şimali Atlantika Əməkdaşlıq Şurasının fəaliyyətinə və NATO-nun «Sülh Naminə Tərəfdaşlıq» Proqramına qoşulmuşdur.

Azərbaycan Respublikası artıq əldə olunmuş nəticələr əsasında NATO ilə siyasi və hərbi əməkdaşlığı



keyfiyyətcə yeni səviyyəyə qaldırmaq, habelə yeni yaradılmış Avro-Atlantika Tərəfdaşlıq Şurası və NATO-nun genişləndirilmiş «Sülh Naminə Tərəfdaşlıq» Proqramı çərçivəsində əməkdaşlıq üçün yaradılmış yeni mexanizmlər və imkanlardan fəal istifadə etmək niyyətindədir. Azərbaycan Respublikası tərəfdaş ölkələrə Brüssel şəhərində, NATO-nun qərargah-mənzilində öz diplomatik missiyalarını açmaq hüququ verilməsi barədə Madrid şəhərində 1997-ci il iyulun 8-9-da NATO üzvü olan ölkələrin dövlət və hökumət başçılarının görüşündə qəbul edilmiş qərarı son dərəcə müsbət qarşılayaraq NATO-da öz siyasi və hərbi təmsilçiliyini gücləndirmək üçün yaxın vaxtlarda bu imkandan istifadə edərək tezliklə Brüssel şəhərində, NATO-nun qərargah-mənzilində öz diplomatik nümayəndəliyini açılması yolunda bir sıra addımlar atır.

Yuxarıda qeyd edilənləri əsas tutaraq, Avro-Atlantika Tərəfdaşlıq Şurasında və NATO-nun «Sülh Naminə Tərəfdaşlıq» Proqramında Azərbaycan Respublikasının iştirakının xüsusi əhəmiyyət kəsb etdiyini, NATO-ya təqdim edilmiş Azərbaycan Respublikasının prezentasiya sənədini, Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 19 aprel tarixli 302 nömrəli «Azərbaycan Respublikasının Şimali Atlantika Birliyinin «Sülh naminə Tərəfdaşlıq» Proqramı çərçivəsində hazırlanmış prezentasiya sənədi haqqında» Sərəncamını, NATO üzvü olan ölkələrin və tərəfdaş ölkələrin dövlət və hökumət başçılarının 1997-ci il iyulun 8-9-da Madrid şəhərində keçirilmiş görüşünün yekunlarını nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin 14 noyabr 1997-ci il tarixli «Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında» 692 №-li Sərəncamı ilə

Azərbaycan Respublikasının Prezidenti yanında Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiya yaradılmışdır. Eyni zamanda, müvafiq dövlət qurumlarına bu Sərəncamdan irəli gələn vəzifələri yerinə yetirmək tapşırılmışdır:

1997-ci il 14 noyabr tarixli 692 nömrəli bu sərəncama Azərbaycan Respublikası Prezidentinin 7 yanvar 2002-ci il və 5 sentyabr 2003-cü il tarixli sərəncamları ilə zəruri əlavə və dəyişikliklər edilmişdir. Ümummilli liderimizin NATO ilə əməkdaşlığa uzaqgörənliklə belə önəm verməsi sayəsində gənc müstəqil ölkəmizin Alyansla əlaqələri xeyli möhkəmlənmiş və daha işgüzar xarakter almışdır.

1990-cı illərin əvvəllərindən etibarən NATO-nun strukturlarında siyasi və hərbi dəyişikliklər prosesi başlamışdır. 1990-cı ilin iyulunda yeni təhlükəsizlik mühitinə uyğunlaşmaq üçün London sammitində Dəyişilmiş Şimali Atlantika Alyansına dair London Bəyannaməsi, bir il sonra isə Roma sammitində yeni Strateji konsepsiya və Sülh və əməkdaşlığa dair bəyannamə qəbul edildi. Nəzərdə tutulmuş əməkdaşlığın gələcək inkişafını istiqamətləndirən Şimali Atlantika Əməkdaşlıq Şurası (ŞAƏŞ) təsis edildi. ŞAƏŞ-ın ilk açılış görüşü 1991-ci il dekabrın 20-də keçirilmişdir. Azərbaycan Respublikası 1992-ci ilin martında əməkdaşlıq və məsləhətləşmələr üçün forum rolunu oynayan ŞAƏŞ-na qoşulmuşdur.

NATO-nun Cənubi Qafqaz regionunda yaranmış vəziyyətlə bağlı narahatlığı 1994-cü ilin yanvar ayında Şimali Atlantika Şurası tərəfindən qəbul edilmiş Bəyannamədə öz əksini tapmışdır. Bəyannamədə ərazi ələ keçirmək məqsədilə gücdən istifadə edilməsi pislənir və Cənubi Qafqaz dövlətlərinin ərazi bütövlüyünə,



müstəqilliyinə və suverenliyinə hörmət regionda sülhün, sabitliyin və əməkdaşlığın bərqərar olmasının vacib elementi kimi səciyyələndirilir.

1994-cü il 10-11 yanvar tarixlərində Brüsseldə keçirilmiş NATO Şurasında Sülh Naminə Tərəfdaşlıq (SNT) proqramı qəbul olundu. SNT proqramına dəvət ŞAƏŞ-da iştirak edən bütün tərəfdaş dövlətlərə, o cümlədən ATƏT-in üzvü olan dövlətlərə göndərildi.

Terrorun dialektikasını tədqiq edən Peter Maklaren bu prosesləri nəzərdə tutaraq haqlı olaraq qeyd edir ki, qloballaşma adlanan hadisə imperialist dövlətlərin tüfənglərinin lüləsindən inkişaf edən hadisədir. Xaricdə olan kapitalını gələcəkdə qorumaq üçün ABŞ və Aİ onların iqtisadi maraqlarına təhlükə ola bilən ölkələrə qarşı Avropadan kənarda hücum xarakterli müharibələri qanuniləşdirən yeni NATO doktrinası yaratdılar... NATO Şərqi Avropadakı keçmiş sosialist dövlətlərini və sabiq SSRİ respublikaları arasından yeni sülh tərəfdaşlarını öz sırasına daxil etmək üçün genişlənir. Avropa və Birləşmiş Ştatların hər hansı hücumdan rəsmi müdafiəsinə əminlik üçün imperialist dövlətlərin hərbi alyansı daha çox ölkəni və onların müxtəlif hərbi və qeyri-hərbi strukturlarını öz sıralarına daxil edir.

Bu dövlətlərin özləri də təhlükəsizlik maraqlarını əsas tutaraq prosesdə iştirak edirlər. Onlar Rusiyadan qaynaqlanan təhdidlərdən sığortalanmaq üçün Qərbin hərbi-siyasi bloku – NATO-ya bu qədər can atırlar. Almaniyalı professor Lotar Rühl bu münasibətləri araşdıraraq belə qənaətə gəlir ki: «Onlar Alyansa üzv olaraq Rusiyanın artan təhdidlərinə qarşı öz müstəqilliklərini və təhlükəsizliklərini sığortalamaq istəyirlər. Bu ölkələr hazırda Rusiyaya qarşı özlərini

müdafiəsiz hiss edirlər. Onların digər bir niyyəti isə, Qərbdən demokratik və iqtisadi islahatlara lazımi dəstək almaq, ümumiyyətlə Qərbi Avopa ilə aradakı əlaqələri bərkitməkdir».

1992-ci ildən başlayan Azərbaycan-NATO əməkdaşlığı 1994-cü ildən daha intensiv xarakter almışdır. 1994-cü il 3-4 may tarixlərində Belçikaya rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun «Sülh Naminə Tərəfdaşlıq» proqramının Çərçivə sənədini imzaladı. Bununla da, Azərbaycan NATO ilə genişmiqyaslı əməkdaşlığı nəzərdə tutan SNT proqramını imzalamış 15-ci dövlət oldu. Həmin dövrdən başlayaraq, NATO-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün münbit şərait yaranmışdır.

NATO ilə əməkdaşlığın məqsədlərindən bəhs edən Ümummilli lider bu məqsədləri aşağıdakı kimi ifadə edir: «...biz NATO ilə əməkdaşlığa başlayarkən, «Sülh Naminə Tərəfdaşlıq» sənədini imzalayarkən bunu əsas tuturuq ki, öz məqsədimizi həyata keçirmək üçün yeni imkanlarımız yaranacaqdır. Məqsədlərimiz isə münaqişənin dincliklə aradan qaldırılmasından, atəşin və bütün hərbi əməliyyatların dayandırılmasından, işğal olunmuş Azərbaycan ərazilərindən Ermənistan silahlı birləşmələrinin çıxarılmasından, Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının təmin edilməsindən ibarətdir».

ABŞ-ın və Qərbi Avropa ölkələrinin regiondakı iqtisadi maraqları da Azərbaycanın NATO-ya inteqrasiyasını labüd edir. 1994-cü ilin 4 may tarixində Çərçivə sazişini imzalayaraq «Sülh Naminə Tərəfdaşlıq» proqramına qoşulan Azərbaycan, sonrakı dövrlərdə NATO-nun tədbirlərində yaxından iştirak etməyə başladı.



Azərbaycan mətbuatında, həm müxalifət, həm də iqtidar partiyalarının nəzarətində olan KİV-də bəzən ölkənin NATO-ya inteqrasiyasının zəruriliyi təbliğ edilir. Belə inteqrasiyanın Azərbaycanın təhlükəsizlik siyasətinin strateji məqsədi olduğu da bildirilir. İctimaiyyətə təlqin edilir ki, BTC neft boru kəmərinin qorunmasında və Xəzərin təhlükəsizliyinin təminatında NATO qüvvələrinin iştirakı məqbul sayıla bilər. Hərbi-siyasi alyans kimi formalaşmış NATO-ya «demokratiya keşikçisi» kimi yanaşanlar və ona «kollektiv müdafiə vasitəsi» kimi baxaraq, Azərbaycanın gələcəkdə mümkün təhlükələrdən qorunması üçün bu bloka qoşulmasının vacibliyini qeyd edənlər də az deyildir. Fəqət onlar belə bir faktın üzərindən sükutla keçirlər ki, NATO regionun ictimai-siyasi həyatına ciddi təsir imkanında olan ABŞ-ın hərbi təcavüzünün əsas icraçısıdır və ABŞ-ın beynəlxalq miqyasda hərbi cinayətlərinin (gizlədilməsini) edilməsini və beləliklə, bəşəriyyət qarşısında məsuliyyətinin bölüşdürülməsini öz üzərinə götürmüşdür.

Azərbaycanın ictimai-siyasi həyatında NATO-Azərbaycan əlaqələrinin zəruriliyinə əsas kimi göstərilən arqumentləri belə qruplaşdırmaq mümkündür:

1) Bu əlaqələr Azərbaycanın gələcəkdə təhlükəsizliyinə tam əminlik yaradır;

2) Azərbaycan üçün həllini gözləyən vacib problemin-Dağlıq Qarabağ probleminin həlli reallaşacaq;

3) Neft hasilatının və ixracının təhlükəsizliyi təmin ediləcək;

4) Xəzərin statusunun həlli başa çatdırılacaq;

5) Azərbaycan ordusu NATO standartlarına uyğun olaraq formalaşacaq.

Azərbaycan ictimaiyyətinə təlqin edilən bu arqumentlərin nə dərəcədə əsaslı olmasına həsr edilmiş elmi və ya siyasi tədqiqatlar demək olar ki, yox dərəcəsindədir. Son 10-15 ildə ölkəmizdə bu mövzuda nəşr olunmuş kitablar və digər tədqiqatlar NATO haqqında faydalı məlumatlarla zəngin olsa da, lakin NATO-Azərbaycan əlaqələri, respublikamızın bu əməkdaşlığından hansı dividentlər əldə edə biləcəyi məsələləri kifayət qədər əsaslandırılmır. NATO-Azərbaycan əlaqələrinin zəruriliyini təbliğ etməklə öz siyasi məqsədlərini inkişaf etdirən Azərbaycan müxalifətinin əksər nümayəndələri də bu əlaqələrdən Azərbaycanın necə faydalana biləcəyini əks etdirən konkret siyasi platformaya malik deyillər.

NATO-Azərbaycan münasibətlərini tədqiq edənlərin və siyasi ekspertlərin əksəriyyəti NATO-nun Şərqə genişlənməsinə haqq qazandıraraq, belə genişlənmənin məhz təhlükəsizlik üçün vacib olduğunu arqument kimi irəli sürürlər. Lakin belə təhlükəsizliyin mahiyyəti və ya hansı tərəfin təhlükəsizliyinin nəzərdə tutulduğu adətən aydın ifadə olunmur. NATO-nun son 15 ildəki hərbi əməliyyatlarının mahiyyəti göstərir ki, belə əməkdaşlıq heç də yerli əhalinin təhlükəsizliyinin qorunması məqsədilə həyata keçirilmir. NATO-nun Balkan yarımadasında və Əfqanıstandakı hərbi əməliyyatları da bu regionda ABŞ-ın gələcəyə yönəlmiş maraqlarından xəbər verir.

Azərbaycan cəmiyyətində NATO-Azərbaycan əlaqələrinin mahiyyətinin geniş müzakirə olunmaması səbəbindən bir çoxları belə əlaqələrə ölkənin gələcək təhlükəsizliyinin təminatı kimi yanaşır və beləliklə ictimai fikirdə NATO-ya kor-koranə vurğunluq sindromu kök salır. Eyni zamanda belə bir təsəvvürlər formalaşır ki,



NATO Dağlıq Qarabağ münaqişəsinin həllində real mexanizmləri yarada bilər və onu uğurla tətbiq edə bilər. Başqa sözlə, Azərbaycanın NATO-ya inteqrasiyasını təbliğ edən siyasilərin və politoloqların əksəriyyəti düşünür ki, Azərbaycan NATO ilə əməkdaşlığını genişləndirərsə, Ermənistan isə NATO-nu öz ərazisinə yaxın buraxmazsa, bu halda NATO Azərbaycan tərəfində dayanaraq Dağlıq Qarabağ probleminin həllinin hərb variantını dəstəkləyəcək. Başqa fikir müəllifləri isə iddia edirlər ki, ABŞ və digər Qərb ölkələrinin regiondakı maraqları bunu deməyə əsas verir ki, Dağlıq Qarabağ probleminin həlli üçün hərb variantı seçildiyi halda NATO tərəfindən Azərbaycana təzyiqlər ciddi sürətdə artacaq. Çünki NATO-nun Qafqazdakı missiyası Dağlıq Qarabağın erməni separatçılarından və ya Ermənistan qoşunlarından azad edilməsi deyil, ABŞ-ın və NATO üzvü olan Avropa ölkələrinin təhlükəsizliyinin, o cümlədən enerji təhlükəsizliyinin təmin edilməsidir. Bu «təhlükəsizlik kəmərinin» Qafqazdan keçən hissəsi isə «Əsrin Müqaviləsi», BTC və CQBK layihələri ilə bağlıdır. Odur ki, hər iki halda NATO yalnız bu missiyanı həyata keçirəcəkdir.

## 2-ci fəsil
## Azərbaycan-NATO münasibətlərinin xronikası

Azərbaycan-NATO münasibətlərinin tarixinə qısa nəzər salsaq, bu münasibətlərin əlaqələrin inkişafına xidmət etdiyini görərik. Qarşılıqlı səfərlər və əldə olunan razılaşmalar bu fikrə gəlməyimizə əsas verir.

1996-cı il 22 aprel tarixində NATO-nun Brüsseldəki mənzil-qərargahına növbəti səfəri zamanı Prezident Heydər Əliyev Baş katib Xavyer Solana ilə görüşərək, SNT proqramına müvafiq şəkildə NATO ilə əməkdaşlıq üzrə respublikamızın tələbat və potensialını müəyyən edən Azərbaycan Respublikasının Prezentasiya sənədini təqdim etmişdir.

1997-ci ilin 13 fevral tarixində Prezident Heydər Əliyevin dəvəti ilə NATO-nun Baş katibi Xavyer Solana ilk dəfə olaraq iki günlük rəsmi səfərlə Azərbaycana gəldi. Səfər müddətində Baş katib Prezident H.Əliyev, Xarici işlər və Müdafiə nazirləri ilə görüşlər keçirdi, Milli Məclisdə millət vəkilləri qarşısında NATO-Azərbaycan əlaqələrinin inkişafına dair çıxış etdi.

1997-ci il mayın 30-da ŞAƏŞ-ın Portuqalyanın Sintra şəhərində nazirlərin iştirakı ilə keçirilən görüşündə bu təşkilatın Avro-Atlantika Tərəfdaşlıq Şurası (AATŞ) ilə əvəz olunması qərara alındı.

4-6 noyabr 1997-ci ildə Bakıda «Kooperativ Demand» adı altında komanda-qərargah təlimlərinin hazırlıq seminarı keçirildi. Bu NATO/SNT çərçivəsində Azərbaycanda keçirilən ilk tədbir idi.

1997-ci ilin 14 noyabr tarixində Prezident Heydər Əliyev Azərbaycan Respublikasının NATO ilə



əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında sərəncam imzaladı.

21 noyabr 1997-ci ildə NATO-nun Brüssel şəhərində yerləşən mənzil-qərargahında Azərbaycan Respublikasının diplomatik nümayəndəliyinin təsis edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu, diplomatik sahədə əlaqələrin inkişafına və NATO-Azərbaycan inteqrasiya prosesinə təkan verən böyük bir addım idi.

30 sentyabr-1oktyabr 1998-ci ildə NATO-nun Baş katibi X.Solana ikinci dəfə işçi səfərlə Bakıya gəldi. Səfər zamanı o, respublika prezidenti H.Əliyev, Milli Məclisin Sədri M.Ələsgərov, Baş nazir A.Rasizadə ilə keçirdiyi görüşlərdə Avro-Atlantika və regional təhlükəsizlik, SNT proqramı çərçivəsində Azərbaycan-NATO əlaqələrinin inkişafı məsələləri ətrafında danışıqlar apardı.

1999-cu ilin aprelində Vaşinqtonda NATO-nun 50 illik yubileyinə həsr olunmuş dövlət və hökumət başçılarının sammiti Alyans tarixində dönüş nöqtəsi oldu. Bunu sammit zamanı qəbul edilmiş sənədlər əsasında söyləmək mümkündür. NATO-nun yeni strateji konsepsiyasının qəbul edilməsi əhəmiyyətli hadisəyə çevrildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 26 aprel 1999-cu ildə NATO-nun 50 illik yubileyinə həsr olunmuş zirvə görüşündə çıxış edərək, Azərbaycanın «Sülh Naminə Tərəfdaşlıq» proqramı çərçivəsində NATO ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini və Azərbaycanın Şimali Atlantika Müqaviləsi Təşkilatı ilə münasibətlərinin daha da dərinləşdirilməsinə öz tərəfindən hər cür kömək göstərəcəyini bəyan etdi.

1999-cu ilin may ayında NATO Parlament Assambleyasının Polşada keçirilən sessiyasında Azərbaycana həmin qurumda müşahidəçi statusu verildi. 2001-ci il noyabrın 19-da isə Azərbaycan Respublikası NATO-nun Parlament Assambleyasına assosiativ üzv qəbul edildi.

Atlantika siyasəti üzrə məşvərət qrupunun sessiyası Bakıda keçirildi. Sessiyada iştirak etmək üçün NATO Baş katibinin Siyasi məsələlər üzrə müavini, səfir K.R. Klayber başda olmaqla yüksək səviyyəli NATO ekspert qrupu Azərbaycana gəldi.

1999-cu ilin sentyabrından AATŞ çərçivəsində Cənubi Qafqaz məsələləri üzrə açıq tərkibli İşçi qrup (Ad Hoc Group on South Caucasus) fəalliyyət göstərir.

1999-cu ilin sentyabrından etibarən Azərbaycan Respublikasının sülhməramlı taqımı Türkiyə taboru daxilində Kosovoda keçirilən sülhməramlı əməliyyatda iştirak etmiş və öz missiyasını uğurla başa vurmuşdur.

9 dekabr 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti «Azərbaycan Respublikası Prezidenti yanında Azərbaycan Respublikasının NATO ilə əməkdaşlıq üzrə Komissiya haqqında Əsasnamə»nin təsdiq edilməsi barədə 225 № li Fərman imzaladı.

Əsasnamədə Komissiyanın əsas funksiyası aşağıdakı kimi ifadə olunur:

«Komissiyanın əsas funksiyası Azərbaycan Respublikasının NATO ilə siyasi və hərbi əməkdaşlığını keyfiyyətcə yeni səviyyəyə qaldırmaqdan, habelə Avroatlantika Tərəfdaşlıq Şurasının və NATO-nun genişləndirilmiş «Sülh Naminə Tərəfdaşlıq» Proqramı çərçivəsində əməkdaşlıq üçün yaradılmış yeni



mexanizmlər və imkanlardan fəal istifadə etməkdən və NATO ilə əməkdaşlığın möhkəmləndirilməsi çərçivəsində qəbul olunmuş qərarların, tədbirlərin və təkliflərin səmərəli və operativ həllindən ibarətdir».

2000-ci ilin aprelində Gürcüstanda keçirilmiş kursun davamı kimi Bakıda hərbi-mülki əməkdaşlığa dair regional kurs keçirilmişdir. NATO-Azərbaycan əməkdaşlığını ehtiva edən tədbirlər davamlı xarakter daşımışdır:

20-21 iyul 2000-ci ildə Bakıda NATO/AATŞ çərçivəsində «Qafqazda enerji təhlükəsizliyi» adı altında konfrans keçirildi. Regionda enerji təhlükəsizliyi məsələsi, habelə ətraf mühit problemləri müzakirə obyekti olmuşdur.

NATO-nun Baş katibi Lord C.Robertson 2001-ci ilin 16-17 yanvar tarixlərində Azərbaycana rəsmi səfər etmişdir. Səfər müddətində o, Prezident H.Əliyev, Milli Məclisin Sədri M.Ələsgərov, Baş nazir A.Rasizadə, xarici işlər naziri V.Quliyev, müdafiə naziri S.Əbiyev ilə görüşlər keçirmişdir. Baş katib Bakı Dövlət Universitetinin müəllim və tələbə kollektivi qarşısında çıxış etmiş və BDU-nun fəxri doktoru adına layiq görülmüşdür.

2001-ci ilin 12-13 iyun tarixlərində NATO/AATŞ çərçivəsində tərəfdaş və NATO-ya üzv dövlətlərin nümayəndələrinin iştirakı ilə «Təbii və texnogen fəlakətlər zamanı ərazilərdə xilasetmə dəstələrinin yerləşdirilməsi» adlı seminar müvəffəqiyyətlə keçirilmişdir.

2001-ci ilin 21-22 iyun tarixlərində Bakıda Avro-Atlantika Tərəfdaşlıq Şurasının kiçik və atıcı silahlar üzrə xüsusi işçi qrupunun iştirakı ilə «Yüngül və atıcı silahlar: ATƏT və AATŞ-ın cari öhdəliklərinin həyata keçirilməsi

üçün praktiki təhdidlər» adı altında Azərbaycan və İsveçrə hökumətlərinin birgə seminarı keçirildi. Burada ATƏT-in üzv dövlətlərinin, ATƏT-in Gürcüstanda, Moldovada fəaliyyət göstərən missiyalarının çoxsaylı nümayəndələri iştirak etmişlər. İştirak edən nümayəndələr tədbiri BMT-nin Yüngül və atıcı silahlar (YAS) üzrə seminarından əvvəl regional səviyyədə problem üzrə əsaslı töhfə kimi səciyyələndirmişlər. Seminar BMT-nin tədbirlər reyestrinə daxil edilmişdir.

2001-ci ilin 5-17 noyabr tarixlərində Bakıda «Cooperative Determination» komanda-qərargah təlimi keçirilmişdir.

2001-ci ilin 16-17 noyabr tarixlərində Bakıda NATO/AATŞ çərçivəsində «Balkanlarda regional əməkdaşlıqdan öyrənilmiş dərslər» adı altında seminar keçirilmişdir.

Göründüyü kimi NATO-Azərbaycan münasibətləri yeni əsrin başlanğıcından etibarən özünün ən pik nöqtəsini yaşayaraq, tərəflər arasındakı qarşılıqlı anlaşma zəminində cərəyan edən hər bir hadisə demək olar ki, hər iki tərəf üçün də olduqca müsbət nəticələrlə yadda qalmışdır. Təsadüfü deyildir ki, 2002-ci ilin 7 yanvar tarixində «Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığını daha da gücləndirmək tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 14 noyabr tarixli Sərəncamına dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncam imzalaması, tərəflər arasındakı münasibətlərin olduqca səmərəli bir məcrada davam etdirilməsindən xəbər verməkdə idi.

2002-ci ilin 17-18 yanvar tarixlərində NATO Parlament Assambleyasının Prezidenti Rafael Estrada Azərbaycana



səfər etdi. Səfər müddətində Respublika Prezidenti H.Əliyev, Milli Məclisin Sədri M.Ələsgərov, xarici işlər naziri V. Quliyevlə görüşlər keçirildi.

2002-ci ilin 7-8 may tarixində Bakıda «Xəzər dənizinin ekoloji problemləri» adı altında NATO/Müasir cəmiyyətlərin problemləri komitəsi (MCPK) çərçivəsində seminar keçirilmişdir. Seminar müddətində NATO Baş Katibinin Elm və Ekologiya məsələləri üzrə müavini cənab Jan Fürne Azərbaycana səfər etmişdir. Səfər müddətində Jan Fürne Azərbaycan Respublikasının Prezidenti H.Əliyev, Baş nazirin müavini Y.Eyyubov, xarici işlər naziri V.Quliyev, ekologiya və təbii sərvətlər naziri H. Bağırov, Milli Elmlər Akademiyasının prezidenti M.Kərimov, təhsil naziri M. Mərdanov ilə görüşlər keçirmişdir. Seminarın nəticəsi kimi, Xəzər dənizi üzrə qısamüddətli xüsusi layihə təqdim edilmişdir.

2002-ci ilin 27-28 iyun tarixlərində Bakıda NATO/AATŞ çərçivəsində «Cənubi Qafqazda regional əməkdaşlığa təhdidlər» adı altında seminar keçirilmişdir.

21-22 noyabr 2002-ci il tarixlərində isə Praqada NATO-nun Zirvə Toplantısı keçirilmişdir ki, burada da Prezident H.Əliyev başda olmaqla demək olar ki, Azərbaycan Respublikasının bütün rəsmi nümayəndə heyəti iştirak etmişdir.

Bütün bunlar isə onu göstərir ki, Azərbaycan tərəfi NATO ilə hərbi-siyasi cəhətdən əməkdaşlığı davam etdirmək üçün qarşı tərəflə hər zaman dialoqlar aparmaq və tərəflər arasındakı münasibətləri daha da dərinləşdirmək niyyətindədir. Bu istiqamətdə isə gələcək əməkdaşlıq üçün sıx münasibətlərin qurulması prioritetdir.

25-26 noyabr 2002-ci il tarixlərində NATO-nun Mülki Kommunikasiya Planlaşdırma Komitəsinin nümayəndələrinin (müxtəlif ölkələrdən ekspertlərin) Azərbaycan Respublikasına rəsmi səfəri oldu.

2003-cü ilin 15-16 may tarixlərində NATO-nun Baş katibi C.Robertson respublikamıza səfər etmiş və səfər müddətində o, NATO ilə əməkdaşlıq üzrə Komissiyanın iclasında iştirak etmişdir. Görüş zamanı Komissiyanın sədri, Baş nazirin birinci müavini Y.Eyyubov tərəfindən C.Robertsona Azərbaycanın NATO-nun Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planına (FTƏP) qoşulmaq istəyini əks etdirən məktub təqdim olunmuşdur. Beləliklə, Azərbaycan FTƏP-na qoşulmaq istəyini bildirən ilk tərəfdaş dövlətlərdən biri olmuşdur.

Azərbaycan-NATO əlaqələrinin inkişafı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövründə daha da sürətlənmişdir. Öz fəaliyyətində deklarativlikdən və şablonçuluqdan uzaq olan cənab Prezident NATO ilə əməkdaşlıqda da konkret əməli fəaliyyətə üstünlük verir. Onun aşağıdakı sözləri və fəaliyyəti dediyimizi təstiq edir: «Bizim Avroatlantik strukturlara inteqrasiyamız, NATO ilə yaxın tərəfdaşlığımız və əməkdaşlığımız Azərbaycanın əməli işi ilə bu strateji seçimə nə dərəcədə sadiq olduğunu hər bir sözdən daha qabarıq nümayiş etdirir».

Belə ki, 5 dekabr 2003-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi «Azərbaycan Respublikası və NATO Maddi-Texniki Təchizat və Yardım Təşkilatı (NMTTYT) arasında maddi-texniki təchizata dəstəyə dair əməkdaşlıq üzrə Anlaşma Memorandumu»nun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununu qəbul etmişdir.



Tərəflər arasındakı öhdəliklərin yerinə yetirilməsi mexanizmini, eyni zamanda Azərbaycan-NATO inteqrasiyasının texniki aspektlərini özündə ehtiva edən Qanuna iki sənəd əlavə olunmuşdur:

**Əlavə A.**

Azərbaycan Respublikası ilə NATO Maddi-Texniki Təchizat və Yardım Təşkilatı (NMTTYT) arasında maddi-texniki təchizata dəstəyə dair əməkdaşlıq üzrə Anlaşma Memorandumu;

**Əlavə B.**

Azərbaycanda demilitarizasiya layihələri tətbiqetmə Sazişi.

2004-cü ilin 12-14 yanvar tarixlərində Bakıda NATO-nun «Cooperative Best Effort» təliminin ilkin planlaşdırma konfransı keçirilmişdir. Konfransda 30-a yaxın NATO/AATŞ ölkəsindən nümayəndələr iştirak etmişlər.

2004-cü ilin 27 yanvar tarixində «Azərbaycan Gənclərinin Avro-Atlantika Təşkilatı» adlı qeyri-hökumət təşkilatının təsisat görüşü keçirildi. NATO yay məktəbinin məzun gəncləri tərəfindən yaradılan bu təşkilatın təsisat görüşündə hökumət nümayəndələri, ölkəmizdə akkreditə olunmuş NATO ölkələrinin səfirləri (eləcə də, səfirliklərin nümayəndələri) və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

2004-cü ilin 29 mart tarixində NATO-nun növbəti genişlənməsi baş verdi. Belə ki, hələ 2002-ci il Praqa Sammitinin qərarına uyğun olaraq 7 Şərqi və Cənubi-Şərqi Avropa ölkəsi (Latviya, Litva, Estoniya, Sloveniya, Slovakiya, Rumıniya, Bolqarıstan) NATO üzvlüyünə qəbul edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü ilin may ayında Brüsselə səfəri zamanı NATO-nun baş katibi ilə ikitərəfli əməkdaşlığın inkişafı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi, maraq doğuran regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparılıb. Eyni zamanda, Azərbaycan Prezidenti ölkəmizin hazırladığı «Fərdi tərəfdaşlıq üzrə Əməliyyat Planı»nı NATO-nun baş katibinə təqdim edib. Bu plana görə Azərbaycan Şimali Atlantika Blokunun 300-ə yaxın proqramında iştirak etmək hüququ əldə edib. Fərdi tərəfdaşlıq planında iştirak Azərbaycanın NATO ilə əməkdaşlığı sahəsində dönüş nöqtəsi olub.

Ümumiyyətlə, Azərbaycanın NATO ilə əməkdaşlığının mahiyyəti ondan ibarətdir ki, Azərbaycan bu qurumun imkanlarından istifadə edərək beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiya edə bilər. Buna görə də, Azərbaycan - NATO əlaqələri getdikcə daha da intensivləşir. Azərbaycan ordusunun NATO standartlarına uyğun formalaşdırılması prosesi gedir. Azərbaycanın nümayəndə heyəti bu təşkilat çərçivəsində keçirilən tədbirlərdə fəal iştirak edir. Azərbaycan Silahlı Qüvvələrinin birləşmələri NATO ilə əməkdaşlıq çərçivəsində Kosovo və Əfqanıstanda sülhyaratma əməliyyatlarına qoşulublar.

14-19 iyun tarixlərində NATO təcrübəsində ilk dəfə olaraq, Bakıda «NATO həftəsi» keçirilmişdir. NATO Baş katibinin ictimai diplomatiya üzrə müavini Jan Fürne və digər yüksək səviyyəli nümayəndələrin iştirakı ilə keçirilən bu həftə ərzində NATO-nun Elm komitəsinin iclası, eyni zamanda elmlə bağlı bir sıra seminarlar, o



cümlədən işçi seminarlar, dəyirmi masalar təşkil olunmuş, növbəti NATO Yay Məktəbi keçirilmişdir.

2004-cü ilin 28-29 iyun tarixlərində İstanbulda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə NATO-nun zirvə toplantısı keçirilmişdir.

2004-cü ilin 26-29 oktyabr tarixlərində NATO Əməliyyatlar Departamentinin Planlaşdırma bölməsinin başçısı Dieqo Ruiz Palmerin başçılığı ilə nümayəndə heyəti Azərbaycanda olmuşdur. Səfərdə məqsəd Milli Böhranların idarə edilməsi sahəsində ölkəmizdə mövcud olan prosedurların dəyərləndirilməsi və tövsiyələrin verilməsi idi.

2004-cü ilin 28-29 oktyabr tarixlərində Bakı şəhərində NATO Xüsusi Komitəsinin işçi qrupunun Avro-Atlantika Tərəfdaşlıq Şurası çərçivəsində iclası keçirilmişdir.

2004-cü ilin 4-5 noyabr tarixində NATO Baş Katibi cənab Yaap de Hoop Sxeffer respublikamıza səfər etmişdir. Səfər çərçivəsində o, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilmişdir. Respublika rəhbərliyi ilə aparılan danışıqlarda Azərbaycanın NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramında iştirakı, Azərbaycan-NATO fərdi tərəfdaşlıq planının gerçəkləşdirilməsi, beynəlxalq terrorizmlə mübarizə üzrə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə edilmişdir.

Eyni zamanda, qonaq Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Komissiyanın iclasında iştirak etmiş və xarici işlər naziri cənab E. Məmmədyarov ilə görüş keçirmişdir. Baş katib səfər müddətində həmçinin

Bakı Dövlət Universitetinin tələbələri ilə də görüş keçirmişdir.

2005-ci ilin 2-3 fevral tarixində Bakıda NATO Baş katibinin müavini Patrik Hardouinin sədrliyi altında Avro-Atlantika Tərəfdaşlıq Şurası çərçivəsində «İqtisadiyyat, Təhlükəsizlik və Müdafiə - makroiqtisadi sabitləşmənin təhlükəsizlik aspektləri və müdafiə üçün mövcud olan resursların idarə olunması daxil olmaqla struktur islahatları» adlı seminar keçirilmişdir.

2005-ci il fevralın 6-9-da NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi cənab R.Simons Azərbaycan Respublikasına səfər etmişdir. Nümayəndə heyətinin tərkibində NATO-nun Cənubi Qafqaz üzrə əlaqələndirici zabiti cənab Ramuldas Razuks da Respublikamıza səfər etmişdir.

2005-ci ilin 4-9 aprel tarixində «Saloğlu» layihəsini müzakirə etmək məqsədi ilə NATO Beynəlxalq Heyət və NATO Maddi Texniki Təchizat və Təminat Agentliyindən (NAMSA) nümayəndə heyəti Azərbaycana «feasibility study» (ehtiyacın dəyərləndirilməsi) proqramı çərçivəsində səfər etmişdir. Səfər müddətində nümayəndə heyəti Azərbaycan Respublikası Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyində (ANAMA) görüşlər keçirmiş və sözügedən Agentliyin təşkili ilə Saloğluya səfər etmişdir. Eyni zamanda Azərbaycan Respublikasının yüksək səviyyəli nümayəndələri ilə ikitərəfli görüşlər keçirilmişdir.

3 avqust 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının təsdiq edilməsi barədə Sərəncam imzaladı (№ 937). Sərəncamın elə ilk



cümləsində Avro-Atlantika məkanına inteqrasiya ölkənin strateji məqsədlərindən biri olaraq dəyərləndirilir.

8 noyabr 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Brüsseldə, NATO-nun qərargahında təşkilatın baş katibi Yaap de Hoop Sxeffer ilə görüşüb. Görüşdən sonra Prezident İlham Əliyev Şimali Atlantika Şurasında çıxış edib. NATO-nun üzvü olan dövlətlərin Şuradakı daimi nümayəndələri, səfirləri ilə müzakirələr aparılıb. Müzakirələrdən sonra Prezident İlham Əliyev və NATO-nun baş katibi Yaap de Hoop Sxeffer birgə mətbuat konfransı keçiriblər. Azərbaycan Prezidenti və NATO-nun Baş katibi bəyanatlarla çıxış ediblər.

28 sentyabr 2007-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev NATO Baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Azərbaycan-NATO əməkdaşlığının hazırkı səviyyəsi və gələcək perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

2-4 aprel 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO sammitində iştirak etmək üçün Rumıniyanın paytaxtı Buxarestdə səfərdə olub. Bu sammit NATO-nun yarandığı tarixdən keçən 59 ildə Alyansın ən böyük tədbiri hesab olunur.

Sammitin son günü Şimali Atlantika Şurasının üzvü olan dövlət və hökumət başçıları NATO-nun Buxarest sammitinin yekun bəyannaməsini qəbul ediblər. Sənəddə Azərbaycanın ərazi bütövlüyü məsələsinə də toxunulub. Orada deyilir: «Biz Şimali Atlantika Alyansına üzv ölkələrin dövlət və hökumət başçıları Cənubi Qafqaz və Moldova Respublikasında regional münaqişələrin davam

etməsindən narahatıq. Bizim xalqlarımız Ermənistan, Azərbaycan, Gürcüstan və Moldovanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyini dəstəkləyir. Biz həmin prinsipləri nəzərə alaraq bu regional münaqişələrin sülh yolu ilə həllinə yönəlmiş səyləri dəstəkləyirik».

27 iyun 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Robert Simmonsu qəbul edib. Görüşdə Azərbaycan-NATO əməkdaşlığının hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılıb. Robert Simmonsun verdiyi məlumata görə, əməkdaşlığın bir sıra istiqamətləri üzrə mühüm nailiyyətlər əldə olunub: «Hesab edirəm ki, NATO ilə Azərbaycan arasında əlaqələr çox yaxşıdır. Azərbaycanla NATO arasında proqramın ikinci mərhələsinə baxış keçirilir. Burada bir sıra sahələrdə nəzərəçarpacaq irəliləyişlər var. Bunun əhəmiyyəti ondan ibarətdir ki, bu proqram bir sıra nazirlikləri əhatə edir. Fəaliyyət hökumət daxilində koordinasiyalı şəkildə aparılır. Bu, Azərbaycanla NATO arasındakı əməkdaşlığın pozitiv aspektlərindən biridir». Azərbaycan və NATO arasında münasibətlərin inkişaf səviyyəsinin ölkə sərhədlərindən kənarda, xüsusən də Rusiyada diqqətlə izləndiyi məlum reallıqdır. Rusiya media orqanlarında yer alan məlumatlara görə, NATO ilə yaxınlaşmağa can atan Gürcüstan və Ukraynadan fərqli olaraq Azərbaycan Şimali Atlantika Alyansı ilə münasibətdə daha praqmatik siyasət yeridir. Elə bunun nəticəsidir ki, rusiyalı hərbi ekspert Maksim Qolts bu gedişlə Azərbaycanın Gürcüstan və Ukraynadan fərqli olaraq, daha tez NATO sıralarına qəbul ediləcəyini istisna etmir.



Azərbaycanın NATO-ya üzvlüyü və əməkdaşlığın mövcud vəziyyəti ilə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirlərində bu praqmatizmi sezmək çətin deyildir: «NATO ilə əməkdaşlığımız kifayət qədər müsbət xarakter daşıyır. Bu əməkdaşlıq bizə bu sahədə islahatlar aparmağa imkan verir və əməkdaşlığın bugünkü səviyyəsi bizi qane edir. Azərbaycan bunu əsas götürür ki, hər hansı təşkilatda üzvlük qarşılıqlı razılıq əsasında həyata keçirilməlidir, biz özümüzü kiməsə zorla qəbul etdirmək fikrində deyilik».

Son dövrlər Azərbaycan-NATO təmaslarının intensivləşməsi tərəflər arasında münasibətlərinin daha intensiv inkişafı kimi qiymətləndirilir. Bu xüsusda isə, daha çox diqqət sonuncu Azərbaycan-NATO məsləhətləşmələrinə verilir. Xatırladaq ki, 2009-cu ilin iyulunda baş tutan məsləhətləşmələrdə iştirak edən Azərbaycan nümayəndə heyətinin tərkibinə Xarici İşlər, Müdafiə, Milli Təhlükəsizlik, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin və Dövlət Sərhəd Xidmətinin yüksək rütbəli təmsilçiləri daxil olub.

Məsləhətləşmələr zamanı Azərbaycan-NATO münasibətləri, Azərbaycanın NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının (İPAP) yerinə yetirilməsi, həmçinin regionda təhlükəsizlik, o cümlədən enerji təhlükəsizliyi məsələləri müzakirə edilib, Azərbaycanın enerji resurslarının Avropa bazarlarına nəqlinə dəstək ifadə olunub. NATO tərəfi Azərbaycanın İPAP vasitəsilə təhlükəsizlik sektorunda apardığı islahatları, qüvvələrin NATO ilə qarşılıqlı operativ uzlaşmasını, Azərbaycanın Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) əməliyyatlarına töhfəsi sahəsində əldə

etdiyi uğurları yüksək qiymətləndirib. Bundan əlavə, NATO tərəfi elm, təhsil, ətraf mühit və ictimaiyyətin məlumatlandırılması sahəsində ölkəmizlə əməkdaşlığından və milli tədbirlərdən məmnun qalıb.

Rusiya hesab edir ki, belə məsləhətləşmələr Azərbaycanın NATO-ya üzvlüyünü sürətləndirmək xarakteri daşıyır. Onu da qeyd edək ki, Azərbaycanın NATO-ya üzvlüyünə zəmin hazırlayan Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının 2008-2010-cu illəri əhatə edən ikinci mərhələsi gerçəkləşməkdədir. 2005-ci ildə NATO ilə Azərbaycan arasında təsdiqlənmiş bu sənəddə qeyd olunur ki, ölkəmizin silahlı qüvvələrinin NATO standartlarına tam transformasiyası reallaşdırılmalıdır. Əvvəlcə bu prosesin aşağı səviyyədən başlanması nəzərdə tutulsa da, sonradan plan yuxarı səviyyələri də əhatə edib. Artıq ötən müddət ərzində orduda aşağı səviyyələrdə bir sıra struktur dəyişiklikləri reallaşdırılıb. Məsələn, artıq Azərbaycan ordusunda komandirlərin sayı əvvəlki qədər deyil. Belə ki, əvvəllər hərbi hissələrdə bir komandir və onun üç müavini var idisə, indi bu bölgü bir komandir, bir müavin və müavinin 2 köməkçisi formatı ilə əvəzlənib. Bu bölgü korpus komandiri səviyyəsinə qədər davam edir. Onu da qeyd edək ki, bu proses Müdafiə Nazirliyinin yuxarı eşelonlarında, Silahlı Qüvvələrin Baş Qərargahında yekunlaşmalıdır.

Bütün bunlar isə Azərbaycan ordusunun NATO standartlarına tam keçidini təmin etməklə yanaşı, şübhəsiz ki, ölkəmizin Şimali Atlantika Alyansına üzvlüyünə də zəmin yaradır.



## 3-cü fəsil
## NATO-nun Azərbaycanla bağlı yeni informasiya siyasəti

Azərbaycan və NATO arasında əlaqələrin miqyası təkcə qeyd edilənlərlə yekunlaşmır. Təsadüfi deyildir ki, 2010-cu ildən etibarən NATO Azərbaycanla bağlı yeni informasiya siyasəti də həyata keçirməyə başlamışdır. Maraqlıdır ki, NATO-nun tərəfdaş ölkələrlə münasibətlərə dair yeni strategiyasında bir sıra yeni müddəalar da öz əksini tapmışdır ki, bunların da arasında NATO ilə sıx əməkdaşlıq qurma perspektivinə malik postsovet ölkələrində ictimai rəyi lazımi yönə dəyişdirmək kimi bir sıra mühüm faktlar da yer almaqdadır ki, bu da tərəfdaş ölkələrdə kənar qüvvələrin, Azərbaycanda isə İran və Rusiyanın təbliğatını həyata keçirən media qurumlarının fəaliyyətini önləmək anlamı kimi də şərh oluna bilər. Yeni strategiyada yer alan əsas məqamlardan biri də məhz tərəfdaş ölkələrdə informasiya mərkəzlərinin yaradılma prosesinin sürətləndirilməsi və təbliğat mexanizmlərinin qurulması ilə bağlıdır. Azərbaycanda qurumla əməkdaşlığın üstünlüyünü göstərən çox az sayda təbliğat qurumu mövcuddur. Onların fəaliyyəti isə elə də hiss olunmur. Tiflisdə NATO təbliğatının qurulmasında NATO informasiya mərkəzləri xüsusi rol oynadığı halda, Azərbaycanla bağlı bunu demək mümkün deyildir. NATO-nun Cənubi Qafqaz, xüsusən də Azərbaycanla bağlı siyasətində son vaxtlar müəyyən durğunluq nəzərə çarpır. Bu səbəbdən, Azərbaycan cəmiyyətində NATO ilə bağlı müəyyən təbliğata və informasiyaya ehtiyac hiss olunur.

Münasibətlərdə yenidən canlanma yaratmaq üçün ilk növbədə bu sahədə müəyyən əməli addımlar atılmalıdır.

Hazırkı NATO rəhbərliyi postsovet məkanı üzrə strategiyanın yeniləşməsinə çalışır. Yeni dəyişiklik son dövrlərdə təşkil olunan bütün tədbirlərdə əsas müzakirə mövzularından biridir. Lakin qurumun Azərbaycanla əməkdaşlığı hələlik durğunluq vəziyyətindən çıxmayıb.

Qeyd edək ki, NATO əgər qarşısına postsovet məkanı ölkələrilə, eləcə də Azərbaycanla münasibətləri dərinləşdirmək məqsədi qoyubsa, ilk növbədə bununla bağlı müvafiq qərar qəbul etməlidir. Məhz bundan sonra informasiya şəbəkəsinin genişləndirilməsilə bağlı müəyyən addımlar atılmalıdır.

Gürcüstan təcrübəsinə baxsaq, orada ictimai diplomatiya sahəsində xeyli irəliləyişin əldə olunduğunu görərik. Gürcüstanda rəsmi olaraq NATO mərkəzləri fəaliyyət göstərir. Bizdə isə belə mərkəzlər yox səviyyəsindədir. Son illər qurumun ictimai diplomatiya bölməsinin dəstəyilə ölkədə iki Avroatlantika informasiya mərkəzi fəaliyyətə başlayıb, lakin onlar rəsmi qurum deyil.

NATO Azərbaycanla münasibətləri dərinləşdirmək istəyirsə, bu istiqamətdə ictimai diplomatiya sahəsinə xeyli vəsait ayırmalı, ciddi işlər görməlidir. Nəzərə almalıyıq ki, qurumla ölkəmiz arasında olan əsas sənəd Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planıdır. Azərbaycanın NATO ilə IPAP-ın birinci fazası 2005-ci ildə təsdiq olunub. Həmin dövrdən bəri IPAP iki fazada uğurla yerinə yetirilib və bu məqam ən müxtəlif səviyyələrdə NATO rəsmiləri tərəfindən yüksək qiymətləndirilib. 19 dekabr 2011-ci il tarixində Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat



Planının 3-cü mərhələsi Azərbaycan Respublikası və NATO arasında razılaşdırılıb. 3-cü mərhələ 2012-2013-cü illəri əhatə edir. Sənəd siyasi və təhlükəsizlik; müdafiə və hərbi; ictimai məlumatlandırma, mülki fövqəladə planlaşdırma, elm və ətraf mühit məsələləri; inzibati məsələlər, məlumatların təhlükəsizliyi, resurslar və hüquqi məsələləri əhatə edən dörd bölmədən ibarətdir

NATO ölkəmizlə əlaqələrini gücləndirmək istəyirsə, ilk növbədə, Azərbaycanla indiyədək imzalanan sənədlərin ictimai açıqlığını təmin etməli, münasibətlərlə bağlı ictimai məlumatlandırma strategiyası gücləndirilməlidir. Bunu həm qeyri-hökumət təşkilatları vasitəsilə, həm də Gürcüstan timsalında, rəsmi mərkəzin yaradılması yolu ilə həyata keçirmək olar. Məsələ ilə bağlı ölkədə mütəmadi rəy sorğuları keçirilməlidir ki, insanların NATO ilə əməkdaşlıqdan nə istədiyi, burada nə kimi çatışmazlıqları gördüyü aydınlaşsın. İctimai rəyi hazırlamaq baxımından bu, olduqca zəruridir. Əgər gələcəkdə NATO ilə əməkdaşlıqda ciddi addımların atılması qərara alınarsa, ictimai rəyin çox vacib amil olduğu üzə çıxacaqdır.

Beləliklə, Azərbaycanın müasir təhlükəsizlik paradiqması və onun ayrı-ayrı seqmentlərinin xüsusiyyətləri nəzərə alınmaqla dünyanın təhlükəsizlik sahəsində qlobal hərəkətverici qüvvəsi olan NATO ilə əlaqələr intensiv və dinamik xarakter almalı, eyni zamanda beynəlxalq konyuktura reallıqları kontekstində əğəkdaşlığın səviyyəsinin parametrləri və çərçivələri dəqiqdəşdirilməlidir. Bu istiqamətdə atılan istənilən addımlar elmi əsaslara söykənməlidir.

NATO-nun rəsmi saytında yerləşdirilmiş məlumata görə, Azərbaycan avroatlantik norma və standartlara nail

olmağa və avroatlantik institutlarla yaxın əlaqələr qurmağa çalışır, «NATO ilə Azərbaycan arasında olan əməkdaşlığın miqyası ölkənin islahatları davam etdirmək və mövcud demokratik institutları möhkəmləndirmək niyyətindən asılıdır», - deyə bildirilir.

NATO-nun rəsmi saytından fərqli olaraq Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyinin saytında (http://www.aznatomission.be/) Azərbaycan-NATO əlaqələri barəsində daha geniş və operativ məlumat almaq mümkündür. Saytın həm tərtibatı, həm də quruluşu çox gözəldir. Burada nümayəndəliyin tərkibi haqqında rəsmi məlumatdan tutmuş NATO-Azərbaycan tərəfdaşlığı, Alyansın rəsmi sənədləri, Nümayəndəliyin həftəlik bülletenləri, müxtəlif tədbirlər və s. barəsində maraqlı informasiyalar yerləşdirilir və vaxtaşırı yenilənir.

NATO ilə Azərbaycan arasında əməkdaşlıq fəaliyyətləri, islahat planları və siyasi dialoq prosesləri iki illik müddətə birgə razılaşdırılmış Azərbaycanın Fərdi Tərəfdaşlığa dair Əməliyyat Planında (IPAP) ətraflı şəkildə öz əksini tapıb. Əməkdaşlığın əsas sahələrinə:

- Silahlı qüvvələr üzərində tam demokratik nəzarətin yaradılması,
- Müdafiə tədbirlərinin planlaşdırılması və müdafiə büdcəsinin formalaşdırılması,
- NATO-nun norma və standartlarına uyğun olaraq bütün silahlı qüvvələrin təşkilati strukturunun yenidən təşkili daxildir.

İslahatların aparılmasına verilən dəstəklə yanaşı, NATO ilə Azərbaycan arasında əməkdaşlığın digər əsas məqsədi sülhməramlı və böhranların idarə olunması əməliyyatlarında ölkənin silahlı qüvvələrinin NATO



ölkələrinin silahlı qüvvələri ilə birgə işləməsi imkanlarının gücləndirilməsindən ibarətdir.

Saytda əksini tapmış məlumata görə, NATO-Azərbaycan münasibətləri 1992-ci ildə Azərbaycanın Şimali Atlantika Əməkdaşlıq Şurasına (sonradan 1997-ci ildə adı Avroatlantik Tərəfdaşlıq Şurasına dəyişdirilib) qoşulmasından sonra başlanıb. Həmin əməkdaşlıq əlaqələri Azərbaycanın 1994-cü ildə «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmasından və 1997-ci ildə SNT Planlaşdırma və Analiz Prosesində iştirakından sonra daha böyük vüsətlə inkişaf etməyə başlayıb. Qeyd edilir ki, 2005-ci ildə NATO ilə Azərbaycanın ilk IPAP-ın hazırlanmasından sonra Azərbaycanda aparılan yerli islahatlar prosesinə verilən dəstək daha da gücləndirilib.

## 4-cü fəsil
## Azərbaycan NATO-nun logistik planlarında yeri və rolu

Bakıda «Əfqanıstandakı Hərbi Əməliyyatlara dəstək üçün Nəqliyyat Dəhlizlərinin Əlaqələndirilməsi» mövzusunda keçirilən konfrans Azərbaycanın NATO-nun şərqə doğru genişlənməsində mühüm yer tutduğunu bir daha göstərdi. Son günlər Əfqanıstanda vəziyyətin böhran həddinə çatması və oradakı qüvvələrin təchizatı ilə bağlı məsələnin aktuallaşması bəzi Avropa ölkələrinin əvvəllər birmənalı yanaşmadığı TRACECA (Transport Corridor Europe-Caucasus-Asia) dəhlizinin (Azərbaycan və Gürcüstandan keçir) rolunu artırmaqdadır. Lazımi infrastrukturun mövcudluğu, həmçinin təhlükəsizlik baxımından etibarlılığı TRACECA dəhlizinin səmərəliliyini sübuta yetirir.

Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin (İSAF) təchizatını həyata keçirən NATO-nun Logistik Qüvvələrinin nəqliyyat karvanlarının bu ölkənin Pakistanla sərhədində Taliban yaraqlıları tərəfindən atəşə tutulması və çoxsaylı itkilər, həmçinin Qırğızıstanın «Manas» hərbi bazasının bağlanması NATO və ABŞ-ı yeni təchizat marşrutları seçməyə vadar edib.

Rəsmi məlumatlara görə, 2001-ci ildə Əfqanıstan əməliyyatları başlayandan Azərbaycan Alyansın logistik planlarında yer tutub. 2002-ci ildən başlayaraq Əfqanıstana uçan NATO təyyarələri Azərbaycanın iki hava limanından – Heydər Əliyev Beynəlxalq Hava Limanı və Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki hərbi aerodromdan istifadə edib. Əfqanıstana uçan hərbi və nəqliyyat



təyyarələrinin hərəkətini asanlaşdırmaq məqsədi ilə NATO o zaman Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki hərbi aerodromun modernləşdirilməsinə kömək edib. Hazırda bu aerodromdan NATO-nun hərbi nəqliyyat təyyarələri istifadə edirlər. Bundan başqa, Əfqanıstandakı beynəlxalq sülhyaratma qüvvələri üçün Azərbaycanın neftayırma müəssisələrində benzin və dizel yanacağı tədarük olunub.

## 5-ci fəsil
## NATO-nun Buxarest sammiti və Azərbaycan

NATO-nun Buxarestdə keçirilən sammitindən sonra Brüsseldə Cənubi Qafqazın gələcəyi ilə bağlı planlar cızılmağa başlanıb. Məqsəd Cənubi Qafqaz ölkələrinin qısa zaman kəsiyində NATO-ya tam və hərtərəfli inteqrasiyasına nail olmaqdır. Bu inteqrasiya sonda Cənubi Qafqaz ölkələrinin alyansa üzvlüyünü təmin etməlidir. Alyansda hesab edirlər ki, Cənubi Qafqaz ölkələrinin Brüssellə arzuolunan münasibətlərini təmin etmək üçün öncə bir neçə təxirəsalınmaz addımlar atılmalıdır:

1. Rusiyanın bu ölkələrdə iqtisadi, siyasi və nəhayət, hərbi maraqlarının azaldılması zəruridir. Bu çərçivədə Ermənistana iqtisadi, Gürcüstana hərbi, Azərbaycana isə siyasi dəstəyin verilməsi qaçılmazdır.
2. Cənubi Qafqazda mövcud olan münaqişələrin tərəflərin maraqlarına uyğun şəkildə həlli və bundan sonra bölgədə uzunmüddətli sülhə nail olunması vacibdir.
3. Rusiyanın Cənubi Qafqaz ölkələrində, xüsusilə Ermənistanda, habelə Azərbaycanda hərbi mövcudluğuna tamamilə son qoyulması lazımdır. Söhbət Rusiyanın Ermənistandakı 102 saylı hərbi bazasının və Azərbaycandakı Qəbələ radiolokasiya stansiyasının fəaliyyətinin tam dayandırılmasından gedir.

Qərb ekspertlərinin fikrincə, Azərbaycana bu siyasi oyunda xüsusi rol verilib. NATO və ABŞ üçün Azərbaycanın geosiyasi dəyəri ondan ibarətdir ki, ölkəmiz əhəmiyyətli dərəcədə neft ehtiyatlarına malikdir. Həmçinin Azərbaycanın ərazisindən NATO-nun Qafqazda və Orta Asiyada mövqelərinin güclənməsi və eləcə də müxtəlif növ hərbi-strateji vəzifələrin icrası üçün istifadə etmək olar.

«Azərbaycan İraqda və Əfqanıstanda əməliyyatlarla əlaqədar ABŞ və NATO-nun hərbi aviasiyasının yerləşməsi, İrana hərbi-siyasi təzyiqin göstərilməsi, eləcə də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təhlükəsizliyinin təmin olunması üçün uyğun yer hesab edilə bilər. Digər tərəfdən, alyansın və onun ayrı-ayrı üzvlərinin Azərbaycan ərazisində hərbi mövcudluğunun bu ölkənin mövqeyinin möhkəmlənməsinə dəlalət edəcəyi şübhəsizdir», - deyə ekspertlər düşünürlər.

Rusiya mətbuatının məlumatına görə, ABŞ Azərbaycanın hava limanlarından İran, İraq, hətta Çinin hava məkanına nəzarət etmək niyyətindədir. «Bu tapşırıqların öhdəsindən gəlmək üçün Azərbaycan geniş, kifayət qədər təchiz olunmuş aerodromlar şəbəkəsinə malikdir. Azərbaycanın özündə isə ABŞ və NATO qüvvələrinin yerləşdirilməsini ölkə üçün faydalı hesab edirlər. Düşünürlər ki, bu, Dağlıq Qarabağ probleminin həllinə yardım edəcək və alyans standartlarına keçən Azərbaycan ordusunun müasirləşdirilməsini və strukturunun yenidən qurulmasını sürətləndirəcək» - deyə qeyd edilir.

Qərb mənbələri isə bildirirlər ki, ABŞ ilə İran arasındakı münasibətlərin mövcud vəziyyəti Azərbaycanın ABŞ və NATO-nun planlarına daha fəal şəkildə cəlb olunması zərurətini ortaya çıxarıb: «Azərbaycan İrana qarşı əməliyyat baş verəcəyi təqdirdə zərbə aviasiyasının yerləşməsi üçün ən uyğun ərazi hesab edilir. ABŞ və NATO üçün Kürdəmir və Hacı Zeynalabdin Tağıyev aviabazaları cəlbedici görünür. Onların əməliyyat tutumu

90-100 təyyarə təşkil edir. Bu aviabazalardan İran ərazisindəki obyektlərə qədər məsafə minimaldır».

Ekspertlərin fikrincə, Azərbaycan NATO ölkələri içərisində daha çox Türkiyə və ABŞ ilə hərbi sahədə sıx əlaqələrə malikdir. Belə ki, uzun müddətdir türkiyəli hərbi mütəxəssislər Azərbaycan ordusunu hazırlaşdırırlar. Azərbaycanla ABŞ arasında hərbi əməkdaşlıq isə hazırda keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Bu əməkdaşlığın prioriteti Azərbaycan ordusunun NATO standartlarına uyğunlaşdırılması, Azərbaycanın Hərbi Dəniz Donanmasının ölkənin dəniz sərhədlərinin təhlükəsizliyinin təmin olunmasındakı imkanlarının genişləndirilməsi, eləcə də ölkənin hava məkanının təhlükəsizliyi sisteminin standartlaşdırılmasıdır.

Rusiya mətbuatı bildirir ki, ABŞ Azərbaycanla 3 istiqamət: təcrübə mübadiləsi, ABŞ Silahlı Qüvvələrinin çevik birləşmələrinin Azərbaycanda müvəqqəti yerləşdirilməsi və Azərbaycan hərbi qulluqçularının təlimi üzrə hərbi əməkdaşlığa hazırdır. Bundan başqa, ABŞ Azərbaycanda ekstremizm və kütləvi qırğın silahının yayılmasına qarşı mübarizə üzrə birgə təlimlər keçirməyi planlaşdırır. «Bütün bu tədbirlərin gerçəkləşməsi ABŞ-ın regionda hərbi mövcudluğunun genişlənməsinə gətirəcəkdir».

Hazırkı dövrdə Çindən Avropaya və əks istiqamətə göndərilən yüklərin bir qismini TRACECA dəhlizinə cəlb etməyə çalışan ölkələr NATO-nun hazır və «alyansın özünün təklif etdiyi» yüklərini ötürməklə həm gəlir əldə etmiş olurlar, həm də Alyansın etibarını qazanırlar.

Bu günlərdə üzərində müzakirələrin aparıldığı Poti-Bakı - Aktau - Özbəkistan - Əfqanıstan marşrutunun



Azərbaycan üçün bir sıra iqtisadi üstünlükləri vardır. Bunlar aşağıdakılardır:

- Azərbaycanın tranzit potensialı artacaq;
- Hazır yüklərin daşınmasından Azərbaycanın nəqliyyat vasitələri (dəmir yolu, hava və dəniz nəqliyyatı) cəlb edilməklə gəlir əldə olunacaq;
- Poti-Bakı-Aktau konteyner qatarı layihəsi reallaşacaq;
- TRACECA dəhlizinin rolu artacaq və bu dəhliz iqtisadi əhəmiyyəti ilə yanaşı hərbi və humanitar əhəmiyyətini nümayiş etdirmiş olacaq;
- Azərbaycan şirkətləri Əfqanıstandakı koalisiya qüvvələrinin təchizatına qatılmaqla öz məhsullarını yeni bazara çıxarmış olacaqlar;
- Azərbaycan tranzit ölkə olmaqla yanaşı müttəfiqlərdən istifadə etməklə nəqliyyat infrastrukturunda təhlükəsizliyin yüksək səviyyədə təmin olunmasına nail olacaq.

Peşavər (Pakistan)-Kabil (Əfqanıstan) marşrutunda son yaşantılar, eləcə də «Manas» aviabazasının icarəsinə dair müqavilənin ləğvi bir daha göstərdi ki, hərbi əməliyyatların təchizatında mühüm rol oynayan nəqliyyat infrastrukturu istənilən zaman bu və digər qüvvələr tərəfindən təhdidlərlə üzləşə bilər. Xüsusilə də Mərkəzi Asiya kimi həssas bölgədə. Bu baxımdan, seçilmiş nəqliyyat dəhlizlərinin təhlükəsizliyi qarşıda duran bir nömrəli məsələlərdəndir və bildiyimiz qədər NATO-nun da diqqətindədir.

TRACECA-nın 11 illik tarixinə nəzər saldıqda bu dəhlizlə bağlı bir sıra problemlərin öz həllini tapmadığını görmüş oluruq. Bu proqramda iştirak edən 12 dövlət hər hansı bir məsələdə konsensusa gələnə qədər Rusiyanın çıxardığı qərarlar dəhlizin işinə təsir göstərir. Məlum olduğu kimi, Rusiya açıq şəkildə TRACECA dəhlizinə

qarşı olduğunu bildirməsə də müəyyən məsələlərlə bağlı verdiyi qərarlar rəsmi Moskvanın bu layihəni maksimum şəkildə əngəlləyib sıradan çıxarmaq marağında olduğunu açıq-aydın göstərir.

Şübhəsiz ki, ABŞ-ın uzaq və səmərəsiz Latviya-Rusiya-Qazaxıstan-Özbəkistan-Əfqanıstan marşrutunu yox, TRACECA dəhlizini seçməsi rəsmi Moskvanı qıcıqlandırır. Rusiya və addımlarını Moskvanın marşına uyğunlaşdıran İranın TRACECA-da gerçəkləşdiriləcək bu layihəyə qarşı çıxışlar etməsi mümkün variantlardandır. Bu da öz növbəsində NATO-nu və ABŞ-ı TRACECA dəhlizində təhlükəsizliyin daha da yüksək səviyyədə təşkilinə diqqət yönəltməyə məcbur edəcək.

NATO-nun öz hərbi-humanitar yüklərini iqtisadi baxımdan səmərəli TRACECA dəhlizinə yönəltməsi yaxın perspektivdə aşağıdakı təhdidləri meydana çıxaracaq:

- Regionda siyasi-hərbi vəziyyətin daha da kəskinləşməsi;
- Rusiya və İranın açıq və dolayısı dəstəyi ilə yeni münaqişə ocaqlarının yaranması;
- Maraqlı dövlətlərin xüsusi xidmət orqanlarının dəstəklədiyi terrorçu qrupların fəallaşması;
- Rusiya tərəfindən iqtisadi təzyiq rıçaqlarının işə salınması və s.

Nə etməli? Fikrimizcə, sadalanan bu təhdidlər nəinki logistik səmərəliliyi heçə endirəcək, hətta regiondakı təhlükəsizlik situasiyasını dəyişə biləcək. Bu kontekstdə onsuz da həssas bölgə olan Cənubi Qafqazda vəziyyətin yaxşı olmayacağını düşünmək olar. Bu baxımdan, TRACECA dəhlizini seçən NATO və müttəfiqlərinin aşağıdakı məsələlərə diqqət yetirmələri vacibdir:



1) Regiondakı münaqişələrin həlli istiqamətində səylərin fəallaşması və separatçı rejimlərə təzyiqin gücləndirilməsi;

2) Rusiyanın mümkün qədər neytrallaşdırılması və Moskva ilə dialoqun aktivləşdirilməsi;

3) TRACECA dövlətlərinin (NATO-ya üzv dövlətlər istisna olmaqla) arasında siyasi və təhlükəsizlik sahəsində əlaqələrin sıxlaşdırılması;

4) Dəhlizdə nəqliyyat təhlükəsizliyinin təmin olunması, iştirakçı dövlətlər arasında bu sahədə əlaqələrin koordinasiyası;

5) Ukrayna, Gürcüstan, Azərbaycan, Qazaxıstan və Özbəkistana hərbi və təhlükəsizlik sahəsində birbaşa və dolayısı yardımların artırılması, bəzi zəruri avadanlıq və məmulatların satışına qoyulan qadağanın götürülməsi;

6) Xəzər və Qara dənizdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, terror təhdidlərinin minimuma endirilməsi üçün hərbi dəniz və sərhəd qüvvələrinin gücləndirilməsi;

7) NATO-nun bilavasitə iştirakı ilə İranın radikal hərəkətlərinə və mümkün hədələrinə cavab vermə imkanının yaradılması (bura güclü hava hücumundan müdafiə sisteminin qurulması da daxildir);

8) Türkiyənin regionda rolunun gücləndirilməsi və NATO tərəfindən Ankaraya regional təhlükəsizliyə cavabdeh dövlət mandatının verilməsi.

Lakin 2009-cu il yanvarın 1-dən etibarən NATO-nun Azərbaycanla münasibətlərində əlaqə dövləti Rumıniya elan olunub. Bununla da Türkiyənin NATO-nun Azərbaycanla əlaqə dövləti statusunda olması müddəti başa çatıb.

Xatırladaq ki, Türkiyə dövləti 1994-cü ildən - Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» sənədini imzalayandan əlaqə dövləti statusunda idi.

NATO-nun tərəfdaş ölkələrlə münasibətləri təcrübəsinə müvafiq olaraq əlaqə dövləti NATO tərəfindən iki il müddətinə təyin edilir. Bu müddətin artırılıb-artırılmaması isə NATO-ya üzv dövlətlərin yekdil qərarından asılıdır. Maraqlısı budur ki, verilən məlumata görə, Azərbaycanla münasibətlərdə növbəti «əlaqə dövləti» statusunda olmaq üçün ən çox mübarizə aparan dövlətlər sırasında Türkiyə də olub. Polşanın da qatıldığı gərgin mübarizədən Rumıniya «qalib» çıxıb.

Rumıniya Azərbaycanın dövlət müstəqilliyini Türkiyədən sonra tanıyan ikinci dövlətdir. 1999-cu il iyulun 14-də Buxarestdə Azərbaycan Müdafiə Nazirliyi və Rumıniyanın Milli Müdafiə Nazirliyi arasında əməkdaşlıq haqqında saziş imzalanıb. 2000-ci il fevralın 15-də Bakıda iki ölkənin müdafiə nazirlikləri arasında əməkdaşlıq haqqında protokol imzalanıb.

2006-cı il martın 14-də Bakıda Azərbaycan Respublikası hökuməti və Rumıniya hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında saziş imzalanıb. Bundan başqa, ötən illərdə iki ölkə arasında qarşılıqlı hərbi informasiyanın çatdırılmasının mühafizəsi sazişi imzalanıb.

Rumıniya rəhbərliyi hələ 2006-cı ildə Azərbaycanın NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planının (IPAP) reallaşması üçün NATO-ya qəbul olmağa hazırlıq təcrübəsini bölüşməyə hazır olduqlarını bəyan etmişdi. Qeyd edilmişdi ki, bu sahədə artıq lazımi hüquqi çərçivə mövcuddur və bu çərçivə eyni zamanda IPAP əməkdaşlığının gücləndirilməsinə xidmət edəcək.



Türkiyənin Azərbaycanın müdafiə və təhlükəsizlik sahəsində NATO standartlarına uyğun olaraq həyata keçirilən islahatlara nəzarəti dövründə Ankara Bakıya 170 milyon dollara qədər müxtəlif hərbi yardımlar göstərib. Türkiyə Silahlı Qüvvələrinin köməyi nəticəsində Naxçıvanda hərbi hissələr Azərbaycanda ilk dəfə olaraq NATO standartlarına uyğunlaşdırılıb. 2005-ci ildə muxtar respublikadakı hərbi birləşməyə təmənnasız olaraq 2,7 milyon dollar dəyərində rabitə avadanlıqları və tibbi ləvazimatlar verilib.

Türkiyə Azərbaycanın təkcə Quru Qoşunlarına deyil, Hərbi Hava Qüvvələrinə (HHQ), Hava Hücumundan Müdafiə Qoşunlarına, Hərbi Dəniz Qüvvələrinə (HDQ), Daxili Qoşunlarına və Milli Qvardiyasına müxtəlif formalarda yardımlar göstərib.

Türkiyə Azərbaycanın HDQ-nin maddi-texniki təminatının yaxşılaşdırılması, eləcə də, kadr hazırlığında mühüm rol oynayır. Xatırladaq ki, hələ 90-cı illərin sonlarında Türkiyə Azərbaycan HDQ-yə «AV-34» (Türk tipli) patrul kateri bağışlamışdı.

2008-ci ilin əvvəlində və sonlarında Türkiyədən yüksək vəzifəli zabitlər və generallar qrupu Azərbaycana səfər etmişdir. KİV-də yayılan məlumatlara görə, Türkiyə Azərbaycana hərbi sahədə sürətli islahatlar paketi təqdim edib. Həmçinin həmin ilin dekabrında iki ölkənin Müdafiə Nazirliyi arasında keçirilən dialoqda Ankaranın Azərbaycan Silahlı Qüvvələrinə göstərə biləcəyi növbəti yardımların siyahısının müzakirə edildiyi bildirilirdi. Ekspertlərin fikrincə, Türkiyə Azərbaycanın müdafiə və təhlükəsizlik sahəsində NATO standartlarına uyğun islahatların sürətləndirilməsində və effektli nəticələrin əldə olunmasında israr edirdi. Amma Türkiyədən «əlaqə

dövləti»* statusunun alınmasından sonra Ankaranın üzərinə götürdüyü missiyanı əvvəlki tək davam etdirəcəyi bir az çətin olacaqdır.

Ekspertlərin fikrincə, Rumıniyanın NATO ilə Azərbaycan arasında «əlaqə dövləti» statusunda olması bir sıra yeniliklərlə xarakterizə edilə bilər. Müdafiə Nazirliyi mətbuat xidmətinin rəhbəri, polkovnik-leytenant Eldar Sabiroğlu «Media-forum» saytına bildirib ki, əlaqə dövləti statusunun bir ölkədən başqasına keçməsi əsasnaməyə uyğun aparılır: «Burada hansısa məna arxasınca düşmək üçün əsaslı səbəb görmürəm. Biz həqiqətə baxmalıyıq, hər bir əməkdaşlığın strateji hədəfləri olur, əlaqələndiricilər dəyişə bilər, amma bu, strategiyanın dəyişməsi demək deyil».

Son illər Azərbaycanın NATO ilə əməkdaşlıq çərçivəsində müsbət nəticələr əldə etdiyini vurğulayan E.Sabiroğlu bu işdə 14 il əlaqə dövləti qismində fəaliyyət göstərmiş Türkiyənin Azərbaycana böyük dəstəyini qeyd edib: «Azərbaycanın Müdafiə Nazirliyi bunu yüksək qiymətləndirir. Bu müddət ərzində ordumuzun bütün qoşun növləri, qərargah strukturları NATO standartlarına uyğunlaşdırılıb. Əməkdaşlığımız gələcəkdə də davam etdiriləcək, buna heç bir şübhə ola bilməz. Əlaqə dövləti kimi indi Rumıniyanın seçilməsi ardıcıllığın qorunmasına böyük ümidlər verir. Ölkəmiz bir çox sahədə Rumıniya ilə sıx əlaqələr qurub, eyni zamanda Azərbaycanın Rumıniya ilə ikitərəfli hərbi sazişi mövcuddur. Rumıniya Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk

*Burada NATO ilə kordinasiya funksiyasını öz üzərinə götürmüş dövlət nəzərdə tutulur. Azərbaycanla NATO arasında kordinasiya funksiyasını ilk olaraq Türkiyə öz üzərinə götürmüşdür.



dövlətlərdən biridir. Biz məsələyə məhz bu kontekstdən yanaşaraq qiymət verməliyik» - deyə o bildirib.

«Ehtiyatda və İstefada olan Zabitlər» İctimai Birliyinin sədri, ehtiyatda olan polkovnik-leytenant Yaşar Cəfərli baş vermiş hadisəni «adi rotasiya dəyişikliyi» hesab edərək Rumıniyanın Azərbaycanın NATO ilə münasibətlərində «əlaqə dövləti» statusunda olmasını mühüm hadisə hesab edir. Onun sözlərinə görə, NATO-ya üzv ölkələrin tərəfdaş dövlətlərlə bu tip münasibətləri çox böyük əhəmiyyət kəsb edir. «Düşünürəm ki, Rumıniya Azərbaycanın müdafiə və təhlükəsizlik sahəsinin NATO standartlarına uyğunlaşdırılması istiqamətində Azərbaycanın səylərinə dəstək verəcək», - deyə ekspert bildirir.

Y.Cəfərli də Türkiyənin 14 illik fəaliyyətini müsbət qiymətləndirir. Onun sözlərinə görə, ötən illər ərzində Türkiyə qardaş ölkə kimi Azərbaycanın müdafiə və təhlükəsizlik sahəsinin müasir standartlara uyğunlaşdırılması işində çox böyük addımlar atıb. Ekspert əmindir ki, «əlaqə dövləti» statusundan çıxmasına baxmayaraq, Türkiyə Azərbaycanla hərbi əlaqələri dərinləşdirməkdə, Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğun qurulmasında dəstəyini davam etdirəcək.

«Doktrina» Jurnalistlərin Hərbi Araşdırmalar Mərkəzi isə baş vermiş hadisənin həm adi, həm də düşündürücü tərəflərinin olduğu qənaətindədir. Mərkəz ekspertlərinin fikrincə, NATO-nun qayda-qanunları, nizamnaməsi prinsipindən yanaşılsa, onda hər 2 ildən bir «əlaqə dövləti»nin dəyişməsi normal hadisədir. «Amma sual doğuran məsələ ondan ibarətdir ki, NATO-nun Azərbaycanla əlaqələrinə məsul dövləti nə üçün məhz indi dəyişmək qərarına gəliblər. Bu, təsadüf də ola bilər, NATO-nun Azərbaycanla münasibətlərində dəyişiklik

dövrünün başlanğıcı da. Digər sual doğuran məsələ Türkiyənin əlaqə üzrə 14 illik fəaliyyətinin yekunları ilə bağlıdır. Azərbaycan cəmiyyəti üçün maraqlıdır: görəsən, NATO-da bu fəaliyyəti necə qiymətləndirirlər? Ankara Alyansın Azərbaycanla münasibətlərində Türkiyəyə etibar etdiyi məsələlərin öhdəsindən uğurla gələ bildimi?»

Türkiyənin «əlaqə dövləti» statusunda olmaq üçün növbəti dəfə mübarizəyə qoşulması Ankaranın etika naminə addımı kimi qiymətləndirilir. Eyni zamanda Türkiyənin NATO ilə Azərbaycan arasında «əlaqə dövləti» statusundan çıxarılması Azərbaycan üçün müəyyən dəyişikliklərlə müşayiət oluna bilər. Türkiyə 1952-ci ildən NATO-nun üzvüdür. Rumıniya isə 2004-cü ildə alyansa üzv qəbul edilib.

Türkiyənin bundan sonra öz hərbi-siyasi dəstəyini daha çox Gürcüstana göstərəcəyini düşünmək olar. Çox güman ki, NATO Türkiyənin qarşısında yeni vəzifə qoyub: Ankara Gürcüstanın qısa zaman kəsiyində NATO standartlarına uyğunlaşdırılmasını təmin etməlidir.

Ekspertlərin fikrincə, Türkiyədən «əlaqə dövləti» statusunu almaqla NATO-nun Azərbaycanla bağlı addımlarında dəyişiklik olacağını gözləmək mümkündür. Nəzərə alaq ki, Rumıniya Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və bir sıra enerji layihələrində iştirak etmək niyyətindədir. Rumıniyalı rəsmilər ölkələrinin Azərbaycan - Gürcüstan - Rumıniya enerji dəhlizinin yaradılmasında maraqlı olduğunu gizlətmirlər.

Rumıniyanın qeyd edilən istəkləri NATO-da da xüsusi dəstəklənir. Alyansda hesab edirlər ki, Qafqazda yerləşən enerji dəhlizinin Rusiyanın inhisarından çıxarılması xüsusilə vacibdir. Bu səbəbdən NATO Cənubi Qafqaz və Orta Asiya ölkələrinin enerji infrastrukturunun



müdafiəsində maraqlıdır. NATO bu istiqamətdə region ölkələri ilə danışıqlar aparır.

Beləliklə, Rumıniyanın NATO ilə Azərbaycan arasında əlaqə dövləti statusuna təyin olunması NATO-nun Azərbaycanla bağlı siyasi və iqtisadi planlarının olması anlamına gələ bilər.

Sonda bir məsələni də qeyd etməyi zəruri bilirik. Rumıniya Silahlı Qüvvələrində istifadə olunan əsas silah və hərbi texnika sovet istehsalıdır. Hesab edirik ki, Rumıniyanın NATO-Azərbaycan münasibətlərində əlaqələndirici dövlət statusuna təyin olunmasında bu silah uyğunluğu faktoru da müəyyən rol oynamışdır.

Məlum olduğu kimi, 1997-ci ilədək Azərbaycan Silahlı Qüvvələrinin hərbi təhsil ocaqları keçmiş SSRİ-də mövcud olmuş sistemə uyğun fəaliyyət göstərirdi. Orduda quruculuq işlərini müasir tələblər səviyyəsinə qaldırmağı daim diqqətdə saxlamış Heydər Əliyevin bilavasitə rəhbərliyilə 1997-ci ildən kursantlarımız Şimali Atlantika Alyansına daxil olan ölkələrdə qəbul edilmiş metodika əsasında hərbi bilik və təcrübə qazanmağa başladılar. NATO-nun köməyi ilə 2004-cü ildə Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün kiçik mütəxəssislər hazırlayan mərkəz yaradıldı. 2004-cü ildən Silahlı Qüvvələrin döyüş hazırlığı planı üzrə bütün təlimlər NATO standartlarına uyğun keçirilir. Azərbaycan Respublikasının zabitləri NATO-nun Brüsseldəki Baş Qərargahında xidmət edirlər.

Artıq NATO rəsmiləri özləri də dəfələrlə etiraf ediblər ki, Azərbaycan Silahlı Qüvvələrinin NATO standartlarına uyğunlaşdırılması çox yüksək səviyyədə gedir. Bütün bunlarla yanaşı, Azərbaycan hərbçiləri «Sülh Naminə Tərəfdaşlıq» proqramı çərçivəsində keçirilən bütün

tədbirlərdə fəal iştirak edir, sülhməramlı təlimlərə, konfrans və seminarlara qatılırlar. 1999-cu ilin sentyabrında Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Türkiyə taboru tərkibində ilk sülhməramlı taqımımız Kosovoda keçirilən sülhməramlı əməliyyatlara qatıldı. Sonralar sülhməramlılarımızın fəaliyyət coğrafiyası daha da genişləndi. Silahlı Qüvvələrimizin bölmələri dövlətimiz tərəfindən əminamanlıq yaratmaq məqsədilə Əfqanıstana və İraqa göndərildi.

Azərbaycan hərbçiləri sülhməramlı əməliyyatlarda uğurla iştirak etdiklərinə görə komandanlıq tərəfindən dəfələrlə mükafatlandırılıblar. 2008-ci ilin mayında koalisiya komandanlığı İraqdakı sülhməramlı korpusun tərkibində nümunəvi xidmətlərinə görə bir qrup azərbaycanlı zabiti ABŞ-ın «Hərbi Dəniz Qüvvələri və Dəniz Piyadalarının nailiyyət medalı» ilə təltif etmişdir. İraqda xidmət etdikləri müddətdə sülhməramlılarımız yüksək döyüş hazırlığı və mənəvi keyfiyyətlər, eləcə də nizam-intizam nümayiş etdirdiklərinə görə koalisiya komandanlığı tərəfindən 10-dan artıq medalla təltif edilmiş və çoxsaylı fəxri fərmanla mükafatlandırılmışlar. NATO ilə əməkdaşlıq çərçivəsində Azərbaycanın ordu quruculuğunun perspektivi və bu sahədə digər bölgə dövlətlərindən fərqi də zaman-zaman ortaya çıxmaqdadır. Məsələ ondadır ki, Ermənistan ordusunun rus ordusu nümunəsində daha çox komplektləşdiyi, Gürcüstan ordusunun isə, NATO standartlarına sürətli keçid etdiyinə görə daha hazırlıqlı olması haqda fikirlərin reallığı əks etdirmədiyi görünməkdədir. Hər iki ölkənin ordu quruculuğu sahəsində məhdud konsepsiyaya sahib olduğunu isə zaman sübut etdi. İndi Gürcüstan ordusunun pis təşkil edildiyi və zəif iradəyə sahib olduğunu ABŞ



hərbçiləri belə etiraf edirlər. Onlar gürcü ordusunun yenidən hazırlanması ehtiyacını göstərirlər. Ermənistan ordusunun isə tamamilə rusların təsiri altında olması səbəbindən inkişafından danışılmasma ehtiyac yoxdur. Belə ki, ermənilər rusların vassalı kimi hər hansı müstəqil ordu quruculuğu apara bilməzlər. Azərbaycan isə təmkinli və planlı addımları ilə tədricən ordu quruculuğunu gücləndirir. Azərbaycan ordusu indi bu günə qədər əldə etdiklərini yeni səviyyəyə qaldırır. Azərbaycan bu addımını elə atır ki, bölgədə heç bir dövlətin maraqlarına zərbə vurmur. Onun həmin istiqamətdə edəcəkləri birbaşa özünün maraqlarına cavab verir. Müdafiə Nazirliyi ilə NATO arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan fəaliyyət bundan sonra da davam etdiriləcəkdir.

## 6-cı fəsil
## Azərbaycan-NATO əlaqələri tarixində üç mühüm hadisə

Azərbaycan-NATO əlaqələri tarixində üç mühüm hadisəni xüsusi qeyd etmək lazımdır:

-4 may 1994-cü il-Azərbaycan «Sülh Naminə Tərəfdaşlıq» Proqramına qoşulub;

-1996-cı il-Azərbaycan Planlaşdırma və Analiz Prosesi Proqramına qoşulub;

-1997-ci il - Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı üzrə Dövlət Komissiyası yaradılıb.

«Sülh Naminə Tərəfdaşlıq» Proqramının əsas məqsədi Avroatlantik məkanda siyasi və hərbi əməkdaşlığın genişləndirilməsi, sabitliyin bərqərar olunması, beynəlxalq sülh və təhlükəsizliyin qorunması, müasir təhlükələrin azaldılması, eləcə də Alyansın demokratik prinsiplərinə sadiqlik ruhunda münasibətlərin möhkəmləndirilməsidir. Əsas mexanizmlər aşağıdakılardır:

- FTP (Fərdi Tərəfdaşlıq Proqramı);
- PAP (Planlaşdırma və Analiz Prosesi);
- FTƏP (Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı).

Fərdi Tərəfdaşlıq Proqramı SNT çərçivəsində həyata keçirilən əməkdaşlıq prosesinin birinci səviyyəsidir. 2008-ci il üçün razılaşdırılmış FTP-nin Müdafiə Nazirliyinə aid hissəsində aşağıdakı sahələr üzrə 164 tədbir seçilib:

- müdafiə siyasəti və strategiyası;
- dil təlimi;
- hərbi təlimlər;
- hərbi təhsil, doktrina;
- maddi-texniki təminat;



-sülhməramlı qüvvələrin konsepsiyası, onların planlaşdırılması və əməliyyat sahələri;

-komanda və nəzarət;

-beynəlxalq humanitar hüquq;

-müdafiənin planlaşdırılması, büdcə və ehtiyatların idarə edilməsi.

NATO ilə əməkdaşlıq fəaliyyəti çərçivəsində sülhməramlı və humanitar xarakterli çoxmillətli təlimlərdə iştirak və təcrübə mübadiləsi aparılır, sülhməramlı, humanitar və başqa əməliyyatlarda iştirak etmək məqsədilə sülhməramlı və xüsusi bölmələr (tibbi, mühəndis və təminat üzrə bölmələr) yaradılır, çoxmillətli təlimlərin keçirilməsi üçün Azərbaycan Respublikasının ərazisində təlim bazaları hazırlanır və Silahlı Qüvvələrin NATO standartlarına uyğunlaşdırılması prosesi davam edir.

Azərbaycan Silahlı Qüvvələrinin NATO-nun çoxmillətli qərargah strukturlarında xidmət edən zabitləri:

- NATO-nun Beynəlxalq Hərbi Qərargahında (Brüssel, Belçika Krallığı);

-Birləşmiş Qüvvələr Komandanlıqlarında (İtaliya və Niderland Krallığı) xidmət keçirlər.

NATO ilə inkişaf edən əməkdaşlığın nəticəsi olaraq, hazırda Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nəzdində aşağıdakı strukturlar fəaliyyət göstərir:

-NATO ilə əməkdaşlıq məsələlərinə cavabdeh olan Beynəlxalq Əməkdaşlıq və Avroatlantik İnteqrasiya İdarəsi;

-NATO-nun STANAQ (Standardization Agreement – Standartlaşma sazişi) üzrə komissiyası;

- Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində SNT üzrə Təlim Mərkəzi;
- Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində NATO/SNT kafedrası.

2008-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları xaricdə keçirilən 62 kurs, 6 təlim, təlimlə bağlı 24 planlaşdırma konfransları, 15 seminar, 20 işçi görüşü və digər tədbirlərdə iştirak etmiş, Azərbaycanda isə 11 mobil təlim qrupu kursları, qərargah danışıqları, ekspert işçi görüşləri və seminarlar keçirilmişdir.

Azərbaycan respublikası qaynar bölgələrdə beynəlxalq təhlükəsizlik əməliyyatlarında da fəal iştirak edir.

Kosovo: 1999-2008 (mart) - 1 sülhməramlı taqım.

İraq: 2003-2008 (dekabr) - 1 sülhməramlı bölük.

Əfqanıstan: 2002 - 1 sülhməramlı taqım, 2008 - 1 sülhməramlı bölük.

Azərbaycan Respublikası ümumilikdə 38 Tərəfdaşlıq Məqsədi (TM) qəbul edib. Bunlardan 32-si (Ümumi Qoşunlar - 20, Quru Qoşunları - 7, HDQ - 1, HHQ - 4) Silahlı Qüvvələrə aiddir.

Hazırda qəbul edilmiş TM-in bir hissəsi (ümumi - 7, Quru Qoşunları - 4) tamamilə, digərləri isə qismən yerinə yetirilmişdir.

Azərbaycan NATO-nun əməliyyatlarına töhfə vermək üçün aşağıda adları göstərilən bölmələrin iştirakını bəyan edib:

- Sülhməramlı bölük;
- Tibb taqımı;
- Mühəndis-istehkam taqımı;
- Vertolyot qrupu (2 ədəd Mi-8).



2009-cu ilin aprel və may aylarında müvafiq olaraq Bakı və Brüsseldə NATO-nun Beynəlxalq Qərargahı ilə 28+1 formatında tərəfdaşlıq məqsədlərinin yerinə yetirilməsi üzrə görüşlər keçirilib.

Fərdi tərəfdaşlıq üzrə əməliyyat planı (FTƏP) NATO ilə əməkdaşlığı daha da dərinləşdirmək üzrə siyasi iradəsi olan dövlətlərə təklif olunur. Belə iradə nümayiş etdirmiş Azərbaycan Respublikası NATO ilə siyasi dialoq proqramını müəyyən edib.

Plan böyük spektr təşkil edən sahələrdə praktiki əməkdaşlığı nəzərdə tutur ki, onun da bir hissəsi bilavasitə müdafiə və təhlükəsizlik sektoruna aiddir.

FTƏP 2002-ci ildə keçirilmiş Praqa sammitində qəbul edilmiş və Azərbaycan ona 2005-ci il mayın 27-də qoşulub. 2005-2007-ci illəri əhatə edən FTƏP-in 1-ci mərhələsi yerinə yetirilib.

Müdafiə Nazirliyi bu planın 2008-2009-cu illəri əhatə edən növbəti layihəsinə dair təkliflərini təqdim etmiş və planın təkmilləşmiş versiyası 2008-ci il martın 7-də təsdiq edilmişdir.

Planda əksini tapmış əsas tədbirlər bunlardır:

- Müdafiə icmalı və müdafiə planlaşdırması;
- Hərbi təlim və tədrisdə NATO standartlarının tətbiqi;
- Silahlı Qüvvələrin strukturlarında NATO standartlarının tətbiqi;
- Əməliyyat İmkanları Konsepsiyası (ƏİK), mobil tabor;
- Sülhməramlı taborun inkişafının başa çatdırılması və Milli SNT Mərkəzinin inkişaf etdirilməsi;
- Silahlı Qüvvələrdə şəxsi heyətin müasir və şəffaf idarə olunması sisteminin inkişaf etdirilməsi;

- Hərbi Dəniz Qüvvələrinin imkanlarının yaxşılaşdırılması;

- Maddi-texniki təminat və sahib ölkənin yardımı.

Müdafiə icmalı və müdafiə planlaşdırılması sahəsində isə aşağıdakılar müəyyənləşdirilmişdir:

- Milli Təhlükəsizlik Konsepsiyası;

- Hərbi Doktrina (parlamentə təqdim olunub);

- Strateji Müdafiə İcmalı Prosesinin yerinə yetirilməsi;

- «J» strukturlu qərargahda, o cümlədən gələcəkdə yaradılacaq Strateji Planlaşdırma və Siyasi Hərbi İdarədə (J5) çalışmaq üçün milli ekspertlərin hazırlanması, bu məqsədlə seminar və işçi görüşlərində iştirakın davam etdirilməsi.

Məqsəd - Milli Təhlükəsizlik Siyasətinin və əlaqəli strateji konseptual sənədlərin inkişaf etdirilməsidir. Bu çərçivədə:

1-ci tədbir Milli Təhlükəsizlik Konsepsiyası əsasında Hərbi Doktrinanın inkişaf etdirilməsi;

2-ci tədbir isə Strateji Müdafiə İcmalı Prosesinin aparılması olacaqdır.

ABŞ-ın Mülki-Hərbi Əlaqələr Mərkəzinin ekspertləri tərəfindən Bakıda Strateji Müdafiə İcmalı mövzusunda mütəmadi olaraq ekspert işçi görüşləri keçirilir.

Hərbi təlim və tədris sahələrində də NATO standartları aşağıdakı ardıcıllıqla tətbiq olunmağa başlanmışdır:

- 1997-ci ildən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində;

- 2000-ci ildən etibarən Silahlı Qüvvələrin Hərbi Akademiyasında;

- 2001-ci ildən Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində;



- NATO-nun Hərbi Təlim və Təhsil sistemi proqramında iştirak (məqsəd - Silahlı Qüvvələrdə çavuş məktəbinin, kiçik zabitlər üçün ixtisas proqramlarının təkmilləşdirilməsi və Silahlı Qüvvələrin Hərbi Akademiyasının təhsil proqramına hərbi strateji sənədlərin hazırlanması üzrə fənnin yeni modul kimi daxil edilməsi);

- Silahlı Qüvvələrin Hərbi Akademiyasında Strateji Tədqiqatlar və Dövlət Müdafiəsini İdarəetmə Akademik kursları.

Silahlı Qüvvələrin (SQ) strukturunda da NATO standartlarına keçid baş verməkdədir.

- Müdafiə Nazirliyinin və Baş Qərargahın J/G («J»-joint, «G»-general) strukturuna keçidi ilə əlaqədar 2008-ci ilin noyabr ayında keçirilmiş ekspert danışıqları.

- Çavuş hazırlığı məktəbinin və poliqonun NATO standartlarına keçirilməsi prosesi davam edir.

Tədrisin planlaşdırılması və təşkili məqsədi ilə 2008-ci ilin mart ayından etibarən ABŞ-ın Avropa Komandanlığının 2 təlimatçısı bu məktəbdə fəaliyyətə başlayıb. Məktəbin müəllim heyəti ABŞ, Türkiyə, Almaniya və Latviyanın müvafiq məktəblərinin təcrübəsinin öyrənilməsi məqsədi ilə həmin ölkələrdə təlim keçiblər.

- ABŞ mütəxəssisləri tərəfindən atəş poliqonu təkmilləşdirilib. Təlim və Tədris Mərkəzində və Çavuş Məktəbində lazer və kompüter sistemli poliqon yaradılıb.

NATO Komandanlığı altında aparılan əməliyyatlarda bilavasitə iştirak etmək üçün Azərbaycan 2004-cü ilin mart ayından «Əməliyyat İmkanları Konsepsiyası» proqramına qoşulub və Silahlı Qüvvələrin bir piyada bölüyünü NATO əməliyyatları üçün Ortaq Qüvvələr Birliyinə bəyan edib.

- Briqadalardan birinin bazasında yaradılmış Mobil taborun tərkibinə SQ-nin «Əməliyyat İmkanları Konsepsiyası» (ƏİK) bölüyü daxildir.

- 2008-ci ildə bu bölüyün Əməliyyat İmkanları Konsepsiyası çərçivəsində 1-ci səviyyəli özünüqiymətləndirməsi keçirilib (ABŞ, Türkiyə və NATO ekspertlərinin iştirakı ilə 1-ci səviyyəli NATO qiymətləndirməsi üzrə təlimlər uğurla keçirilib).

- 2-ci səviyyəli özünüqiymətləndirmə təliminə hazırlıq işləri aparılır və hazırda bu bölüyün NATO standartları əsasında təlimi davam etdirilir.

- ƏİK bölüyünün sərəncamındakı rabitə sistemlərinin təkmilləşdirilməsi.

- Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə NATO arasında 15 il ərzində uğurla davam etmiş əməkdaşlıq fəaliyyəti nəticəsində bir sıra nailiyyətlər əldə olunmuşdur:

- Avroatlantik təhlükəsizlik strukturları ilə sıx əməkdaşlıq;

- NATO-nun üzv-dövlətləri ilə ikitərəfli əməkdaşlığın genişləndirilməsi;

- Beynəlxalq sülh və təhlükəsizliyə töhfə;

- NATO Əməliyyat İmkanları Konsepsiyası proqramı çərçivəsində SQ-nin müvafiq bölmələrinin əməliyyat uyarlığınm artırılması;

- Əməliyyat imkanlarının təkmilləşdirilməsi;

- NATO standartlarının SQ-də tətbiqi;

- Hərbi təhsil və təlim sistemlərinin təkmilləşdirilməsi;

- Strateji konseptual sənədlərin hazırlanması prosesinin inkişafı;



-NATO ilə əməkdaşlıq sahələrində peşəkar təlim keçmiş hərbi qulluqçuların hazırlanması imkanlarının genişləndirilməsi.

Hazırda Azərbaycan Ordusunun Alyansla əlaqədə yerinə yetirəcəyi əsas vəzifələr aşağıdakılardır:

-«Sülh Naminə Tərəfdaşlıq» Proqramı çərçivəsində NATO və ona üzv dövlətlərlə, habelə tərəfdaş ölkələrlə siyasi, iqtisadi, mədəni, hərbi və hərbi-texniki əməkdaşlığın gücləndirilməsi ilə Avropa strukturlarına inteqrasiyanın davam etdirilməsi;

- Silahlı Qüvvələrin müdafiə qabiliyyətinin yüksəldilməsi məqsədilə müdafiə islahatlarının həyata keçirilməsi, Silahlı Qüvvələrin NATO qüvvələri ilə birgə uzlaşma səviyyəsinin artırılması və Avroatlantik məkana inteqrasiyanın dərinləşdirilməsini təmin etmək üçün Müdafiə Nazirliyi ilə NATO arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan fəaliyyətin davam etdirilməsi.

2008-ci il mayın 18-dən 26-dək NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (OCC) çərçivəsində Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş Azərbaycan Silahlı Qüvvələri bölüyünün 1-ci səviyyəli NATO qiymətləndirməsi təlimi keçirilmişdir. Brunsum şəhərindəki (Niderland Krallığı) NATO-nun Birləşmiş Qüvvələr Komandanlığının 6 zabiti (İsveç-1, Avstriya -1, Almaniya -1, Finlandiya - 1, Belçika - 2) qiymətləndiricilər qrupunun üzvləri qismində iştirak edib. Təlimin şərti ssenarisinə uyğun olaraq, NATO qüvvələri ilə birgə 15 tapşırıq (arama və axtarma, humanitar yüklərin müşayiət edilməsi, yerli əhali ilə münasibətlər, iğtişaşlar zamanı davranış qaydaları, media ilə ünsiyyət, obyektlərin mühafizəsi, nəzarət-buraxılış məntəqələrinin yaradılması, qanunsuz maddələrin

aşkarlanması, helikopterlə evakuasiya, hərbi-mülki əməkdaşlıq, partlayıcı maddələrin aşkarlanması zamanı hərəkət tərzləri, şübhəli şəxslərin axtarılması, hücumun təşkili və aparılması, ingilis dilinin səviyyəsi və s.) icra edilib və Azərbaycan Silahlı Qüvvələrinin bölüyü tapşırıqların yerinə yetirilməsində uğurlu nəticələr əldə edib. NATO-nun Birləşmiş Qüvvələr Komandanlığının qiymətləndiricilər qrupu təlimdən razı qaldıqlarını bildiriblər. Yaxın zamanlarda komandanlığın hesabatı Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə təqdim ediləcəkdir.

Onu da qeyd edək ki, NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (OCC) çərçivəsində Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş Azərbaycan Silahlı Qüvvələri bölüyünün ilkin özünü qiymətləndirmə təlimi 13-15 noyabr 2007-ci il tarixlərində keçirilib. İkinci təlimi əvvəlki ilə müqayisədə irəliyə doğru addım hesab etmək olar, çünki o, daha yaxşı nəticələrinə görə diqqəti cəlb edir.

Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri 2009-cu il aprelin 7-10-da Türkiyənin Aksaz şəhərində Cooperative Marlin/Mako-2009 təlimlərinin planlaşdırılması üzrə yekun konfransda iştirak etmişlər. Bundan əlavə, NATO ilə tərəfdaşlıq çərçivəsində azərbaycanlı hərbçilər 2008-ci il aprelin 1-3-də Vaşinqtonda müdafiənin planlaşdırılması və ABŞ-NATO əlaqələri mövzusunda görüşlərdə iştirak ediblər. Eyni zamanda, ABŞ ilə əməkdaşlıq planına əsasən aprelin 6-10-da Bakıda Azərbaycanın hərbi-dəniz qüvvələri və sərhəd xidməti ekspertləri ilə Amerika Hərbi-Mülki Əlaqələr Mərkəzinin nümayəndələri arasında terrorla mübarizə mövzusunda



görüş keçirilmişdir. Plana görə, Müdafiə Nazirliyinin nümayəndələri aprelin 6-dan mayın 11-dək Şimali Karolinada antiterror əməliyyatları operatorlarının əsas kursunda iştirak etmişlər.

Türkiyə ilə əməkdaşlıq planına görə isə hərbçilərimiz aprelin 6-dan mayın 29-dək İstanbulda partlayıcı maddələrin aşkar edilməsi üzrə kurs keçmiş, həmçinin aprelin 7-9-da SAT/SAS təlimlərinin (dünyanın ən yaxşı xüsusi təyinatlılarından sayılan Türkiyənin məşhur Su Altı Taaruz (SAT) və Su Altı Savunma (SAS) xüsusi təyinatlıları istənilən şəraitdə- həm su altında, həm də su üstündə əməliyyatlar aparmağa qadir birlik kimi özlərini doğrultmuşlar) planlaşdırılması üzrə konfransda iştirak etmişlər. Azərbaycan hərbi idarəsinin nümayəndələri aprelin 6-8-də məhkəmə sisteminə həsr olunmuş beynəlxalq simpoziumda da iştirak etmişlər.

Qırğızıstanla hərbi əməkdaşlıq çərçivəsində 2009-cu il aprelin 6-7-də Bakıda Azərbaycan SQ-nin təhsil sistemi ilə tanışlıq təşkil olunmuş və Qırğızıstan Müdafiə Nazirliyi kadr zabitlərinin hazırlanması üzrə ekspert görüşü keçirilmişdir.

Pakistanla əməkdaşlıq planına görə, azərbaycanlı hərbçilər 2009-cu il aprelin 6-dan iyunun 13-dək kəşfiyyat üzrə təkmilləşdirmə kurslarında olmuşlar.

Azərbaycanla Rumıniya arasında ikitərəfli əməkdaşlıq planına görə 2009-cu il aprelin 6-dan iyulun 3-dək Buxarestdə qərargah zabitləri üçün birgə əməliyyatlar üzrə kurslar, həmin il aprelin 6-dan iyulun 17-dək partlayıcı maddələrin zərərsizləşdirilməsi üzrə kurslar keçirilmişdir. Bundan əlavə, Rumıniya Milli Müdafiə Kollecinin rəhbəri

Azərbaycan SQ Hərbi Akademiyası ilə tanış olmaq üçün aprelin 9-11-də Bakıda səfərdə olmuşdur.

Azərbaycan Silahlı Qüvvələri 1994-cü ildən NATO ilə Sülh Naminə Tərəfdaşlıq Proqramı çərçivəsində əməkdaşlıq etməklə yanaşı bir sıra xarici dövlətlərlə də sıx əlaqə qurmuşdur. Başqa ölkələrlə əlaqələr Azərbaycan ordusunun güclənməsinə daha da yardım edir. Azərbaycan Hərbi Dəniz Qüvvələrimiz, Hərbi Hava Qüvvələrimiz tam şəkildə NATO standartlarına uyğunlaşdırılıb. NATO çərçivəsində Azərbaycanın hərbi qulluqçuları treninqlər keçir və xarici dil kurslarında iştirak edirlər. Sülh Naminə Tərəfdaşlığın ən işlək mexanizmi olan Fərdi Tərəfdaşlıq Fəaliyyəti Proqramı geniş sahəli tədris və təlim işlərini əhatə edir. Hər il NATO-Azərbaycan Fərdi Tərəfdaşlıq Proqramı çərçivəsində Silahlı Qüvvələrimizin 1000-dən çox hərbi qulluqçusu müxtəlif hərbi sahələr üzrə tədris tədbirlərində və təlimlərdə iştirak edir. Azərbaycanın NATO-ya inteqrasiyası ilə bağlı yeni ikitərəfli plan hazırlanır. Onun Azərbaycan prezidenti İlham Əliyev tərəfindən təsdiqlənməsi nəzərdə tutulur.

Beləliklə, yuxarıda apardığımız təhlil və analizlər bir daha təsdiq etdi ki, Azərbaycanda ordu quruculuğunun davamlı olması və bütün məqamları nəzərə alaraq aparılması ölkəmizin hərbi cəhətdən bölgənin ən güclü dövləti olmasını təmin edir. Ordu dövlətin təhlükəsizliyini təmin edən güc olmaqla bərabər, hərbi sənayenin inkişafını stimullaşdıran qurumdur. Hərbi sənayesi güclü olan dövlətin ordusunun döyüş potensialı daim artır, daha perspektivli bir hala gəlir. Hərbi sənaye məsələsi indi dünya dövlətləri üçün böyük əhəmiyyət daşıyır. Məsələn, Türkiyə və Pakistan Qərbdən asılı olmayan hərbi



sənayeyə malik olmaq yolunda hər cür çətinliyə dözürlər. Dolayısı ilə Azərbaycan həm NATO standartlarına keçir, həm də Türkiyə vasitəsi ilə müstəqil hərbi sənaye kompleksi yaradır. Yəni bir çox dövlətlərin çətinliklə keçdiyi mərhələni asan və ziyansız adlamağa çalışır. Bu ağıllı siyasətin və onu reallaşdıran səmərəli diplomatiyanın bəhrəsini dövlətimiz yaxın perspektivdə daha çox görəcəkdir.

# NƏTİCƏ

İkiqütblü dünyanın ləğvindən sonra yaranmış yeni geosiyasi reallıqların bilavasitə təsiri altında NATO-nun saxlanılmasının nə dərəcədə əhəmiyyətli olması ilə bağlı məsələ son dərəcə aktuallaşmış oldu.

Bu istiqamətdə alyans çərçivəsində və ondan kənarda aparılan çoxsaylı müzakirələr son nəticədə təşkilatın saxlanması lehinə qərarın qəbuluna gətirib çıxardı. Hesab olundu ki, dəyişən dünyanın tələblərinə müvafiq olaraq alyans daxilində hərbi -siyasi islahatlar həyata keçirməklə yeni çağırışlara qarşı təşkilatın fəaliyyətinə dinamizm vermək mümkündür. Bəs hansı amillər NATO-nun saxlanılmasını təsvir etmişdir? Zənnimizcə, məhz bu suala verilən düzgün cavabdan asılı olaraq, NATO-nun sonrakı taleyi ilə bağlı məsələlərə aydınlıq gəlmiş oldu.

Beləliklə, NATO-nun saxlanılmasının zəruriliyi aşağıdakı müddəalarla əsaslandırılırdı:

- İdeoloji qarşıdurmadan qaynaqlanan gərginlik aradan qalxsa da, Sovet İttifaqı və Yuqoslaviyada hadisələrin nəzarətdən çıxması göstərdi ki, Avropada sabitlik üçün yeni təhlükələr meydana gəlmişdir. Buna görə də, geri çəkilmək bağışlanmaz bir səhv olardı;
- Avrasiya materikinə tam nəzarət etmək üçün Qərb blokunun əlinə çox unikal bir şans düşmüşdür. Bu şansı əldən vermək olmazdı;
- Alyansın buraxılması Avropa və Amerika qitələri arasında yaranmış bağın qırılmasına gətirib çıxara bilər. Halbuki, amerikalıların Avrasiyadakı siyasi və hərbi iştirakı Avropa dövlətləri arasında hakimiyyət və nüfuz uğrunda dərin tarixi kökləri olan mübarizənin qarşısını alan əsas amillərdən biridir. Həm Aİ, həm də Qərbi Avropa İttifaqı təhlükəsizlik təmin olunmasa və bu təhlükəsizlik üçün etibarlı təminat olmasaydı ümumavropa inteqrasiyasını təmin edə bilməzdilər və bu gün də bu belədir - Aİ nə qədər sıx və güclü bir qurum olsa da, hələlik ABŞ olmadan təhlükəsizliyi təmin etmək və böhranları həll etmək iqtidarında deyil;



- Post-kommunist məkanında yaranmış etnik və dövlətlərarası *münaqişələrin* həll edilməsi və *yenilərinin* meydana çıxmasının qarşısının vaxtında alınması üçün effektiv mexanizmə ehtiyac yaranmışdı. Bu qəbildən olan münaqişələr Avropada sabitlik üçün əsas təhlükə mənbəyinə çevrildiyi üçün NATO sülhyaratma funksiyasını üzərinə götürmək məcburiyyəti qarşısında qalırdı. Bu aspektdən də baxanda görürük ki, NATO-nun hərbi mövcudluğu zərurətə çevrilmişdi.

ABŞ hökuməti ölkə daxilində NATO-nun və ona ayrılan vəsaitin zəruriliyini əsaslandırarkən yuxarıdakılara əlavə olaraq ABŞ-ın qlobal liderlik iddialarından və milli maraqların müdafiəsi haqqında mülahizələrdən ictimai şüurun manipulyasiyasında gen-bol istifadə edirdi.

NATO-nun zəruriliyini əsaslandırmaq hələ onun xilasına nail olmaq demək deyildi. NATO-nun yeni şəraitə adaptasiya olması üçün müəyyən hüquqi mexanizmlərə, ilk növbədə, elmi konsepsiyalara əsaslanan strategiyaya ehtiyac var idi. Tezliklə mütəxəssislər işə cəlb olundu və NATO-nun inkişaf strategiyası, onun əsasında isə islahat planı hazırlandı.

Tədqiqatın gedişində NATO-nun inkişaf strategiyasının iki əsas istiqamətinə

xüsusi olaraq diqqət yetirilmişdir: qloballaşma və universallaşma.

Qloballaşma strategiyası (yaxud qlobal strategiya) NATO-nun genişlənməsini nəzərdə tutur. Burada həm fiziki cəhətdən genişlənmədən (yeni üzvlərin qəbulu), həm də təşkilatın nüfuz dairəsinin genişlənməsindən söhbət gedir.

Alyansa yeni üzvlərin qəbulu mərhələlərlə həyata keçir. Artıq təşkilatın tamhüquqlu üzvlərinin sayı 28-ə çatıb. Lakin bu proses heç də hamı tərəfindən alqışla qarşılanmır. Transatlantizm fəlsəfəsinə ənənəvi olaraq müxalif mövqedə duran Rusiya ilə yanaşı, Belarus Respublikası, İran və digər dövlətlər də bunu arzuolunmaz hal hesab edirlər.

Təşkilatın nüfuz dairəsinin genişlənməsi müxtəlif əməkdaşlıq formatları və qeyri-ənənəvi vasitələrlə həyata keçirilir.

Əməkdaşlıq formatları dedikdə, Alyansın üzvü olmayan ölkələrlə əməkdaşlıq proqramları nəzərdə tutulur. Bu, son illərdə çox populyar bir mövzudur. Belə ki, NATO qeyri-üzv dövlətləri (tərəfdaşları) Sülh Naminə Tərəfdaşlıq Proqramı, (SNT), Aralıq dənizi dialoqu, Şimali Atlantika Tərəfdaşlıq Şurası, NATO-Rusiya və NATO-Ukrayna şuraları çərçivəsində əməkdaşlığa cəlb edir. Bununla da həmin ölkələrin mövqeyinə təsir edir, müəyyən sahələr üzrə birgə fəaliyyət təşkil edir, informasiya və təcrübə mübadiləsini həyata keçirir.

Bunlardan ilk üçü – SNT, Aralıq dənizi dialoqu və Şimali Atlantika Tərəfdaşlıq Şurası haqqında kitabda geniş bəhs olunur.



NATO-nun öz nüfuz dairəsini genişləndirmək istədiyi ikinci mühüm istiqamət, beynəlxalq hüquq prizmasından baxdıqda qeyri-ənənəvi hesab olunan NATO ərazisindən kənarda fəaliyyət sərbəstliyinə nail olmaqdır. Bu, təşkilatın, dünyanın istənilən regionunda baş verən hadisəyə, əgər NATO-nun maraqları bunu tələb edirsə, BMT-nin icazəsi, yaxud mandatı olmadan sərbəst müdaxilə imkanını nəzərdə tutur.

Qeyd edək ki, NATO bu təcrübəni artıq ötən əsrin 90-cı illərində, keçmiş Yuqoslaviyada tətbiq edib. İndi əsas məsələ bunu hüquqi müstəviyə daşımaqdır. Bu təşəbbüs əgər reallaşarsa və hüquqi müstəvidə həll olunarsa, tam əminliklə deyə bilərik ki, müasir beynəlxalq münasibətlər sistemində inqilabi dəyişiklik baş verə bilər. Çünki bu halda, çox güman ki, digər təşkilatlar və ölkələr də analoji üstünlüyə nail olmağa çalışacaqlar. Beynəlxalq təhlükəsizlik sisteminin bu perspektivi bir çox tədqiqatçılar kimi, bizi də çox narahat edir. 2011-ci ildə Liviyada baş verənlər və NATO-nun BMT-nin mandatından kənara çıxması dediklərimizə əyani misaldır.

NATO-nun universallaşma strategiyası əslində çoxdan mövcuddur. Bilindiyi kimi, NATO hərbi-siyasi alyans (ixtisaslaşmış təşkilat) olaraq yaradılmışdır. Bu gün də bu istiqamət, eləcə də təhlükəsizlik məsələləri təşkilatın əsas fəaliyyət sahəsi hesab olunur. Lakin ötən əsrin 50-ci illərindən etibarən NATO digər sahələrdə (iqtisadiyyat, elm, təhsil, ətraf mühit, fövqəladə hallar, insan hüquqları, demokratiya və s.) də əməkdaşlığa maraq göstərir. Təşkilatın müvafiq strukturları (komitələri) yaradılmış və onlar öz səlahiyyətləri çərçivəsində müttəfiq və tərəfdaş ölkələr arasında əməkdaşlığı təşviq edirlər.

NATO-nun universallaşma strategiyası təşkilatın manevr imkanlarını genişləndirir. Belə ki, bəzi hallarda xeyli vəsait tələb edən hərbi vasitələr problemin həlli üçün kifayət etmir, qeyri-hərbi vasitələrindən istifadə etmək tələb olunur. Bu yolla həm vəsaitə qənaət etmək mümkün olur, ən əsası isə, insan itkisinin qarşısı alınmış olur.

Qeyri-hərbi sahələrdə əməkdaşlıq xalqlar, insanlar arasında anlaşma mühiti yaradır və beynəlxalq təhlükəsizlik üçün etibarlı zəmin formalaşdırır. Lakin NATO çərçivəsində aparılan bu siyasət təkqütblü dünya sisteminin formalaşmasına xidmət edir. Təkqütblü sistem isə, ümumbəşəri demokratik dəyərlərə ziddir və dünyada ciddi narazılıqla qarşılanır.

Balanslaşdırılmış xarici siyasət xətti yürüdən Azərbaycan Respublikası öz imkanlarını nəzərə alaraq mövcud beynəlxalq vəziyyətə adekvat mövqe nümayiş etdirir. Avrotlantika strukturlarına inteqrasiya məqsədini qarşıya qoymuş ölkəmiz NATO ilə əməkdaşlığa böyük əhəmiyyət verir. Təşkilatla ilk rəsmi əlaqəmiz 1992-ci ildə yaranmış, ötən illər ərzində bu sahədə müəyyən uğurlar əldə edilmiş, əməkdaşlığın xeyli inkişaf etdirilməsi mümkün olmuşdur. 1994-cü ilin mayında ölkəmizin «Sülh Naminə Tərəfdaşlıq» proqramına qoşulması Alyansla əməkdaşlıq sahəsində qarşımızda geniş perspektivlər açmışdır.

Qeyd edək ki, Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı milli dövlətçilik maraqlarımızdan qaynaqlanır və bu əlaqələr konkret məqsədlərə istiqamətlənmişdir:

- Hərbi-siyasi idarəetmə və təhlükəsizlik sahəsində daha zəngin təcrübəyə malik NATO ölkələri ilə təcrübə mübadiləsi;



- Hərbi və qeyri-hərbi sahələrdə islahatların aparılması üçün maddi-texniki dəstək;
- Silahlı Qüvvələrin və güc (təhlükəsizlik) strukturlarının döyüş hazırlığının, peşəkarlıq səviyyəsinin yüksəldilməsi;
- Ölkənin təhlükəsizliyinin və maraqlarının təmin olunması üçün daha etibarlı zəmanət və şərait yaradılması (NATO çətiri);
- Demokratik islahatların uğurla aparılması üçün Qərb dövlətləri ilə təcrübə mübadiləsi və s.

Kitabda NATO-nun Cənubi Qafqazda rolu, eləcə də NATO-Azərbaycan əməkdaşlığının müxtəlif məqamları, regionda güclü, dərin tarixi köklərə malik maraqlarını qorumağa çalışan Rusiya və İranın Alyansın Cənubi Qafqazdakı mövcudluğuna münasibəti geniş təhlil olunur.

Bütün bu yanaşmaları ümumiləşdirib, aşağıdakı nəticələrə gələ bilərik:

- NATO Qərb dəyərlərinin təhlükəsizliyinin (o cümlədən ABŞ-ın maraqlarının) qorunması məqsədilə yaradılmışdır. Effektiv fəaliyyət nəticəsində qarşısına qoyulmuş vəzifələrin öhdəsindən uğurla gələn Alyans təhlükəsizlik sahəsində fəaliyyət göstərən analoji birliklərdən fərqli olaraq özünü doğrultmuşdur;
- Öz mövcudluğunun zəruriliyini əsaslandıraraq NATO sosializm sistemi dağıldıqdan sonra üzləşdiyi sınaqdan da uğurla çıxmış və islahatlar yolu tutmuşdur. Yeni şəraitə uyğunlaşmaq məqsədinə xidmət edən strategiyanın iki əsas istiqaməti diqqətimizi cəlb edir: NATO-nun qloballaşması («Qlobal NATO» – təşkilatın fiziki və nüfuz baxımından genişlənməsi) və

universallaşma – təşkilatın fəaliyyət sahəsinin genişlənməsi.

- NATO-da baş verən dəyişikliklər son nəticədə beynəlxalq təhlükəsizlik sistemində ciddi dəyişikliklərlə nəticələnəcək. Buna görə də, hadisələrə kənardan müşahidəçi yox, içərisində yetişərək yeni şəraitə uğurla adaptasiya olmaq üçün Azərbaycan Respublikası Avrotlantika məkanına inteqrasiya siyasətinə sadiq qalmalı, xüsusilə də, NATO ilə əməkdaşlığın inkişafını diqqət mərkəzində saxlamalıdır;
- Avrotlantika strukturlarına uğurla inteqrasiya etmək üçün ölkədə zəruri hüquqi baza yaradılmalı, ilk növbədə ictimai rəyə rasional təsir göstərilməlidir ki, cəmiyyət yaranmaqda olan yeni şəraitə, dövlətin bu şəraitdə tutacağı mövqeyə ideoloji və psixoloji baxımdan hazır olsun və dövlətə lazımi kömək göstərə bilsin;
- Elmi-tədqiqat institutlarında və ali təhsil müəssisələrində müvafiq istiqamət üzrə tədqiqatların aparılmasına, tədrisin təşkil olunmasına diqqət göstərilməli, dövlət qulluğu sistemi, xüsusilə də güc strukturları, silahlı qüvvələr, ölkənin təhlükəsizlik sistemi avratlantika strukturlarına qoşulmağa hazır vəziyyətə gətirilməlidir.



**Əlavə 1.**

**Şimali Atlantika Müqaviləsi Təşkilatı**
**Vaşinqton, Kolumbiya Federal dairəsi,**
**4 aprel 1949**

Müqavilənin Tərəfləri Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinin məqsəd və prinsiplərinə inamlarını və bütün xalqlar və hökumətlərlə sülh şəraitində yaşamaq niyyətini bir daha təsdiqləyirlər.

Onlar demokratiya, fərdi azadlıq və qanunun aliliyi prinsipləri əsasında qurulmuş öz xalqlarının azadlığını, mədəni irsini və sivilizasiyasını müdafiə etmək əzmindədirlər.

Onlar Şimali Atlantika bölgəsində sabitliyin və rifahın yaradılması məqsədini güdürlər.

Onlar kollektiv müdafiə və sülh və təhlükəsizliyin qorunub saxlanılması üçün öz səylərini birləşdirməyi qərara alıblar. Buna görə onlar bu Şimali Atlantika Müqaviləsinə dair razılığa gəlirlər:

**Maddə 1**

Tərəflər, Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində müəyyən olunduğu kimi, beynəlxalq sülh və təhlükəsizliyə və ədalətə təhlükə törətmədən, cəlb oluna biləcəkləri hər hansı beynəlxalq münaqişələri sülh yolu ilə nizamlamağa və öz beynəlxalq münasibətlərində Birləşmiş Millətlər Təşkilatının məqsədləri ilə ziddiyyət törədən hər hansı halda təhdid və ya gücdən istifadə etməkdən çəkinməyə öhdəlik götürürlər.

**Maddə 2**

Tərəflər, özlərinin azad institutlarını gücləndirərək, bu institutların əsasını təşkil edən prinsiplərin daha yaxşı anlaşılmasına nail olmaq və sabitlik və rifah üçün şərait yaradaraq sülhpərvər və dost beynəlxalq münasibətlərin daha da inkişaf etdirilməsinə töhfə verəcəklər. Onlar öz beynəlxalq iqtisadi münasibətlərində münaqişələrin qarşısını almağa çalışacaq və onlardan hər hansı biri və ya hamısı arasında iqtisadi əməkdaşlığı dəstəkləyəcəklər.

**Maddə 3**

Hazırkı Müqavilənin məqsədlərinin daha təsirli yerinə yetirilməsi üçün Tərəflər, ayrıca və birlikdə, davamlı və effektiv özünə yardım və qarşılıqlı dəstək vasitəsilə, silahlı hücumlara müqavimət göstərmək üçün fərdi və kollektiv imkanlarını inkişaf etdirəcəklər.

**Maddə 4**

Tərəflərdən hər hansı birinin fikrinə görə, nə vaxt ki, onlardan hər hansı birinin ərazi bütövlüyü, siyasi müstəqilliyi və ya təhlükəsizliyi təhdid olunarsa, Tərəflər birlikdə məsləhətləşəcəklər.

**Maddə 5**

Tərəflər razılaşır ki, Avropa və yaxud Şimali Amerikada onlardan birinə və ya bir neçəsinə qarşı silahlı hücum onların hamısına qarşı hücum kimi qəbul edilməlidir; və müvafiq olaraq razılaşırlar ki, əgər bu cür hücum baş verərsə, onlardan hər biri, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsində təsbit olunmuş fərdi və ya kollektiv özünümüdafiə hüququnu



həyata keçirərkən, fərdi və digər Tərəflərlə birlikdə, Şimali Atlantika bölgəsində təhlükəsizliyi bərpa etmək və qoruyub saxlamaq üçün hərbi gücdən istifadə də daxil olmaqla, lazım olan tədbirləri həyata keçirməklə hücuma məruz qalmış Tərəf və ya Tərəflərə dəstək verəcəklər.

Hər hansı belə bir silahlı hücum və bunun nəticəsi olaraq görülən bütün tədbirlər dərhal Təhlükəsizlik Şurasına məruzə edilməlidir. Belə tədbirlər, Təhlükəsizlik Şurası beynəlxalq sülhün və təhlükəsizliyin bərpası və qorunması üçün lazım olan tədbirlər gördükdə dayandırılmalıdır.

**Maddə 6**[1]

Beşinci maddənin məqsədinə uyğun olaraq, Tərəflərdən birinə və yaxud bir neçəsinə qarşı silahlı hücum Avropa və yaxud Şimali Amerikada Tərəflərdən hər hansı birinin ərazisinə, Fransanın Əlcəzair departamentlərinə[2], Tərəflərdən hər hansı birinin Avropadakı işğalçı qüvvələrinə, Şimali Atlantika bölgəsində Şimal tropikindən şimalda Tərəflərdən hər hansı birinin yurisdiksiyası altında olan adalara və yaxud bu ərazilərdən Tərəflərdən hər hansı birinin gəmilərinə və ya təyyarələrinə silahlı hücumu da özündə ehtiva etməlidir.

---

[1] 6-cı maddəyə Yunanıstan və Türkiyənin üzvlüyə qəbulu ilə bağlı Şimali Atlantika Müqaviləsinə əlavə Protokolun 2-ci maddəsi ilə düzəliş edilmişdir.

[2] 1963-cü il yanvarın 16 da Şimali Atlantik Şura öz qərarı çərçivəsində CR (63)2 maddə V ilə Fransanın Əlcəzair departamentinin müstəqilliyini qəbul etdi

**Maddə 7**

Hazırkı Müqavilə Birləşmiş Millətlər Təşkilatının üzvləri olan Tərəflərin Nizamnamə çərçivəsində hüquq və öhdəliklərinə, və yaxud beynəlxalq hüquq və təhlükəsizliyin qorunmasında Təhlükəsizlik Şurasının əsas məsuliyyətinə təsir etmir və bu cür şərh olunmamalıdır.

**Maddə 8**

Hər bir Tərəf bəyan edir ki, onun və digər Tərəflərdən hər hansı biri və yaxud üçüncü bir dövlət ilə arasında hazırda qüvvədə olan heç bir beynəlxalq öhdəlik bu Müqavilənin müddəaları ilə ziddiyyətdə deyil, və bu Müqavilə ilə ziddiyyətdə olan heç bir beynəlxalq öhdəliyə qoşulmamaq öhdəliyi götürür.

**Maddə 9**

Tərəflər bununla bu Müqavilənin yerinə yetirilməsi ilə bağlı məsələləri nəzərdən keçirmək üçün hər birinin təmsil olunacağı şura yaradırlar. Bu şura elə təşkil olunmalıdır ki, təcili olaraq istənilən zaman görüş keçirmək mümkün olsun. Bu şura lazım olduğu təqdirdə, alt qurumlar, xüsusilə də 3-cü və 5-ci maddələrin yerinə yetirilməsinə dair məsləhətlər verəcək müdafiə komitəsinin təcili olaraq təsis etməlidir.

**Maddə10**

Tərəflər, ümumi razılaşmalar əsasında, bu Müqavilənin prinsiplərini daha da yaymaq və Şimali Atlantika bölgəsinin təhlükəsizliyinə töhfə vermək üçün hər hansı bir digər Avropa dövlətini bu Müqaviləyə qoşulmağa dəvət edə bilərlər. Dəvət olunmuş istənilən dövlət qoşulma vasitəsini Amerika Birləşmiş Ştatları Hökuməti



ilə depozitə edərək bu Müqaviləyə tərəf ola bilər. Amerika Birləşmiş Ştatları Hökuməti Tərəflərin hər birini hər bir qoşulma vasitəsi barədə xəbərdar edəcəkdir.

**Maddə11**

Bu Müqavilə ratifikasiya olunmalı və tərəflərin konstitusional strukturlarına çıxarılmalıdır. Ratifikasiya məsələsi ABŞ dövləti ilə eyni zamanda bütün dövlətlərlə razılaşdırılmalıdır. Müqavilə çoxluq tərəfindən (Belçika, Kanada, Fransa, Lüksemburq, Niderland, Birləşmiş Krallıq və ABŞ) ratifikasiya olunduqdan sonra başqa dövlətlərə hörmətlə yanaşaraq, ratifikasiya olunan gün qüvvəyə minə bilər.

**Maddə12**

Müqavilə on il qüvvədə olduqdan sonra və ya bundan sonra istənilən zaman, Tərəflər, əgər hər hansı biri sorğu edərsə, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində beynəlxalq sülh və təhlükəsizliyin qorunması üçün ümumdünya, həmçinin regional qurumların inkişafı da daxil olmaqla, Şimali Atlantika bölgəsində sülhə və təhlükəsizliyə təsir edən faktorları nəzərə alaraq, Müqaviləni nəzərdən keçirmək məqsədilə məsləhətləşməlidirlər.

**Maddə13**

Müqavilə 20 il müddətinə qüvvədə olduqdan sonra hər hansı bir Tərəf Amerika Birləşmiş Ştatları Hökumətinə denonsasiya haqqında bildirişi təqdim etməsindən bir il sonra Müqavilədən çıxa bilər ki, Amerika Birləşmiş Ştatları Hökuməti də digər Tərəflərin hökumətlərini hər bir denonsasiya haqqında depozit barədə məlumatlandıracaqdır.

**Maddə14**

Hazırkı Müqavilə, hansının ki, ingilis və fransız mətnləri eyni qüvvəyə malikdir, Amerika Birləşmiş Ştatları Hökumətinin arxivlərində saxlanılmalıdır. Müvafiq şəkildə rəsmiləşdirilmiş surətləri bu Hökumət tərəfindən Müqaviləni imzalayan digər Hökumətlərə göndəriləcəkdir.



**Əlavə 2.**

**NATO-ya üzv ölkələr və onların Alyansa birləşdirilməsi tarixi**

1. Amerika Birləşmiş Ştatları - 4 aprel 1949-cu il, təsisçi ölkə
2. Belçika Krallığı – 4 aprel 1949-cu il, təsisçi ölkə
3. Böyük Britaniya və Şimali İrlandiya Krallığı – 4 aprel 1949-cu il, təsisçi ölkə
4. Danimarka krallığı - 4 aprel 1949-cu il, təsisçi ölkə
5. Fransa Respublikası - 4 aprel 1949-cu il, təsisçi ölkə. 1966-cı ildən Fransa NATO-nun hərbi təşkilatından çıxmış, lakin Alyansın siyasi strukturlarının işində iştirakda davam etmişdir. 2009-cu ildən yenidən NATO-nun tamhüquqlu üzvüdür.
6. İslandiya Respublikası - 4 aprel 1949-cu il, təsisçi ölkə
7. İtaliya Respublikası - 4 aprel 1949-cu il, təsisçi ölkə
8. Kanada - 4 aprel 1949-cu il, təsisçi ölkə
9. Lüksemburq Böyük Hersoqluğu - 4 aprel 1949-cu il, təsisçi ölkə
10. Niderland Krallığı - 4 aprel 1949-cu il, təsisçi ölkə
11. Norveç Krallığı - 4 aprel 1949-cu il, təsisçi ölkə
12. Portuqaliya Respublikası - 4 aprel 1949-cu il, təsisçi ölkə
13. Yunanıstan Respublikası – 18 fevral 1952-ci il. Türkiyənin Şimali Kipri tutması səbəbindən Yunanıstan 1974-cü ildən 1980-ci ilə qədər NATO-nun hərbi təşkilatından çıxmışdır.
14. Türkiyə Respublikası – 18 fevral 1952-ci il

15. Almaniya Federativ Respublikası – 6 may 1955-ci il
16. İspaniya Krallığı – 30 may 1982-ci il
17. Çexiya Respublikası – 12 mart 1999-cu il
18. Macarıstan Respublikası – 12 mart 1999-cu il
19. Polşa Respublikası – 12 mart 1999-cu il
20. Bolqarıstan Respublikası – 2 aprel 2004-cü il
21. Estoniya Respublikası – 2 aprel 2004-cü il
22. Latviya Respublikası – 2 aprel 2004-cü il
23. Litva Respublikası – 2 aprel 2004-cü il
24. Rumıniya – 2 aprel 2004-cü il
25. Slovakiya Respublikası – 2 aprel 2004-cü il
26. Sloveniy Respublikası – 2 aprel 2004-cü il
27. Albaniya Respublikası – 1 aprel 2009-cu il
28. Xorvatia Respublikası – 1 aprel 2009-cu il



## Istifadə olnimuş ədəbiyyat və informasiya resursları

### Azərbaycan dilində

1. Abdullayev. Ə., Əhmədov X. Terrorizm və beynəlxalq cinayətkarlıq . Bakı: BDU nəşriyyatı, 2003, 168 s.

2. Abdullayev M.İ. Beynəlxalq münasibətlər tarixi. Bakı: 2003, 504 s.

3. Adıgözəlov, K. Müasir beynəlxalq münasibətlərdə NATO amili //Azərbaycan qəz., 17 iyul, 2004-cü il.

4. Arif Q. Azərbaycan-NATO əməkdaşlığı sürətlə inkişaf edir //Xalq qəz., 20 iyun, 2004-cü il

5. Avropa İttifaqı Cənubi Qafqaza və ümumilikdə «Şərq Tərəfdaşlığı»na böyük diqqət ayıracaq. http://www.avciya.az/news/inthecountry/print:page,12940-avropa -304ttifaq305-c601nubi-qafqaza.html

6. Avropa İttifaqının genişləndirmə və Avropa Qonşuluq Siyasəti məsələləri üzrə komissarı Ştefan Fülenin Azərbaycana səfəri başlayıb.

http://www.infoaz.eu/index.php?option=com_content&view=article&id=280:avropa-ttifaqn-genilndirm- v-avropa-qonuluq-siyasti-msllri-uezr-komissar-tefan-fuelenin-azrbaycana-sfri-bal ayb&catid=17:siyaset

7. Azərbaycan antiterror mübarizəsinin ən fəal üzvlərindən biridir: NATO baş katibinin mətbuat konfransı: Corc Robertsonun //Azərbaycan qəz., 16 may, 2003-cü il

8. Azərbaycan Beynəlxalq aləmdə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin 1995-1996-cı illərdə xarici ölkələrə səfərlərinə dair materiallar: / tərt.:

E. Abdullayev, F. Muradov./ I cild, Bakı: Göytürk, 1997, 761 s.
9. Azərbaycan fərdi tərəfdaşlıq üzrə Fəaliyyət Planının ikinci mərhələsinin yerinə yetirilməsində də yüksək nəticələr əldə edəcəkdir: Müdafiə Nazirliyində Səfər Əbiyevlə NATO baş katibinin Cənubi Qafqaz və Orta Asiya üzrə xüsusi nümayəndəsi Robbert Simmonsun görüşü haqqında //Azərbaycan qəz., 28 iyun, 2008-ci il
10. Azərbaycanlı hərbçilər NATO ilə əməkdaşlıq və ikitərəfli sazişlər çərçivəsində tədbirlərdə iştirak edəcəklər. http://www.interfax.az/az/index.php?option=com_ content&task=view&id=34962&İtemid=9. 01.04.2009,
11. Azərbaycan hərbiçiləri NATO-nun tədbirlərində iştirak edirlər //Azərbaycan qəz., 20 may, 2008-ci il
12. Azərbaycan hərbiçilərinin fəaliyyəti NATOnun baş katibi tərəfindən yüksək qiymətləndirilmişdir //Azərbaycan qəz., 19 mart, 2004-cü il
13. Azərbaycan-İran münasibətləri. http://library.aliyev-heritage.org/print.php?lang= az&page=6163780
14. Azərbaycan Milli Elmlər Akademiyasında görüş olmuşdur: NATO Parlament Assambleyasının Beynəlxalq Böhran qrupunun Qafqaz layihəsi üzrə direktoru xanım Səbinə Freyzer ilə görüşmüşdür //Azərbaycan qəz., 3 dekabr, 2004-cü il
15. Azərbaycan-Nato münasibətləri http://www.mfa.gov.az
16. Azərbaycan-NATO əlaqələri. http://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan% E2%80%93NATO_%C9%99laq%C9%99l%C9%99ri



17. Azərbaycan-NATO məsləhətləşmələri olub. http://www.voanews.com/azerbaija ni/news/Azrbaycan-NATO-mslhtlmlri-olub-104286674.htm
18. Azərbaycan NATO ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir: Azərbaycan Prezidenti Heydər Əliyev NATO Parlament Assambleyasının rəhbərlərini qəbul etmişdir // Azərbaycan qəz., 19 yanvar, 2002-ci il
19. Azərbaycan NATO ilə əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır: [Xarici İşlər naziri Elmar Məmmədyarovla Azərbaycanda səfərdə olan NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Robbert Simmonsun görüşü haqqında] //Azərbaycan qəz., 28 iyun, 2008-ci il
20. Azərbaycan NATO ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə tərəfdardır: Azərbaycan Prezidenti Heydər Əliyev NATO Baş katibinin muavinini qəbul etmişdir // Azərbaycan qəz., 8 may, 2002-ci il
21. Azərbaycan NATO ilə sıx əməkdaşlıq edir//Azərbaycan qəz., 4 fevral, 2004-cü il
22. Azərbaycan Silahlı Qüvvələrinin nümayəndələri NATO-nun tədbirlərində iştirak edirlər: [Qara dəniz bölgəsində regional təhlükəsizlik üzrə seminar]//Azərbaycan qəz., 7 dekabr, 2004-cü il.
23. Azərbaycanın NATO-ya üzv olması üçün problem yoxdur: Zbiqnev Bjezinski ölkəmizin bu quruma üzvlüyünü real hesab edir //Azərbaycan qəz., 28 noyabr, 2002-ci il.
24. Azərbaycan Prezidenti Heydər Əliyevin və NATO-nun Baş katibi Xavyer Solananın görüşü və danışıqları //Azərbaycan qəz. 14 fevral, 1997-ci il

25. Azərbaycan Prezidenti Heydər Əliyevin və NATO-nun baş katibi Xavyer Solananın təkbətək görüşü //Azərbaycan qəz., 1 oktyabr, 1998-ci il
